# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ƏLLİ DÖRDÜNCÜ KİTAB

## NOYABR 2012 - FEVRAL 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının İsveçrədə keçirilən ənənəvi Davos Dünya İqtisadi Forumunda etdiyi çıxışları, həmçinin Sinqapura səfəri zamanı ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsinə dair materiallar toplanmışdır.

Bu cilddə eyni zamanda, dövlət başçısının bölgələrə səfərləri zamanı regionlarda mövcud problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilən sosial proqramların icrasına, abadlıq-quruculuq işləri ilə tanışlığına və bölgə ictimaiyyəti ilə görüşlərinə, mədəni-məişət, sosial-sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar, habelə ölkəmizə səfərə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri və xarici ölkələrin kütləvi informasiya vasitələrinə müsahibələri də verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## BMT-nin ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ ANTONİUS BROEK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Antonius Broeki qəbul etmişdir.*

*BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Antonius Broek etimadnamə məktubunu dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında geniş fəaliyyətinə toxunan Antonius Broek təmsil etdiyi təşkilatla ölkəmiz arasında mövcud olan uğurlu əməkdaşlığa görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.*

*Azərbaycan ilə BMT arasında fəal əməkdaşlığın uğurla davam etdiyini vurğulayan prezident İlham Əliyev bu əlaqələrin ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv olduqdan sonra səmərəli şəkildə daha da genişləndiyini dedi və Azərbaycanın beynəlxalq təhlükəsizliyə və əməkdaşlığa öz töhfəsini verdiyini qeyd etdi. Azərbaycan–BMT əlaqələrinin uzun tarixə malik olduğunu vurğulayan prezident İlham Əliyev Antonius Broekin ölkəmizdəki fəaliyyəti dövründə də əlaqələrimizin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

«Sendi» qasırğasının doğurduğu çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca sarsıtdı.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2012-ci il*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ, AZƏRBAYCAN – RUSİYA PARLAMENTLƏR-ARASI KOMİSSİYASININ HƏMSƏDRİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədr müavini, Azərbaycan–Rusiya Parlamentlərarası komissiyasının həmsədri xanım Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı bu münasibətlərin möhkəmlənməsində parlamentlərarası əlaqələrin rolunu diqqətə çatdırdı. Prezident İlham Əliyev əməkdaşlığın daha da genişləndirilməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin önəmini vurğuladı.*

*Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədr müavini xanım Svetlana Orlova Azərbaycan–Rusiya Parlamentlərarası komissiyasının fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi. Azərbaycana sonuncu səfərindən ötən dövr ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu deyən Svetlana Orlova bu inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə daha da genişləndirilməsi ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN BEYNƏLXALQ KOMMUNİKASİYA VƏ İNFORMASİYA SİYASƏTİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ FİLİP VERVEYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də ABŞ Dövlət Departamentinin Beynəlxalq kommunikasiya və informasiya siyasəti üzrə əlaqələndiricisi Filip Verveyerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycanın beynəlxalq tədbirlər keçirməkdə böyük təcrübəyə malik olduğunu qeyd edən prezident İlham Əliyev BMT-nin Azərbaycan hökuməti ilə birgə təşkil etdiyi VII İnternet İdarəçilik Forumunun Bakıda keçirilməsini ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafına yaradılan şəraitin göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı informasiya və kommunikasiya texnologiyaları sektorunun artıq Azərbaycanda prioritet sahələrdən birinə çevrildiyini vurğuladı.*

*ABŞ Dövlət Departamentinin Beynəlxalq kommunikasiya və informasiya siyasəti üzrə əlaqələndiricisi Filip Verveyer VII İnternet İdarəçilik Forumunun təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını ifadə etdi. Forumun ölkəmizdə keçirilməsinin əhəmiyyətini vurğulayan Filip Verveyer tədbirdə ABŞ-dan bir çox rəsmi şəxslərin iştirak edəcəyini bildirdi.*

## HİNDİSTAN RESPUBLİKASININ KOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ KAPİL SİBALIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Hindistan Respublikasının Kommunikasiya və İnformasiya Texnologiyaları naziri Kapil Sibalın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Kapil Sibal Hindistan prezidenti Pranab Mukhercinin və Baş nazir Manmohan Sinqhin salamlarını dövlətimizin başçısına çatdırdı. Bakıda keçirilən VII İnternet İdarəçilik Forumunda iştirakından məmnunluğunu bildirən hindistanlı qonaq tədbirin yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

*Kapil Sibal Azərbaycan prezidentinin rəhbərliyi ilə son illər ölkəmizin əldə etdiyi böyük uğurların onlarda dərin təəssürat yaratdığını dedi. Nazir informasiya və kommunikasiya texnologiyaları sektorunda ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın Hindistan ilə müxtəlif istiqamətlərdə, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu dedi. Ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin yaradıldığını vurğulayan prezident İlham Əliyev bu münasibətlərin genişlənməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı prezident Pranab Mukhercinin və Baş nazir Manmohan Sinqhin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Hindistanın prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## ÜMUMDÜNYA İNTERNET KORPORASİYASININ PREZİDENTİ FADİ ŞEHADE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də internetin ünvan məkanını idarə edən Ümumdünya İnternet Korporasiyasının prezidenti Fadi Şehadeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı internetin ünvan məkanını idarə edən Ümumdünya İnternet Korporasiyasının prezidenti Fadi Şehadenin VII İnternet İdarəçilik Forumunda iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev forumun Bakıda təşkil olunmasını Azərbaycanın bu sahədə əldə etdiyi uğurların yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə azad internetin fəaliyyətinə xüsusi diqqət verildiyini vurğuladı.*

*Ümumdünya İnternet Korporasiyasının prezidenti Fadi Şehade Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsində əldə edilən uğurları yüksək qiymətləndirdi.*

## VII İNTERNET İDARƏÇİLİK FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Sizi – BMT və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən VII İnternet İdarəçilik Forumunun iştirakçılarını böyük məmnuniyyətlə salamlayıram.

İnternet bu gün təkcə informasiya mübadiləsi məkanı deyil, həmçinin dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələri əhatə edən, yeni dəyərlər yaradan mühitdir.

İnsan azadlıqlarının qorunması müasir internet şəbəkəsinin vacib fəaliyyət istiqamətlərindən biridir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığı, sosial şəbəkələrin genişlənməsi, hökumətin açıq və şəffaf fəaliyyətinin təmin olunması, vətəndaşların idarəçilik proseslərinə cəlb edilməsi qlobal şəbəkənin insanlara verdiyi yeni imkanlardır.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının və internetin inkişafına xüsusi diqqət yetirilir. Respublika əhalisinin təxminən 65 faizi internet istifadəçisidir, ölkəmizdə ən yeni texnologiya – «4G» artıq tətbiq edilir.

Təqdirəlayiq haldır ki, Azərbaycanda internet azadlığı mövcuddur. Ölkəmizdə internet-radio və internet-televiziya proqramları, elektron qəzet və jurnallar, xarici və daxili sosial şəbəkələr geniş yayılıb. Minlərlə bloqqer Azərbaycanın internet məkanında sərbəst fəaliyyət göstərir.

Biz internetin insanlar və xalqlar arasında dostluq əlaqələrinin yaranmasına, bərabərhüquqlu qarşılıqlı hörmət əsasında münasibətlərin qurulmasına yönəlmiş istənilən xoşməramlı fəaliyyətini dəstəkləyirik.

Sizə forumun işində uğurlar arzulayıram. İnanıram ki, forumunuz qlobal inkişafa öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 noyabr 2012-ci il*

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ VU HONQBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də BMT Baş katibinin müavini Vu Honqbonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*BMT Baş katibinin müavini Vu Honqbo Baş katib Pan Gi Munun salamlarını dövlətimizin başçısına çatdırdı. O, BMT ilə Azərbaycan arasında əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğuladı. Vu Honqbo 2012–2013-cü illər ərzində Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə prezident İlham Əliyevi təbrik etdi. Vu Honqbo Azərbaycan hökumətinin informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət göstərməsini və ölkəmizin bu sahədə regionun liderinə çevrilməsini yüksək qiymətləndirdi. O, VII İnternet İdarəçilik Forumunun yüksək səviyyədə təşkil olunmasına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaq BMT «Elektron hökumət» layihələrində Azərbaycanın fəal iştirakının önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev BMT Baş katibinin müavini Vu Honqbonun Bakıda təşkil olunan VII İnternet İdarəçilik Forumunda iştirakının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sektorunun prioritet sahələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi zaman Baş katiblə Nyu-Yorkdakı son görüşünü məmnunluqla xatırlatdı.*

*Müstəqilliyimizin 20-ci ildönümündə güclü beynəlxalq dəstəklə ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsinin önəmini vurğulayan dövlətimizin başçısı Azərbaycanın 2013-cü*

*ildə də sülhün, təhlükəsizliyin və dostluğun təşviqi işində fəal rol oynayacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə BMT arasında əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı Pan Gi Munun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını BMT Baş katibinə çatdırmağı xahiş etdi.*

## «BAKUTEL–2012» XVIII AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*6 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 6-da Bakı Sərgi Mərkəzində «Bakutel–2012» XVIII Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşlar.*

*«Bakutel» sərgisi Xəzər və Qafqaz regionlarında telekommunikasiya, o cümlədən informasiya texnologiyaları sahəsində ən böyük tədbirdir. Artıq 18-ci dəfədir baş tutan «Bakutel» sərgisi keçirildiyi illər ərzində telekommunikasiya bazarında mühüm hadisəyə çevrilib. «Bakutel» sərgisinin beynəlxalq nüfuzu BMT, Beynəlxalq Telekommunikasiya İttifaqının dəstəyi, həmçinin Ümumdünya Sərgi Sənayesi Assosiasiyasının keyfiyyət nişanı ilə təsdiq olunub.*

*Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov dövlətimizin başçısının diqqətinə çatdırdı ki, «Bakutel–2012» sərgisində dünyanın 23 ölkəsindən 160 şirkət iştirak edir. Xarici iştirakçıların siyahısına Böyük Britaniya, Rusiya, Türkiyə, Çin, Koreya Respublikası, Malayziya, Litva, İran, Sloveniya, Ukrayna, Belarus və digər ölkələr daxildir. Kollektiv stendlərin fəal iştirakı artıq «Bakutel» sərgisinin ənənəsinə çevrilib. Bu il sərgidə 8 kollektiv ekspozisiya iştirak edir. Onların arasında sərginin daimi iştirakçıları olan Avstriya, İsrail, Kanada, Fransa, Xorvatiya və Estoniyanın milli qrupları vardır. Milli qruplar Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, həmçinin təmsil olunmuş ölkələrin müvafiq profilli strukturlarının dəstəyi ilə təşkil edilib. Bu stendlərdə*

*ziyarətçilərin diqqətinə təkcə Azərbaycan üçün deyil, həm də bütövlükdə Xəzəryanı region üçün yenilik sayılan maraqlı proqramlar təqdim olunur və İKT üzrə məhsul və xidmətlərin təqdimat mərasimləri keçirilir. Sərginin iştirakçıları portativ mobil və analoq radiostansiyalar, smartfonlar, telefonlar, planşet kompüterlər, telekommunikasiya sistemləri üçün müasir test və ölçü avadanlığı, habelə texnoloji yeniliklər və bir sıra digər məhsullar da nümayiş etdirirlər.*

*Bildirildi ki, budəfəki sərginin ekspozisiyası telekommunikasiya və şəbəkələr, genişzolaqlı kabel və simsiz rabitə, peyk rabitəsi və texnologiyalar, teleradio yayım avadanlığı, proqram təminatı və avtomatlaşdırma sistemləri, informasiya və ofis texnologiyaları kimi seqmentləri əhatə edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin pavilyonları ilə tanış oldular.*

*Vurğulandı ki, «Bakutel» sərgisində ilk dəfə əhaliyə göstərilən dövlət xidmətlərinin yeni keyfiyyətinin formalaşması, onların identikliyinin təmin olunması, habelə əlavə xərclərin və vaxt itkisinin azaldılması üçün nəzərdə tutulmuş «ASAN» mərkəzləri iştirak edir.*

*Yüksək Texnologiyalar üzrə Tədqiqat və İnkişaf Mərkəzi isə öz yeni məhsulları ilə sərgiyə qatılıb. Buraya ağ işıq diodları, nanofosforlar və bionanotexnologiyalar daxildir.*

*Xarici ölkələrin pavilyonları ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bu il sərgidə ilk dəfə iştirak edən Sloveniya 8 şirkətlə təmsil olunur.*

*Prezident İlham Əliyevə bu şirkətlərin məhsulları və onların perspektivləri, o cümlədən Cənub-Şərqi Avropa üzrə «Elektron hökumət»in inkişafı mərkəzinin məqsədləri və layihələri barədə məlumat verildi.*

*«Bakutel–2012» beynəlxalq sərgisində Avstriyanın şirkətlər qrupu hava hərəkətinin idarə olunması, ictimai təhlükəsizlik və nəqliyyat sistemlərinin istehsalı ilə bağlı məhsullarını təqdim edir.*

Dövlətimizin başçısına telekommunikasiya və genişzolaqlı internetin inkişafı layihəsi barədə məlumat verildi. Qeyd edildi ki, 2013–2015-ci illəri əhatə edən bu layihə gələcəkdə ölkə üzrə bütün yaşayış məntəqələrinin fiber-optik kabel şəbəkəsi ilə təmin olunmasını, əhali arasında elektron xidmətlərdən istifadənin genişləndirilməsini nəzərdə tutur.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Delta Telekom» MMC-nin fəaliyyətindən bəhs edən pavilyonda oldular.

Bildirildi ki, regionun ən iri telekommunikasiya operatorlarından olan «Delta Telekom» rabitə və telekommunikasiya xidmətlərinin keyfiyyət göstəricilərinə görə ən etibarlı infrastruktura malikdir. DWDM şəbəkə texnologiyalarında ən yeni nəsil olan ASON/GMPLS əsaslı infrastruktur üzərindən regionun tranzit tutumlarını daşıyan «Delta Telekom» dayanıqlı supermagistrala sahibdir, regionun ən iri internet supermagistralı da «Delta Telekom»a məxsusdur.

Bu sərgidə Azərbaycanın ilk mobil operatoru olan «Bakcell» şirkətinin də yenilikləri ilə tanış olmaq mümkündür. Şirkət sərgidə mobil telefonlar üçün İçərişəhər ərazisinə aid yeni bələdçi proqramını təqdim edir.

Dövlətimizin başçısı ölkəmizin milli peyk operatoru «Azərkosmos» ASC-nin pavilyonu ilə də yaxından tanış oldu. Bildirildi ki, 2010-cu ildə yaradılan «Azərkosmos» tərəfindən həyata keçirilən birinci layihə «Azerspace» geostasionar əlaqə peykinin buraxılışı və idarə olunmasıdır. Peyk Avropanı, Orta Asiyanı, o cümlədən Afrikanı əhatə edəcəkdir.

Çinin ilk telekommunikasiya avadanlığı istehsalçılarından olan «ZTE» şirkəti xaricdə bazarlarını genişləndirməyi qarşısına məqsəd qoymuşdur. Hazırda 70 min əməkdaşından 10 mindən çoxunun 107 ölkədə fəaliyyət göstərdiyi şirkət dünyanın 500-dən artıq aparıcı mobil operatoru və kommersiya şirkəti ilə əməkdaşlıq qurub.

«Azerfon» MMC-nin pavilyonu ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, şirkət 2007-ci ildən fəaliyyət göstərir. «Narmo-

*bile» hazırda Azərbaycanın telekommunikasiya bazarının inkişafında mühüm rol oynayır və xidmət sektorunu daha da genişləndirir. İndi bu sıraya təyyarələrdə uçuş vaxtı mobil telefondan yararlanmaq və rabitə xidmətlərindən istifadə etmək imkanlarının yaradılması mühüm əhəmiyyət kəsb edir.*

*Prezident İlham Əliyev sistemin ilk istifadəçisi kimi, bu xidmət növünün imkanları ilə yaxından tanış oldu.*

*Sərgi çərçivəsində «Microsoft Windows-8» əməliyyat sistemi sınaqdan keçirilir, «Windows Server–2012» əməliyyat sisteminin üstünlükləri təqdim olunur. Nömrələrin daşınması sahəsində xidmətlər isə mobil rabitə operatorları üçün xüsusilə maraqlıdır. Ölkəmizdə istehsal olunan ilk «Nexus AzPad Android» planşet kompüteri və Azərbaycan dilində ilk antivirus proqramı da maraqla qarşılanır.*

*«Azercell» şirkətinin pavilyonu ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, 1996-cı ildə yaradılan şirkət ölkənin mobil rabitə sektoruna bir sıra innovativ texnologiyaları və konsepsiyaları gətirməkdə davam edir. Prezident İlham Əliyevə şirkətin virtual kart, kommunal ödənişlərin həyata keçirilməsini və bəzi tibbi müayinələrin aparılmasını nəzərdə tutan yeni xidmətləri barədə məlumat verildi.*

*** * ***

*Sonra Azərbaycan prezidenti İlham Əliyev beynəlxalq jurnalist Bencamin Rahra müsahibə verdi.*

**S u a l: Sizi yenidən görmək çox xoşdur. Qarşıdakı illərdə yeni yataqların istismara verilməsi və daha çox kəmərlərin tikilməsi ilə Azərbaycan Avropanın mühüm enerji təchizatçısına çevriləcəkdir. Buna baxmayaraq, hökumət əsas diqqəti iqtisadiyyatın şaxələndirilməsinə yönəldib. «Azərbaycan – gələcək yüksək texnologiyalar mərkəzi» – Siz ölkənizi belə görürsünüz?**

**C a v a b:** Tamamilə doğrudur. Biz bunları planlaşdırırıq. Belə ki, bizim son illərdə əldə etdiyimiz uğurlar, iqtisadi

yüksəliş göstərir ki, ölkəmizdə qeyri-energetika sektoru sürətlə inkişaf edir. Bu il enerji sektorunda bir qədər azalmaya baxmayaraq, qeyri-energetika sektorunun inkişaf göstəricisi 10 faizdən çox təşkil edib. Bu bir daha onu göstərir ki, neft və qazdan əldə edilən gəlirlərdən iqtisadiyyatın şaxələndirilməsi üçün məqsədyönlü şəkildə istifadə olunması özünü doğruldur. Əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sahəsi bizim üçün prioritet sahələrdən biridir. Çünki bu sahə inkişaf, biznes, təhsil, şəffaflıq, gələcəyə aparan yol deməkdir. Mən çox məmnunam ki, hər il ölkəmizdə «Bakutel» sərgisi və bu gün də Bakıda VII İnternet İdarəçilik Forumu keçirilir ki, bütün bunlar Azərbaycanda bu sahədə görülmüş işləri əks etdirir.

İnformasiya-kommunikasiya texnologiyaları sahəsi böyük potensiala malikdir. Bizim bu sahəyə dəstək göstərilməsi ilə bağlı dövlət siyasətimiz var. Özəl sektor da bu sahədə çox fəal iştirak edir. Biz informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına görə bölgədə aparıcı ölkəyə çevrilmişik və gələcəkdə də bu mövqemizi saxlamaq və İKT bazarında qlobal oyunçulardan birinə çevrilmək əzmindəyik.

**S u a l: Azərbaycan mobil telefon istifadəçilərinin sayına görə ən yüksək göstəricilərdən birinə malikdir. Son 20 il ərzində internetin bütün dünyanı bir araya gətirməsi kibercinayətkarlıq, terrorizm, hakerlik risklərini artırır. Bəzi ekspertlər iddia edirlər ki, din, su və ərazi məsələlərindən sonra müharibələrə səbəb olacaq növbəti amil internet ola bilər. Azərbaycan internetdən fayda və təhlükələr arasında necə balans yarada bilər ki, əhalinin internetdən istifadəsində məhdudiyyətlər qoyulmasında ittiham olunmasın?**

**C a v a b:** Bilirsiniz, inkişafımızın hazırkı mərhələsində məqsədimiz internet istifadəçilərimizin dünya informasiyasını əldə etmək imkanlarını artırmaqdan ibarətdir. Azərbaycanda internetdən istifadə tam azaddır. Hazırda internet istifadəçilərinin sayı 65 faizdən çoxdur. İndi biz Azərbaycanın hər bir kəndinin belə genişzolaqlı internet xidməti ilə təmin edilməsi üçün yeni

sistem yaradırıq. Buna görə də informasiyanın sərbəst əldə olunması bizim əsas məqsədimizdir. Hazırda kibertəhlükəsizlik, azadlıqlar, qanun və bu kimi məsələlərin tənzimlənməsi bizim gündəliyimizdədir. Bakıdakı İnternet Forumunun müzakirə mövzularından biri də məhz azadlıqlar – ifadə azadlığı, informasiya azadlığı, insanların şəxsi azadlıqları, eyni zamanda, təhlükəsizlik və hüquqi baza arasında balansı müəyyən etmək olacaqdır. Düşünürəm ki, forumdakı müzakirələr bununla bağlı bəzi yeni ideyalar yaradacaq və biz bu yeni ideyalardan faydalanacağıq. Həmçinin biz dünyadakı aparıcı ölkələrin bununla bağlı təcrübəsini də öyrənəcəyik. Onlar bu problemlərin həllini necə görürlər, dünyanın aparıcı demokratik dövlətləri bu məsələləri necə həll edəcəklər? Bunlar bizim üçün çox önəmlidir.

**S u a l: Ölkənizin əldə etdiyi uğurlar – bunu başqa sözlə, Xəzərdə Silikon Sahillərin yaradılması da adlandırmaq olar – Qərb və xarici investorlara hansı imkanları təklif edir?**

**C a v a b:** Biz beynəlxalq sərmayədarlar üçün açığıq. Azərbaycanda çox yaxşı investisiya mühiti var və adambaşına düşən birbaşa xarici investisiyanın həcminə görə ölkəmiz keçmiş sovet məkanında ən yüksək yerdədir. Biz neft və qaz sektoru, İKT, infrastruktur, tikinti sahələrinə investisiya qoyuluşunda daha çox maraqlıyıq. Şahidi olduğunuz kimi, hazırda Bakıda turizm infrastrukturuna investisiyalar qoyuluşunda böyük canlanma vardır. Demək olar ki, hər ay yeni beşulduzlu hotellər açılır. Biz xarici şirkətlərin ölkəmizdə turizm sahəsinə investisiya qoymalarını alqışlayırıq. Eyni zamanda, xarici investisiyaların stimullaşdırılması üçün də işlər görürük. Bizim hökumətimiz dövlət büdcəsi hesabına İKT sektorunda çox mühüm investisiya layihələrini maliyyələşdirir. Məqsəd yalnız hüquqi-normativ baza yaratmaq deyil, həm də özəl sektorun da bu infrastruktur layihələrində iştirakını təmin etməkdir. «Bakutel»də iştirak edən dünya şirkətlərinin sayının artması da Azərbaycan bazarının cəlbedici olmasının yaxşı göstəricisidir. Azərbaycan İKT-nin inkişafına görə artıq regionda lider dövlətə çevrilib və bu mövqe gələcəkdə daha da güclənəcəkdir.

**S u a l: Sizin qarşınıza qoyduğunuz məqsədlər nədən ibarətdir? Növbəti illərdə nə qədər investisiya cəlb etməyi nəzərdə tutursunuz?**

**C a v a b:** Rəqəmlərlə bağlı konkret nəsə demək çətindir. Bizim strateji yanaşmamız ondan ibarətdir ki, İKT sektoru neft və qaz sektorundan sonra biznes mühiti, gəlir əldə edilməsi baxımından ikinci sektor olmalıdır. Bilirsiniz ki, neft və qaz ehtiyatları tükənən sərvətdir. İKT sektoru isə sonsuz inkişaf potensialına malikdir. Ona görə də bu sahə qarşıdakı 20 ildə iqtisadiyyatımızın aparıcı, bəlkə də ən əsas sahələrindən biri ola bilər. Bu baxımdan biz bu sahəyə özəl fondlardan milyardlarla ABŞ dolları məbləğində investisiya cəlb olunacağına ümid edirik və dövlətimiz yerli şirkətlərlə birgə prosesdə iştirak edəcəkdir.

**M ü x b i r: Sizə uğurlar arzulayırıq. Minnətdaram.**

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm.

## BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAMADUN TURE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Hamadun Tureni qəbul etmişdir.*

*Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Hamadun Ture 2003-cü ildən başlayaraq Azərbaycana səfərlər etdiyini və hər gəlişi zamanı ölkəmizdə böyük inkişafın şahidi olduğunu vurğuladı. Prezident İlham Əliyevin Beynəlxalq Telekommunikasiya İttifaqının Cenevrə Sammitində iştirakını və o vaxtlar dövlət başçısının «qara qızılı insan kapitalına çevirəcəyəm» sözlərini xatırladan qonaq həmin fikirlərin bu gün reallığa çevrildiyini qeyd etdi. Hamadun Ture VII İnternet İdarəçilik Forumunun yüksək səviyyədə təşkil olunduğunu dedi. O, ölkəmizlə rəhbərlik etdiyi təşkilat arasında əməkdaşlığı daha da genişləndirməyin önəmini vurğuladı.*

*Dövlətimizin başçısı son 9 ildə Azərbaycanın qeyri-neft sektorunda, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində böyük uğurlar əldə etdiyini vurğuladı. VII İnternet İdarəçilik Forumunun Bakıda keçirilməsinin əhəmiyyətini qeyd edən prezident İlham Əliyev bunu Beynəlxalq Telekommunikasiya İttifaqının bu sahədə ölkəmizdə görülən işlərə verdiyi qiymətin göstəricisi kimi dəyərləndirdi.*

## AVROPA KOMİSSİYASININ ELEKTRON GÜNDƏLİK MƏSƏLƏLƏRİ ÜZRƏ VİTSE-PREZİDENTİ NEELİE KROES İLƏ GÖRÜŞ

*7 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa Komissiyasının elektron gündəlik məsələləri üzrə vitse-prezidenti xanım Neelie Kroesi qəbul etmişdir.*

*Xanım Neelie Kroes ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. O, VII İnternet İdarəçilik Forumunun Bakıda yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Xanım Neelie Kroes elektron kütləvi informasiya vasitələrinin, azad internetin inkişafının və «Elektron hökumət» layihəsinin böyük önəm daşıdığını vurğuladı.*

*Dövlətimizin başçısı Avropa Komissiyasının elektron gündəlik məsələləri üzrə vitse-prezidenti xanım Neelie Kroesin forumda iştirakının əhəmiyyətini qeyd etdi. Forumu ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sektorunda görülən işlərin nəticəsi kimi dəyərləndirən prezident İlham Əliyev internetin və elektron kütləvi informasiya vasitələrinin Azərbaycanda bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı ölkəmizdə genişzolaqlı internet xidmətinin yaradılması istiqamətində görülən tədbirlərin əhəmiyyətini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 20 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZƏ GƏLMİŞ XARİCİ DÖVLƏTLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Milli Olimpiya Komitəsinin 20 illik yubileyində iştirak etmək üçün ölkəmizə gəlmiş xarici dövlətlərin nümayəndələrini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz, əziz dostlar! Sizi Azərbaycanda görməyimə çox şadam. Bu əlamətdar tədbirə gəldiyinizə və iştirak etdiyinizə görə təşəkkür edirəm.

Azərbaycan 20 ildir ki, olimpiya ailəsinin üzvüdür. Biz bunu bu gün qeyd edəcəyik, faktiki olaraq bir neçə gün əvvəldən qeyd olunmağa başlanıb. Sizin bu tədbirlərdə iştirakınız bizim üçün çox əhəmiyyətlidir. Olimpiya ailəsinin üzvü olandan bəri beynəlxalq əlaqələrimiz sürətlə inkişaf etməyə başlayıb. İndi, 20 ildən sonra bizim artıq federasiyalarla, olimpiya komitələri, Beynəlxalq və Avropa olimpiya komitələri ilə çox yaxşı əlaqələrimiz var. Biz Azərbaycanda bir çox mühüm tədbirlər – Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin iclasını, həmçinin çempionatlar, müxtəlif seminarlar, konfranslar, dünya kubokları yarışlarını keçirmişik. Bu yaxınlarda 17 yaşadək qadınlar arasında futbol üzrə dünya çempionatını keçirdik. Bizim artıq beynəlxalq tədbirləri təşkil etməkdə təcrübəmiz vardır. Azərbaycanda daha çox və böyük beynəlxalq tədbirlərə ev sahibliyi etmək əzmindəyik. Əminəm ki, siz həmkarlarınız tərəfindən ölkəmizdə idmanın inkişafı, infrastrukturu, beynəlxalq yarışlardakı nailiyyətlərimiz barədə məlumatlandırılacaqsınız. Şadam ki, Azərbaycanda idman və olimpiya hərəkatı artıq həyatımızın bir hissəsinə çevrilib, idmançılara və veteranlara

münasibət yüksək səviyyədədir. Dövlət Proqramı idman və olimpiya hərəkatının inkişafının bir çox aspektlərini əhatə edir. Sizlərdən çoxunuz əvvəllər Azərbaycana səfər etmisiniz. Mən burada bir çox köhnə dostlarımı görürəm. Bildiyimə görə, sizin bəziləriniz ölkəmizə ilk dəfədir səfər edir. Əminəm ki, burada baş verənləri görmək və dostlarınızla bir neçə gün keçirmək maraqlı olacaq. Bir daha xoş gəlmisiniz! Mən sizə ən xoş arzularımı bildirirəm, ölkələrinizə, təmsil etdiyiniz ölkələrin idmançılarına uğurlar arzu edirəm.

*Sonra Polşa Olimpiya Komitəsinin prezidenti Andrzej Krasnicki çıxış edərək, Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illik yubiley tədbirlərinə dəvətə görə dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. O qeyd etdi ki, Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illik yubileyi təkcə Azərbaycan üçün deyil, bütövlükdə beynəlxalq olimpiya hərəkatı üçün çox mühüm hadisədir. Çünki cəmi son 2 onillikdə Azərbaycanda olimpiya hərəkatı çox geniş vüsət alıb. Polşalı qonaq Azərbaycan idmançılarına yeni-yeni uğurlar arzuladı.*

*İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Gazdar Mohammad Saleh Federasiyanın prezidenti Şahzadə Nəvaf bin Fəyzal bin Fəth bin Abduləzizin salamlarını prezident İlham Əliyevə çatdırdı. 5 il əvvəl ölkəmizdə səfərdə olduğunu deyən Gazdar Mohammad Saleh keçən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu bildirdi. Qonaq Azərbaycan dövlətinin başçısı ilə London Olimpiya oyunları zamanı görüşünü xatırlatdı və həmin oyunlarda ölkəmizin idmançılarının əldə etdiyi nailiyyətlərə görə prezident İlham Əliyevi təbrik etdi.*

*Sloveniya Olimpiya Komitəsinin rəhbəri Janez Koçijançiç qısa zamanda ölkəmizin olimpiya hərəkatında əldə etdiyi uğurları yüksək qiymətləndirərək bildirdi ki, Azərbaycanın Olimpiya oyunlarındakı nailiyyətləri Avropada idmanın inkişafına bir töhfədir.*

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 20 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Buta sarayı*

*7 noyabr 2012-ci il*

*Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Buta sarayında Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) 20 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

– Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün ölkəmizin tarixində çox gözəl, əlamətdar bir gündür. Biz bu gün Milli Olimpiya Komitəsinin 20 illik yubileyini qeyd edirik. Bizimlə bərabər bu bayramı qeyd etmək üçün gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram.

20 il əvvəl Azərbaycan Milli Olimpiya Komitəsi yaradıldı. Hamımız yaxşı bilirik ki, müstəqilliyimizin ilk illəri nə qədər ağır keçib. Müstəqilliyimizin ilk illərində ölkədə gedən xoşagəlməz proseslər, xaos, böhran, anarxiya, iqtisadi tənəzzül istər-istəməz idman sahəsinə də öz mənfi təsirini göstərib.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, idman sahəsində də uğurlar başlamış, dövlət siyasəti ortaya qoyulmuşdur. Çox keçmədən bütün sahələrdə olduğu kimi, idman sahəsində də uğurlara nail ola bilmişik.

Milli Olimpiya Komitəsi ilə müstəqilliyimizin tarixi üst-üstə düşür. Müstəqilliyin bərpasından bir il sonra Milli Olimpiya Komitəsi yaradıldı. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq bu günə qədər Azərbaycanda idman sahəsində,

olimpiya hərəkatı sahəsində çox böyük işlər görülmüşdür. Müstəqilliyimizin ilk illərində ölkəmizi tərk etmiş tanınmış idmançılar, məşqçilər, idman mütəxəssisləri Vətənə qayıtdılar. Təlim-məşq prosesi üçün çox gözəl şərait yaradılıb. İdmanın müxtəlif növlərinin inkişafı üçün konkret addımlar atılıb, federasiyaların rəhbərliyi gücləndirilib. Nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, idman cəmiyyətləri, klublar bir ailə kimi fəaliyyətə başlamış və beləliklə, idman uğurlarımızı şərtləndirmişlər.

Doğrudan da əgər biz idmanın 20 il ərzində inkişaf tarixinə nəzər salsaq görərik ki, idman uğurlarımızı ardıcıllıqla artırmışıq. Beynəlxalq əlaqələrimiz də genişlənir, möhkəmlənir. Bu gün bu bayramda iştirak etmək üçün Azərbaycana gəlmiş müxtəlif ölkələrin nümayəndələri bizim əziz qonaqlarımızdır. Onların Azərbaycana gəlişi beynəlxalq əlaqələrimizin nə qədər geniş və zəngin olduğunu göstərir.

Azərbaycan Beynəlxalq və Avropa olimpiya komitələrinin fəal üzvüdür. Azərbaycan artıq idman dövlətidir. Bizim uğurlarımız beynəlxalq idman qurumları tərəfindən qiymətləndirilir. İdmanın, olimpiya hərəkatının inkişafına verilən beynəlxalq dəstək və qiymət çox yüksək səviyyədədir. Beynəlxalq olimpiya federasiyalarının dəstəyi ilə ölkəmizdə çoxsaylı idman yarışları, o cümlədən Avropa və dünya çempionatları, həm olimpiya, həm də qeyri-olimpiya idman növləri üzrə çempionatlar keçirilmişdir. Sentyabr–oktyabr aylarında ilk dəfə olaraq 17 yaşadək qadınlar arasında futbol üzrə dünya birinciliyi Bakıda, Azərbaycanda çox yüksək səviyyədə keçirildi. Deyə bilərəm ki, bu təcrübə bizə imkan verəcəkdir ki, gələcəkdə bundan da böyük beynəlxalq yarışlara ev sahibliyi edək.

Azərbaycanda bütün beynəlxalq idman yarışları yüksək səviyyədə keçirilir. Bizim qonaqpərvərliyimiz, təşkilatçılıq imkanlarımız, təşkilatçılıq qabiliyyətimiz çox nadir mühit yaradır. Ən önəmlisi ondan ibarətdir ki, bütün yarışlarda iştirak edən idmançılar üçün çox gözəl şərait yaradılır. Gözəl idman infrastrukturumuz, olimpiya kompleksləri vardır. Eyni

zamanda, Bakı şəhəri gözəlləşir, abadlaşır və Bakıya gələn qonaqların sayı artır. Çox şadam ki, onların arasında idmançıların da sayı ildən-ilə artır.

Biz idmanın inkişafına geniş prizmadan yanaşırıq və kompleks tədbirlər görülür. Əlbəttə, ilk növbədə, dövlət siyasəti bu istiqamətdə çox uğurla aparılır. Dövlət siyasətinin nəticəsidir ki, bu gün biz Azərbaycanı dünya birliyinə idman dövləti kimi təqdim edə bilirik. Təsadüfi deyil ki, 2012-ci il Azərbaycanda «İdman ili» elan edilib. Bu özü bir göstəricidir.

İdmanla məşğul olan, idmanın inkişafına cavabdehlik daşıyan bütün qurumlar vahid siyasət çərçivəsində fəaliyyət göstərirlər. Deyə bilərəm ki, Azərbaycan o nadir ölkələrdəndir ki, burada İdman Nazirliyi, Olimpiya Komitəsi, federasiyalar, idman cəmiyyətləri arasında heç bir anlaşılmazlıq yoxdur. Əksinə, maksimum dərəcədə qarşılıqlı anlaşma və qarşılıqlı dəstək vardır. Çünki bu bizim ümumi işimizdir.

İdman, demək olar ki, əksər ölkələrin ictimai həyatında önəmli bir amilə çevrilibdir. İdman yarışlarında, xüsusilə Olimpiya oyunlarında ölkələr bir-biri ilə yarışırlar. Təsadüfi deyil ki, idman sahəsində əldə edilən uğurlar bilavasitə ölkələrin inkişaf göstəricilərinə də uyğundur. İnkişaf etmiş ölkələrdə, adətən, idman da inkişaf edir. Azərbaycan inkişafda olan bir dövlət kimi, idman sahəsində də böyük nailiyyətlərə çata bilib.

Dövlət siyasəti idmanın təbliği, idmanla məşğul olmaq üçün şəraitin yaradılması, maarifləndirmə, gənc nəslin yetişdirilməsi kimi mühüm sahələri əhatə edir. Onların arasında yeni idman infrastrukturunun yaradılması xüsusi yer tutur. Mən çox şadam ki, vaxtilə Milli Olimpiya Komitəsinin təşəbbüsü kimi yaranmış bu proqram artıq ölkə üzrə geniş vüsət alıb. Birinci Olimpiya İdman Kompleksi Milli Olimpiya Komitəsi tərəfindən 2000-ci ildə Bakıda ucaldılmışdır. Ondan sonra Azərbaycanda 35 regional olimpiya kompleksi tikilib istifadəyə verilib, 8 kompleksin tikintisi davam edir. Beləliklə, yaxın gələcəkdə elə bir şəhər qalmayacaqdır ki, orada müasir, ən yüksək standartlara cavab verən Olimpiya İdman Mərkəzi olmasın. Bu mərkəzlərdə

həm peşəkar idmançılar məşq edirlər, həm də bölgə gəncləri, uşaqlar, yeniyetmələr idman bölmələrinə gələrək öz peşəkarlıqlarını artırırlar.

Mən çox şadam ki, sağlam gənc nəsil yetişir. Gənclərimiz bizi sevindirir. Yeniyetmələr arasında I Ümumdünya Olimpiya oyunlarında Azərbaycan gəncləri çox yüksək nəticə göstərib və dünya miqyasında 11-ci yerə layiq olub. Bu doğrudan da böyük və tarixi nailiyyətdir. Bu onu göstərir ki, idman sahəsində ardıcıllıq vardır. Gənc nəsil yetişir, tanınmış idmançıların uğurlu çıxışları, onların nümunələri gənclər üçün, uşaqlar üçün bir örnəkdir və onlar da çempionlara oxşamaq istəyirlər. Bu da çox önəmli amildir.

Biz Azərbaycanda elə bir mühit yaratmışıq ki, idmançı olmaq hazırda çox şərəfli bir peşə və şərəfli bir işdir. Olimpiya, dünya, Avropa çempionlarımız, sözün əsl mənasında, bizim qəhrəmanlarımızdır və cəmiyyətdə onlara olan sevgi, məhəbbət və hörmət çox yüksək səviyyədədir. Bu, dövlət siyasəti olaraq eyni zamanda, cəmiyyətdə idmana, idmançılara olan müsbət münasibətin təzahürüdür. Bu gün idmançılarımız cəmiyyətimizin çox dəyərli üzvləridir.

Mən çox şadam ki, bizim görkəmli idmançılarımız – olimpiya, dünya, Avropa çempionlarımız həyatda da nümunədirlər. Bu belə də olmalıdır. Çünki onların hərəkətləri, fəaliyyəti, Vətənə olan bağlılığı gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsinə xidmət edir.

Regional olimpiya komplekslərinin fəaliyyəti çox uğurludur, genişdir və bu, kadr potensialının əsas mənbəyidir. Bölgələrimizdə çox istedadlı gənclər, uşaqlar vardır. İndi onlara idmanla məşğul olmaq üçün şərait yaradılıbdır. Onlar bu şəraitdən səmərəli şəkildə istifadə edirlər və etməlidirlər. Bizim idmanla, olimpiya hərəkatı ilə bağlı siyasətimiz çox məqsədyönlüdür. Azərbaycan olimpiya hərəkatının fəal üzvüdür, olimpiya hərəkatının ideallarını bölüşür. Olimpiya oyunları dünyanın ən böyük beynəlxalq tədbiridir. Ölkələrin iştirak sayına görə, eyni zamanda, Olimpiya oyunları zamanı hökm sürən dostluq,

qardaşlıq, qarşılıqlı anlaşma mühiti nadir xarakter daşıyır. Dünyada ikinci belə beynəlxalq tədbir, beynəlxalq yığıncaq yoxdur ki, bu dərəcədə xeyirxahlıq, mərhəmət, sülh, dostluq ideyalarını özündə ehtiva etsin. Olimpiya oyunları dünya miqyasında nadir və təkrarolunmaz bir formatdır. Mən çox şadam ki, Azərbaycan Olimpiya oyunlarında uğurla iştirak edir və idman şöhrətini daim yüksəklərdə saxlayır.

Bizim müstəqil dövlət kimi, Yay Olimpiya oyunlarında iştirakımız 1996-cı ildən başlanmışdır və əgər dinamikaya nəzər salsaq görərik ki, hər dəfə uğurlarımızı artırmışıq. Komandamız 1996-cı ildə 1, 2000-ci ildə 3, 2004-cü ildə 5, 2008-ci ildə 7, 2012-ci ildə isə 10 medal – onlardan 2-si qızıl, 2-si gümüş və 6-sı bürünc – qazanmışdır. Ölkələrin cədvəlində Azərbaycan London Yay Olimpiya oyunlarında 30-cu yerə layiq görülmüşdür, medalların sayına görə 24-cü, Avropa ölkələri arasında 15-ci, müsəlman ölkələri arasında isə 3-cü yeri tutmuşdur. Bu doğrudan da böyük və tarixi nailiyyətdir. Bu, Azərbaycanda idman və olimpiya hərəkatı sahəsində görülmüş işlərin bariz nümunəsi, ölkəmizin uğurlu inkişafının göstəricisidir.

Azərbaycan dünyada dinamik inkişaf edən, müasir, gənc ölkə kimi tanınır. Bizim iqtisadi uğurlarımız bütün beynəlxalq iqtisadi aləmə tanışdır. Azərbaycanda iqtisadi sahədə müşahidə olunan bu inkişafın dünyada analoqu yoxdur. Çünki 8-9 il ərzində iqtisadi sahədə 3 dəfə – 300 faizlik artım doğrudan da dünya miqyasında nadir bir göstəricidir. Bütün başqa sahələrdə – siyasi islahatlar, sosial müdafiə, müasir informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahələrində biz qabaqcıl yerlərdəyik. Bu günlərdə Bakıda Beynəlxalq İnternet İdarəçilik Forumu keçirilir və müxtəlif qitələrdən, ölkələrdən 1000-dən artıq qonaq vardır. Mənim beynəlxalq telekommunikasiya qurumlarının rəhbərləri ilə keçirdiyim görüşlər bir daha onu göstərir ki, Azərbaycanda bu sahədə əldə edilən uğurlar bölgə üçün nümunədir. Azərbaycan bu sahədə regional liderdir. Azərbaycanda olan internet azadlığı

bir çox ölkələrdə yoxdur. Bizim təcrübəmiz bölgədə artıq öyrənilir. İnternet və informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə edilən uğurlar, qoyulan investisiyalar və gələcək planlarımız beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

İstənilən sahəyə baxsaq görərik ki, hər bir sahə üzrə konkret proqramlar, konkret icra müddəti və bütün istiqamətlər üzrə gələcəyə, müasirliyə, inkişafa doğru konkret konseptual yanaşmalar vardır. O cümlədən idman sahəsində. Mən Milli Olimpiya Komitəsinin prezidenti və ölkə Prezidenti kimi, çox istəyirəm ki, Azərbaycanda idmanla məşğul olma prosesi kütləvi xarakter alsın. Artıq kütləvilik artır, ancaq istənilən səviyyədə deyildir. Hər bir vətəndaş, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Çünki ilk növbədə, idman sağlamlıq, sağlam həyat tərzi deməkdir. İdmançıların mütləq əksəriyyəti yüksək insani keyfiyyətlərə malikdir. Eyni zamanda, idman mədəniyyətdir və idmanla məşğul olan insan özünü rahat, çox əmin hiss edir. Biz çalışmalıyıq ki, sağlam gənclər yetişsin. Sağlamlıq məsələlərinin həllində idmanın çox böyük rolu vardır.

Əlbəttə, başqa sahələrdə olduğu kimi, ekoloji vəziyyət, təmiz hava, keyfiyyətli qida, təmiz içməli su – bütün bu məsələlər Azərbaycanda öz həllini tapır, o cümlədən də idman sahəsində. Bu amillər bir məqsədə xidmət edir ki, Azərbaycan vətəndaşı yaxşı yaşasın, rifah içində yaşasın, sağlam olsun və öz xalqına, öz Vətəninə sədaqətlə xidmət etsin.

Bir sözlə, idman, yenə də deyirəm, sadəcə olaraq, yarış, sadəcə olaraq, hansısa bir qələbə deyildir. Hər dəfə milli bayrağımız qaldırılanda, Dövlət himnimiz səslənəndə hər bir vətənpərvər Azərbaycan vətəndaşı qürur hissi ilə bu gözəl anları yaşayır. Çünki ölkənin qələbəsi, idmançıların qələbəsi, bizim uğurlarımız hər bir vətənpərvər vətəndaşı sevindirir. Ancaq idman sadəcə olaraq, idman yarışlarında əldə edilən qələbə deyildir. İdmanın cəmiyyətdə çox geniş, çoxşaxəli təsiri vardır. Bir daha əvvəlki fikrə qayıtmaq istəyirəm, adətən, inkişaf etmiş ölkələrdə

idman da inkişaf edir və inkişafdadır. Yəni idmanın inkişafı ölkələrin ümumi inkişafının göstəricisidir.

Baxmayaraq ki, müstəqilliyimizin cəmi 21 yaşı var, amma dövlətimiz özünü təsdiq edə bilib. Azərbaycana beynəlxalq aləmdə çox böyük hörmət var. Beynəlxalq aləm bizi dəstəkləyir və keçən il BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bunun bariz nümunəsidir. 155 ölkə namizədliyimizi dəstəkləyərək bizə öz hörmətini, inamını və etimadını göstərib. Bu gün Azərbaycan dünyada gedən qlobal proseslərdə fəal iştirak edir. Yəni biz həm regional çərçivələrdə, həm beynəlxalq arenada çox fəal işlər görürük. Bizim birmənalı, müstəqil siyasətimiz, uğurlu iqtisadi islahatlarımız vardır. Sadaladığım bu amillərin arasında idmanın da öz mühüm yeri var. Mən şübhə etmirəm ki, bundan sonrakı illərdə də idman və olimpiya hərəkatı Azərbaycanda sürətlə inkişaf edəcəkdir.

Bakıda tikilməkdə olan yeni, müasir, böyük olimpiya obyektləri, idman qurğuları siyasətimizin nə qədər böyük və düşünülmüş olduğunu bir daha göstərir.

Hazırda Bakıda yeni Olimpiya stadionu inşa edilir. 70 min yerlik bu stadion bölgənin ən böyük və ən müasir olimpiya stadionu olacaqdır. Hazırda böyük tutumlu Gimnastika sarayı tikilir. Bu yaxınlarda yeni, müasir Su İdman Növləri sarayı tikilməyə başlamışdır. Bu il eyni zamanda, idman yarışları üçün lazım olan ən böyük Bakı «Crystal Hall» tikilib. Bölgələrdə stadionlar, idman obyektləri tikilir. Yəni bu sahədə işlərimiz bundan sonra da davam etdiriləcək və biz elə idman infrastrukturu yaradacağıq ki, istənilən beynəlxalq yarışı Bakıda keçirmək mümkün olsun. Bizim hədəfimiz də məhz bundan ibarətdir. Ümid edirəm ki, biz bu istiqamətdə də hədəfimizə çatacağıq. Hesab edirəm ki, növbəti Olimpiya oyunlarına qədər bizim üçün ənənəvi olmayan idman növlərində də uğurlar qazanmalıyıq.

Hər bir Olimpiya oyunlarının yekunları, uğurları və bəzi hallarda yaşanan məyusluq gələcək fəaliyyətimiz üçün də bir yolgöstəricisidir. Çünki həm uğurlar, həm məğlubiyyətlər bizi,

necə deyərlər, öyrətməlidir ki, bizim üçün ənənəvi idman növlərində uğurlarımızı artıraq, bizim üçün yeni olan idman növlərində də peşəkar kadrları yetişdirmək üçün hansı addımları ataq.

Hesab edirəm ki, London Yay Olimpiya oyunları medalların sayına, idmançılarımızın çıxışlarına görə doğrudan da böyük qiymətə layiqdir. 10 medal qazanılıb. Ancaq hamımız yaxşı bilirik ki, ən azı 5 medal da qazanılmalı idi. İdmançılarımız buna yaxın idi. Bəzi medalların əyarları daha da üstün olmalı idi. Biz bunu, bəzi Olimpiya oyunlarındakı məqamları yaxşı xatırlayırıq. Bəzi hallardakı ədalətsizlik bizi yoldan çəkindirməməlidir. Biz daha böyük əzm və iradə ilə çalışmalıyıq ki, uğurlarımızı artıraq.

Bu gün Bakıda Milli Olimpiya Komitəsinin 20 illik yubileyi qeyd olunur. Bu yubiley tədbirləri artıq bir neçə gündür ki, qeyd olunur. Bu gün bu ziyafətdə bizim qonaqlar, bizim görkəmli idmançılar, idman ictimaiyyətinin nümayəndələri toplaşıblar.

Mən bir daha bütün idman ictimaiyyətini, bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. İdmançılara yeni qələbələr, yeni uğurlar arzulayıram. Sağ olun!

**Janez Koçijançiç** *(Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Sloveniya Olimpiya Komitəsinin prezidenti):* Cənab Prezident, Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidenti, cənab İlham Əliyev!

Azərbaycanın hörmətli rəsmiləri, Azərbaycanda olimpiya hərəkatının fəalları, dəvət olunmuş digər olimpiya təşkilatlarının rəhbərləri!

Mən böyük iftixar və şərəf hissi ilə Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikkeyin, İcraiyyə Komitəsinin üzvlərinin və hamımızın salamlarını sizə çatdırıram. Hamı gözəl bilir ki, olimpiya hərəkatının inkişafının 20-ci ildönümü nə deməkdir. Çünki mən, həmçinin bu cür digər tədbirlərdə də iştirak etmişəm və onlar da eyni ildönümlərini qeyd ediblər. Çox gözəl bilirəm ki, məhz Azərbaycan üçün bu yolu keçmək nə qədər çətin olub. Bu yol mürəkkəb olub. Bəzi hallarda atılan

addımlar çox böyük enerji tələb edirdi. Fərdilik, fərdi yanaşmaya ehtiyac duyulurdu. Bəzi hallarda heç də bərabər, tarazlı mövqe mövcud deyildi.

Mən Sizi təbrik edirəm. Siz böyük uğurlar, fantastik nailiyyətlər əldə etdiniz. London Olimpiya oyunlarında 10 medal qazanmaqla Siz göstərdiniz ki, ölkənizdə idman nə dərəcədə güclüdür, idman sahəsi nə dərəcədə güclənir. Burada mövcud olan keyfiyyət nədən ibarətdir.

Qeyd etmək istəyirəm ki, idman, həmçinin etikadır. Etika olmadan idman sadəcə, mənasız bir hərəkata oxşayardı. Bunu mən xüsusi qeyd etmək istəyirəm. Dopinq, matçların nəticələrinin öncədən sövdələşməsi və digər bu kimi hallar baxımından mən bu sözləri qeyd edirəm. İdman gələcəkdir. Bizim hamımız bilməliyik ki, medalın məhz əldə edilməsi anından etibarən bu medal artıq keçmişdə qalır, o, tarixə çevrilir. Biz hamımız gələcəyə doğru baxmalıyıq. Azərbaycan gələcəyə nəzər salan idman ölkəsidir.

Sizi bir daha təbrik edirəm. Ümidvaram ki, Sizin gələcəyiniz iqtisadi və sosial tərəqqinizə uyğun olacaqdır.

*Janez Koçijançiç Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illiyi münasibətilə Avropa Olimpiya Komitəsinin xatirə hədiyyəsini prezident İlham Əliyevə təqdim etdi.*

**R a f a e l  M a r t i n e t t i** (*Beynəlxalq Güləş Federasiyasının prezidenti*): Hörmətli cənab Prezident!

Hörmətli Azərbaycan Respublikasının birinci xanımı!

Xanımlar və cənablar!

2012-ci ildə biz Azərbaycanın Milli Olimpiya Komitəsinin 20-ci ildönümünü qeyd edirik. Bu dövr ərzində FİLA Azərbaycanın Milli Olimpiya Komitəsi ilə sıx əməkdaşlıq etmiş və bunu davam etdirir. Azərbaycanın sabiq prezidenti mərhum Heydər Əliyev demişdir: «Azərbaycanın Milli Olimpiya Komitəsinin yaradılması Azərbaycanın müstəqilliyinin atributlarından biri, ölkənin suverenliyi ilə sıx bağlıdır». 2012-ci ildə biz, həmçinin İlham Əliyevin Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidenti seçilməsinin 15-ci ildönümünü qeyd edirik.

Azərbaycan idmanı və olimpiya hərəkatı 1997-ci ildə öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Azərbaycan güləşçiləri 4 qızıl, 4 gümüş, 5 bürünc medal qazanaraq, son 15 il ərzində Olimpiya oyunlarında yüksək nəticələr nümayiş etdirdilər.

Cənab Prezident! Mən bu fürsətdən istifadə edərək, Azərbaycanın Milli Olimpiya Komitəsinin 20-ci ildönümü münasibətilə bütün güləşçilər, dünyanın bütün güləşsevərləri adından idmanın inkişafına, xüsusən də güləşin inkişafına verdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən bu mərasimdə iştirak edən bütün şəxsləri səmimiyyətlə təbrik edir, Sizə böyük uğurlar və yeni nailiyyətlər arzulayıram.

## ƏHMƏDLİ QƏSƏBƏSİNDƏ 14 SAYLI ŞƏHƏR POLİKLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Bakının Xətai rayonunun Əhmədli qəsəbəsində 14 saylı şəhər poliklinikasının açılışında iştirak etmişdir.*

*Ötən il aprelin 1-də prezident İlham Əliyev Əhmədli qəsəbəsinin sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən işlərlə tanış olarkən burada yeni poliklinikanın tikilməsinə dair tapşırıqlarını vermişdi. Dövlətimizin başçısının 2011-ci il 1 aprel tarixli Sərəncamı ilə bu tibb müəssisəsinin inşası üçün 1,5 milyon manat vəsait ayrılmışdı.*

*Əhmədli qəsəbəsinə gələn prezident İlham Əliyev poliklinikanın əvvəlki və hazırkı vəziyyətini əks etdirən şəkillərdən ibarət stendə baxdı. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov məlumat verdi ki, poliklinikanın 1936-cı ildə inşa edilmiş əvvəlki binasında məktəb fəaliyyət göstərib, 1991-ci ildən öz təyinatı üzrə istifadə olunmağa başlanıb. Poliklinika 15 min nəfərədək əhaliyə, həmçinin bu ərazidə yaşayan Böyük Vətən müharibəsi əlillərinə və iştirakçılarına, Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, 400-dək qaçqın və məcburi köçkünə tibbi xidmət göstərir. Xidmət ərazisində yaşlı əhalinin və uşaqların da sayı çoxdur. Poliklinikanın yeni binasının istifadəyə verilməsi ilə əhaliyə tibbi xidmətin göstərilməsində bir çox məsələlər həll olunacaqdır.*

*Prezident İlham Əliyev poliklinikanın rəmzi açılışını bildirən lenti kəsdi, yaradılan şəraitlə tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə səhiyyənin inkişafına diqqət və qayğılarını əks etdirən fotoguşə yaradılıb.*

*Dövlətimizin başçısı poliklinikada funksional diaqnostika şöbəsində yaradılan şəraitlə tanış oldu. Burada stasionar ultrasəs müayinəsi, rentgen kabineti, klinik laboratoriya, ultrasəs və*

*elektrofarez aparatları ilə təchiz olunmuş fizioterapiya otaqları vardır. Terapiya şöbəsi ilə tanış olan prezident İlham Əliyevə bildirildi ki, poliklinikada fəaliyyət göstərən müxtəlif şöbələrdə ən müasir tibbi avadanlıqlar quraşdırılıb, əhaliyə keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün lazım olan bütün şərait yaradılıb. Həmçinin qəsəbənin bir sıra küçələrinə yeni asfalt örtük salınıb, müasir işıqlandırma sistemi yaradılıb, hasar və səkilər bərpa olunubdur.*

*Poliklinikada yaradılmış şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev 2011-ci ilin aprelində Əhmədli qəsəbəsində ictimaiyyətin nümayəndələri ilə görüşdə iştirak edən qəsəbə sakini Qurbanəli Əlizadə ilə söhbət etdi.*

**Q u r b a n ə l i Ə l i z a d ə:** Salam, xoş gəlmisiniz! Gələn qədəmləriniz var olsun, Allah Sizə yar olsun. Belə möhtəşəm müalicə ocağını bizə Siz hədiyyə etmisiniz.

**İ l h a m Ə l i y e v:** Təbrik edirəm. Sabah da gözəl bayramdır, Dövlət Bayrağı Günüdür. Biz bu gün, bu ərəfədə belə gözəl poliklinikanın – əslində bu xəstəxanadır – açılışında görüşürük. Keçən dəfə qəsəbə sakinləri ilə görüşdə bu məsələ qaldırıldı. Əsas 2 məsələ qaldırılmışdı – biri yol məsələsi idi, o da indi öz həllini tapır. İkincisi isə poliklinikanın yenidən qurulması. Siz də yaxşı xatırlayırsınız, əvvəlki vəziyyət necə idi. İndi belə gözəl, möhtəşəm tibb ocağı yaradıldı və sakinlərə xidmət göstərəcəkdir. Sizi təbrik edirəm. Ancaq görüləsi işlər hələ çoxdur. Ölkə üzrə bütün yerlərdə belə gözəl tibb ocaqları yaradılır. İnşallah, gələcək illərdə daha böyük işlər görəcəyik. Sizi təbrik edirəm. Sağ olun.

## NƏSİMİ RAYONUNDAKI 1 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*8 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Bakının Nəsimi rayonundakı 1 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*«Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulan tədbirlər planına uyğun olaraq paytaxtın Nəsimi rayonundakı 1 saylı tam orta məktəb əsaslı şəkildə yenidən qurulmuşdur.*

*Prezident İlham Əliyev əvvəlcə məktəbin təmirdən əvvəlki və yenidənqurma işlərindən sonrakı vəziyyətini əks etdirən fotostendə baxdı. Görülən işlərlə bağlı məlumat verildi ki, 2 mərtəbədən ibarət olan məktəbin binası 1870-ci ildə inşa olunub. Bina 1897-ci ildə Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən alınaraq yenidən inşa olunub və qızlar gimnaziyası kimi fəaliyyət göstərib.*

*Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə yaxından tanış oldu.*

*Məktəbin müxtəlif fənn kabinetləri və laboratoriyaları tədris üçün lazım olan bütün əyani vasitələr və avadanlıqlarla təchiz edilib. İnformatika sinfində ən müasir kompüter dəstləri quraşdırılıb. Akt zalı və kitabxana müasir standartlar səviyyəsində təmir edilib. Məktəbdə əlavə 10 sinif otağının inşa olunacağı da nəzərdə tutulur.*

*Görülmüş işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

## UKRAYNA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ DMİTRİ SALAMATİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ukraynanın Müdafiə naziri Dmitri Salamatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ukraynanın Müdafiə naziri Dmitri Salamatin Ukrayna prezidenti Viktor Yanukoviçin Konstitusiya Günü münasibətilə təbriklərini və salamlarını dövlətimizin başçısına çatdırdı. Ukrayna prezidentinin Azərbaycan ilə münasibətlərin genişləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxladığını deyən nazir ölkəsinin respublikamızla ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı.*

*Azərbaycan–Ukrayna ikitərəfli münasibətlərinin böyük tarixə malik olduğunu deyən dövlətimizin başçısı ölkəmizin bu münasibətlərin daha da genişləndirilməsinə önəm verdiyini qeyd etdi. Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Ukraynanın Müdafiə naziri Dmitri Salamatinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev prezident Viktor Yanukoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BOLQARISTAN RESPUBLİKASININ ALİ KASSASİYA MƏHKƏMƏSİNİN SƏDRİ LAZAR QRUYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Bolqarıstan Respublikasının Ali Kassasiya Məhkəməsinin sədri Lazar Qruyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən iqtisadi və energetika sahələrində uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin daha da genişlənməsi ilə bağlı yaxşı perspektivlərin olduğunu dedi. Prezident İlham Əliyev əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin Avropa İttifaqı, NATO və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Bolqarıstan Respublikasının Ali Kassasiya Məhkəməsinin sədri Lazar Qruyevin ölkəmizə səfərinin onun azərbaycanlı həmkarları ilə məhkəmə sistemi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.*

*Bolqarıstan Respublikasının Ali Kassasiya Məhkəməsinin sədri Lazar Qruyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın son illər sürətlə inkişaf etdiyini məmnunluqla vurğuladı. O, Bolqarıstanın və Azərbaycanın məhkəmə sistemi arasında əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğunu bildirdi və bu əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN HƏRBİ HOSPİTALININ AÇILIŞI MƏRASİMİ

*12 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Milli Təhlükəsizlik Nazirliyinin hərbi hospitalının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin hospitalın həyatində ucaldılmış abidəsinin üzərindən ağ örtüyü götürdü, önünə gül dəstəsi qoydu.*

*Sonra dövlətimizin başçısı hospitalın rəmzi açılışını bildirən lenti kəsdi, yaradılan şəraitlə tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə səhiyyənin inkişafına diqqət və qayğılarını əks etdirən fotoguşələr yaradılıb.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, yeni tikilmiş hərbi hospitalda quraşdırılan avadanlıqlar tibbin ən son nailiyyətlərinə əsaslanır. Müasir texniki baza ilə təchiz olunan hərbi hospitalın istifadəyə verilməsi həm də Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının sosial məsələlərinin həllində mühüm əhəmiyyət daşıyır. Tibb ocağında yaradılan şərait bütün növ ağır cərrahi əməliyyatları aparmağa, müayinə və müalicə işlərini ən yüksək səviyyədə həyata keçirməyə imkan verir.*

*Qeyd edildi ki, 150 çarpayılıq hospitalda poliklinika, klinik laboratoriya, əməliyyat, reanimasiya və intensiv terapiya bloku, angioqrafiya, radiologiya, endoskopiya şöbələri yaradılmışdır. Burada respublikada ilk dəfə olaraq tibbi oksigen istehsal edən generatorlar qurulub. Bununla yanaşı, binada pnevmatik poçt, tibbi tullantıların zərərsizləşdirilməsi və utilləşdirilməsi avadanlıqları quraşdırılıb.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, hospital binasının ümumi sahəsi 34 min 500 kvadratmetrdir. 2 yeraltı, 7 yer-*

üstü mərtəbədən ibarət binanın damında ölkəmizdə ilk dəfə olaraq beynəlxalq tələblərə cavab verən helikopter meydançası inşa edilib. Tibb ocağında yeraltı avtomobil parkı da yaradılıb. Ətrafda geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Poliklinika şöbəsində mərkəzi müraciət, ilk yardım, ixtisaslaşdırılmış müayinə kabinələri yerləşir. Kabinələrdə səhiyyə qurğuları operativ və dəqiq müayinə aparmağa geniş imkan verir. Poliklinikanın klinik laboratoriyasında da müasir standartlara cavab verən avadanlıq quraşdırılıb.

Prezident İlham Əliyev hərbi hospitalın konfrans zalına baxdı. Burada Azərbaycan səhiyyə sisteminin inkişafında müstəsna xidmətləri olan məşhur həkimlərin portretləri və onlar haqqında məlumatlar əks olunub. 120 nəfərlik konfrans zalında müxtəlif seminarların, elmi-praktiki tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb.

Hərbi hospitalın mikrobioloji laboratoriyası da müasir standartlara cavab verir. Binadakı apartament və VİP palatalar da yüksək səviyyədədir. Xəstələrin müalicəsi, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün zəruri tədbirlər görülüb. Hospitalın 10 VİP palatası vardır. Xüsusi zövqlə salınan «Qış bağı» da müalicə olunanların ixtiyarına veriləcəkdir. Hospitaldakı bütün şöbələrdə dünyanın ən qabaqcıl ölkələrində istifadə edilən avadanlıqlar və tibbi cihazlar quraşdırılıb.

Dövlətimizin başçısına məlumat verildi ki, burada yaradılan şərait ürək cərrahiyyəsi, travmatologiya və ortopediya, ümumi cərrahlıq, urologiya, LOR və digər sahələrdə əməliyyatların səhiyyənin ən son nailiyyətləri əsasında aparılmasına imkan verəcəkdir. Reanimasiya və intensiv terapiya şöbələrindəki şərait də müalicəvi tədbirlərin tam və keyfiyyətlə aparılmasına xidmət edəcəkdir. Tibb ocağındakı palataların 48-i 2 çarpayılıq, 17-si 1 çarpayılıqdır. Burada, həmçinin «Wİ-Fİ» internet şəbəkəsi, «İP TV» və tibbi heyətin çağırış sistemi kimi, texnoloji yeniliklərdən istifadə olunacaqdır. Hospitalın radiologiya şöbəsində son nəsil texnoloji yeniliklərə əsaslanan 3 Tesla maqnit-rezonans tomoqrafiyası, kompüter tomoqrafiyası,

*rentgen, densinometr, mammoqraf, ultrasəs skanerləri və digər avadanlıqlar istifadəyə verilmişdir. Bir sözlə, Milli Təhlükəsizlik Nazirliyinin hərbi hospitalında yaradılan şərait buraya müraciət edənlərin müayinə və müalicəsinin səmərəli təşkili üçün ideal imkan yaradacaqdır.*

*Hospitalda yaradılmış şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları və tibb ocağının kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən Milli Təhlükəsizlik Nazirliyinin hospitalının bütün bölmələri ilə tanış olarkən görürəm ki, doğrudan da hospital yüksək səviyyədə tikilib, ən müasir standartlara cavab verir, ən müasir avadanlıqlar quraşdırılıbdır. Keyfiyyətli tibbi xidmət göstərmək üçün burada bütün imkanlar var, gözəl şərait yaradılıbdır. Xarici görünüşü də çox gözəldir, daxili tərtibatı da. Bu hospital, deyə bilərəm ki, dünya miqyasında seçilən bir tibb müəssisəsi olacaqdır. Mən buna çox sevinirəm, çox şadam. Bildiyiniz kimi, son illər ölkəmizdə müxtəlif yerlərdə – Bakıda, bölgələrdə müasir tibb ocaqları yaradılır. Qarşıya məqsəd qoyulmuşdur ki, hər bir şəhərdə yüksək tibbi xidmət göstərmək üçün yaxşı şərait olsun. Yüzlərlə yeni xəstəxana, hospital, tibb mərkəzi tikilib istifadəyə verilib. Ölkəmizdə insanlara göstərilən tibbi xidmət indi yüksək səviyyədədir. Əlbəttə ki, səhiyyə sisteminin təkmilləşdirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Burada həm poliklinika, diaqnostika, cərrahiyyə, terapiya şöbələrində, həm laboratoriyalarda ən son avadanlıqlar quraşdırılıb. Bir sözlə, kompleksdə müayinə və müalicə tədbirlərinin görülməsi üçün çox gözəl şərait vardır.

Mən sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Çox şadam ki, nəhayət, Milli Təhlükəsizlik Nazirliyi işçilərinin gözəl tibb mərkəzi vardır. Mən bilirəm ki, siz əvvəlki dövrdə başqa qurumların imkanlarından istifadə edirdiniz, ancaq vaxt gəlib çatıb ki, özünüzün belə gözəl tibb mərkəziniz olsun. Bu doğrudan da lazımdır, ölkəmizin inkişafını göstərir.

Milli Təhlükəsizlik Nazirliyinin işçilərinin sağlamlığını qorumaq üçün artıq gözəl imkanlar vardır.

Buraya gələrkən ulu öndər Heydər Əliyevin abidəsinin açılışında biz bərabər iştirak etdik, bu da təbiidir. Çünki ulu öndər Azərbaycanın milli təhlükəsizlik orqanlarının formalaşdırılmasında çox böyük rol oynamış, əvəzolunmaz xidmətlər göstərmişdir. Onun həyatının böyük hissəsi təhlükəsizlik orqanları ilə bağlı olmuşdur. Həyatının o dövrünü ulu öndər həmişə çox böyük məhəbbətlə yada salırdı. Həm onun gənclik illəri olmuşdur, həm də təhlükəsizlik orqanlarında çalışdığı dövrdə onun xidmətləri doğrudan da böyük olmuşdur.

Ötən əsrin 70–80-ci illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyev bütün işlərdə milli təhlükəsizlik orqanlarında əldə edilmiş təcrübədən də istifadə edirdi. Təsadüfi deyildir ki, ölkəmiz müstəqilliyə qovuşandan 2 il sonra Azərbaycan xalqı ulu öndərə müraciət etmiş, onu dəvət etmiş və öz taleyini ona etibar etmişdir. Həyat onu göstərdi ki, bu, yeganə düzgün addım idi. Çünki 90-cı illərin əvvəllərində gedən proseslər hamımızın yaxşı yadındadır. Bəlkə gənc həkimlər bunu o qədər də xatırlamırlar. Ancaq biz yaxşı xatırlayırıq, orqanların əməkdaşları yaxşı xatırlayırlar ki, 1991-ci, 1992-ci, 1993-cü illər doğrudan da faciəvi və çox təhlükəli illər olmuşdur. Çünki bərpa edilmiş müstəqillik faktiki olaraq əldən gedirdi. Ulu öndərin qətiyyəti, cəsarəti, müdrikliyi xalqımızı, ölkəmizi böyük bəlalardan qurtara bildi və 1993-cü ildən bu yana ölkəmiz inkişaf yolu ilə gedir. Bu inkişafda milli təhlükəsizlik orqanlarının əməkdaşlarının da çox böyük rolu, çox böyük zəhməti vardır. 90-cı illərin ortalarında dövlət çevrilişlərinə cəhdlər, hərbi qarşıdurma, vətəndaş müharibəsinin alovlanması, demək olar ki, müstəqilliyimizi xeyli sarsıtmışdı. Milli təhlükəsizlik orqanlarının fəaliyyəti nəticəsində o illərdə və xüsusilə son illərdə böyük tədbirlər görülmüş, cinayətkar dəstələr zərərsizləşdirilmiş və ölkə vətəndaşlarının normal, təhlükəsiz həyatı təmin edilmişdir.

Sizin nazirliyin spesifikası ondan ibarətdir ki, fəaliyyətiniz geniş ictimaiyyətə bəzi hallarda o qədər də bəlli deyil. Bu da təbiidir. Çünki dünyanın istənilən ölkəsində xüsusi təhlükəsizlik orqanlarının spesifikası bundan ibarətdir. Ancaq siz də bilirsiniz, mən də Ali Baş Komandan kimi bilirəm ki, sizin vətəndaşlarımızın rahat yaşaması üçün nə qədər böyük zəhmətiniz, fədakarlığınız, peşəkarlığınız olub.

Son illər Azərbaycana qarşı edilən terror, təxribat cəhdlərinə, xaricdən göndərilən casusluq şəbəkələrinin nümayəndələrinə Azərbaycan dövləti və milli təhlükəsizlik orqanları tərəfindən layiqincə cavab verilmişdir. Azərbaycan dövlətinin uğurlu inkişafı, Azərbaycan xalqının rahat yaşaması təmin edilib.

Bu gün Milli Təhlükəsizlik Nazirliyi inkişaf dövrünü yaşayır. Həm peşəkarlıq artır, həm də Milli Təhlükəsizlik Nazirliyi tərəfindən xoşagəlməz halların aşkar edilməsinə və qabağının alınmasına baxmayaraq, əfsuslar olsun ki, onların sayı artır. Bu onu göstərir ki, Azərbaycana qarşı edilən təxribat cəhdləri artır. Bu da təbiidir. Çünki ölkəmiz inkişafdadır. Azərbaycan müstəqil siyasət aparır. Bu heç də bütün xarici dairələrin ürəyincə deyil. Ancaq biz öz yolumuzla gedirik. Yolumuzu müdafiə etmək, bizi təhlükələrdən qorumaq üçün Milli Təhlükəsizlik Nazirliyi çox uğurla, peşəkarlıqla çalışır. Əminəm ki, bu səviyyə gələcəkdə də təmin ediləcəkdir. Həm peşəkarlıq artır, həm də orqanların əməkdaşları vətənpərvər, öz Vətəninə, Azərbaycanın müstəqilliyinə bağlı olan insanlardır. Texniki təchizat da əvvəlki illərlə müqayisəedilməz dərəcədə artıb. İndi texniki imkanlarımız elədir ki, hətta bizə qarşı planlaşdırılan hər hansı bir təxribatın qarşısını vaxtında almaq üçün imkan vardır. Elə imkanları biz yaratmışıq. Həm texniki təchizat, peşəkarlıq, düşünülmüş iş, operativ əməliyyatlar, həm də beynəlxalq əlaqələrimiz və təmaslarımız indiki vəziyyətə gətirib çıxarıb. Bu gün Milli Təhlükəsizlik Nazirliyi öz üzərinə düşən funksiyaları çox şərəflə, ləyaqətlə yerinə yetirir.

Biz dünyada gedən prosesləri izləyirik və bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün öz töhfəmizi

veririk. Bu barədə, əlbəttə, açıq danışmaq olmaz. Ancaq qeyd etməliyəm ki, bu gün Azərbaycan və onun təhlükəsizlik orqanları bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün öz dəyərli töhfələrini verirlər.

Əlbəttə, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının bütün məişət, mənzil məsələləri də öz həllini tapmalıdır və tapır. Siz bunu yaxşı bilirsiniz. Hər il bu məsələlərə baxılır, həll edilir. Bu gün isə belə gözəl tibb mərkəzi sizin sərəncamınıza verilir. Arzu edirəm ki, siz bu mərkəzdən az istifadə edəsiniz. Ancaq həyat belədir ki, bunsuz da mümkün deyildir. Hər bir yeni, xüsusilə bölgələrdə yeni xəstəxananın açılışında bir sözü mən təkrarlayıram, bu gün də demək istəyirəm və arzu edirəm ki, hər bir vətəndaş ildə bir dəfə müayinədən keçsin, sağlamlığını yoxlatsın və çalışsın ki, daim sağlam olsun. Sizin sağlamlığınız xalqımıza, dövlətimizə lazımdır.

Bir daha sizi ürəkdən təbrik edirəm.

## YASAMAL RAYONUNDAKI 173 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*12 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Bakının Yasamal rayonundakı 173 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*«Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda məktəblərin əsaslı təmir və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtda məktəblərin əsaslı təmir və bərpa işləri davam etdirilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov 173 saylı məktəbdə görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi ki, binası 1939-cu ildə inşa olunmuş 800 şagird yerlik bu məktəbdə 30 sinif otağı vardır. Hazırda burada 320 şagird təhsil alır. Bu təhsil ocağında əsaslı təmir və yenidənqurma işləri qısa vaxt ərzində yüksək standartlara uyğun şəkildə başa çatdırılıb.*

*Dövlətimizin başçısı ayrı-ayrı sinif otaqlarına baxdı, yaradılan şəraitlə yaxından tanış oldu. Sinif otaqlarında şagirdlərin təhsil almaları üçün lazımi şərait yaradılıb. Məktəbdəki sinif otaqları, fənn kabinetləri və laboratoriyalar müasir avadanlıqlarla təchiz edilib. Təhsil ocağında təhlükəsizlik kameraları quraşdırılıb. Məktəbin dəhlizinə və pilləkənlərə yüksək keyfiyyətli mərmər döşənib. Məktəbdə yeni və müasir istilik sistemi quraşdırılıb, həyətyanı sahədə abadlıq və quruculuq işləri görülüb.*

# DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN «BALAKƏN» VƏ «BƏRDƏ» GƏMİ-BƏRƏLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*13 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Dövlət Xəzər Dəniz Gəmiçiliyinin «Balakən» və «Bərdə» gəmi-bərələrinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Ən müasir tələblərə cavab verən yeni nəqliyyat infrastrukturunun yaradılması ölkəmizin tranzit imkanlarını artırmaqla yanaşı, Azərbaycanın regionda mövqeyini daha da möhkəmləndirir. Nəqliyyatın digər sahələri kimi, dəniz nəqliyyatının inkişaf etdirilməsi də dövlət başçısının daim diqqət mərkəzindədir. Dövlət Xəzər Dəniz Gəmiçiliyinin yeni «Balakən» və «Bərdə» gəmi-bərələrinin istismara verilməsi ölkəmizin dəniz nəqliyyatı ilə yükdaşıma imkanlarının genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir.*

*Gəmi kapitanı Rasim Nəzərov gəmi-bərələrin istismara hazır olması barədə prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı «Balakən» gəmi-bərəsi ilə yaxından tanış oldu. Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirov gəmiçiliyin nəqliyyat donanmasının yenilənməsi ilə bağlı görülən işlər barədə Prezidentə məlumat verdi. Bildirildi ki, istismara hazır olan gəmi-bərələr ötən ilin mayında Xorvatiyanın «Ulyanik» tərsanəsi ilə imzalanmış müqaviləyə əsasən inşa edilib. Yükdaşıma qabiliyyəti 54 vaqon, uzunluğu 155 metr, eni 18 metr olan gəmi-bərənin suya oturumu 4,5 metrdir. Bərələr Beynəlxalq Konvensiyaların ən müasir tələblərinə cavab verir. Eyni vaxtda bir neçə növ neft məhsulu daşıya bilən bərələr Avrasiya nəqliyyat dəhlizində yükdaşıma konveyerinə*

*qoşulmaqla nəqliyyat donanmamızı daha da zəngin-ləşdirəcəkdir.*

*Dəniz nəqliyyatının inkişaf etdirilməsinə böyük əhəmiyyət verən prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illər gəmiçiliyin donanması 10 tanker və 4 gəmi-bərə ilə öz imkanlarını daha da genişləndirib. «Bərdə» və «Balakən» ilə birlikdə yeni gəmilərin sayı 16-ya çatdırılmışdır. Bu gəmilərin istismara buraxılmasında əsas məqsədlərdən biri də yaxın gələcəkdə tikintisi başa çatacaq Bakı–Tbilisi–Qars dəmir yolu ilə daşınacaq yükləri vaxtında Xəzərin o tayına və əks istiqamətə çatdırmaqdır.*

*Prezident İlham Əliyev gəminin texniki parametrləri və imkanları ilə tanış olduqdan sonra onun istismara verilməsini bildirən düyməni basdı.*

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT NAZİRİ KAROLİNA PİPERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Dövlət naziri xanım Karolina Piperin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Karolina Piper Almaniyanın Xarici İşlər naziri Guido Vestervellenin salamlarını dövlətimizin başçısına çatdırdı. Karolina Piper Azərbaycan müstəqillik əldə etdikdən sonra Almaniyanın ölkəmizi daim dəstəklədiyini vurğuladı. Azərbaycana ilk dəfə səfər etdiyini deyən qonaq səfər zamanı Alman–Azərbaycan Xarici Ticarət Palatasının yaradılmasından məmnunluğunu ifadə etdi. O, Almaniyanın xarici ticarət palatasının regionda ilk dəfə Azərbaycanda açılmasının əhəmiyyətini yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Alman–Azərbaycan Xarici Ticarət Palatasının yaradılmasını ölkələrimiz arasında əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi, Azərbaycan və Almaniya iş adamlarının qarşılıqlı fəaliyyəti, birgə layihələrin həyata keçirilməsi baxımından ticarət palatasının önəmini qeyd etdi və ticarət palatasının uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Xarici İşlər naziri Guido Vestervellenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Almaniyanın Xarici İşlər nazirinə çatdırmağı xahiş etdi.*

## YASAMAL RAYON MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*13 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Yasamal Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, yaradılmış şəraitlə tanış oldu. Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.*

*Dövlətimizin başçısı Yasamal rayon, Gəncə şəhəri Nizami rayon, Gədəbəy rayon məhkəmələrinin köhnə və yeni binalarının, eləcə də Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində hazırlanmış müasir məhkəmə kompleksinin layihələrini əks etdirən stendlərə baxdı.*

*Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, 20-dən çox yeni məhkəmə binasının, həmçinin bir neçə məhkəmənin yerləşəcəyi məhkəmə komplekslərinin layihələri hazırlanıb. Ötən il Oğuz rayon, bu il isə Bakı şəhəri Yasamal rayon, Gəncə şəhəri Nizami rayon, Gədəbəy rayon məhkəmələri üçün yeni binaların inşası başa çatdırılıb. Artıq tərkibində bir neçə məhkəmənin fəaliyyət göstərəcəyi Sabunçu və Şəki məhkəmə komplekslərinin, Quba Rayon Məhkəməsi üçün yeni binanın inşasına başlanılmışdır.*

*Diqqətə çatdırıldı ki, Ədliyyə Nazirliyi Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası ilə sıx əməkdaşlıq edir. Ötən il qurumun plenar iclasında Azərbaycanda hakimliyə namizədlərin seçimi proseduru müsbət*

nümunə kimi qiymətləndirilib və bu təcrübə digər Avropa ölkələrinə tövsiyə edilib. Sentyabrda Vyanada Avropa ədliyyə nazirlərinin 31-ci konfransında isə bütün Avropa dövlətlərinin məhkəmə sistemlərinin təhlili üzrə hazırlanan hesabatın təqdimatı keçirilmişdir. Hesabatda qeyd olundu ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı məhkəmə-hüquq islahatlarının dərinləşməsi, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması istiqamətində genişmiqyaslı layihələrin həyata keçirilməsi, xüsusilə məhkəmə binalarının layihələndirilməsi üçün vahid konsepsiyanın hazırlanması, müasir məhkəmə komplekslərinin inşası, məhkəmələrdə mütərəqqi informasiya texnologiyalarının tətbiqi üzrə sərmayələrin qoyulması ilə nəticələnib.

Məlumat verildi ki, Yasamal Rayon Məhkəməsinin yeni binası da «Ədliyyə sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində, milli memarlıq üslubunda, müasir standartlar səviyyəsində tikilmişdir. Yeni binanın layihə işləri «MDM» MMC, inşaat işləri isə «Əfqan» firması tərəfindən həyata keçirilmişdir. Dördmərtəbəli binanın inşasına 2010-cu ilin martında başlanılmışdır. Müasir informasiya-kommunikasiya qurğularının quraşdırıldığı bina inzibati və ictimai zonalara bölünür və hər 2 zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Ədliyyə Nazirliyinin icra qrupu, dövlət ittihamçıları və vəkillər ictimai zonadan istifadə edəcəklər. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər. Binada daimi fəaliyyət göstərən 2 qurum – rayon məhkəməsi və icra şöbəsi yerləşir.

Diqqətə çatdırıldı ki, BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq, Yasamal Rayon Məhkəməsinin binasında əlillərin sərbəst hərəkəti üçün də şərait yaradılıb. Girişdə əlillərin daxil olmaları üçün qaldırıcı qurğu quraşdırılıb, gözdən əlil vətəndaşların isə sərbəst hərəkəti üçün birinci mərtəbənin döşəməsinə xüsusi örtük salınıb. İctimai

zonada bütün otaqların adlarını əks etdirən lövhələrdə gözdən əlil insanlar üçün də xüsusi yazılar vardır.

Prezident İlham Əliyev 1 saylı məhkəmə zalı ilə tanış oldu. Burada əsasən cinayət, zəruri hallarda digər işlərə də baxılır. Binada ümumilikdə 12 zal var. Zallardan 5-i cinayət, 7-si isə mülki işlər üçün nəzərdə tutulmuşdur. Zalın qarşısında məhkəmə prosesinin iştirakçıları üçün hər cür şərait yaradılıb. Burada vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb. İnformasiya texnologiyalarının tətbiqi baxımından ölkəmizdə bənzəri olmayan bu məhkəmə zalında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazılışları aparan «Femida» sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün zəruri infrastruktur yaradılmış, habelə müasir tipli «İP» təhlükəsizlik kameraları istifadəyə verilmişdir. Təqsirləndirilən şəxslər zalda dəmir barmaqlıqlar arxasında deyil, beynəlxalq standartlara uyğun xüsusi ayrılmış şüşə otaqda saxlanılırlar. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğu da var. Məhkəmə zalında əcnəbi şəxslərin iştirakı ilə işlərə baxılan zaman tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer ayrılıb və avadanlıq quraşdırılıb. Zalda təqsirləndirilən şəxslərin və şahidlərin məhkəməyə gətirilmədən uzaq məsafədən dindirilməsi üçün konfrans avadanlığı vardır.

Zalla tanışlıq zamanı Bakı İstintaq Təcridxanası ilə canlı bağlantı quruldu. Binada təhlükəsizliyin etibarlı təmini məqsədilə müasir tipli 60 «İP» təhlükəsizlik kamerası, metal aşkarlayıcısı elektron və çanta yoxlayan rentgen qurğuları, turniketlər quraşdırılıb.

Bildirildi ki, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, məlumatlılığın təmin edilməsi və şəffaf xidmətlərin geniş tətbiqi məqsədilə binanın birinci mərtəbəsində ilk dəfə olaraq müasir elektron məlumat daşıyıcıları, o cümlədən məlumat məntəqəsi, məlumat köşkü, tavanda yerləşdirilmiş 2 böyükölçülü ekran və məhkəmə zalının girişində divarda asılmış

*xüsusi monitor vardır ki, bu da vətəndaşların məhkəmə proseslər və onların keçiriləcəyi tarix, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etmələrinə imkan yaradır. Bundan başqa, vətəndaşlara bank, tibb xidmətindən və çay otağından istifadə etmək üçün şərait yaradılıb, məhkəmə zallarına qalxmaq məqsədilə müasir lift və eskalatorlar quraşdırılıb. Məhkəmə binasında ana və uşaqlar üçün otaq da istifadəyə verilib.*

*Prezident İlham Əliyev mülki məhkəmə zalı ilə də tanış oldu. Burada məhkəmə prosesinin yüksək səviyyədə aparılması üçün lazımi avadanlıqlar quraşdırılmışdır. Binanın dördüncü mərtəbəsində ulu öndər Heydər Əliyevin barelyefi qoyulmuşdur.*

*Bu mərtəbədəki konfrans zalı ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, müasir avadanlıqla təchiz edilmiş bu zalda hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirələrinə, toplantılarına, həmçinin Ali Məhkəmənin plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Həmçinin məhkəmə sədrinin otağında quraşdırılmış və ölkəmizdə ilk dəfə tətbiq edilən «Bloostar» adlı videokonfrans telefon sistemi vasitəsilə 6 qurum rəhbəri ilə eyni vaxtda videomüzakirələr aparmaq mümkündür.*

*Sonra Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində respublikamızın 3 bölgəsində yeni inşa olunmuş Gədəbəy, Oğuz, Gəncə şəhəri Nizami rayon məhkəmələri ilə videobağlantı yaradıldı və həmin məhkəmələrin hakimləri ilə canlı danışıqlar aparıldı.*

*Qeyd edildi ki, Yasamal Rayon Məhkəməsində ildə 13 minə yaxın mülki, cinayət, inzibati xata və prosessual məcburiyyət tədbirləri barədə işlərə baxılır.*

*Yasamal Rayon Məhkəməsinin yeni binası ilə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİNİN MÜAVİNİ MOHAMMED ƏHMƏD BİN ƏDBÜL ƏZİZ ƏL-ŞİHHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat nazirinin müavini Mohammed Əhməd bin Əbdül Əziz əl-Şihhinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, Dubay Ticarət və Sənaye Palatasının xaricdə ilk nümayəndəliyinin Azərbaycanda təsis edilməsinin əhəmiyyəti vurğulandı, palatanın ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, o cümlədən qarşılıqlı ticarət əlaqələrinin daha da genişləndirilməsi baxımından önəmi qeyd edildi.*

## RUSİYA FEDERASİYASI ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN KADIROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizlə Rusiya Federasiyasının ayrı-ayrı subyektləri arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun ikinci dəfə ölkəmizə səfər etməsini xalqlarımız arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin yaxşı göstəricisi kimi dəyərləndirdi, əməkdaşlığımızın iqtisadi, sərmayə qoyuluşu, humanitar və digər sahələrdə daha da genişləndirilməsinin önəmini qeyd etdi. Çeçenistanda sabitliyin bərqərar olunduğunu və genişmiqyaslı layihələrin həyata keçirildiyini deyən dövlətimizin başçısı əldə edilən uğurlar münasibətilə Ramzan Kadırovu təbrik etdi.*

*Çeçen xalqının Azərbaycan xalqını özünə qardaş və dost hesab etdiyini deyən Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov xalqlarımız arasında mövcud olan bu münasibətlərin qədim tarixi köklərə malik olduğunu vurğuladı, çeçen xalqının ən çətin vaxtlarında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin onlara göstərdiyi qayğını ehtiramla xatırlatdı.*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN YAXIN ŞƏRQ VƏ ORTA ASİYA ÖLKƏLƏRİ DEPARTAMENTİNİN DİREKTORU MASUD ƏHMƏDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Valyuta Fondunun Yaxın Şərq və Orta Asiya ölkələri Departamentinin direktoru Masud Əhmədin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əlaqələrimizin uğurlu inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

*Görüşdə, həmçinin ölkəmizdə bazar iqtisadiyyatı istiqamətində həyata keçirilən islahatların və makroiqtisadi sabitliyin təmin olunmasının önəmi vurğulandı, Azərbaycanın prioritet elan etdiyi informasiya-kommunikasiya texnologiyaları, turizm, kənd təsərrüfatı sahələrinin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSININ VII BAŞ ASSAMBLEYASININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasının Azərbaycanın paytaxtı Bakıda öz işinə başlaması münasibətilə sizi ürəkdən təbrik edir, beynəlxalq tədbirin işinə uğurlar arzulayıram. Düşünürəm ki, Asiyada təhlükəsizlik, sülh və əməkdaşlıq mövzusuna həsr olunmuş bu tədbirin Bakıda keçirilməsi Azərbaycanın regionda artan nüfuzunun və ona olan etimadın göstəricisidir.

Asiya və Okeaniyanın 300-dən çox siyasi partiyasını birləşdirən bu mötəbər qurum ölkələrimiz arasında əməkdaşlığı inkişaf etdirmək üçün uğurlu platformadır. Bu baxımdan, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının müasir dünyamızı düşündürən aktual çağırışlara xüsusi diqqət yetirməsini təqdirəlayiq hal hesab edirəm.

Qloballaşan dünyamızın müasir siyasi mənzərəsinin formalaşmasında Asiya regionu ölkələrinin rolu və əhəmiyyəti gündən-günə artır. Hazırda Asiya dünyanın iqtisadi mərkəzinə çevrilməkdədir. Aparıcı Asiya dövlətlərinin dinamik inkişafının kökündə dayanan yeni iqtisadi modellərin öz təsdiqini tapması dünya iqtisadi sisteminin əsas meyillərini təşkil edir. Müasirləşən Asiya zəngin mədəniyyəti, nəhəng iqtisadi potensialı və insan resursları ilə bəşəriyyətin gələcək taleyinin müəyyən edilməsinə böyük töhfə verir. Elə dövlət müstəqilliyinin 21-ci ildönümünü böyük iqtisadi və sosial yüksəlişlə qeyd edən Azərbaycan da iqtisadi inkişafın «Azərbaycan modelini» yaratmağa nail olmuşdur. Məmnuniyyətlə müşahidə etdiyimiz bu müsbət meyillərlə bərabər, bir sıra Asiya ölkələrində yoxsulluq, qeyri-sabitlik, etnik və dini münaqişələr, terror və separatizm, lokal münaqişə və qarşıdurmalar bizi ciddi şəkildə narahat edir.

Bu baxımdan, Azərbaycanın üzləşdiyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll edilməməsi regionda iqtisadi sabitliyə, təhlükəsizliyə, əməkdaşlığa və inkişafa maneçilik törədən əsas amillərdəndir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – Dağlıq Qarabağ və ətrafındakı 7 rayon 20 ildən artıq müddətdir ki, işğal altındadır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu ərazilərdə qədim mədəniyyət abidələri məhv edilib, məktəblər, muzeylər, məscidlər dağıdılıb, məzarlıqlar təhqir olunub, dünya sivilizasiyasının nadir inciləri yer üzündən silinib. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Məclisinin, ATƏT-in, Avropa Şurasının, NATO-nun, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların qərar və qətnamələri vardır. Ermənistan isə bütün bunlara məhəl qoymur. Bu səbəbdən də bölgədə davamlı sülh və təhlükəsizlik üçün ən böyük təhlükə olan bu münaqişənin beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində Azərbaycanın göstərdiyi səylər nəticəsiz qalmışdır.

Hörmətli toplantı iştirakçıları!

İnanıram ki, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyası çərçivəsində siz beynəlxalq aləmdə təhlükəsizlik, sülh və əməkdaşlığın təmin olunması və möhkəmlənməsi üçün səmərəli fikir mübadiləsi aparacaq, mühüm qərarlar qəbul edəcəksiniz. Şübhə etmirəm ki, Baş Assambleyanın iştirakçı ölkələri bir-birinin təcrübəsindən faydalanaraq beynəlxalq və regional əməkdaşlıq sahəsində yeni imkanları lazımınca dəyərləndirəcək və dövrümüzün bu aktual problemlərinin həllinə layiqli töhfələrini verəcəklər.

Bir daha Baş Assambleyanın işinə müvəffəqiyyətlər, hamınıza cansağlığı, xoşbəxtlik diləyir, sülh və əməkdaşlıq yolunda səylərinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2012-ci il*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NEBOYŞA RADMANOVİÇƏ

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dostluq əlaqələrimizin daha da genişləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə inkişaf etdirilməsi yolunda addımlarımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, Bosniya və Herseqovinanın dost xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2012-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BUYAR NİŞANİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2012-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 20 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Buta sarayı*

*16 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 16-da Buta sarayında Yeni Azərbaycan Partiyasının yaradılmasının 20 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi:*

– Əziz Yeni Azərbaycan Partiyasının üzvləri!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Bu gün biz Yeni Azərbaycan Partiyasının yaranmasının 20 illik yubileyini qeyd edirik. Bu kürsüdən partiyamızın bütün üzvlərini bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm, partiyanın hər bir üzvünə cansağlığı, yeni uğurlar arzulayıram.

20 il əvvəl – 1992-ci il noyabrın 21-də gənc respublikamızda çox əlamətdar, tarixi hadisə baş vermişdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi və sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Bu doğrudan da tarixi hadisə idi. Deyə bilərəm ki, gənc dövlətimiz üçün dönüş nöqtəsi idi. Çünki müstəqilliyimizin ilk ayları, ilk illəri hamımızın yaxşı xatirindədir. Çox ağır, faciəvi illər idi. O vaxtkı iqtidarın müstəqilliyi saxlamağa gücü çatmırdı. Biz müharibə şəraitində yaşayırdıq və cəbhədə hərbi uğursuzluqlar, əlbəttə ki, cəmiyyətimizi olduqca sarsıtmışdı. 1992-ci ilin mayında Şuşa və Laçının işğala məruz qalması çox böyük faciə idi. Ancaq 1992-

ci ilin ortalarında hakimiyyətə gəlmiş yeni iqtidar ölkəmizi daha da bərbad vəziyyətə qoydu. O vaxtkı iqtidarın bacarıqsızlığı, peşəkarsızlığı, xəyanəti nəticəsində, demək olar ki, müstəqilliyimiz əldən gedirdi. Ölkədə gedən xoşagəlməz proseslər, böhran, iqtisadi tənəzzül, siyasi sabitsizlik, demək olar ki, müstəqilliyimizə böyük zərbələr vurmuşdu. Belə bir şəraitdə cəmiyyətimizin parlaq simaları, ziyalılar, cəmiyyətimizdə böyük hörmətə malik olan insanlar ulu öndər Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərara gəldilər.

Təsis konfransının Naxçıvanda keçirilməsi də onunla əlaqədar idi ki, o vaxtkı iqtidar bu tədbirin Bakıda keçirilməsinə imkan yaratmadı. Bu gün özünü demokrat adlandıran, ancaq 20 il ərzində demokratiyanın nə olduğunu anlamayan o vaxtkı iqtidar imkan vermədi ki, adi demokratik proses paytaxtda həll olunsun. Ancaq buna baxmayaraq, partiyamızın ideyaları, ulu öndərin müdrikliyi, onun cəmiyyətdəki nüfuzu və rolu partiya qarşısında heç bir maneənin mövcudluğunu nəzərdə tutmurdu. Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrildi. Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Bu gün sıralarımızda 600 minə yaxın üzv vardır. Partiyamızın xarici əlaqələri çox genişdir və bu əlaqələr gündən-günə genişlənir. Ölkə daxilində mövqelər çox möhkəmdir. Partiyamız, demək olar ki, cəmiyyətimizin bütün təbəqələrini, bütün yaş qruplarını birləşdirir. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasıdır. Əminəm ki, növbəti illərdə də partiyamız liderlik qabiliyyətini özündə saxlayacaqdır. Bu gün partiyamız Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir. XX əsrin 90-cı illərinin əvvəllərində isə vəziyyət, yenə də demək istəyirəm ki, çox ağır idi. Partiyamızın iqtidara gəlməsi zəruri və labüd idi. Ancaq biz onu da yaxşı xatırlayırıq ki, Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdı. Ancaq özünü müxalifət adlandıran indiki qüvvələrdən fərqli olaraq, heç vaxt öz dövlətinə, xalqına müxalifətdə olmamışdır.

Bizim partiyamız və onun üzvləri bütün dövrlərdə dövlətçiliyə sadiq olmuşdur.

Partiyamızın ilk addımları da Azərbaycanda siyasi sabitliyin bərpasına yönəldilmişdi. Təsadüfi deyil ki, 1993-cü ilin yayında – Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaranan dövrdə cəmiyyətimizin bütün ümidləri yenə də Heydər Əliyevin dühası ilə bağlı idi. O vaxt xalqın tələbi ilə hakimiyyətə gələn ulu öndər qısa müddət ərzində vəziyyəti sabitləşdirdi və bu, imkan verdi ki, ölkəmiz inkişaf yoluna qədəm qoysun. O ildən bu günə qədər Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedir.

Ölkəmizdə çox ciddi islahatlar aparıldı. Bütün xoşagəlməz halların qarşısı alındı, sabitlik bərpa edildi, vətəndaş müharibəsinə son qoyuldu. Azərbaycan dünya birliyinə inteqrasiya etməyə başladı. Bizim xarici siyasətimiz, nəhayət ki, məqsədyönlü siyasətə çevrildi və bu gün bu siyasət davam etdirilir. O illərdə vacib olan islahatlar bu gün də ölkəmizin inkişafına xidmət göstərir. Həm demokratik, siyasi islahatların dərinləşməsi, həm də iqtisadi sahədə islahatlar, demək olar ki, bugünkü Azərbaycanın reallıqlarını şərtləndirir. Onu da qeyd etməliyəm ki, Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanda əslində siyasi sistemin yaradılması demək idi. Çünki o vaxta qədər bizdə siyasi sistem mövcud deyildi. Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi. Biz bu ideyalara bu gün də sadiqik. Bütün siyasi mübarizələri sivil qaydalarla aparırıq və bütün siyasi məsələlərdə daim qələbə qazanırıq.

Yeni Azərbaycan Partiyası və onun nümayəndələri bütün prezident, parlament və bələdiyyə seçkilərində böyük üstünlüklə qələbə qazanmışlar. Bu, partiyamızın ümummilli partiya olduğunu bir daha sübut edir.

1990-cı illərdə köklü iqtisadi və siyasi islahatlar zəruri idi. Ancaq o illərdə islahatların hansı istiqamətdə getməsi haqqında, xarici siyasət, onun istiqamətləri ilə bağlı müxtəlif fikirlər var

idi. Ulu öndərin müdrikliyi hər bir istiqamət üzrə konkret və dəqiq proqramın formalaşmasında çox mühüm rol oynamışdır. Biz bu gün bu yolla gedirik. Bu gün Heydər Əliyev siyasəti davam etdirilir və əlbəttə ki, zənginləşdirilir. Azərbaycanın uğurlu inkişafının təməli məhz o illərdə qoyulmuşdur.

Azərbaycanda böyük infrastruktur layihələri həyata keçirilməklə, biznes mühitini yaxşılaşdırmaqla, xarici investorları ölkəmizə dəvət etməklə biz, demək olar ki, iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Təsadüfi deyildir ki, bu gün Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkə kimi tanınır. Siyasi sabitlik baxımından Azərbaycan bir çox ölkələr üçün örnəkdir, nümunədir.

Əslində, dövlətçiliyimizin həm siyasi, həm iqtisadi və ideoloji sahələrdə əsasları keçən əsrin 90-cı illərinin ortalarında qoyulmuşdur. Ulu öndərin baxışları real konkret proqramlarda öz əksini tapıb. Bizim ideologiyamızın formalaşması çox mühüm məsələ idi. Çünki biz onilliklər ərzində Sovet İttifaqının tərkibində yaşamışdıq. Əlbəttə, ideoloji çərçivələr çox məhdud idi. Yeni, gənc müstəqil ölkəmizin ideoloji əsaslarının formalaşdırılması məsələsi çox böyük əhəmiyyət kəsb edirdi.

Biz o illəri yaxşı xatırlayırıq və müxtəlif istiqamətlərdə – humanitar məsələlərin həlli, Azərbaycan dilinin təbliği ilə bağlı ulu öndərin tarixi xidmətləri vardır. Azərbaycan dilini dövlət dili kimi təsdiqləmək məsələləri də məhz onun təşəbbüsü ilə həyata keçirilmişdir. Azərbaycançılıq fəlsəfəsi ilk növbədə, Heydər Əliyevin təşəbbüsü idi və bu ideologiya bütün cəmiyyəti birləşdirir. Bu ideologiya həm tarixə, həm də müasirliyə əsaslanır. Həm tarixi keçmişimizi özündə ehtiva edir, həm də bizim bu sahədə bugünkü siyasətimizi əhatə edir. Bu istiqamətdə atılan addımlar dünya tərəfindən artıq bilinir və təqdir edilir.

Yəni hər bir istiqamət üzrə möhkəm əsaslar qoyulmuş və biz bu gün bu əsaslar üzərində inkişaf edirik. Əlbəttə, Yeni Azərbaycan Partiyasının və üzvlərinin bu işlərdə çox böyük zəhməti, rolu olmuşdur. Mən çox şadam ki, partiyamız bu gün də

inkişafdadır, çox sevinirəm ki, partiyamızın sıraları genişlənir. Gənc nəslin partiyamıza axını məni çox sevindirir. Partiyamızın ideyaları, partiya üzvlərinin hərəkətləri, bizim ciddi siyasi məsələlərin həllində rolumuz, beynəlxalq nüfuzumuz cəmiyyətimizin üzvlərini partiyaya daxil olmaq üçün həvəsləndirir.

Hesab edirik ki, bu proses bundan sonra da getməlidir. Əlbəttə, partiyamızın çox möhkəm dayaqları, çox güclü əsasları var. Ancaq həyat inkişaf edir, yerində durmur və biz partiya daxilində dünyada gedən prosesləri izləyirik və partiyamızın fəaliyyətinin yeni formalarının axtarışındayıq, onları tətbiq edirik. Bu bizə imkan verəcək ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi arenasında daim üstünlük təşkil etsin. Həqiqət ondan ibarətdir ki, bu gün siyasi müstəvidə bizə rəqib ola biləcək siyasi qüvvə yoxdur. Ancaq bu o demək deyil ki, biz arxayınlaşmalıyıq və yeni iş metodları haqqında fikirləşməməliyik. Biz daim axtarışda olmalıyıq, daim yenilikləri tətbiq etməliyik. Ölkəmizin uğurlu inkişafını təmin etmək üçün partiyanın hər bir üzvü öz fəal işi ilə töhfəsini verməlidir.

Biz bu gün Azərbaycanda böyük məsələləri həll edirik. Həm ölkə daxilində, həm regionda, həm xaricdə, dünya birliyində gedən proseslərdəki rolumuz artmaqdadır. Bizim xarici siyasət konsepsiyamızı da ulu öndər Heydər Əliyev qurmuşdur. Bu konsepsiya bu gün uğurla icra edilir.

Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan ölkəyə çevrilibdir. Bunun əyani sübutu keçən il BMT Təhlükəsizlik Şurasına seçilməyimizdir. Böyük rəqabət şəraitində, eyni zamanda, böyük dəstəklə biz bu yerə layiq olmuşuq. Bir il ərzində Azərbaycan dünyada gedən qlobal məsələlərin həllində fəal rol oynayıb. Bu rol dünya birliyi tərəfindən qiymətləndirilir. Təhlükəsizlik Şurasına üzv olarkən bəyan etdiyim yanaşmamız – yəni biz ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik – həyatda öz əksini tapır. Bizim namizədliyimizi 155 ölkə dəstəklədi. Bu hadisə xarici siyasətimizin nə qədər düzgün

və səmərəli olduğunun bariz nümunəsidir. «Qoşulmama Hərəkatı»na üzv olarkən biz dünya birliyinin mütləq əksəriyyətinin dəstəyini qazanmışıq.

Bu dəstək dərhal «Qoşulmama Hərəkatı»nın zirvə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallığı, beynəlxalq hüququ, Azərbaycan mövqeyini əks etdirən qətnamədə də öz əksini tapıb.

Mən xarici siyasətimizin əsas istiqamətləri haqqında öz fikirlərimi kifayət qədər geniş bildirmişəm, bunu təkrar etməyə ehtiyac yoxdur. Sadəcə, qeyd etmək istəyirəm ki, xarici siyasətimizin əsas istiqaməti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz öz səylərimizi davam etdirəcəyik və davam etdiririk. Bir daha demək istəyirəm ki, mövqemiz çox möhkəmdir, beynəlxalq hüquqa, tarixə, ədalətə və artan gücümüzə əsaslanır. Biz danışıqlar aparırıq, eyni zamanda da hərbi gücümüzü artırırıq və artıracağıq.

Bu gün Ermənistan ilə Azərbaycan arasında yaranmış uçurum artıq çox böyükdür, gündən-günə genişlənir. Azərbaycan ildən-ilə güclənir və möhkəmlənir. Ermənistan isə ildən-ilə zəifləyir və tənəzzülə uğrayır. Ermənistandan başqa ölkələrə müşahidə olunan kütləvi köç bunun əyani sübutudur.

Biz Ermənistanı təcrid etmək üçün bundan sonra da səylərimizi göstərəcəyik. Bu siyasətin nəticələri vardır. Biz bu nəticələri görürük. Ermənistanın işğalçı siyasətini bütün beynəlxalq təşkilatlarda bundan sonra da ifşa edəcəyik. Bizim dünyada dostlarımızın sayı artır. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz indi xarici ölkələrə müxtəlif istiqamətlər üzrə investisiya qoyuluşuna başlamışıq. Bu, yeni prosesdir. Biz bu prosesi gücləndirəcəyik. Beləliklə, bütün dünya ölkələri ilə siyasi və iqtisadi əlaqələr gələcəkdə daha da möhkəm olacaqdır. Artıq 3 ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanımışdır. Bu proses artıq başlanıb və davam etdiriləcəkdir. Çalışmalıyıq ki, Xocalı soyqırımını maksimum dərəcədə müxtəlif ölkələrdə soyqırımı kimi tanıtdıraq. Yəni ortamüddətli və uzunmüddətli perspektiv baxımından Azərbaycanın ərazi

bütövlüyünün bərpası heç kimdə şübhə doğurmur. Nə bizdə, nə də ki, bu məsələ ilə məşğul olan vasitəçilərdə. Məhz ona görə də biz hesab edirik ki, son zamanlar beynəlxalq vasitəçilər məsələnin həllində daha da böyük fəallıq göstərməlidirlər. Hamı yaxşı bilir ki, Azərbaycanın artan siyasi-iqtisadi və hərbi gücü məsələnin birdəfəlik Azərbaycanın xeyrinə həll olunmasına gətirib çıxaracaqdır.

Biz danışıqlar prosesində iştirak edirik. Ancaq bununla bərabər, başqa tədbirlər də görürük, başqa variantlara da hazırıq. Azərbaycanın çox möhkəm hüquqi, tarixi və siyasi əsasları vardır. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bu məsələnin həlli məhz bu prinsiplər əsasında ola bilər.

O ki qaldı xarici siyasətimizin digər istiqamətləri ilə bağlı olan məsələlərə, bütün məsələlər öz həllini tapır. Bakıda, demək olar ki, hər həftə keçirilən bütün beynəlxalq tədbirlər, beynəlxalq forumlar, Humanitar Forum, İnternet İdarəçilik Forumu, digər mədəni tədbirlər ölkəmizi və paytaxtımızı nəinki regional mərkəzə çeviribdir – bu, artıq keçmişdə qalıb – ölkəmizi qlobal dünya xəritəsində ciddi mərkəzə çeviribdir. Çünki hər şey müqayisədə ölçülür. Biz görürük ki, inkişaf etmiş ölkələrin bəziləri hansı ağır vəziyyətdədir. O ölkələrdə gedən prosesləri, kütləvi iğtişaşları gündə televiziya vasitəsilə izləyirik. 10 minlərlə nümayişçi küçələrə axışır. 10 minlərlə insan öz etirazını bildirir.

Düzdür, onlar çox böyük kobudluq və qəddarlıqla döyülür və əzilirlər. Bunu da biz televiziya kanalları ilə görürük. Əlbəttə ki, buna dözmək olmaz. Biz inkişaf etmiş ölkələri bu məsələdə daha da təmkinli olmağa çağırırıq. İnsanlara bu qədər əzab, işgəncə vermək olmaz. İnsanlar küçələrə öz etirazını bildirmək üçün çıxırlar. Ancaq bunun qarşısında onları dəyənəklə vurmaq, qazla zəhərləmək, necə deyərlər, əzmək yolverilməzdir. Bu, demokratik normalara zidd olan hərəkətlərdir. Özünü demokratik və demokratiyanın beşiyi adlandıran ölkələri belə görəndə, doğrudan da biz təəccüb edirik. Azərbaycan bu

baxımdan nümunə ola bilər. Hər bir başqa sahədə olduğu kimi, bu sahədə də nümunə ola bilər. Azərbaycanda bütün bu məsələlər sivil, mədəni qaydalarla həllini tapır. Bu məsələlər öz həllini ancaq bu yolla tapmalıdır. Yəni bu kütləvi narazılığın səbəbləri vardır. Səbəb olmasa, bu qədər insan küçələrə axışmaz. Səbəb də aydındır və bəllidir. Uzun illər iqtisadi əsaslar olmadan böyük xərclər etmiş, borclanmış və ondan sonra borcları qaytara bilməyən, bir-birini əvəzləyən iqtidarlar populist vədlər verməklə faktiki olaraq gələcək nəsillərin ciblərinə girmiş və böyük dərəcədə borclanmışlar. İnkişaf etmiş bəzi ölkələrin xarici dövlət borcu ümumi daxili məhsulun 100 faizindən üstündür. Bu əslində o deməkdir ki, bu ölkələr artıq iflasa uğrayırlar. Azərbaycanda isə bu rəqəm 7-8 faizdir.

Bəzi inkişaf etmiş ölkələrdə işsizliyin səviyyəsi 25 faizdir. Gənclər arasında 50 faizə çatır. Azərbaycanda isə işsizlik 5,3 faiz, yoxsulluq isə 7,6 faizdir. Beynəlxalq nüfuza malik olan əsas reytinq agentlikləri inkişaf etmiş ölkələrin kredit reytinqlərini aşağı salır, Azərbaycanın kredit reytinqlərini qaldırırlar. Yəni Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətli iqtisadiyyatdır. Makroiqtisadi sabitliyə görə Azərbaycan dünya miqyasında birinci onluqdadır. Bütün bunlar statistik göstəricilərdir. Bunu inkar etmək olmaz. Bunu nəzərə almamaq olmaz. Bu reallıq bir daha onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Bu yol 1992-ci ilin noyabrında başlamışdır. Əgər o vaxt Yeni Azərbaycan Partiyası yaranmasaydı və Azərbaycan xalqı növbəti dəfə öz müdrikliyini göstərib ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, ölkəmizin inkişafı tam başqa istiqamətdə gedə bilərdi. Hansı istiqamətdə gedə bilərdi? Bunu bu gün biz özünü müxalifət adlandıran elementlərin hərəkətlərində görə bilərik. Əgər onlar iqtidarda qalsaydı, bəlkə də Azərbaycan dünya xəritəsindən çoxdan silinmişdi. Çünki onların cəmi 1 il ərzində talançı, rüsvayçı, biabırçı hərəkətləri Azərbaycan xalqını o həddə çatdırmışdı ki, 1 il də dözə bilməyərək onları süpürüb tarixin arxivinə göndərmişdir.

1992-ci ildə əslində bugünkü reallıqların əsasları qoyuldu və biz bunu unutmamalıyıq, bunu daim xatırlamalıyıq. Heydər Əliyev siyasətinin gücü ondan ibarətdir ki, ondan sonrakı dövrdə – 9 il ərzində bu siyasət yaşayır. Azərbaycan xalqının qəlbində onun xatirəsinə olan hörmət və məhəbbət yaşayır. Azərbaycanın hər bir bölgəsində onun tərəfindən başlanmış islahatlar özünü büruzə verir.

Yeni Azərbaycan Partiyasının üzvləri, biz hamımız ulu öndərin siyasi xəttinə sadiq qalaraq onun siyasətini müasir dünyada aparmaq üçün öz səylərimizi qoyuruq. Bu təbiidir, bu elə də olmalıdır. Ancaq əsas məsələ ondan ibarətdir ki, biz bu siyasətdən kənara çıxmamışıq. Baxmayaraq ki, bizə qarşı təzyiqlər də, təxribatlar da oldu. Biz o illəri yaxşı xatırlayırıq. 2003–2005-ci illərdə qanuni seçilmiş hakimiyyəti devirmək cəhdləri olmuşdur. O cəhdlərin bir ucu xarici antiazərbaycan dairələrinə gedib çıxır. Biz o tarixi yaxşı bilirik. Ancaq Azərbaycan cəmiyyəti və Azərbaycan iqtidarı o vaxt böyük müdriklik, təmkin və qətiyyət göstərərək müstəqil Azərbaycanın uğurlu inkişafını qorudu, müdafiə etdi.

Əgər kiminsə xəstə beyninə yenə də gücümüzü sınamaq fikri gələrsə, biz hər zaman layiqli cavab verməyə hazırıq. Biz, yenə də deyirəm, Azərbaycan xalqının iradəsinə əsaslanaraq öz siyasətimizi aparırıq və bu siyasət nəticə etibarilə konkret rəqəmlərlə, konkret işlərlə ölçülür. Bizim işlərimizin böyüklüyü o qədərdir ki, onları gizlətmək mümkün deyil. Ölkəmizə gələn hər bir qonaq Bakıya heyran qalır, Bakıya vurulur. Bakıda gedən inkişafı görməmək mümkün deyil. Adam gərək gözünü bağlasın ki, bunu görməsin.

Bölgələrdə də vəziyyət çox müsbətdir, ürəkaçandır – hər yerdə canlanma, hər yerdə inkişaf, quruculuq, abadlıq. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan cəmiyyətində bu islahatların aparılması üçün çox böyük həvəs, çox böyük maraq, cəmiyyətdə böyük ruh yüksəkliyi vardır. Rayonlar arasında sağlam rəqabət aparılır. Mən rayonlarda tez-tez oluram. Görürəm ki, hər bir rayonda fəallar, icra hakimiyyətinin

nümayəndələri çalışırlar ki, onların rayonu daha da gözəl, abad olsun. Yəni bizim inkişafımız və əslində bütün işlərə yanaşma tərzimiz budur.

İqtisadi vəziyyətimiz çox möhkəmdir. Bir neçə gün əvvəl 2013-cü ilin büdcəsinin layihəsi müzakirə olunarkən bir daha ictimaiyyət gördü ki, bizim nə qədər böyük planlarımız vardır. Mən iqtisadi sahədə gələcəkdə heç bir problem görmürəm, bu mümkün deyil. Biz ancaq və ancaq inkişaf yolu ilə gedəcəyik. Siyasi sabitlik tam şəkildə bərqərar olunubdur. Sosial məsələlər uğurla həll edilir. Mən xarici siyasətlə bağlı bayaq qeyd etdim, BMT Təhlükəsizlik Şurasına üzv seçilmək artıq özlüyündə bir göstəricidir. Bundan əlavə nə isə deməyə ehtiyac yoxdur.

Əlbəttə, bizim enerji siyasətimiz çox müsbətdir, uğurludur. Bu siyasətin təməlini də ulu öndər qoymuşdur. Onun qətiyyəti, müdrikliyi və uzaqgörənliyi sayəsində biz bu gün 1994-cü ildə imzalanmış kontraktın bəhrəsini görürük və ondan sonrakı dövr ərzində onun tərəfindən böyük mübarizə şəraitində, böyük təzyiqlər altında neft kəmərlərinin çəkilişi təşəbbüsləri və reallaşması artıq yeni reallığı ortaya qoydu. Bu gün neft və qaz resurslarımız təkcə ölkəmizin enerji təhlükəsizliyinin təmin edilməsi üçün deyil, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynamağa başlamışdır. Bu istiqamətdə gələcək illərdə daha da böyük addımlar atılacaqdır. Artıq böyük və güclü zəmin vardır. Bizim tərəfimizdən irəli sürülmüş yeni təşəbbüslər, yeni boru kəmərləri layihələri Azərbaycanın bundan sonrakı onilliklər ərzində uğurlu və sürətli inkişafını təmin edəcəkdir.

Bir sözlə, əgər bugünkü vəziyyəti təhlil etsək və gələcək planlarımızı buna əlavə etsək, görərik ki, Azərbaycan bundan sonra ancaq inkişaf yolu ilə gedəcəkdir.

Gələcəklə bağlı planlarımız çox konkretdir, dəqiqdir. Bu planlar qəbul edilmiş proqramlarda öz əksini tapıb. «Azərbaycan–2020» proqramı qəbul edilib. Orada hər şey açıq-aydın göstərilir. Gələcək inkişafla bağlı cəmiyyətdə də fikir ayrılığı yoxdur. Biz bundan sonra da müasir dövlət kimi inkişaf

edəcəyik. Ən qabaqcıl texnologiyaları Azərbaycana gətirəcəyik. Bu yaxınlarda keçirilən VII İnternet İdarəçilik Forumu özlüyündə bir göstəricidir. Azərbaycanda bütün azadlıqlar – söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, internet azadlığı vardır. Görüşdüyüm bütün dəyərli qonaqlar bunu qeyd edir və gördüyümüz işləri yüksək qiymətləndirirlər. Beynəlxalq Telekommunikasiya Təşkilatının baş katibi, interneti idarə edən təşkilatın baş katibi, digər nümayəndələr – onların hamısı Azərbaycanda bu sahədə gedən prosesləri yüksək qiymətləndirirlər. Ancaq elələri də tapıldı ki, ölkəmizə təxribat törətmək üçün gəlmişdilər. Onların təxribat xarakterli missiyasının üstü açıldı. Elə qüvvələr – ermənipərəst, antiazərbaycan və islamofob qüvvələr var ki, uğurlarımızı qəbul edə, inkişafımızı həzm edə bilmirlər. Elə qüvvələr var və biz onları tanıyırıq. Ancaq onların səyləri və bizə qarşı qarayaxma kampaniyaları heç bir səmərə verməyəcəkdir. Bir daha demək istəyirəm ki, Azərbaycanda gedən inkişafı gizlətmək və görməmək olmaz. Biz açıq cəmiyyət yaratmışıq. Bizdə bütün azadlıqlar vardır.

Bu gün Azərbaycanda internet istifadəçilərinin sayı 65 faizə çatmışdır və biz hər bir kəndə internet xətləri çəkirik. Belə olan halda, hansı mətbuat azadlığının boğulmasından söhbət gedə bilər?! Bu yalandır, bu böhtandır. Bu böhtanları yayan, xüsusilə yüksək vəzifə tutan insanlar utanmalıdırlar ki, onlar böhtanla, yalanla məşğul olurlar. Onsuz da bugünkü dünyada heç nəyi gizlətmək mümkün deyil. Bəlkə 10 il, 20 il bundan əvvəl nəyisə demək, hansısa ölkə haqqında rəy yaratmaq daha asan idi. Bu gün bu mümkün deyildir. Azərbaycana yüz minlərlə, milyonlarla xarici qonaq gəlir. Azərbaycan dünyaya çıxıbdır. Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik. Bütün müasir prosesləri izləyirik və bizə sərfəli olan məsələləri Azərbaycanda həll edirik. Ona görə bu böhtanlar, bu şər, bu iftira bizə yapışmır. Ancaq bu nəyi göstərir? Onu göstərir ki, bizə qarşı mübarizə bundan sonra da aparılacaqdır və bu mübarizənin müxtəlif mərkəzləri vardır. Bu barədə mən

əvvəllər də demişəm, bu gün də istəyirəm ki, cəmiyyət də, partiya üzvləri də bilsinlər. Birinci, erməni lobbisi bizim əsas düşmənimizdir. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm, heç kimdən çəkinmədən: bizim düşmənimiz erməni lobbisidir. Çünki Ermənistan bir ölkə kimi, heç bir əhəmiyyət daşımır. Faktiki olaraq müstəmləkədir, forpostdur, xaricdən idarə olunan, qədim Azərbaycan torpağında süni şəkildə yaradılmış bir ərazidir. Erməni lobbisi isə bizim əsas düşmənimizdir və biz də onlar üçün əsas düşmənik. Əslində, bizim onlarla düşmənçiliyimiz onların bizə qarşı olan düşmənçiliyindən qaynaqlanır. İkinci, antiazərbaycan mərkəzi, islamofobiya xəstəliyinə düçar olmuş qurumlardır, dairələrdir. Onlar da vardır. Əfsuslar olsun ki, onların sayı getdikcə artır. Onların sayının artması bəzi ölkələrdə keçirilmiş seçkilərdə də özünü əyani şəkildə göstərir.

Seçkilərin nəticələrinə baxmaq kifayətdir ki, islamofobiya qüvvələrinin reytinqinin artmasını görmək mümkün olsun. Gənc, dinamik inkişaf edən, heç kimdən asılı olmayan, müstəqil siyasət aparan, müasir müsəlman ölkəsi Azərbaycan onlar üçün problemə çevrilib, yəni onların stereotiplərinə sığmır. Onların stereotipləri dünyada müsəlmanları geridə qalmış insanlar kimi göstərməkdir. İslam müqəddəslərinin təhqiri, bizə qarşı təxribat xarakterli addımların məqsədi məhz ondan ibarətdir ki, savadsız kütləni hərəkətə gətirsin və ondan sonra kütləvi informasiya vasitələri hesabına onların timsalında dünyaya göstərsin ki, bax, müsəlmanlar belədirlər. Biz bilirik ki, nədir bunun təməlində. Bu sadəcə olaraq, hansısa qəzetin öz təşəbbüsü, yaxud da ki, sərt addım deyildir. Bu, vaxtı seçilmiş təxribat xarakterli addımlardır, bu addımların məqsədi dünyada müsəlmanlara qarşı mənfi fikri daha da möhkəmləndirmək və genişləndirməkdir. Əfsuslar olsun ki, savadsız təbəqələr bu təxribatlara uyurlar, buna uymamalıdırlar. Biz mübarizəni sivil yollarla aparırıq və biz sübut etməliyik və edəcəyik ki, islam aləmində inkişaf var, müasirlik var, mərhəmət, dözümlülük var ki, bəzi ölkələrdə bu, artıq çatmır.

Əlbəttə, bu qüvvələrin çərçivələrinə bugünkü Azərbaycan sanki uyğun gəlmir. Necə ola bilər ki, qısa müddətdə, iqtisadi-maliyyə böhranına baxmayaraq, Azərbaycan inkişaf edir, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır?! Tolerantlıq, humanitar məsələlərin həlli üçün beynəlxalq tədbirlər keçirilir və özlüyündə Azərbaycan nümunə göstərir ki, müxtəlif xalqların, dinlərin nümayəndələri bir yerdə, dostluq, qardaşlıq şəraitində necə yaşamalıdır. Dərhal bizə qarşı o mərkəzlərdən də hücumlar, təzyiqlər, təxribatlar başlayır və biz bunun təzahürlərini müxtəlif formalarda görürük.

Digər dairələr vardır ki, sadəcə olaraq, kimsə özünü dünya xəritəsində ləyaqətli aparmağa öyrəşməyibdir. Öyrəşiblər ki, müstəmləkə olsun, metropoliya olsun və bu təfəkkürlə yaşayırlar. Görəndə ki, özünün ləyaqətini həmişə saxlayan, heç kimin qarşısında baş əyməyən, müstəqil siyasət aparan ölkə var, bu da bəziləri üçün bir problemə çevrilir. Yenə bu mərkəzdən də bizə qarşı hücumlar, təzyiqlər başlayır. Mən nəyə görə bunu deyirəm? Bunu deməklə ilk növbədə, fikirlərimi bildirmək istəyirəm və mənim dediklərim sadəcə olaraq, hər hansı bir emosiyalara əsaslanan sözlər deyildir. Bu mənim son bir neçə il ərzində apardığım dərin təhlilin nəticəsidir. Burada təhlil aparmaq üçün məndə kifayət qədər geniş imkanlar var – beynəlxalq təmaslar, görüşlər, məlumat müxtəlifliyi və sair. Yəni bu mənim şüurlu seçimim və fikrimdir. Ona görə də bizim cəmiyyətdə bu cür addımlara çox da böyük reaksiya verilməsin. Çünki 3 mərkəz olmasın, 5 mərkəz olsun, biz öz yolumuzla gedəcəyik, öz bildiyimizi edəcəyik. Çünki bizim güclü dayaqlarımız var. Bu da Azərbaycan xalqıdır.

Bizim güclü dövlətimiz var – müstəqil Azərbaycan dövləti. Dəqiq konsepsiyamız, inkişaf proqramımız var. Bu proqramın reallaşması nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Əgər gələcəklə bağlı fikirlərimizi bir cümlə ilə ifadə etsək deməliyik: biz inkişaf etmiş ölkəyə çevrilməliyik! İnkişaf etmiş ölkələrin meyarları vardır. Bunları bilirik və biz hər bir istiqamət üzrə o meyarlara çatmalıyıq –

həm siyasi, iqtisadi islahatlarda, həm də sosial siyasətdə və digər istiqamətlərdə. Buna nail olmaq üçün həmişəki kimi, cəmiyyətimiz bir nöqtəyə vurmalıdır və cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası növbəti 20 il ərzində öz işini uğurla aparmalıdır, müasir qaydalarla, müasir üsullarla! İşimizi möhkəm tarixi və ideoloji əsaslar üzərində qurmalıyıq.

Bir daha, əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## DÖVLƏT BAYRAĞI MEYDANI ƏTRAFINDA GÖRÜLƏN ABADLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*16 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 16-da Dövlət Bayrağı Meydanı ətrafında görülən abadlıq işlərinin gedişi ilə tanış olmuşlar.*

*Dövlət başçısı və xanımı təmir və bərpa olunan bir sıra binalarda görülən işlərin gedişi ilə maraqlandılar. Bildirildi ki, təmir və bərpa işləri layihəyə uyğun olaraq həyata keçirilir. Daha sonra Prezident və xanımı sərgi salonu kimi nəzərdə tutulan binada həyata keçirilən inşaat işləri ilə də tanış oldular. Dövlət Bayrağı Meydanı ətrafında görülən abadlıq işlərinin gedişi ilə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## «XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR» BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Sizi «Xəzər: ətraf mühit üçün texnologiyalar» Beynəlxalq Ətraf Mühit Sərgisinin açılışı münasibətilə salamlayır, sərginin işinə uğurlar arzulayıram.

Sevindirici haldır ki, ölkəmizdə ətraf mühitin mühafizəsi ilə bağlı belə sərgilərin keçirilməsi artıq ənənəyə çevrilib. Son illərdə qazanılan nailiyyətlər respublikamızın iqtisadi əsaslarını möhkəmləndirərək, qeyri-neft sektorunun, infrastruktur sahələrinin və regionların inkişafının sürətləndirilməsi, xüsusən ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində kompleks tədbirlərin gerçəkləşdirilməsi üçün geniş imkanlar yaratmışdır. Ətraf mühitin yaxşılaşdırılması, təbii sərvətlərin və biomüxtəlifliyin mühafizəsi sahəsində bu günədək bir sıra mühüm layihələr icra edilmişdir. Hazırda cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqəti ekologiya problemlərinin həllinə yönəlib və dövlətimizin müəyyənləşdirdiyi ekoloji siyasət uğurla həyata keçirilməkdədir.

Ətraf mühitin sağlamlaşdırılması və lazımınca qorunması məqsədi ilə bəzi pilot layihələrin icrası zamanı ekoloji tələblərə cavab verən yeni texnologiyalardan istifadə yüksək nəticələr əldə olunmasını təmin edib. Bunlar bir daha göstərir ki, Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələri kimi, ekologiya məsələləri də daim diqqət mərkəzindədir. Vətəndaşlarımızın sağlam ətraf mühitdə yaşaması naminə biz ən müasir «yaşıl texnologiyalar»ın tətbiqindən maksimum faydalanmağı bacarmalıyıq.

İnanıram ki, «Xəzər: ətraf mühit üçün texnologiyalar» Beynəlxalq Ətraf Mühit Sərgisi qarşıya qoyulan məqsədlərə çatmaq baxımından səmərəli olacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 noyabr 2012-ci il*

## SİNQAPUR RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*20 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Sinqapur Respublikasına dövlət səfərinə getmişdir.*

*«Çangi» Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Sinqapurun yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Beynəlxalq aeroportun ali qonaqlar üçün salonunda qısa görüş oldu. Görüşdən sonra prezident İlham Əliyev onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Sinqapur*

*21 noyabr 2012-ci il*

*Sinqapur Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 21-də «İstana» sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan dövlətinin başçısını Sinqapur Respublikasının Prezidenti Toni Tan qarşıladı.*

*Azərbaycan və Sinqapur respublikalarının dövlət bayraqlarının dalğalandığı sarayın qarşısında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi. Azərbaycanın və Sinqapurun dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev «İstana» sarayının Fəxri qonaqlar kitabını imzaladı.*

*Azərbaycan nümayəndə heyətinin üzvləri Sinqapur prezidenti Toni Tana, Sinqapurun dövlət və hökumət rəsmiləri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri prezident İlham Əliyevə təqdim olundu.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Sinqapur*

*21 noyabr 2012-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Sinqapur Respublikasının Prezidenti Toni Tanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.*

*Görüşdə xüsusi vurğulandı ki, Azərbaycan prezidentinin bu səfəri 2 dövlət arasındakı münasibətlərdə çox mühüm və tarixi bir hadisədir. Bu səfər Sinqapur ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə inkişafına güclü təkan verəcəkdir.*

*Qeyd edildi ki, Sinqapur bu gün Cənub-Şərqi Asiya regionunun həyatında önəmli rola malikdir. Bu baxımdan Sinqapur Azərbaycanın Cənubi Qafqazdakı önəmli mövqeyini xatırladır. Diqqətə çatdırıldı ki, çox dinamik inkişaf edən 2 ölkə arasında bütün sahələrdə əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün yaxşı perspektivlər vardır.*

*Bildirildi ki, dövlətlərimiz arasında iqtisadi, ticari və enerji sahələrində müəyyən əlaqələr olsa da, bu hər 2 ölkənin mövcud potensialını əks etdirmir.*

*Danışıqlar zamanı iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün əlaqələndirici bir qurumun yaradılması barədə razılığa gəlindi.*

## BAŞ NAZİR Lİ HSİEN LOONQ İLƏ GÖRÜŞ

*Sinqapur*

*21 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sinqapurun Baş naziri Li Hsien Loonq ilə görüşmüşdür.*

*Görüşdə dövlətlərimiz arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri müzakirə olundu. Azərbaycan və Sinqapur arasında qarşılıqlı sərmayə qoyuluşu məsələlərinin müzakirəsi zamanı vurğulandı ki, bu istiqamətdə artıq müəyyən fəaliyyət mövcuddur. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Sinqapurda, habelə Sinqapurun da bir neçə şirkəti Azərbaycanda iş qurub.*

*Görüşdə hər 2 tərəf üçün maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Qarşılıqlı səfərlərin daha tez-tez həyata keçirilməsinin əməkdaşlığın uğurlu inkişafında əhəmiyyəti vurğulandı.*

# AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHARDA İŞTİRAK

*21 noyabr 2012-ci il*

*Sinqapur Respublikasının Prezidenti Toni Tanın adından noyabrın 21-də bu ölkədə dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

*Dövlət başçıları rəsmi naharda nitq söylədilər.*

## Sinqapur prezidenti Toni Tanın nitqi

Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Zati-aliləri, Sizi və hörmətli nümayəndə heyətinizi Sinqapurda salamlamaqdan şərəf duyuram. Sizin səfəriniz Azərbaycanın dövlət başçısının Sinqapura ilk səfəridir və ikitərəfli münasibətlərimizdə tarixi mərhələni əks etdirir. 18 il bundan əvvəl, diplomatik münasibətlərimiz qurulandan bəri Sinqapur ilə Azərbaycan arasında ikitərəfli əlaqələr əhəmiyyətli dərəcədə inkişaf edib. Son bir neçə ildə çoxsaylı əlamətdar hadisələr baş verib. Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov 2010-cu ilin mart ayında Sinqapura səfər edən ilk Azərbaycan naziri olub. Bundan 2 həftə sonra isə o vaxtkı Xarici İşlər nazirimiz Corc Yeo Azərbaycana rəsmi səfər edib. Səfər çərçivəsində o Sizin iştirakınızla Sinqapurun «Keppel» şirkəti tərəfindən Bakıda inşa ediləcək yeni gəmiqayırma zavodunun təməlqoyma mərasimində iştirak etmək şərəfinə nail olub. Bu gün biz Sizin ölkəmizə dövlət səfərinizin reallaşmasından həqiqətən, fəxarət hissi duyuruq.

Münasibətlərimiz ümumi maraq və qarşılıqlı ehtirama söykənir. Daha iri dövlətlərlə əhatə olunmuş kiçik ölkələr kimi, biz

beynəlxalq təşkilatların və çoxtərəfli forumların əhəmiyyətini alqışlayırıq. Buna görə də təəccüblü deyil ki, ölkələrimiz «Qoşulmama Hərəkatı»nda və bu il 20 illiyi qeyd olunan «Kiçik Dövlətlərin Forumu» kimi beynəlxalq tədbirlərdə yaxşı əməkdaşlıq edirlər. Sizin Sinqapura səfəriniz ölkələrimiz arasında daha sıx əlaqələrin qurulması üçün yaxşı zəmin yaradacaqdır. Səmimi-qəlbdən inanıram ki, münasibətlərimizin siyasi, iqtisadi və digər sahələrdə böyük potensialı vardır.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. Keçən il ölkənizdə 7,6 faiz artım müşahidə olunub və bu gün Azərbaycan dünyada iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkələrdən birinə çevrilib. Sinqapur şirkətləri regiondan kənarda imkanları əhəmiyyətli dərəcədə nəzərdən keçirir və mən inanıram ki, Azərbaycan biznes qurmaq üçün onlara daha cəlbedici olacaqdır. Bu, artıq bizim artmaqda olan ticari və sərmayə əlaqələrimizdən də bəllidir. 2000–2012-ci illər arasında ikitərəfli ticarət dövriyyəsi 2 dəfədən çox artaraq 200 milyon Sinqapur dollarına çatıb. Bir sıra yaddaqalan uğurlarımız olub. Məsələn, «Keppel Offshore and Marine» şirkəti Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan İnvestisiya Şirkəti ilə 52 hektar sahəsi olan yeni gəmiqayırma zavodu və tərsanənin inşasına, idarə olunmasına dair əməkdaşlıq haqqında saziş imzalayıb. «Keppel» şirkəti ARDNŞ ilə birgə 1997-ci ildə Xəzər Gəmiqayırma Şirkətini yaradıb. Bu, Xəzər regionunda ilk beynəlxalq neft-qazma qurğularının təmiri və modernləşdirilməsi üzrə zavod idi. «Surbana Corporation», «Sembcorp» və «Franklin Offshore Group» kimi bir sıra Sinqapur şirkətləri də Azərbaycanda müxtəlif layihələrdə iştirak ediblər. İnanıram ki, bu cür səylər bizim qarşılıqlı faydalı tərəfdaşlığımızın müsbət əlamətidir. Ümid edirəm ki, Zati-aliniz ölkələrimiz arasında daha sıx iqtisadi əməkdaşlığa dəstək verməyə davam edəcəkdir.

Azərbaycan zəngin tarixə və mədəniyyətə, rəngarəng adət-ənənələrə malik olan ölkədir və Sinqapur sizin müxtəlifliyinizdən və mədəni irsinizdən çox şey öyrənə bilər. Azərbaycan

kimi, Sinqapurda da biz mədəni müxtəlifliyə dəyər veririk, ilboyu müxtəlif dini və etnik bayramlar, festivallar keçiririk. Ölkələrimizin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı üçün fürsətləri səbirsizliklə gözləyirəm. İnanıram ki, Sizin səfəriniz əksəriyyəti səyahət həvəskarı olan sinqapurlularda ölkənizin gözəlliklərinə daha çox maraq oyatdı.

Zati-aliləri, əminəm ki, Sizin Sinqapura səfəriniz Azərbaycan ilə Sinqapur arasında münasibətlərin çiçəklənməsinə səbəb olacaqdır.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Zati-aliləri cənab Prezident!

Əziz dostlar!

Cənab Prezident, hər şeydən öncə, mənə və nümayəndə heyətimin üzvlərinə göstərdiyiniz səmimi qonaqpərvərliyə və gözəl ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istərdim. Dünəndən bəri ölkənizin müstəqillik illərində əldə etdiyi inkişaf və tərəqqi mənə böyük təəssürat bağışlayır. Bu gün Sinqapur inkişaf, sosial müdafiə, investisiya imkanları və beynəlxalq aləmə açıq olmaq baxımından dünyada lider ölkələrdən biridir.

Xalqlarımız və ölkələrimiz arasında bir çox bənzərliklər vardır. Azərbaycan da inkişaf etməkdə olan müstəqil ölkədir. Bizim üçün müstəqillik illərində keçid dövrü güclü dövlətçilik, bazar iqtisadiyyatı və yaxşı investisiya imkanları deməkdir. Ölkənizin nümunəsi yenicə müstəqil olan ölkələr üçün olduqca cəlbedicidir. Buna görə də ölkələrimiz arasındakı əməkdaşlıq təbii olaraq sürətlə və uğurla inkişaf edir. Digər bənzərlik isə Sizin də qeyd etdiyiniz kimi, ölkələrimizin çoxmədəniyyətli olmasıdır. Bu, ölkələrimizin əldə etdiyi ən böyük müsbət keyfiyyətlərdən biridir. Müxtəlif etnik və dini qrupların nümayəndələrinin sülh şəraitində birgə yaşaması ənənələri regionda həqiqətən, xüsusi bir mühit yaradır. Sinqapur kimi, Azərbaycan da multikulturalizm prinsiplərinə yüksək dəyər

verir. Buna görə də bizim cəmiyyətlərimiz bütün insanlara öz iradələrini ifadə etməyə, eləcə də sülh və əmin-amanlıq şəraitində yaşamağa imkanlar yaradır.

Təbiidir ki, ölkələrimiz arasındakı münasibətlər olduqca uğurla inkişaf edir və mən deyərdim ki, siyasi əlaqələr çox güclüdür. Mənim ölkənizə ilk dövlət səfərim siyasi əlaqələrimizin bir təzahürüdür. Biz bir çox sahələrdə və müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində fəal şəkildə işləyir və əməkdaşlıq edirik. Keçən ilin oktyabrında Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi zamanı bizə verdiyi dəstəyə, həmçinin «Qoşulmama Hərəkatı»na üzv ölkələrin sammiti zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həlli ilə bağlı qəbul edilən qətnaməyə səs verdiyinizə görə ölkənizə təşəkkür edirəm. Biz bu siyasi dəstək amilinə görə Sizə təşəkkür edirik. Biz də öz növbəmizdə bütün beynəlxalq təşkilatlarda Sinqapuru dəstəkləməyə davam edəcəyik.

Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizlik və sabitliyə ən böyük təhlükədir. Əfsuslar olsun ki, müstəqilliyimiz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğal olunması, azərbaycanlılara qarşı etnik təmizləmə və 1 milyondan çox soydaşımızın öz doğma şəhər və kəndlərindən qovulması, öz vətənində qaçqın və məcburi köçkünə çevrilməsi ilə nəticələnən bu münaqişə ilə qeyd olundu. Beynəlxalq ictimaiyyət bu münaqişənin həlli ilə bağlı öz yanaşmasını ifadə edib və bu münaqişə ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri əsasında həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir. Buna görə də «Qoşulmama Hərəkatı»na üzv ölkələrin sammiti zamanı Sinqapurun yekdil dəstəyi ədalətə və beynəlxalq hüquqa dəstək əlaməti idi. Düşünürəm ki, biz gələcəkdə fəal şəkildə əməkdaşlıq etməyi və siyasi əlaqələrimizi gücləndirməyi davam etdirəcəyik.

Cənab Prezident, bu imkandan istifadə edərək, mən dialoqumuzu davam etdirmək üçün Sizi bir daha münasib bildiyiniz vaxtda Azərbaycana dövlət səfərinə dəvət edirəm. Bu gün biz həm də iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Siz çıxışınızda bu əməkdaşlığın müsbət nümunələrini qeyd etdiniz. Bizim həqiqətən də yaxşı nümunələrimiz vardır. «SOCAR» və «Keppel» arasındakı əməkdaşlığın artıq uzun tarixi və ənənələri mövcuddur. İndi isə bu əməkdaşlıq yeni sahələri əhatə edərək uğurla inkişaf edir. Azərbaycanda tərsanə inşası bizə regiondakı bütün dövlətlərin faydalana biləcəyi güclü Xəzər donanmasını yaratmağa imkan verəcəkdir. Biz qədim İpək yolu üzərində yerləşirik. Azərbaycan ilə Avropa arasında dəmir yolu xəttinin inşası və bunun Xəzər dənizi vasitəsilə Asiya regionunu birləşdirməsi, yüklərin daşınması üçün əlavə gəmilərin alınması – bütün bunlar bizim regionun inkişafına töhfəmiz olacaqdır. Düşünürəm ki, Tarixi İpək yolunun bərpası bu regionda yerləşən bütün ölkələr üçün çox vacibdir.

Biz həmçinin iqtisadi əlaqələri genişləndirməyi və bu sahədə qarşılıqlı faydalı biznes əlaqələrinin inkişaf etdirilməsi üçün digər imkanları da araşdırmağı düşünürük. Fikrimcə, ölkələrimizin biznes dairələri bir araya gəlməli və müxtəlif istiqamətlərdə məsələləri müzakirə etməlidir. Azərbaycan inkişaf edir, cənab Prezident, Sizin də qeyd etdiyiniz kimi, ümumi daxili məhsulun artımı çox sürətlə gedir və son 9 ildə bu, 300 faiz təşkil edib. Daha çox Sinqapur şirkətlərini həm investor, həm də podratçı qismində Azərbaycana işləməyə dəvət etmək üçün çoxlu imkanlar vardır. Biz də öz növbəmizdə investisiya planlarımızla bağlı yeni imkanları nəzərdən keçiririk. Sizin ölkəniz bunun üçün ən əlverişli məkanlardan biridir. Çünki müstəqillik illərində Siz çox güclü iqtisadiyyat qurmağa nail olmusunuz. Qeyd etdiyim kimi, müxtəlif mədəniyyətlərə malik cəmiyyət, siyasi baxımdan sabit vəziyyət mövcuddur. Ona görə də indi Sinqapur artıq bütün dünya üçün çox məna kəsb edir. Sizin transformasiyanız və uğurunuz əvvəldə qeyd etdiyim kimi, transformasiyaya, eləcə də bu potensialdan öz xalqları və

qonşuları üçün istifadə etməyə ehtiyacı olan bir çox ölkələr üçün yaxşı nümunədir.

Bizim həmçinin humanitar, mədəni mübadilə və təhsil sahələrində əməkdaşlıqla bağlı böyük planlarımız vardır. Şadam ki, gənc azərbaycanlılar sizin universitetlərinizdə təhsil alırlar və ümid edirəm ki, Azərbaycandan bir çox insanlar sizin ölkənizə təhsil almağa və müxtəlif sahələrdə yaxşı mütəxəssis olmağa gələcəkdir.

Cənab Prezident, mən bir daha Sizə səmimi qonaqpərvərliyə və dəvətinizə görə təşəkkürümü bildirmək istərdim. Dünən axşam və bu gün gördüklərimin məndə necə yüksək təəssürat yaratdığını bir daha qeyd etmək istəyirəm. Sizi və xalqınızı bu böyük uğura görə təbrik edir, Sizə və Sinqapur xalqına ən xoş arzularımı çatdırır, yeni nailiyyətlər diləyirəm.

# MİLLİ SƏHLƏB BAĞI İLƏ TANIŞLIQ

*Sinqapur*

*21 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sinqapura dövlət səfəri çərçivəsində bu ölkənin paytaxtındakı Milli Səhləb Bağı ilə tanış olmuşdur.*

*Bağın icraçı direktorunun müavini Leonq Çi Çieu dövlətimizin başçısına buradakı nadir bitkilər barədə məlumat verdi. Bildirildi ki, Milli Səhləb Bağında yetişdirilən və dünyanın heç bir yerində olmayan nadir səhləb gülünə Azərbaycan prezidenti İlham Əliyevin adı verilmişdir. Həmin gülün sertifikatı dövlətimizin başçısına təqdim olundu.*

*Prezident İlham Əliyev Sinqapur Milli Səhləb Bağının Fəxri qonaqlar kitabını imzaladı.*

*Daha sonra prezident İlham Əliyev Sinqapur Botanika Bağları Kompleksinin ərazisindəki Milli Səhləb Bağı ilə tanış oldu. Məlumat verildi ki, 70 hektar ərazisi olan bağın təməli XIX əsrin sonlarında qoyulub. Tropikal memarlığın ən mükəmməl nümunələrindən olan bu bağda səhləb güllərinin yetişdirilməsinə XX əsrin əvvəllərindən başlanılıb. 1928-ci ildə burada səhləb güllərinin milli səviyyədə qorunması qərara alınmışdır. İndi bağın kolleksiyasında 1000-dən çox səhləb gülü növü vardır və onun yeni növlərinin yetişdirilməsi ilə bağlı tədqiqatlar davam edir. Burada, həmçinin elmi tədqiqatların aparılması üzrə mərkəz də fəaliyyət göstərir.*

*Prezident İlham Əliyevə Milli Səhləb Bağında mövcud olan suvarma sistemləri və soyuq şəraitdə bitkilərin yetişdirilməsi barədə məlumat verildi.*

*Sonda dövlətimizin başçısına Milli Səhləb Bağının fəaliyyəti və burada yetişdirilən növlər barədə məlumatların toplandığı kitab və bukletlər təqdim olundu.*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİNİN 40-cı PLENAR SESSİYASININ İŞTİRAKÇILARINA

Hörmətli sessiya iştirakçıları!

Sizi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 40-cı plenar iclasının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Müasir dövrdə regional təşkilatlar dövlətlər arasında siyasi və iqtisadi əlaqələrin genişləndirilməsi, sülhün və təhlükəsizliyin qorunması, sabitliyin təmin olunması proseslərində getdikcə daha mühüm rol oynayır. 20 il öncə yaradılmış Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı keçən müddətdə bölgəmizdə əməkdaşlığın genişləndirilməsi məqsədi ilə müxtəlif təşəbbüslər irəli sürmüş və onların həyata keçirilməsi üçün ciddi səylər göstərmişdir. QDİƏT və onun Parlament Məclisi ilə münasibətlərin inkişaf etdirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin vacib istiqamətlərindən birini təşkil etmiş və bu gün də etməkdədir. Biz bu qurumun region ölkələrinin ikitərəfli və çoxtərəfli əməkdaşlığının dərinləşdirilməsinə, ümumi problemlərimizin həllinin tapılmasına verdiyi töhfələri daim yüksək qiymətləndirmişik.

QDİƏT üzvü olan dövlətlərin birgə səyləri ilə həyata keçirilmiş və icra edilməkdə olan transmilli layihələr bölgəmizin dinamik inkişafı üçün əlverişli imkanlar yaratmışdır. Lakin regionumuzda bununla yanaşı, həm də həlli gecikdirilən bir sıra problemlərin, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu yerli ölkələrin tərəqqisi yolunda böyük maneə olaraq qalır. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın doğma yurdlarından didərgin salınması nəinki təkcə bizim, həm də digər qonşu ölkələrin və bütövlükdə regionun inkişafını ləngidir, sülh və

tərəqqi üçün ciddi təhlükə törədir. Şübhə yoxdur ki, əksər münaqişələrin hamılıqla tanınmış beynəlxalq hüquq prinsip və normaları əsasında ədalətli həlli dövlətlərarası əməkdaşlığın inkişafı üçün də tamamilə yeni perspektivlər aça bilər.

Hörmətli sessiya iştirakçıları!

12 dövlətin parlamentlərini birləşdirən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası kimi nüfuzlu beynəlxalq təşkilatın yüksək səviyyəli forumunun yenidən Bakı şəhərində keçirilməsi bizim üçün əlamətdar hadisədir. Ümidvaram ki, bu sessiyada qəbul ediləcək qərarlar ölkələrimiz arasında əməkdaşlığın güclənməsinə təkan verəcək və xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir. Sizi bir daha Azərbaycan Respublikasında səmimi-qəlbdən salamlayır, mötəbər toplantınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2012-ci il*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÖLKƏLƏRİ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ I FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Sizi ürəkdən salamlayır, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri qeyri-hökumət təşkilatlarının I Forumunun işə başlaması münasibətilə təbrik edirəm.

Bu il Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının 20 ili tamam oldu. Ötən dövr ərzində bu təşkilat üzv ölkələr arasında siyasi və iqtisadi münasibətlərin dərinləşməsi, Xəzər dənizindən Aralıq dənizinə qədər olan böyük bir məkanda regional əməkdaşlığın genişlənməsi işinə öz layiqli töhfəsini vermişdir.

QDİƏT-ə daxil olan dövlətlər arasında əlaqələrin inkişafına ictimai dəstək vermək məqsədi ilə üzv ölkələrin qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsi təşəbbüsü müsbət haldır. Qloballaşma meyillərinin və demokratik dəyişikliklərin geniş vüsət aldığı müasir dövrdə vətəndaş cəmiyyəti institutlarının lokal, regional və beynəlxalq miqyasda cərəyan edən proseslərə təsir imkanları xeyli artmışdır. Onlar sülhün və təhlükəsizliyin qorunmasında, xalqlar arasında əlaqələrin güclənməsində, habelə irimiqyaslı layihələrin həyata keçirilməsində özünəməxsus rol oynayır. QDİƏT ölkələrinin qeyri-hökumət təşkilatları da bölgədə birgə reallaşdırdığımız transmilli enerji, nəqliyyat-kommunikasiya və digər sahələri əhatə edən böyük layihələrə, üzv ölkələrin bir-biri ilə ictimai-siyasi və iqtisadi əlaqələrinin genişlənməsinə öz dəyərli töhfələrini verə bilərlər.

Ümidvaram ki, forumda iştirak edən qeyri-hökumət təşkilatlarının təmsilçiləri regionumuzda qazanılmış müsbət təcrübəyə arxalanaraq, gələcək fəaliyyətin başlıca istiqamətlərinin müəyyənləşdirilməsi, forma və metodlarının tapılması üçün səmərəli müzakirələr aparacaq və müvafiq qərarlar qəbul edəcəklər. Forumun işinə uğurlar, hər bir iştirakçıya möhkəm cansağlığı və səadət arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2012-ci il*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Rumıniya münasibətləri dinamik inkişaf yolundadır. Ölkələrimiz arasında daim genişlənən dostluq əlaqələri ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız üçün möhkəm zəmin yaratmışdır.

İqtisadi təşəbbüslərimizin gerçəkləşməsi istiqamətində atdığımız addımlar özünün məzmunu və perspektivləri ilə münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir. Əminəm ki, dostluq və tərəfdaşlıq əlaqələrimizi daha da möhkəmləndirmək üçün bundan sonra da səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2012-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

Əlahəzrət!

Əziz qardaşım!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Əminəm ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin, qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Əlahəzrət, bu xoş gündə Sizə Allah-Taaladan möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2012-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra daha da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2012-ci il*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

Hörmətli cənab Prezident!

Milli bayramınız – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Laos arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2012-ci il*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ VİKTOR TVİRKUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Viktor Tvirkunu qəbul etmişdir.*

*Viktor Tvirkun Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsinə seçilərkən Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsində ona uğurlar arzuladı.*

*Görüşdə region ölkələri arasında əlaqələrin genişləndirilməsində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının rolu vurğulandı, Təşkilatın Parlament Assambleyasının Bakıda keçiriləcən növbəti iclasında müzakirə olunacaq məsələlərin əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏMİL ÇİÇƏYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Türkiyə Böyük Millət Məclisinin Sədri Cəmil Çiçəyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyə Böyük Millət Məclisinin Sədri Cəmil Çiçək ölkəmizə hər gəlişi zamanı paytaxtımızda çox böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. «Azərbaycan bölgənin, Qafqazın parlayan ulduzudur, inşallah, bu ulduz həmişə parlamaqda davam edəcək» – deyən Cəmil Çiçək ölkəmizin gələcək illərdə də sürətlə inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. O, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin regionda sülhün və sabitliyin möhkəmləndirilməsində, qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsində mühüm əhəmiyyət daşıdığını vurğuladı. Cəmil Çiçək ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əlaqələr sahəsində də uğurla inkişaf etdiyini vurğuladı.*

*Dünyada gedən proseslərdə Türkiyənin fəal rolunu yüksək qiymətləndirən prezident İlham Əliyev Azərbaycan–Türkiyə birliyinin regional əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı, ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət və digər sahələrdə davam edən uğurlu əməkdaşlıq əlaqələrinin bütün regionun inkişafı üçün böyük əhəmiyyət daşıdığını dedi və bu əməkdaşlığın daha da möhkəmləndirilməsində Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının önəmini qeyd etdi. Parlamentlərarası əməkdaşlığın da yüksək səviyyədə olduğunu vurğulayan*

*dövlətimizin başçısı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini daim dəstəklədiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri Cəmil Çiçəyin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesinin gedişi və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ ANJİ KASPRŞİK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Jak Foru (Fransa), həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması ilə əlaqədar danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt Font de Moranı və Cozef Debono Qrexi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində əldə olunan uğurların önəmi vurğulandı, bu əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ RASİM LYAYİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Serbiya Respublikası Baş nazirinin müavini, Xarici və Daxili Ticarət, Telekommunikasiyalar naziri, Serbiya–Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının həmsədri Rasim Lyayiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Serbiya arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimizin mövcud tərəfdaşlıq əlaqələrinin bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi, Azərbaycan–Serbiya Hökumətlərarası Komissiyanın növbəti iclasının əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığının daha da genişləndirilməsinin zəruriliyini vurğuladı.*

*Serbiya Respublikası Baş nazirinin müavini Rasim Lyayiç Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan qonaq Azərbaycanın Serbiyada həyata keçirdiyi müxtəlif layihələrə görə minnətdarlığını ifadə etdi, əməkdaşlığımızın daha da möhkəmləndirilməsində bu layihələrin rolunu vurğuladı.*

*Dövlətimizin başçısı prezident Tomislav Nikoliçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

# ARGENTİNA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, HEYVANDARLIQ VƏ BALIQÇILIQ NAZİRİ NORBERTO YAUHARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Argentina Respublikasının Kənd Təsərrüfatı, Heyvandarlıq və Balıqçılıq naziri Norberto Yauharın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Argentina arasında ikitərəfli əlaqələrin son illər müxtəlif sahələrdə sürətlə inkişaf etdiyini vurğuladı. Qarşılıqlı səfərlərin intensiv xarakter daşıdığını deyən prezident İlham Əliyev bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizin Argentina ilə əlaqələri iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatı sektorunda genişləndirməkdə maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Argentina Respublikasının Kənd Təsərrüfatı, Heyvandarlıq və Balıqçılıq naziri Norberto Yauharın ölkəmizə səfərinin bu sahədə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Argentinanın Kənd Təsərrüfatı, Heyvandarlıq və Balıqçılıq naziri Norberto Yauhar ölkələrimiz arasında əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu vurğuladı. O, Azərbaycan ilə Argentina arasında əlaqələrin iqtisadi, sosial və digər sahələrdə genişləndirilməsi üçün ölkəsinin prezidentindən ciddi tapşırıqlar aldığını bildirdi.*

## I AZƏRBAYCAN BEYNƏLXALQ İDMAN, İDMAN LƏVAZİMATI VƏ GEYİMİ, HƏMÇİNİN GƏNCLƏR TƏŞKİLATLARININ IV RESPUBLİKA SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*28 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 28-də Bakı Sərgi Mərkəzində I Azərbaycan Beynəlxalq idman, idman ləvazimatı və geyimi, həmçinin gənclər təşkilatlarının IV Respublika sərgiləri ilə tanış olmuşlar.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına və xanımına məlumat verdi ki, ölkəmizdə ilk dəfə keçirilən idman, idman ləvazimatı və geyimi beynəlxalq sərgisi Azərbaycanda idmanın inkişafına göstərilən diqqətin təzahürüdür. Sərginin əsas məqsədlərindən biri bu sahədə irihəcmli infrastruktur layihələrinə investisiyaların cəlb edilməsinə nail olmaqdır. 2012-ci ilin Azərbaycanda «İdman ili» elan olunması, Londonda keçirilən Yay Olimpiya və Paralimpiya oyunlarında idmançılarımızın yüksək nailiyyətləri də bu sərginin əhəmiyyətini artıran mühüm amillərdir. Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçirilən sərgi öz meydançasında 50 iştirakçını, o cümlədən Azərbaycanın idman federasiyaları və klublarını, idman malları və xidmətlərinin yerli və xarici istehsalçılarını, eləcə də ictimai təşkilatları bir araya gətirmişdir.*

*Diqqətə çatdırıldı ki, sərgidə idman obyektlərinin təchizatı sahəsində mütərəqqi həll variantları, idman qurğuları və ləvazimatları, habelə trenajorlar təqdim olunur. Sərgi ekspozisiyasının böyük hissəsini Azərbaycanda idmanın inkişaf etmiş populyar növləri ilə məşğul olan müxtəlif federasiyalar tutur.*

*Belə ki, bu iştirakçıların siyahısına* boks, *futbol, taekvondo, cüdo, qolf, alpinizm, stend atıcılığı, stolüstü tennis, yelkənli qayıq idmanı, üzgüçülük və idmanın digər növləri ilə məşğul* olan *federasiyalar* daxildir. *Azərbaycanın* olimpiya *və* pa*ralimpiya komitələri də sərginin fəal iştirakçılarıdır. Azər*baycanda idman *sənayesinin inkişafını əks etdirən sərgi* idman *komandalarının,* klublar *və federasiyaların fəaliyyəti ilə bağlı* geniş *məlumat bazasını nümayiş* etdirir.

Prezident *İlham Əliyev və xanımı* Mehriban *Əliyeva sərgilərin pavilyonları ilə tanış* oldular.

*Bu il 20 illiyi qeyd edilən* Milli *Olimpiya Komitəsinin həyata keçirdiyi tədbirlərdən bəhs edən* ekspozisiya *ilə tanış* olan *dövlətimizin başçısına* daha sonra *Azərbaycan Taekvondo və* Boks *federasiyalarının fəaliyyəti barədə də məlumat* verildi.

*Azərbaycan Şahmat Federasiyasının* ekspozisiyasında pre*zident İlham Əliyevi Beynəlxalq Şahmat Federasiyasının* pre*zidenti Kirsan İlümjinov qarşıladı.*

*Azərbaycan şahmatının uğurlarının geniş əks olunduğu eks*pozisiya *ilə tanışlıq zamanı* bildirildi *ki, artıq* milli *şahmat federasiyasının* yeni *binasının layihəsi hazırdır.*

*Bu barədə dövlətimizin başçısına məlumat verən* Kirsan *İlümjinov* daha sonra prezident *İlham Əliyev ilə şahmat* oynadı. *Sərgidə* federasiyalarla *yanaşı,* idman *geyimləri* istehsal *edən şirkətlər də təmsil* olunur. *Ölkəmizin* ilk idman brendi olan «Novco sport» *hazırda* idman *geyimlərinin əsas* istehsalçısı kimi, komanda *və* klub *rəhbərlərinə* xarici *ölkələrə* getmədən *öncə seçim və sifarişlərini Azərbaycanda etmək* imkanı *yaradır.*

*Azərbaycan* Futbol *Federasiyaları Assosiasiyası* da yaran*dığı* vaxtdan *ölkədə idmanın inkişafına dəstək* verir. Bu ilin *sentyabrında 17 yaşadək qadınlar arasında* futbol *üzrə* dünya *çempionatının ölkəmizdə keçirilməsi* bir daha *Azərbaycan* futbolunun *inkişafına yaradılan əlverişli şəraitdən xəbər* verir.

Ekspozisiya *ilə tanışlıq zamanı dövlətimizin başçısına* futbol *üzrə Azərbaycan* milli *yığmasının* geyimi *təqdim* olundu.

Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası da sərgidə iştirak edirdi. 2005-ci ildən fəaliyyət göstərən federasiyanın xətti ilə qısa vaxtda ölkəmizdə dağ idman növünün inkişafı genişlənmiş, 48 klub yaradılmışdır. 2013-cü ildə idman dırmanması üzrə dünya kubokunun sürətli mərhələ yarışı Bakıda keçiriləcəkdir.

Son illərin idman uğurları sırasında Azərbaycan Gimnastika Federasiyasının fəaliyyəti də diqqəti cəlb edir. Hazırda 4 gimnastika növünü özündə birləşdirən federasiya son 10 ildə bir çox beynəlxalq yarışlar keçirib, Azərbaycan idmançıları yüksək nailiyyətlər qazanıblar.

Dövlət başçısının diqqətinə çatdırıldı ki, idman, idman ləvazimatı və geyimi sərgisi ilə eyni meydançada gənclər təşkilatlarının IV Respublika sərgisi də keçirilir. Azərbaycanın 76 gənclər təşkilatının iştirak etdiyi sərginin əsas məqsədi ictimaiyyətə gənclər təşkilatlarının fəaliyyəti, onların həyata keçirdiyi layihə və tədbirlər, həmçinin gənclərin ictimai fəaliyyətə cəlb edilməsi haqqında məlumat verməkdir.

Müxtəlif sahələrdə fəaliyyət göstərən gənclər təşkilatlarının əldə etdiyi uğurları yetərincə əks etdirən sərgidə Xaricdə Təhsil Alan və Məzun olan Azərbaycanlı Tələbələrin Beynəlxalq Forumu (ASAİF) ilə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə üstünlük verən gənclər təşkilatlarının nailiyyətləri də nümayiş etdirilir.

Sərgidə 2011-ci ildə yaradılmış Azərbaycan Gənclər Fondunun fəaliyyəti də diqqəti cəlb edir. Gənclər siyasəti sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyətli layihələrin dəstəklənməsinə xüsusi diqqət yetirən fond gənclərin inkişafını təmin edən müxtəlif regional və beynəlxalq layihələrin hazırlanıb həyata keçirilməsinə dəstək verir. İndiyədək 240 qeyri-hökumət təşkilatı və 174 yaradıcı və istedadlı gəncin qeydiyyatdan keçdiyi fond 135 layihəni dəstəkləyib.

Bu prosesdə «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı da xüsusi rol oynayır. Bu proqram çərçivəsin-

*də həyata keçirilən layihələr bütün ölkəni əhatə edir. Onlardan biri də «Azərbaycan tələbə kartı» layihəsidir.*

*Layihə ilə bağlı məlumat verildikdən sonra ilk «Azərbaycan tələbə kartı» dövlətimizin başçısına təqdim olundu.*

*Bildirildi ki, ölkəmizdə indiyədək 17 Gənclər Mərkəzi istifadəyə verilmişdir. 2015-ci ildə onların sayının 38-ə çatdırılması planlaşdırılır.*

*Digər layihə vətənpərvərlik ruhunda – «Odlar yurdu» və «İşğal altında» milli kompüter oyunlarının hazırlanması və ictimaiyyətə təqdim olunmasıdır. Bununla yanaşı, gənclər arasında vətənpərvərlik ruhunun yüksək səviyyədə saxlanması üçün müxtəlif telelayihələr də hazırlanıb efirə verilir.*

*Bu gün Azərbaycan gəncliyinin beynəlxalq fəaliyyəti də diqqəti cəlb edir. Bu sırada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) gördüyü işlər təqdirəlayiqdir. Rusiyada azərbaycanlı gənclərin birləşdiyi təşkilat funksiyasını yerinə yetirən RAGT-ın əsas fəaliyyət istiqamətlərindən biri də azərbaycanlı gənclərin Rusiyanın ictimai həyatındakı rolunu artırmaqdır. Bununla bağlı bir çox layihələrə imza atan RAGT-ın indi Rusiyanın müxtəlif bölgələrində yerli təşkilatlarının yaradılması istiqamətində işlər davam etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının fəaliyyəti ilə də tanış oldular.*

*Dövlətimizin başçısına Azərbaycan gənclərinin ictimai-siyasi fəallığının artırılmasında mühüm rol oynayan «İrəli» İctimai Birliyinin həyata keçirdiyi layihələr barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev sərgilərin işinə uğurlar arzuladı.*

## LATVİYA RESPUBLİKASININ BAŞ NAZİRİ VALDİS DOMBROVSKİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Latviya Respublikasının Baş naziri Valdis Dombrovskisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin inkişafının razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərləri bu münasibətlərin yüksək göstəricisi kimi dəyərləndirdi. Latviyaya rəsmi səfəri zamanı Baş nazir Valdis Dombrovskislə görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev onun ölkəmizə bu səfərinin əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi. Əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsində hökumətlərarası birgə Komissiyanın rolunu vurğulayan dövlətimizin başçısı əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi.*

*Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Latviya Respublikasının Baş naziri Valdis Dombrovskis paytaxtımızda gedən yüksək inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını dedi. Azərbaycan ilə Latviya arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayan Baş nazir əlaqələrimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Valdis Dombrovskis iş adamlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərini ölkəmizlə əməkdaşlığın genişləndirilməsinə olan marağın göstəricisi kimi dəyərləndirdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 noyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkəmiz ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını xanım Ketrin Eştona çatdırmağı xahiş etdi.*

**TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tailand arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2012-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Finlandiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi və inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Finlandiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2012-ci il*

**SLOVENİYA RESPUBLİKASININ**
**YENİ SEÇİLMİŞ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Pahor!

Sloveniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Keçən il Sloveniyaya etdiyim rəsmi səfər zamanı Sizinlə keçirdiyim görüşü məmnuniyyətlə xatırlayıram.

Şübhə etmirəm ki, Azərbaycan ilə Sloveniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sloveniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 dekabr 2012-ci il*

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN 2015-ci İLDƏ I AVROPA OLİMPİYA OYUNLARININ BAKIDA KEÇİRİLMƏSİ İLƏ BAĞLI QƏRARI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK!

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Dekabrın 8-də Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə ilk Avropa Olimpiya oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu böyük tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu doğrudan da tarixi hadisədir. Çünki bu vaxta qədər Avropa Olimpiya oyunları keçirilməmişdir və ilk oyunların Bakıda keçirilməsi böyük tarixi hadisədir, ölkəmizin böyük uğurudur.

Bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara, Avropa Olimpiya Komitəsinə böyük minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm. Qeyd etmək istəyirəm ki, Azərbaycan bu oyunları yüksək səviyyədə keçirəcəkdir. Beləliklə, Bakı şəhəri birinci oyunların keçirilməsində böyük xidmətlərinə görə Avropa Olimpiya oyunlarının tarixinə daxil ediləcəkdir.

Bu qərarın qəbul edilməsində bir neçə amil öz rolunu oynamışdır. İlk növbədə isə ölkəmizin beynəlxalq nüfuzu öz rolunu oynamışdır. Azərbaycan bu gün dünyada böyük hörmətə malik olan bir ölkədir. Dünya birliyində bizim rolumuz, təsir imkanlarımız artır və dünya birliyi Azərbaycana böyük hörmət və etimadla yanaşır.

Keçən il ölkəmizin tarixində böyük hadisə baş vermişdir, Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv qəbul edilmişdir. Biz bu şərəfə 155 ölkənin dəstəyi ilə layiq görüldük və bir il ərzində Təhlükəsizlik Şurasının üzvü kimi, Azərbaycan öz prinsipial mövqeyini göstərir. Əvvəllər də bəyan etdiyim kimi, biz

Təhlükəsizlik Şurasında beynəlxalq hüquq normalarını və ədaləti müdafiə edəcəyik.

Bir sözlə, beynəlxalq əlaqələrimiz genişlənir, dostlarımızın sayı artır və ölkəmizin beynəlxalq imici də çox müsbətdir. Digər amil ondan ibarətdir ki, Azərbaycanda uzun illər ictimai-siyasi sabitlik hökm sürür. Bu da çox vacibdir. Ölkəmizin dinamik, uğurlu inkişafı üçün ictimai-siyasi sabitlik çox mühüm rol oynayır və Azərbaycan bu baxımdan nümunəvi ölkə kimi dünyada özünü təsdiqləyibdir.

Əlbəttə ki, iqtisadi uğurlarımız da bu qərarın qəbul edilməsində öz rolunu oynayıb. Son 9 il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edir. İqtisadiyyatımız 3 dəfə, yəni 300 faiz artmışdır. İqtisadiyyatımızın şaxələndirilməsi prosesi uğurla gedir. Biz bu ilin yekunlarına görə də yenidən gözəl iqtisadi uğurları görürük və bununla fəxr edirik.

Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 46-cı, MDB məkanında 1-ci yerdədir. Bütün əsas beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini hətta böhranlı illərdə də artırıblar. Yəni iqtisadi imkanlar da öz rolunu oynayıb.

Ölkəmizdə və Bakı şəhərində müasir infrastruktur layihələri həyata keçirilir. Onların bir çoxu artıq tamamlanıb. Bakı dünyanın ən gözəl şəhərlərinin siyahısındadır. Təsadüfi deyildir ki, bu amil də öz rolunu oynayır. Növbəti illərdə də Bakının infrastrukturunun genişləndirilməsi, müasirləşdirilməsi istiqamətində əlavə tədbirlər görüləcəkdir.

Şəhərimizdə müasir infrastruktur, xidmət obyektləri tikilir. Şəhər gündən-günə gözəlləşir. Böyük işlər görülür, ictimai yerlər, parklar salınır, binalar bərpa edilir. Özəl sektorun inkişafı üçün çox gözəl şərait vardır. Azərbaycanda investisiya iqlimi çox müsbətdir. İqtisadi, yəni maliyyə resurslarımız da bizə imkan verəcəkdir ki, Olimpiadanı yüksək səviyyədə keçirək.

Onu da qeyd etmək istəyirəm ki, Bakıda və bütövlükdə Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Vaxtilə başlanmış layihələrin bir

çoxu başa çatmışdır. Hazırda tikilməkdə olan idman obyektləri yaxın 2 il ərzində istifadəyə veriləcəkdir. Yəni biz Avropa Olimpiya oyunlarını keçirmək üçün bütün imkanlara malikik. Həm idman infrastrukturu, eyni zamanda, inkişaf etmiş şəhərimiz vardır.

Bu xəbər cəmiyyətdə də böyük sevinc hissi ilə qarşılandı. Bu qərarın qəbul edilməsində, şübhəsiz ki, idmançılarımızın uğurları da öz rolunu oynayıb. Azərbaycan bu gün dünyada və Avropada idman dövləti kimi tanınır. Bizim uğurlarımız həm beynəlxalq yarışlarda əldə etdiyimiz medallarla ölçülür, eyni zamanda, Azərbaycanda, Bakıda yaradılmış müasir idman infrastrukturu da uğurlarımızı tamamlayır. Buna Azərbaycanda və Bakıda keçirilmiş dünya, Avropa çempionatlarını əlavə etsək görərik ki, doğrudan da Azərbaycanda idman uğurla, sürətlə inkişaf edir. İdmanın kütləviliyi təmin edilir və Azərbaycanda olimpiya hərəkatı çox yüksək səviyyədədir.

İdmançılarımızın uğurları özünü Yay Olimpiya oyunlarında da göstərmişdir. Bu il Yay Olimpiya oyunlarında biz tarixi qələbə qazanmışıq – 10 medal qazanmışıq. Dünya miqyasında 30-cu, Avropa ölkələri arasında isə 15-ci yerə layiq görülmüşük. Yəni bu amillər qərarın qəbul edilməsində öz rolunu oynayıb.

Bir daha demək istəyirəm ki, I Avropa Olimpiya oyunlarının Bakıda keçirilməsi barədə qərar böyük tarixi hadisədir. Bu bizə göstərilən böyük inamdır, böyük etimaddır, böyük hörmətdir, eyni zamanda, üzərimizə düşən böyük məsuliyyətdir. Mən şübhə etmirəm ki, biz bu sınaqdan da uğurla və şərəflə çıxacağıq, bu oyunları yüksək səviyyədə keçirəcəyik.

Oyunların keçirilməsi 2015-ci ildə nəzərdə tutulur. Yəni bizim hazırlıq üçün cəmi 2 il vaxtımız vardır. Əminəm ki, biz bu oyunlara hazırlıqla bağlı bütün tədbirləri görüb, onu yüksək səviyyədə keçirəcəyik. Bir daha dünyaya göstərəcəyik ki, gənc,

müstəqil, dinamik inkişaf edən Azərbaycan böyük uğurlara nail olubdur.

Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Eşq olsun Azərbaycana!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2012-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ TOMAS O. MELİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da ABŞ Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Tomas O.Melianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*ABŞ Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Tomas O.Melia nümayəndə heyətinin üzvlərini dövlətimizin başçısına təqdim etdi. Regiona səfərlərinə Azərbaycandan başladıqlarını deyən qonaq bildirdi ki, səfərin əsas məqsədi region ölkələri ilə tərəfdaşlıq əlaqələrinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparmaqdır.*

*ABŞ Beynəlxalq İnkişaf Agentliyi administratorunun Avropa və Avrasiya Bürosu üzrə müavini xanım Aleksander Peyc təmsil etdiyi qurumun Azərbaycanda həyata keçirdiyi müxtəlif sosial və humanitar layihələrin bundan sonra da davam etdiriləcəyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini, əməkdaşlığı bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu qeyd etdi. Dövlətimizin başçısı ABŞ Dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Tomas O.Melianın Azərbaycana səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

## ASİYA İNKİŞAF BANKININ MƏRKƏZİ VƏ QƏRBİ ASİYA DEPARTAMENTİNİN DİREKTORU KLAUS GERHAUSER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin direktoru Klaus Gerhauseri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizin Asiya İnkişaf Bankı ilə birgə həyata keçirdiyi su, nəqliyyat və digər infrastruktur layihələrinin əhəmiyyəti qeyd olundu, bu əməkdaşlığın digər sahələrdə də genişlənəcəyinə əminlik ifadə edildi.*

## YAPONİYA İMPERATORU
## ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Dost Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Yaponiyanı möhkəm dostluq və hərtərəfli əməkdaşlıq münasibətləri birləşdirir. Siyasi təmaslarımızın gündən-günə genişlənməsi, iqtisadi və humanitar sahələrdə fəal əməkdaşlığımız xüsusilə məmnunluq doğurur.

Əminəm ki, ikitərəfli münasibətlərimizin hazırkı yüksək səviyyəsinin qorunub saxlanması, qarşılıqlı maraq doğuran işgüzar əlaqələrimizin inkişaf etdirilməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, uzun ömür, işlərinizdə uğurlar, dost Yaponiya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2012-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Müstəqil Qazaxıstanın Sizin rəhbərliyiniz altında sosial-iqtisadi və siyasi islahatlar yolu ilə inamla irəliləyərək çiçəklənən bir ölkəyə çevrilməsi və beynəlxalq aləmdə böyük nüfuz qazanması bizi sevindirir.

Məmnunam ki, bu gün Azərbaycan–Qazaxıstan münasibətləri hərtərəfli və dinamik inkişaf yolundadır. Qarşılıqlı anlaşma və etimada əsaslanan dövlətlərarası münasibətlərimiz bütün sahələrdə səmərəli əməkdaşlığımız üçün geniş imkanlar açmışdır. Əminəm ki, əməkdaşlığımızın mövcud potensialından tam bəhrələnmək üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Belə bir gündə Sizə, hörmətli Nursultan Abişeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2012-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ
YENİ SEÇİLMİŞ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB UELİ MORERƏ**

Hörmətli cənab Morer!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan–İsveçrə münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimizi birləşdirən dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2012-ci il*

## QƏTƏR DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, birgə səylərimizlə Azərbaycan–Qətər dostluğu və əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə və qardaş xalqınıza ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2012-ci il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Qətər münasibətlərinin inkişaf səviyyəsi məmnunluq doğurur. Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız bundan sonra daha da genişlənərək xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qətər xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2012-ci il*

**BƏHREYN KRALI ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Bəhreyn münasibətləri, dostluq əlaqələrimiz və əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da öz inkişafını müvəffəqiyyətlə davam etdirəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2012-ci il*

## ÜMUMDÜNYA AĞIR ATLETİKA FEDERASİYASININ PREZİDENTİ TOMAŞ AYAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Ümumdünya Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayanı qəbul etmişdir.*

*Ümumdünya Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayan rəhbərlik etdiyi Federasiyanın növbəti konqresinin Bakıda keçirilməsi barədə qərar qəbul olunduğunu dedi və bu konqresin əhəmiyyətini vurğuladı. Konqresdə 100-dən çox ölkənin təmsil olunacağını deyən Tomaş Ayan tədbirdən sonra 25 ölkədən olan idmançıların iştirakı ilə yarışların keçiriləcəyini də bildirdi.*

*Dövlətimizin başçısı Ümumdünya Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayanla XXX London Yay Olimpiya oyunları zamanı görüşünü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Ümumdünya Ağır Atletika Federasiyasının növbəti konqresinin Bakıda keçirilməsinin önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən ağır atletikanın inkişafına göstərilən yüksək dövlət qayğısından danışıldı, Azərbaycan idmançılarının nüfuzlu beynəlxalq yarışlarda əldə etdikləri uğurların önəmi qeyd olundu, ölkəmizin Ümumdünya Ağır Atletika Federasiyası ilə əməkdaşlığının bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

## XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*Fəxri xiyaban*

*12 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişdir.*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 9 il keçir. Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 9-cu ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanı ziyarət edərək, xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.*

*Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə birinci dəfə respublika rəhbərliyinə gələn Heydər Əliyev əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970–1985-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl*

*respublikalarından biri səviyyəsinə çatdıdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.*

*1993-cü ilin yayında, müstəqilliyini təzəcə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və ulu öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.*

*Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin təmsilçiləri də Fəxri xiyabana gəldilər. Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoydu.*

*Ulu öndərin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## POLŞA RESPUBLİKASI PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ, İSVEÇ KRALLIĞININ VƏ BOLQARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Polşa Respublikası Prezident Administrasiyasının rəhbəri Yatsek Mixalovskini, İsveç Krallığının Xarici İşlər naziri Karl Bildti və Bolqarıstan Respublikasının Xarici İşlər naziri Nikolay Mladenovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı, o cümlədən nümayəndə heyəti üzvlərinin təmsil etdikləri ölkələr arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə edildi. Nümayəndə heyətinin üzvləri Avropa İttifaqının və təmsil etdikləri ölkələrin Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirdilər.*

*Görüşdə, həmçinin ölkəmizlə Avropa İttifaqı arasında əməkdaşlığın təkcə enerji sektorunda deyil, iqtisadiyyatın digər istiqamətlərində, o cümlədən sərmayə qoyuluşu sahəsində də inkişaf etdirilməsinin önəmi qeyd olundu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*12 dekabr 2012-ci il*

*Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviç dekabrın 12-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviçi Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər qarşıladılar.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviç ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Viktor Fyodoroviç, Azərbaycana xoş gəlmisiniz! Sizi yenidən görməyimə çox şadam. Səfəriniz qısamüddətli olmasına baxmayaraq ümidvaram ki, bir çox məsələləri ətraflı müzakirə edə biləcəyik. Biz dəfələrlə ikitərəfli münasibətlərimizi müzakirə etmişik. Həm də çox şadam ki, irəliyə doğru tərəqqi görünür. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə irəliləyiş göz qabağındadır. Biz istiqaməti uzunmüddətli və çoxşaxəli əməkdaşlığa yönəltmişik və əminəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri uğurla davam edəcəkdir. Bir daha xoş gəlmisiniz!

*Ukrayna prezidenti Viktor Yanukoviç bu səfərin ikitərəfli münasibətlərin daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan olduğunu vurğuladı. Ukrayna dövlətinin başçısı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ehtiramını bildirdi.*

**V i k t o r  Y a n u k o v i ç:** Mən həmçinin bu gün Ukraynanın yaxın dostu olan Heydər Əliyevin nurlu xatirəsini yad edənlərə qoşulmaq istəyirəm. Siz bu ənənəni ləyaqətlə davam etdirirsiniz.

Biz həmişə dostlarımızın uğurlarına sevinirik və mən bilirəm ki, Siz də Ukraynaya eyni səmimi münasibət bəsləyirsiniz. Düşünürəm ki, bizim birlikdə ürəkdən, dostcasına müzakirəyə çıxarılmalı ənənəvi məsələlərimiz vardır. Eyni zamanda, mən çox şadam ki, Azərbaycan I Avropa Olimpiya oyunlarını keçirən ölkə olacaqdır.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Konnektikut ştatının Nyutaun şəhərindəki məktəbdə baş vermiş dəhşətli faciə barədə xəbər məni son dərəcə sarsıtdı və kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, səbir və dözüm arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 dekabr 2012-ci il*

# FÜZULİ RAYONUNA SƏFƏR

*15 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Füzuli rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı Füzuli rayonunun Horadiz şəhərindəki Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

## Horadizdə Heydər parkının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Horadizdə Heydər parkının açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, Heydər Əliyev prospektində yerləşən Heydər parkının tikintisinə 2011-ci ilin iyununda başlanılmışdır. İnşaat işləri cari ilin sentyabrında başa çatdırılan parkın ərazisi 3,5 hektardır. Parkda ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsi ucaldılıb. Burada yaşıllıqlar salınmış, xarici ölkələrdən gətirilən müxtəlif dekorativ ağac və gül kolları əkilmiş, suvarma sistemi yaradılmışdır. Parkda dirəyinin hündürlüyü 33 metr olan Dövlət bayrağı ucaldılıb. İstirahət mərkəzində 8 guşəli fəvvarə tikilmişdir. Şəhərə xüsusi gözəllik verən parkda müasir dizaynda inşa olunmuş internet-kafe də fəaliyyət göstərəcəkdir. Kompüterlərlə təchiz edilmiş internet-kafedə gənclərin istirahəti üçün hər cür şərait vardır. Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Horadizdə Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Mərkəzin 1600 kvadratmetr sahəsi olan binasının inşasında milli memarlıq elementlərindən geniş istifadə edilib. Binanın təməli 2011-ci ilin iyununda qoyulmuş, inşaat işləri cari ilin oktyabrında başa çatdırılmışdır. Mərkəzdə ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin həyat və fəaliyyətinin bütün dövrlərini, o cümlədən müxtəlif illərdə Füzuli rayonuna səfərlərini əks etdirən fotoguşələr yaradılıb. Burada ulu öndərin zəngin dövlətçilik irsinin gələcək nəsillərə çatdırılması üçün elektron kitabxana, ümummilli liderə aid sənədlərin saxlandığı xüsusi guşə də vardır.*

*Prezident İlham Əliyev Mərkəzin konfrans zallarına baxdı. Bildirildi ki, xüsusi dizaynla yaradılan 80 və 300 nəfərlik konfrans zalları rayon və respublika səviyyəli tədbirlərin keçirilməsi üçün nəzərdə tutulub. Mərkəzdəki xidməti otaqlar kompüterlər və digər ən müasir avadanlıqlarla təchiz olunub. Mərkəzdə məktəblilərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər də fəaliyyət göstərəcəkdir. Qədim Azərbaycan dövlətləri haqqında məlumatlar və onların rəmzlərinin lazer görüntülərinin nümayiş olunduğu Mərkəzdə müasir formatlı kinozal, sərgi salonu, foto, dizayn və səs studiyaları da vardır. Buradakı kurslarda gənclər müasir texnoloji yeniliklərlə yaxından tanış olacaq, bilik və bacarıqlarını inkişaf etdirəcəklər. Bunun üçün internet sinfi və kompüter mərkəzi qurulmuşdur. Mərkəzdəki monitor zallarında ulu öndər Heydər Əliyevin siyasi irsindən və prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən məşğələlər təşkil ediləcəkdir.*

*Prezident İlham Əliyev Mərkəzdə görülən işləri yüksək qiymətləndirdi.*

## Yeni Azərbaycan Partiyası Füzuli rayon təşkilatı inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Horadiz şəhərində Yeni Azərbaycan Partiyası (YAP) Füzuli rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, YAP rayon təşkilatının yeni inzibati binasının inşasına 2011-ci ilin martında başlanılmış və 2012-ci ilin avqustunda başa çatdırılmışdır. Ümumi sahəsi 1200 kvadratmetr olan ikimərtəbəli binada tikinti işləri yüksək səviyyədə aparılıb. Binanın foyesində partiyanın yaradıcısı ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkənin sosial-iqtisadi inkişafı, o cümlədən Yeni Azərbaycan Partiyasının respublikamızın siyasi həyatında rolunun artırılması ilə bağlı gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.*

*Qeyd olundu ki, binanın ikinci mərtəbəsində də ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif illərdə Füzuli rayonuna səfərlərini əks etdirən fotostendlər qurulmuşdur.*

*Bildirildi ki, təşkilatın daha səmərəli fəaliyyəti üçün binada hər cür şərait yaradılıb. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün 60 nəfərlik müasir iclas zalı vardır. Bütün iş otaqlarında zəruri avadanlıqlar və kompüterlər quraşdırılıb, binanın ətrafında yaşıllıqlar salınıbdır.*

*Diqqətə çatdırıldı ki, YAP Füzuli rayon təşkilatının 5 min 500-dən çox üzvü vardır. Onların 2 min 300-ü qadınlar, 1500-ü isə gənclərdir.*

*Prezident İlham Əliyev YAP Füzuli rayon təşkilatının yeni inzibati binasında yaradılan şəraiti yüksək qiymətləndirdi.*

## Horadiz şəhər 3 saylı tam orta məktəbin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Horadizdə 240 şagird yerlik 3 saylı tam orta məktəbin açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan prezidenti məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni təhsil ocağı ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş məktəb binasının tikintisinə 2011-ci ilin sentyabrında başlanılıb. İkimərtəbəli binanın ümumi sahəsi 3 min 170 kvadratmetrdir. Məktəbin 1,5 hektar həyətyanı sahəsi vardır. Burada 2 min 600 kvadratmetr sahəyə tamet piltə döşənib, yaşıllıq zolağı salınıb, 150 dekorativ ağac əkilib, müasir işıqlandırma və suvarma sistemləri quraşdırılıb.*

*Yaraşıqlı məktəb binasının foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilin inkişafına göstərdikləri diqqət və qayğılarını əks etdirən fotostendlər quraşdırılıb. Bina müasir havalandırma sistemi ilə təchiz olunub. Birinci mərtəbədə lazımi tədris vasitələri və ləvazimatlarla təmin olunmuş 10 sinif otağı, bufet, kitabxana, sürətli internetlə təchiz edilmiş kompüter otağı və idman zalı yerləşir. İdman zalında voleybol, basketbol, mini-futbol, güləş və idmanın digər növləri ilə məşğul olmaq üçün lazımi şərait yaradılıb.*

*Binanın ikinci mərtəbəsinin foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndərin və akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Həmçinin bu mərtəbədə 130 yerlik akt zalı, tədris laboratoriyaları və 12 sinif otağı vardır.*

## Mədəniyyət sarayının yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Horadiz Şəhər Mədəniyyət Sarayının yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mədəniyyət sarayının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, sarayın yenidən qurulmasına 2011-ci ilin iyununda başlanılıb, cari ilin avqustunda başa çatdırılmışdır. Sarayın ümumi sahəsi 1472 kvadratmetr olan ikimərtəbəli binası yeni görkəmdə şəhərin gözəlliyinə xüsusi çalar qatır. Binada yenidənqurma işlərinin yüksək səviyyədə görülməsinə xüsusi diqqət yetirilib. Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin və prezident İlham Əliyevin mədəniyyət və incəsənət sahəsinin inkişafına göstərdikləri qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Prezident İlham Əliyev Mədəniyyət sarayının tamaşa zalı ilə tanış oldu. Bildirildi ki, zalda 135 tamaşaçı yeri vardır. Sarayın ikinci mərtəbəsində inzibati otaqlar və məşq zalları yaradılıb, rejissor pultu quraşdırılıb.*

*Dövlətimizin başçısı sarayın ikinci mərtəbəsindəki rəsm qalereyası ilə də tanış oldu. Qeyd edildi ki, burada Füzuli rayonunda arxeoloji qazıntılar zamanı tapılmış eksponatlar və 2 saylı uşaq incəsənət məktəbi şagirdlərinin əl işlərindən ibarət sərgi nümayiş olunur. Mədəniyyət sarayında yaradılan yüksək şərait burada çalışan kollektivlərə daha yaxşı işləmək imkanı verəcəkdir.*

*Prezident İlham Əliyev Horadiz Şəhər Mədəniyyət Sarayında yaradılmış şəraitdən razılığını bildirdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Horadizdə Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzlə tanış* olan prezident *İlham Əliyevə məlumat* verildi ki, *ikimərtəbəli* bina il *yarıma* tikilib. *Mərkəzin ümumi sahəsi* 980 kvadratmetrdir. *Foyedə ümummilli* lider Heydər *Əliyevin* və prezident *İlham Əliyevin fəaliyyətlərini, Füzuli* rayonuna *səfərlərini, həmçinin gənclərlə görüşlərini əks etdirən* fotolardan *ibarət guşələr yaradılıb. Mərkəzdəki* mini-*kafedə gənclərin istirahəti üçün hər cür şərait* vardır. Birinci *mərtəbədə* bilyard *otağı, tikiş dərnəyi və* inzibati otaqlar *fəaliyyət göstərəcəkdir. Mərkəzdəki rəsm dərnəyində gənclər rəssamlığın sirlərini öyrənəcəklər. İnternet* otağındakı *bütün* kompüterlər *sürətli internetə qoşulub.* Kompüter *bilikləri öyrədən kursların təşkili planlaşdırılır.* Linqafon *otağında təşkil ediləcək* kurslarda *isə gənclər* xarici *dilləri öyrənəcəklər.*

Bildirildi ki, *mərkəzdəki* pnevmatik *və* interaktiv *tirlərdə gənclər atıcılığın sirlərinə yiyələnəcəklər. Hər 2 tir xaricdən gətirilmiş avadanlıqla təchiz* olunub. *İnteraktiv tirin avadanlığı atıcılıq üzrə 30 müxtəlif* proqramla *təmin* edilib. Bu proqramlardan ikisi olimpiya idman *növlərinə* daxildir. *Mərkəzdə* rayon *gəncləri arasında* intellektual *oyunların* keçirilməsi *də nəzərdə* tutulub. *Bu mərkəz gənclərin asudə vaxtlarının səmərəli təşkilində mühüm* rol *oynayacaqdır.*

*Mərkəzlə tanışlıqdan* sonra prezident *İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Şahmat məktəbinin yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Horadizdə Şahmat məktəbinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ümumi sahəsi 500 kvadratmetr olan Şahmat məktəbinin həyətində müasir işıqlandırma sistemi qurulub, yaşıllıq zolağı salınıb. Lazımi avadanlıq və havalandırma sistemi ilə təchiz olunmuş məktəb binasının foyesində ümummilli lider Heydər Əliyevin büstü ucaldılıb. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılıb.*

*Bildirildi ki, məktəbdə uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələri üçün hər cür şərait vardır. Burada 2 sinif və müəllimlər otağı, 1 elektron sinif və xidməti otaq fəaliyyət göstərir. Məktəbdə şahmatla bağlı biliklərin əldə olunması və müasir yeniliklərin qavranılması üçün ayrıca kompüter guşəsi də yaradılıb.*

## Dəmir yolunun Horadiz stansiyasında sərnişin vağzalı binasının əsaslı təmirdən sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Füzuli rayonuna səfəri çərçivəsində dəmir yolunun Horadiz stansiyasında sərnişin vağzalı binasının əsaslı təmirdən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı dəmir yolunun Horadiz stansiyasında sərnişin vağzalı binasının əvvəlki görüntülərini əks etdirən fotostendə baxdı.*

*Məlumat verildi ki, bina müasir memarlıq üslubunda tamamilə yenidən qurulub. Vağzalın ətrafında yaşıllıq zolağı*

*salınıb, dekorativ ağaclar əkilib. Binada sərnişinlərin istirahəti üçün də lazımi şərait yaradılıb.*

*Bildirildi ki, «Azərbaycan Dəmir Yolları» QSC-nin balansında olan Horadiz stansiyasının sərnişin vağzalı 1958-ci ildə inşa olunmuşdur. Vağzal binasında uzun müddət əsaslı təmir işləri aparılmamışdır. Sahəsi 1000 kvadratmetr olan ikimərtəbəli binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Əsaslı təmir və yenidənqurma işləri QSC-nin dəmir yollarının və texniki qurğuların təmir-tikinti departamenti tərəfindən 3 ay ərzində yerinə yetirilib. Vağzal binasının elektrik sistemi yenilənmiş, gözləmə salonunda sərnişinlərin rahatlığı təmin edilmişdir. Burada yeni yaradılmış ana və uşaq otağı, akt zalı və yeməkxana fəaliyyət göstərir. Bina yeni avadanlıqla təchiz olunub. Vağzal binasında sərnişinlərin əşyalarının saxlanması üçün kameralar quraşdırılıb, dispetçer otağında yüksək xidmət şəraiti yaradılıb.*

*Diqqətə çatdırıldı ki, tibbi xidmətə ehtiyacı olanlar həkim otağına müraciət edə biləcəklər. Hər cür şəraiti olan inzibati otaqlar binanın ikinci mərtəbəsində yerləşir. Buradakı iclas salonu da müasirliyi ilə diqqəti cəlb edir. Horadiz dəmir yolu vağzalı sərnişinlərə xidmətin səviyyəsinin ən müasir standartlara uyğun həyata keçirilməsinin daha bir konkret nümunəsidir. Burada mühəndis-kommunikasiya sistemləri də ən qabaqcıl standartlara cavab verir. Binanın birinci mərtəbəsində kassalar, tibb otağı və digər bölmələr vardır.*

*Bildirildi ki, Horadiz stansiyasının yenidən qurulan sərnişin vağzalının binası dəmir yolu nəqliyyatı infrastrukturunun inkişafı ilə bağlı görülən işlərin tərkib hissəsidir. Burada bilet satışı texnologiyası da təkmilləşdirilib. Qatarlarda boş olan yerlər barədə sərnişinlərə mütəmadi məlumat verilməsi üçün müasir monitor quraşdırılıb. Monobloklu, sensorlu monitor vasitəsilə sərnişinlər günün istənilən vaxtında veb serverdəki onlayn bilet satışı bölməsinə daxil olaraq, qatarların hərəkət cədvəli və digər zəruri məlumatları əldə edə bilərlər.*

*Horadiz sərnişin stansiyasında bilet satışı noyabrın 1-dən etibarən avtomatlaşdırılaraq beynəlxalq internet şəbəkəsinə qoşulub. Artıq Azərbaycan dəmir yolunun 48 sərnişin stansiyası da bu sistem üzrə fəaliyyət göstərir. Sərnişinlər istənilən istiqamət üzrə biletlərini onlayn rejimdə sifariş verə və ala bilərlər.*

*Prezident İlham Əliyev Horadiz dəmir yolu stansiyasının sərnişin vağzalının binasında yaradılmış şəraitdən razılığını bildirdi.*

## Soyuducu anbar kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Füzuli Soyuducu Anbar Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleks Füzuli rayonunun Əhmədbəyli kəndində ən müasir standartlara cavab verən səviyyədə qurulmuşdur. Ümumi dəyəri 4,5 milyon manat olan kompleksin yaradılması məqsədilə İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 3,2 milyon manat məbləğində güzəştli kredit verilib. 2 hektar ərazidə inşa olunmuş anbar kompleksinin ümumi tutumu 5 min tondur. Kompleksdə Almaniya, İtaliya və Finlandiyadan alınan havalandırma, nəmləndirmə sistemləri və kompressorlar qurulmuş, çeşidləmə-qablaşdırma sexi yaradılmış və müasir avadanlıqla təchiz edilmişdir. Soyuducu anbar kompleksində, əsasən Füzuli və ətraf rayonlarda məskunlaşmış məcburi köçkünlər tərəfindən istehsal edilən tərəvəz məhsullarının – kartof və soğanın saxlanılması nəzərdə tutulur.*

*Diqqətə çatdırıldı ki, hazırda soyuducu anbara 2000 tondan artıq soğan və kartof vurulmuşdur, daha 3000 ton məhsul tədarük olunacaqdır. Burada məhsullar müxtəlif çəkilərdə qablaşdırılır və birbaşa satış mərkəzlərinə göndərilir.*

*Bildirildi ki, kompleksin istifadəyə verilməsi bölgədə yaşayan əhalinin, o cümlədən məcburi köçkünlərin maddi rifahının*

*daha da yaxşılaşmasına və regionda tərəvəz məhsullarının istehsalının artırılmasına şərait yaradacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyevə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Yuxarı Qarabağ iqtisadi rayonu üzrə sahibkarlara ödənilən güzəştli kreditlər barədə də məlumat verildi. Fondun icraçı direktoru Şirzad Abdullayev bildirdi ki, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 627 sahibkarlıq subyektinə 16,2 milyon manat, o cümlədən yeni texnologiyalara əsaslanan 5 investisiya layihəsinin maliyyələşdirilməsinə 10,8 milyon manat güzəştli kredit verilib. Bu layihələrin reallaşdırılması 1600-dək yeni iş yerinin açılmasına imkan yaradacaqdır. Bundan başqa, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə Füzulidə fondun vəsaitləri hesabına yeni texnologiyalara əsaslanan, illik istehsal gücü 2,1 min ton quş əti olan fabrikə 5 milyon manat, Ağdam rayonunda illik istehsal gücü 3,4 min ton süd və 115 ton ət olan müasir heyvandarlıq kompleksinə 1,1 milyon manat, Tərtər rayonunda soyuducu anbar kompleksinə 1,4 milyon manat, həmçinin ildə 320 ton üzüm istehsal etmək gücünə malik üzümçülük təsərrüfatına 113 min manat güzəştli kreditlər verilib.*

*Prezident İlham Əliyevə yeni işə salınan «Qarabağ Broyler» fabriki barədə də məlumat verildi. Bildirildi ki, fabrik 1994-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmən işğalından azad etdiyi ərazidə – Füzuli rayonunun Qarabağ kəndində yerləşən və yararsız vəziyyətdə olan heyvandarlıq kompleksinin bazasında yaradılıb. Bu layihənin də həyata keçirilməsində dövlətin güzəştli kreditlərindən istifadə olunub. Fabrikin ümumi dəyəri 7,2 milyon manatdır. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə 5 milyon manat güzəştli kredit verilib. Ümumi ərazisi 25 hektar olan fabrikdə 14 quş fermasında yenidənqurma işləri aparılıb, kəsim sexi, tutumu 150 ton olan soyuducu və şoklama kameraları inşa edilib. Quşçuluq fabriki Türkiyədən gətirilən müasir yemləmə, havalandırma, kəsim, soyutma və şoklama avadanlıqları ilə təc-hiz edilib. Fabrikdə ildə 2,1 min ton müxtəlif çeşiddə quş əti*

*məhsulları istehsalı nəzərdə tutulur. İstehsal olunan məhsullar bazara «Qarabağ Broyler» brendi ilə çıxarılacaqdır. Fabrikdə Füzuli və ətraf rayonlardan 120 nəfər məcburi köçkün yeni iş yeri ilə təmin olunub.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Su-elektrik stansiyasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Füzuli Su-Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, Füzuli Su-Elektrik Stansiyası Baş Mil kanalı üzərində 14 hektar ərazidə inşa olunub. Stansiyanın ümumi gücü 25,2 meqavatdır. Su-elektrik stansiyası Füzuli rayonundakı 110 kilovoltluq «Haramı» yarımstansiyası vasitəsilə respublikanın enerji sisteminə birləşdiriləcək və sistemlə paralel rejimdə işləyəcəkdir.*

*Diqqətə çatdırıldı ki, Füzuli Su-Elektrik Stansiyasının tikintisi Azərbaycan prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na 2007-ci il 31 oktyabr tarixli Əlavəyə əsasən həyata keçirilib. Stansiyanın təməlini 2008-ci ildə Füzuliyə səfəri çərçivəsində prezident İlham Əliyev qoymuşdur. Tikinti işləri yerli «Azenco» şirkəti tərəfindən həyata keçirilib.*

*Elektrik stansiyasının suqəbuledici qurğusuna baxan dövlətimizin başçısına məlumat verildi ki, qurğu üçün Baş Mil kanalı üzərində 40 min ton tutumu olan su anbarı yaradılıb. Anbara toplanan su 4 hidroturbin vasitəsilə generatora ötürülür. Hər bir hidroturbin avtomatlaşdırılmış qapılarla açılıb-bağlanır. Stansiyanın işləməsi üçün nəzərdə tutulan su müəyyən həcmdən artıq olduqda digər xətt vasitəsilə Baş Mil kanalına ötürülür. Lazım olan su isə hər birinin uzunluğu 250 metr, diametri isə 3 metr olan 4 boru vasitəsilə generator və digər mexaniki*

*avadanlığın yerləşdiyi SES binasına ötürülür. Stansiyada texnoloji avadanlıq kompüterlərlə idarə olunur. Bütün emal prosesi avtomatlaşdırılmış şəkildə həyata keçirilir. Bu məqsədlə binada ayrıca idarəetmə mərkəzi yaradılıb. Mərkəz həm elektrik enerjisinin istehsalı prosesini idarə edir, həm də baş verə biləcək nasazlıqları əvvəlcədən qeydə alaraq müvafiq tədbirlərin görülməsi üçün xəbərdarlıq edir.*

*İdarəetmə mərkəzinə gələn prezident İlham Əliyev Füzuli Su-Elektrik Stansiyasını işə saldı.*

*Bildirildi ki, ərazidə 2 körpü və kabel estakadası qurulub. Stansiyanın ərazisində 110 kilovoltluq yeni yarımstansiya tikilib və onunla əlaqəli digər yarımstansiyalar yenidən qurulub. Ərazidə geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılıb. Stansiyanın ərazisində bütün lazımi avadanlıqla təchiz olunmuş ikimərtəbəli inzibati bina inşa edilib.*

*Su-elektrik stansiyasının inşasında 400 nəfər işçi çalışmışdır. İlkin mərhələdə 35 nəfərin işləyəcəyi stansiya Aran bölgəsinin enerji təhlükəsizliyinin və dayanıqlılığının təmin olunmasında mühüm rol oynayacaqdır. Stansiyada ildə 100 milyon kilovat/saata yaxın elektrik enerjisi istehsal olunacaqdır.*

## FÜZULİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 dekabr 2012-ci il*

Əziz dostlar, əziz füzulililər!

Bu gün sizinlə bərabər olmaq mənim üçün çox xoşdur. Dördüncü dəfədir ki, prezident kimi, Füzuli rayonuna səfər edirəm. Bu dəfə gözəl obyektlərin açılışında iştirak etdim. Onların içində, əlbəttə ki, ən böyük obyekt Füzuli Su-Elektrik Stansiyasıdır. 4 il əvvəl sizinlə bərabər bu stansiyanın təməl daşını qoyduq. Çox şadam ki, artıq stansiya istifadəyə verilıb. Son illər ərzində Azərbaycanda tikilən ən böyük su- elektrik stansiyasıdır. Gücü 25 meqavatdır və Füzuli rayonunun enerjiyə olan tələbatının bir hissəsini ödəyəcəkdir. Stansiyanın əhəmiyyəti ondan ibarətdir ki, bu su-elektrik stansiyasıdır. Burada istehsal olunan enerjinin qiyməti də aşağıdır. Bu stansiya vaxtilə işğal edilmiş ərazidə yaradılmışdır. Bu da stansiyanın əhəmiyyətini xeyli dərəcədə artırır. Erməni işğalçı qüvvələri Füzuli rayonunu işğal etmişlər. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu rayonun bir hissəsini işğalçılardan azad etmişdir. Bu ərazilərdə böyük quruculuq-abadlıq işləri aparılır, evlər tikilir, binalar bərpa edilir, sənaye müəssisələri yaradılır.

Bu gün mən Füzulidə bir neçə obyektin açılışında iştirak etdim. Gənclər Mərkəzinin, Heydər Əliyev Mərkəzinin, Heydər parkının, məktəbin və digər obyektlərin açılışlarında iştirak etdim. Əvvəlki dövrdə Muğam Mərkəzi, Olimpiya İdman Kompleksi, Diaqnostika Mərkəzi tikilmişdir. Yəni Füzuli rayonunun inkişafı üçün bütün lazımi tədbirlər görülür. 5 il bundan əvvəl Horadiz qəsəbəsinə şəhər statusu verilmişdir və bu gün Horadiz uğurla inkişaf edir.

Növbəti illərdə Füzuli rayonunun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Erməni vəhşiləri tərəfindən dağılmış evlərin

bərpası məsələsi də vardır. Bu gün bu barədə məsələ qaldırıldı. Bu məsələ də öz həllini tapacaqdır. Rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir.

Yeni stansiyanın işə salınması əslində Azərbaycanda bu sahədə görülən işlərin təzahürüdür. Çünki son illər ərzində ölkəmizdə elektrik enerjisi ilə bağlı bütün məsələlər yüksək səviyyədə öz həllini tapıb. 1500 meqavat yeni güclər yaradılmış və beləliklə, Azərbaycan öz enerji təhlükəsizliyi məsələlərini tam şəkildə həll etmişdir.

Əvvəllər biz elektrik enerjisini idxal edirdik. İndi isə biz qonşu ölkələrə – Türkiyəyə, Gürcüstana, İrana, Rusiyaya elektrik enerjisini ixrac edirik. Yəni biz bu sahədə ciddi dönüş yarada bilmişik. Bu gün bütün bölgələrdə elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Yeni tikilən və tikilməkdə olan stansiyalar bizə imkan verəcək ki, bu sahədə əldə edilmiş uğurları artıraq.

Hazırda ölkəmizin cənubunda «Cənub» elektrik stansiyasının tikintisi davam edir. Bakıda «Şimal-2» elektrik stansiyasının tikintisi davam edir. Bu 2 stansiyanın toplam gücü 1200 meqavatdan artıqdır. Biz bütün bu planları elə qururuq ki, gələcəkdə də Azərbaycan enerji təhlükəsizliyi məsələlərində daim öz sözünü dünyada deyə bilsin. Bu gün Azərbaycanda bu sahədəki icra edilən layihələr nəinki ölkəmiz, regionumuz üçün, eyni zamanda, Avropa üçün də çox böyük əhəmiyyət daşıyır. Bütün sahələrdə olduğu kimi, iqtisadiyyat və sosial məsələlərin həlli üçün vacib olan enerji təhlükəsizliyi məsələləri də yüksək səviyyədə həll edilir. Bu stansiya bunun gözəl nümunəsidir.

Bu stansiya ekoloji cəhətdən də çox sərfəlidir. Bildiyiniz kimi, son illər ərzində Azərbaycanda bütün stansiyalar ya qaz ilə, ya da su mənbəyi hesabına fəaliyyət göstərir. Biz artıq mazutdan istifadə etmirik və beləliklə, ölkəmizin ekoloji vəziyyətini də yaxşılaşdırırıq. Ancaq iqtisadiyyat artır, tələbat artır, əhalinin sayı artır. Beləliklə, elektrik enerjisinə olan tələbat artacaq və yenə qeyd etmək istəyirəm ki, biz yeni stansiyaların tikintisi ilə məşğuluq. Hazırda bərpa olunan elektrik

enerjisinin yaradılması ön plandadır və bu sahədə su, külək, günəş stansiyalarının tikintisi nəzərdə tutulur.

İqtisadi artım tələb edir ki, biz iqtisadiyyatı sürətləndirmək üçün əlavə tədbirlər görək. Çünki Azərbaycanda son illər ərzində əldə edilmiş iqtisadi uğurlar, yeni yaranmış müəssisələr, infrastruktur layihələrinin həyata keçirilməsi, əlbəttə ki, ölkəmizi xeyli dərəcədə qabağa aparmışdır. İqtisadi sahədə əldə edilmiş uğurlar bizə imkan verir ki, sosial məsələləri də uğurla həll edək. Çünki bu 2 məsələ bir-biri ilə sıx bağlıdır.

Bütün beynəlxalq kredit reytinqləri böhranlı illərdə Azərbaycanın iqtisadi göstəricilərini yüksək qiymətləndirir, iqtisadiyyatımız rəqabətqabiliyyətli, dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi siyasətdə ancaq daxili imkanlara arxalanırıq. Bizi bəzi başqa ölkələrdən fərqləndirən cəhət məhz ondan ibarətdir ki, xarici dövlət borcumuz çox aşağı səviyyədədir. Biz yalnız Azərbaycanın daxili imkanlarını səfərbər edərək öz iqtisadi gələcəyimizi qururuq. Bu sahədə, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılmış addımlar bizə imkan verir ki, bu gün iqtisadiyyat enerji sektorundan daha az asılı olsun. Artıq 2012-ci il başa çatır. Bu ilin yekunları da bunu göstərir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faizə yaxın artıb. Bu da dünya miqyasında, xüsusilə böhranlı illərdə çox yüksək göstəricidir.

Növbəti illərdə bu gün icra edilən layihələrin başa çatması və yeni layihələrin icra edilməsi nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Mən bu məsələ ilə bağlı artıq əvvəlki dövrlərdə fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişəm. İqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilmək üçün, əlbəttə ki, bölgələrin inkişafı lazımdır. Biz son illər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində bu istiqamətdə də böyük nailiyyətlərə çata bilmişik. İşsizlik azalıb. Yoxsulluq xeyli dərəcədə – 5 dəfə azalıb. Bu gün Azərbaycana xaricdən işləmək üçün gələnlərin sayı artır və bu məqsədlə vaxtilə Miqrasiya Xidmətini yaratdıq

ki, əmək resurslarının səmərəli şəkildə tənzimlənməsi üçün bizdə işlək mexanizm olsun.

Növbəti illərdə Azərbaycanın uğurlu inkişafı heç kimdə şübhə doğurmur – nə ölkə əhalisində, nə beynəlxalq maliyyə qurumlarında. Bizim bütün iqtisadi proqnozlarımız çox müsbət və çox təsirlidir. Əlbəttə, hər birimiz çalışmalıyıq ki, ölkəmizi daha da inkişaf etdirək, gözəlləşdirək. Xüsusilə bölgələrdə abadlıq-quruculuq işləri daha da sürətlə getməlidir. Biz bu inkişafı Füzuli rayonunun timsalında görürük. Mən çox şadam ki, son 2 il ərzində rayonda böyük dəyişikliklər baş verib. Mən yenə qeyd etmək istəyirəm ki, prezident kimi, dördüncü dəfədir ki, Füzuliyə səfər edirəm. Son səfərimdən sonra keçən dövr doğrudan da Füzuli rayonu üçün çox böyük uğurlarla zəngindir. Qısa müddət ərzində böyük işlər görüldü, parklar salındı, yeni sənaye müəssisələri yaradıldı. Abadlıq işləri görülür və bu məni çox sevindirir. Çünki Füzuli rayonu ölkəmiz üçün çox böyük əhəmiyyətə malikdir. Füzulililər bütün dövrlərdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində öz rolunu oynamışlar. Müharibə dövründə böyük qəhrəmanlıq göstərmişlər.

Ulu öndər Heydər Əliyev Füzuliyə daim böyük diqqət göstərmişdir – həm XX əsrin 70-ci illərində Azərbaycana rəhbərlik edəndə, həm müstəqillik dövründə. Məhz onun rəhbərliyi ilə Füzulinin 22 kəndi işğalçılardan azad edilmişdir. Bu gün bu ərazilərdə həyat qaynayır, inkişaf edir. Füzulinin bərpası, işğaldan azad edilmiş torpaqların inkişafı, burada görülən işlər Azərbaycan dövlətinin gücünü göstərir. Onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəndən sonra hazırda işğal altında olan bütün ərazilər də belə gözəl, abad yerlərə çevriləcəkdir. Bütün yaşayış məntəqələri, bütün kəndlər, o cümlədən Şuşa və Xankəndi şəhərləri Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra qurulacaq, yenidən tikiləcək və Azərbaycan vətəndaşları orada yaşayacaqlar. Hər birimiz öz işimizlə o tarixi günü yaxınlaşdırırıq. Çünki ölkəmizin artan qüdrəti, beynəlxalq nüfuzu, ölkədə gedən müsbət proseslər bizim gücümüzü artırır.

Bu gün Azərbaycan beynəlxalq müstəvidə söz sahibidir, böyük hörmətə malik olan ölkədir. Təsadüfi deyil ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir və bu gün biz dünyanın ən mötəbər qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüyük, bu təşkilatda çox fəal və uğurla fəaliyyət göstəririk.

Bu yaxınlarda biz «Qoşulmama Hərəkatı»na üzv olduq və dərhal bu təşkilatın I zirvə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox dəyərli qətnamə qəbul edildi. Orada göstərilir ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Yəni bizim beynəlxalq nüfuzumuz, iqtisadi gücümüz artır, hərbi potensialımız da artır.

Ermənistana gəldikdə isə, onların işğalçı siyasəti özlərini ağır vəziyyətə salmışdır. Onların rəsmi statistik məlumatlarına görə, hər il 100 mindən artıq vətəndaş bu ölkəni tərk edir. Ümidsizlik, özbaşınalıq, səfalət və iqtisadi tənəzzül – bunlardır Ermənistanı başqa ölkələrdən fərqləndirən əlamətlər. Azərbaycan isə inkişaf edir və bizdə olan inkişaf uzunmüddətlidir, dayanıqlıdır. Bir daha demək istəyirəm ki, görülən tədbirlər nəticəsində bu gün Azərbaycan bölgənin aparıcı ölkəsinə çevrilibdir. İllər keçdikcə Ermənistan ilə Azərbaycan arasındakı fərq dərinləşəcək – həm iqtisadi, həm hərbi, həm də demoqrafik sahədə. Bizim əhalinin sayı artır, Ermənistanda isə əhali azalır.

Mən heç şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu deməyə bir neçə əsas amil var – iqtisadi imkanlar, beynəlxalq mövqemiz, beynəlxalq hüquq normaları və Azərbaycan Ordusunun qüdrəti. Mən əminəm və bir daha demək istəyirəm ki, işğala son qoyulandan sonra hazırda işğal altında olan bütün torpaqlar gözəlləşəcək, orada abadlıq işləri aparılacaq, yeni müəssisələr yaradılacaqdır. Biz öz tarixi və dini abidələrimizi bərpa edəcəyik. Erməni faşizminin, erməni vəhşiliyinin törətdiyi cinayətlərin fəsadlarını aradan qaldıracağıq. Ölkəmiz uğurla inkişaf edəcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün bütün

sahələrdə daha fəal olmalıyıq. İlk növbədə, ölkə daxilində prosesler müsbət istiqamətdə gedir və getməlidir.

Mən bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Füzulidə son illər ərzində görülən işlərlə bağlı sizi təbrik etmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən prezident kimi, bundan sonra da Füzuli rayonunun inkişafı ilə bağlı səylərimi göstərəcəyəm. Daim bu məsələ diqqət mərkəzində olacaqdır. Biz hələ çox-çox görüşəcəyik, çünki Füzulidə gələcəkdə böyük işlər görüləcək, böyük açılışlar olacaqdır. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**T u r a l  N ə b i y e v** *(Füzuli rayon sakini):* Möhtərəm cənab Prezident! İcazə verin, Sizi bütün füzulililər adından salamlayım və «Xoş gəlmisiniz!» – deyim. Hazırda məskunlaşdığımız bu ərazilər 1994-cü ildə ulu öndərimizin qətiyyətli addımları nəticəsində düşmən tapdağından azad edilmişdir. Biz çox sevinirik ki, Sizin rəhbərliyiniz və qayğınız sayəsində bu ərazilər indi abadlaşır, inkişaf edir, gülüstana çevrilir. Qısa müddət ərzində burada yeni qəsəbələr salındı. Minlərlə ailə, 10 minlərlə insan öz yurd-yuvalarına qayıtdı, yeni salınmış qəsəbələrdə məskunlaşdı. İşğaldan azad olunmuş ərazilərdə həyat qaynadı. Təhsil, səhiyyə, mədəniyyət obyektləri tikildi. Yeni yollar inşa edildi. Qaz, elektrik xətləri çəkildi. Biz başa düşürük ki, düşmənlə təmas xəttinə yaxın ərazidə istifadəyə verilən hər bir obyektin ayrıca siyasi və mənəvi dəyəri vardır. Bu işlər bizim hər birimizdə qələbəyə, xoşbəxt gələcəyimizə inamı daha da artırır.

Möhtərəm cənab Prezident, qürur hissi ilə qeyd etmək istəyirəm ki, Sizin qətiyyətinizdən ruhlanan füzulililər atəşkəsin tez-tez pozulduğu bir şəraitdə düşmənlə üzbəüz dayanaraq bu gün heç bir qorxu hiss etmədən yaşayıb yaradırlar. İşğal dövründə dağıdılmış Horadiz Sizin qayğınızla bütün əhalimizin gözü qarşısında öz görkəmini tamamilə dəyişərək müasir bir şəhərə çevrilmişdir. Burada Muğam Mərkəzi, İdman Kompleksi, Diaqnostika Mərkəzi inşa edilmiş, yeni park və

xiyabanlar salınmış, küçələrimiz müasir üslubda yenidən qurulmuşdur.

Bu gün isə bizim üçün bu nəhəng su-elektrik stansiyasını istifadəyə verirsiniz. Bununla da Siz füzulililərə böyük həyat, gözlərinə işıq bəxş edirsiniz. Hər evə, hər bir sakinimizə nur verirsiniz. Biz bununla fəxr edir, göstərdiyiniz qayğıya görə Sizə və cəmiyyətimizin həyatının çox mühüm sahələrinin inkişafına öz töhfələrini verən, xalqımızın sevimli qızı Mehriban xanım Əliyevaya bütün füzulililərin minnətdarlığını çatdırıram.

Bütün bunlar onu göstərir ki, Füzuli torpaqlarının 55 faizi işğal altında olsa da, rayonumuz bu gün yaşayır və inkişaf edir. Artıq əhalimizin 60 faizi, yəni 70 min nəfər öz torpaqlarına qayıtmışdır. Bunu düşmənlərimiz də görür. Sizin son müşavirələrin birində dediyiniz sözlər bizim yaddaşımıza həkk olunub: «Bizim hər bir qələbəmiz Ermənistanın faciəsidir. Hər bir uğurumuz onların məyusluğudur. Bizim uğurlarımız hələ qabaqdadır. Ən böyük uğur o vaxt olacaqdır ki, Azərbaycan bayrağı Şuşada və Xankəndidə dalğalanacaqdır. Mən buna əminəm və buna şübhə etmirəm». Bəli, cənab Prezident, o gün uzaqda deyildir. Biz hamımız əminik ki, gün gələcək torpaqlarımız düşmən tapdağından azad olunacaqdır. Mən bütün Füzuli gəncləri adından deyirəm, cənab Prezident, biz Sizin əmrinizi gözləyirik. Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, Sizin bir çağırışınız və rəhbərliyinizlə biz gənclər müsəlləh əsgərə çevrilib Qarabağımızı yağı düşməndən azad etməyə qadirik. Siz buna əmin ola bilərsiniz.

Siz biz gənclər üçün bir nümunəsiniz, cənab Prezident. Ən böyük azərbaycanlı kimi, Vətənini, xalqını sevmək nümunəsi. Siz öz fəaliyyətinizlə bizə Vətənə sədaqətli olmağı, onun yolunda qəhrəmanlığa və fədakarlığa hər an hazır olmağı öyrədirsiniz. Biz gənclər Sizinlə fəxr edir, daim Sizə arxalanırıq. Bu gün Siz Azərbaycanda gördüyünüz işlərlə dövlətimizi dünya müstəvisində yüksəklərə qaldırmısınız. Sizin əzmkarlığınızın, Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardığınız siyasətin nəticəsidir ki, bu gün

ölkəmiz bütün dünyanı heyran qoyan mötəbər beynəlxalq siyasi, mədəni tədbirlərin keçirildiyi bir məkana çevrilib. Bu, dünya birliyi tərəfindən ölkəmizə, Sizin şəxsinizdə bütün xalqımızın uğuruna verilən yüksək qiymətdir. 2015-ci ildə I Avropa Olimpiya oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar da bunun yeni bariz nümunəsidir. Biz yaxşı başa düşürük ki, ölkəmizə gələn hər bir qonaq burada haqq sözünü eşidir, əsl həqiqəti görür və özü ilə aparıb bütün dünyaya yayır. Bu Sizin Qarabağımızın azad olunması istiqamətində apardığınız titanik işlərin yalnız bir hissəsidir.

Möhtərəm cənab Prezident, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, dövlətimizin daha da qüdrətlənməsi, torpaqlarımızın azad olunması istiqamətində apardığınız işlərdə biz füzulililər hər zaman Sizinləyik və xoşbəxt gələcəyimizi yalnız və yalnız Sizinlə bağlayırıq. Siz bizim əbədi, daimi Prezidentimizsiniz. Çox sağ olun!

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ NİK DE BUA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Böyük Britaniya parlamentinin üzvü Nik de Buanı qəbul etmişdir.*

*Nik de Bua Böyük Britaniyanın Baş naziri Devid Kemeronun salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. Məktubda Böyük Britaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu vurğulanmış, ölkələrimizin qeyri-neft, biznes, ticarət sahələrində əməkdaşlığının daha da genişləndirilməsinə dair məsələlər əksini tapmışdır. Nik de Bua Baş nazir Devid Kemeronun Azərbaycanı Böyük Britaniya üçün çox vacib tərəfdaş ölkə hesab etdiyini dedi. O, Baş nazir Devid Kemeronun prezident İlham Əliyev ilə XXX London Yay Olimpiya oyunları zamanı görüşünü məmnunluqla xatırladığını deyərək, bu yarışlarda Azərbaycan idmançılarının uğurlar qazanmasının önəmini vurğuladı.*

*Nik de Bua 2015-ci ildə ilk Avropa Olimpiya oyunlarının Azərbaycanda keçirilməsi münasibətilə Devid Kemeronun təbriklərini də dövlətimizin başçısına çatdırdı və ilk Avropa Olimpiya oyunlarının Bakıda uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı öz növbəsində Böyük Britaniyanın Baş naziri Devid Kemeronla XXX London Yay Olimpiya oyunları zamanı görüşünü məmnunluqla xatırlatdı. Azərbaycan ilə Böyük Britaniya arasında uzunmüddətli tarixi əlaqələrin mövcud olduğunu deyən prezident İlham Əliyev əməkdaşlığımızın bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, təhlükəsizlik və digər sahələrdə gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Devid Kemeronun salamlarına və məktubuna görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## ÇİN XALQ RESPUBLİKASININ SİYASİ KONSULTATİV ŞURASININ ÜMUMÇİN KOMİTƏSİNİN SƏDR MÜAVİNİ BAY LİÇENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Çin Xalq Respublikasının Siyasi Konsultativ Şurasının Ümumçin Komitəsinin sədr müavini Bay Liçenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Çin Xalq Respublikasının dost dövlətlər olduğunu vurğulayan prezident İlham Əliyev ikitərəfli əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi və ölkələrimizin dostluq və tərəfdaşlıq əlaqələrini davam etdirmək əzmində olduğunu dedi. Dövlətimizin başçısı Çin şirkətlərinin Azərbaycana olan marağının önəmini qeyd etdi. Enerji sektorunda əməkdaşlığın razılıq doğurduğunu vurğulayan prezident İlham Əliyev nəqliyyat sahəsində də əlaqələrin yaxşı perspektivlərə malik olduğunu dedi. Dövlətimizin başçısı Çin Xalq Respublikasının Siyasi Konsultativ Şurasının Ümumçin Komitəsinin sədr müavini Bay Liçenin Azərbaycana səfərinin ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bay Liçen Çin Xalq Respublikasının Sədri Hu Szintaonun və Çin Kommunist Partiyasının baş katibi Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan ilə Çin arasında dostluq əlaqələrinin uzun tarixə malik olduğunu vurğulayan Bay Liçen bu səfərin Çin Xalq Respublikasının Siyasi Konsultativ Şurasının Ümumçin Komitəsi ilə Azərbaycan*

*Respublikasının* Milli *Məclisi arasında əlaqələr*in *və xalqlarımızın arasında* dostluq *münasibətlərinin* daha da *genişləndirilməsi baxımından əhəmiyyətini* qeyd etdi.

*Dövlətimizin başçısı* Hu Szintaonun *və* Si Cinpinin salamla*rına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını Çin* Xalq *Respublikasının Sədrinə və Çin* Kommunist Partiyasının *baş katibinə çatdırmağı xahiş* etdi.

## BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Bolqarıstan Respublikasının sabiq prezidenti Georgi Pırvanovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi.*

## MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN TƏCRÜBƏ - SINAQ ZAVODUNUN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*17 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin Təcrübə-Sınaq zavodunun əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı zavodun rəmzi açılışını bildirən lenti kəsdi, ümummilli lider Heydər Əliyevin zavodun həyatində ucaldılmış abidəsinin önünə gül dəstəsi qoydu.*

*Sonra prezident İlham Əliyev müəssisənin inzibati binasında yaradılmış Heydər Əliyev Muzeyinə baxdı. Ümummilli lider Heydər Əliyevin büstünün qoyulduğu muzeydə ulu öndərin ölkəmizdə ordu quruculuğuna verdiyi töhfələr, eləcə də prezident İlham Əliyevin ordunun və müdafiə sənayesinin inkişafına göstərdiyi diqqət və qayğı geniş əks olunub.*

*Daha sonra dövlətimizin başçısı müəssisənin inzibati binasının tədris otağında yaradılmış şəraitlə tanış oldu. Müdafiə Sənayesi naziri Yavər Camalov bildirdi ki, 2012-ci ildən etibarən Nazirliyin sifarişi ilə Azərbaycan Texniki Universitetində xüsusi texnika və texnologiya fakültəsi yaradılıb. 74 tələbənin təhsil aldığı fakültədə silah və silah sistemləri, optotexnika, priotexnika vasitələrinin istehsalı, kompozisiya materiallarının, müdafiə təyinatlı məmulatların hazırlanması texnologiyaları, çoxkanallı troposfer rabitə cihazlarının istismarı və təmiri ixtisasları tədris olunur.*

*Müəssisə ilə tanışlıq zamanı bildirildi ki, zavod 1990-cı ildə Bakı Aviasiya İstehsalat Birliyinin «Klimat» konstruktor bürosu kimi fəaliyyətə başlayıb. Sovet İttifaqının süqutundan sonra müəssisənin fəaliyyəti məhdudlaşmışdır. Zavodun yenidən*

*qurulmasında əsas məqsəd atıcı silahların, o cümlədən avtomatların, pulemyotların, snayper tüfənglərinin yaradılması, modernləşdirilməsi və kütləvi istehsalın təşkili istiqamətində elmi-tədqiqat, təcrübi-konstruktor işlərinin aparılması, xüsusi standartlara uyğun sınaq metodikaları və proqramlarının tələblərinə cavab verən nümunələrin hazırlanmasından ibarətdir.*

*Konstruktor bürosunun fəaliyyəti ilə tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, Müdafiə Sənayesi Nazirliyi yaradıldıqdan sonra büronun işi təkmilləşdirilmiş, bənzəri olmayan ilk milli «İstiqlal» snayper tüfənginin yaradılması başa çatdırılmış və istehsalı təmin edilmişdir. Hazırda burada «İstiqlal-2», «İstiqlal-4», «İstiqlal-1T», «Şimşək-9» və digər müdafiə təyinatlı silahlar sınaqdan keçirilir. Müdafiə təyinatlı məmulatların yaradılması və istehsalının mənimsənilməsi üçün konstruktor bürosunun fəaliyyət çevikliyi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə konstruktorların daha məhsuldar çalışmalarını təmin edən yeni inzibati bina və müasir istehsal, sınaq nümunələrini yığma sahələri yaradılmış və digər zəruri vasitələrlə təmin edilmişdir. Konstruktor bürosu da müasir avadanlıqla təmin olunmuşdur. Burada proqramla idarə olunan 3 və 4 koordinatlı frez və torna emal mərkəzləri, universal frez, lazer həkketmə və lazer eroziya dəzgahları qurulub.*

*Prezident İlham Əliyev müəssisədə layihələndirilən və hazırlanan müşahidə cihazları, zirehli texnika və atıcı silahlara baxdı. Məlumat verildi ki, zavodda hazırlanan xüsusi təyinatlı «Gürzə» patrul maşını 2,5 ton yükgötürmə qabiliyyətinə malikdir. Ən son yeniliklərlə təchiz olunan bu maşın «Toyota HİLOYX-12» modelinin bazasında yaradılıb və yalnız Azərbaycanda yığılır.*

*Dövlətimizin başçısı sükan arxasına əyləşib xüsusi təyinatlı «Gürzə» patrul maşınını idarə etdi və zavodda yaradılmış şəraitdən razılığını bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

# «DÖVLƏT VƏ DİN: DƏYİŞƏN DÜNYADA TOLERANTLIĞIN GÜCLƏNDİRİLMƏSİ» I BEYNƏLXALQ BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Sizi – «Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi» I Beynəlxalq Bakı Forumunun iştirakçılarını ürəkdən salamlayır, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Ayrı-ayrı dövlətlərdə dini siyasətlə məşğul olan rəsmi hökumət nümayəndələrinin, nüfuzlu beynəlxalq təşkilatların və aparıcı elmi-tədqiqat mərkəzləri təmsilçilərinin, görkəmli din xadimlərinin Azərbaycanda bir araya gəlməsini təqdirəlayiq hal hesab edirəm. Qloballaşma prosesinin sürətləndiyi müasir dünyada gedən mürəkkəb etnosiyasi proseslərdə dinin yeri və rolu, beynəlxalq münasibətlərdə və cəmiyyət həyatında din amili, bəşəriyyətin gələcək taleyi naminə mədəniyyətlərarası dialoq kimi qlobal məsələlərin müzakirəsi xüsusi əhəmiyyət kəsb edir. Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət–din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın belə müzakirələrə ev sahibliyi etməsi təsadüfi deyildir. Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi birgəyaşayış normasına çevrilib. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməyib, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olubdur. Ayrı-ayrı etiqad və inanclara malik etnosların 100 illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında bizim

xalqımıza xas olan humanizmin və multikulturalist dəyərlərin müstəsna rolu vardır.

Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi, Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir, beynəlxalq aləmlə qarşılıqlı münasibətlərin, ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafına mühüm əhəmiyyət verir. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət–din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Əminəm ki, Bakı Forumunda sürətlə dəyişən dünyada tolerantlığın gücləndirilməsi, universal mənəvi dəyərlərin beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması, dini zəmində ekstremizmə və ayrı-seçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi kimi aktual problemlər ətrafında konstruktiv fikir mübadilələri aparılacaq və səmərəli tövsiyələr səsləndiriləcəkdir.

Bu xeyirxah və gərəkli fəaliyyətinizdə hər birinizə cansağlığı, Beynəlxalq Forumun işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 dekabr 2012-ci il*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də bp şirkətinin icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, Azərbaycanda işlənilən yataqlar, o cümlədən «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku və «Şahdəniz» qaz yatağında birgə layihələrin işlənilməsi istiqamətində səmərəli nəticələrin əldə olunduğu vurğulandı, əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCANIN KOSMİK PROQRAMININ MƏSLƏHƏTÇİSİ AKADEMİK ROALD SAQDEYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Azərbaycanın Kosmik Proqramının məsləhətçisi akademik Roald Saqdeyevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikasının beynəlxalq elmi əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətinə görə akademik Roald Saqdeyevin ölkəmizin yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeni ilə təltif edilməsini dedi və ordeni akademik Roald Saqdeyevə təqdim etdi.*

*Akademik Roald Saqdeyev Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeninə layiq görüldüyünə görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

*Görüşdə Azərbaycanın ilk kosmik peykinin orbitə buraxılması məsələləri və ölkəmizdə kosmik proqramın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2012-ci İLƏ YEKUN VURULMASI, İDMANÇILARA VƏ MƏŞQÇİLƏRƏ MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİ

*18 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 18-də Milli Olimpiya Komitəsində (MOK) 2012-ci ilə yekun vurulması, idmançılara və məşqçilərə mükafatların təqdim olunması mərasimində iştirak etmişlər. Dövlətimizin başçısı mərasimdə nitq söylədi:*

– Əziz dostlar, ənənəvi olaraq ilin sonunda sizinlə görüşürük, idman yekunlarına baxırıq, fərqlənən idmançıları mükafatlandırırıq. Bu ənənə davam etdirilir. Artıq uzun illərdir ki, hər ilin sonunda bu ənənəvi görüşlər keçirilir.

2012-ci il başa çatır. Bütövlükdə, 2012-ci il ölkəmiz üçün həm idman sahəsində, həm də başqa sahələrdə çox uğurlu oldu. Ölkə qarşısında duran bütün əsas vəzifələr bu il də icra edilmişdir. İqtisadiyyatımız uğurla inkişaf etmişdir. Sosial məsələlərin bir çoxu həllini tapdı. Uzun illərdir ki, sovet dövründən dondurulmuş vəziyyətdə qalan əmanətlər vətəndaşlara qaytarılmağa başlandı. Yəni bütün sahələrdə inkişafı, yenilikləri görürük. Əlbəttə, güclü iqtisadi potensial bizə imkan verəcəkdir ki, gələcəkdə idman sahəsinə daha da böyük həcmdə investisiyalar qoyaq.

İqtisadiyyatımız indi daha çox qeyri-neft sektoru hesabına inkişaf edir. Bu da təbiidir. Bir neçə il bundan əvvəl qarşıya məhz belə vəzifə qoyulmuşdu. Bu ilin yekunlarına görə – hələ ki, dəqiq hesablamalar aparılır – görünür ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artacaqdır. Bu çox böyük göstəricidir. Bu onu göstərir ki, iqtisadiyyatımız artıq çoxşaxəli

iqtisadiyyat kimi inkişaf edir. Bildiyiniz kimi, bu il neft sahəsində hasilatda müəyyən tənəzzül oldu. Mən bu barədə fikirlərimi, iradlarımı bildirmişdim. Çox şadam ki, artıq neft sahəsində də sabitləşmə dövrü başlayıb. Bir müddət əvvəl mən bu məsələ ilə bağlı Nazirlər Kabinetinin toplantısında fikirlərimi açıq şəkildə bildirdim ki, ictimaiyyət də bilsin. Bütövlükdə, bu məsələdə dönüş yaranmalı idi. Mən çox şadam ki, bizim əsas tərəfdaşımız olan *bp* şirkəti bu fikirlərə, bu iradlara çox böyük məsuliyyətlə yanaşmışdır. Bu gün səhər *bp* şirkətinin prezidenti mənimlə görüşdə şirkətin gələcək illər üçün planlarını açıqladı. Şadam ki, bu planların arasında neft hasilatının sabitləşdirilməsi məsələləri ön planda dayanır. Bu onu göstərir ki, bizim aramızda olan əməkdaşlıq güclü əsaslar üzərində qurulub. Gələn ildən başlayaraq iqtisadiyyatımızın əsas sahəsi olan neft sənayesində sabitləşmə olacaqdır. Bundan sonra dayanıqlı neft hasilatı uzun illər təmin ediləcəkdir.

Nə üçün mən bu barədə fikirlərimi bildirirəm? Ona görə ki, bu gün bu görüş baş tutdu. Ona görə ki, mənim iradlarımdan sonra Azərbaycanı istəməyən xarici qüvvələr, erməni lobbisi və əfsuslar olsun ki, onlarla bir düşərgədə olan daxili müxalifət bu məsələni qabarıq şəkildə büruzə verməyə çalışmışdı. Sanki Azərbaycanda neft sənayesində hər hansı bir ciddi problem vardır. Sanki Azərbaycan ilə, SOCAR ilə onun tərəfdaşları arasında hansısa problemlər vardır. Problemlər ola bilər. Ancaq bizim üstünlüyümüz ondan ibarətdir ki, bu problemlər aşkarlanır, biz vaxtında öz fikirlərimizi bildiririk. Tərəfdaşlarımız da iradlarımıza böyük maraqla və böyük məsuliyyətlə yanaşırlar. Demək istəyirəm ki, bizi istəməyən qüvvələr, daxili qüvvələr, satqınlar, həmin o adamlar ki, idmançılarımızın London Yay Olimpiya oyunlarında ilk günlərdə qızıl medal əldə edə bilməməsindən sevinən və ondan sonra oyunların yekunlarına görə ermənilərlə bərabər məyus olan daxili müxalifət sevinməsin. Erməni lobbisi, bizi istəməyən, Azərbaycanın uğurlu inkişafını istəməyən xarici qüvvələr sevinməsin.

Azərbaycan iqtisadiyyatı güclü iqtisadiyyatdır. Neft-qaz sektorumuz iqtisadiyyatın dayağıdır. Yenə də qeyd etmək istəyirəm ki, bu sahədə Azərbaycan rəhbərliyinin qətiyyəti, tərəfdaşlarımızın məsuliyyəti və *bp*–SOCAR münasibətlərinin düzgün istiqamətdə davam etdirilməsi nəticəsində xoşagəlməz meyillərin qarşısı alındı və gələn ildən başlayaraq neft-qaz sektorunda sabit iqtisadi inkişaf təmin ediləcəkdir.

Gələn il bütövlükdə ölkəmizin inkişafı üçün çox əlamətdar il olacaqdır. Çünki gələn il bir neçə nəhəng layihənin təməlini qoyacağıq. O layihələr ki, onların hər biri özlüyündə meqalayihədir. O layihələrin icra edilməsi üçün böyük vəsait qoyulacaqdır. Vəsaitin böyük hissəsi xarici tərəfdaşlar tərəfindən qoyulacaqdır. Ölkə iqtisadiyyatına investisiya axını təmin ediləcəkdir. Bu bizə imkan verəcək ki, iqtisadi gücümüzü artıraq, humanitar sahəyə, idmana, mədəniyyətə, sosial məsələlərin həllinə daha da böyük vəsait ayıraq.

İlin idman yekunlarına gəldikdə, hamımız görürük ki, 2012-ci il idmançılarımız üçün çox uğurlu oldu. Təsadüfi deyildi ki, biz 2012-ci ili «İdman ili» elan etmişdik. Bu, idmana dövlət tərəfindən olan diqqətin təzahürüdür. İlin əvvəlində bu qərarı verərkən idmançılardan qələbələr, uğurlar gözləyirdik. İdmançılar ümidlərimizi doğrultdular. 2012-ci ildə idmançılar tərəfindən müxtəlif beynəlxalq yarışlarda 700-dən çox medal qazanılmdı. Onlardan 255-i qızıl medaldır.

İdmançılarımız ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil etdilər. Ölkəmizdə bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Mən onların içərisində qızlar arasında futbol üzrə dünya çempionatını xüsusilə qeyd etmək istəyirəm. Çünki bu bizim üçün birinci və çox uğurlu təcrübə idi. Çünki həm FİFA, həm UEFA-nın prezidentləri Azərbaycanda keçirilmiş bu çempionatı yüksək qiymətləndirdilər. Çempionat 3 həftəyə yaxın keçirildi və bütün məsələlər yüksək səviyyədə həll olundu. Biz bütün təşkilati məsələlərdə həmişə olduğu kimi, yüksək səviyyədə idik. Bu çempionat tarixə artıq ən uğurlu çempionatlardan biri kimi daxil edilibdir. Azərbaycanda digər

beynəlxalq tədbirlər də keçirilir. Artıq biz bu prosesə öyrəşmişik. Hər həftə, demək olar ki, bir beynəlxalq tədbir keçirilir. Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi bir daha ölkəmizin idman ölkəsi olduğunu göstərir.

Bu il biz idman infrastrukturunun yaradılması ilə bağlı səylərimizi davam etdirmişik. İl ərzində 2 regional olimpiya mərkəzi istifadəyə verilmişdir – Cəlilabadda və Astarada. Beləliklə, bölgələrdə tikilmiş idman olimpiya komplekslərinin sayı 35-ə çatdı, 8 kompleksdə tikinti işləri davam etdirilir. Bir neçə kompleksin tikintisi nəzərdə tutulur. Bir neçə ildən sonra hər bir rayon mərkəzində, hər bir şəhərdə müasir olimpiya obyektləri yaradılacaqdır.

Bakı şəhərində yeni tikilmiş idman obyektləri istifadəyə verildi, təmir edildi. Tofiq Bəhramov adına Respublika stadionu əsaslı təmir edildi. Hesab edirəm ki, tarixdə birinci dəfə belə əsaslı təmir işləri görülmüşdür. İndi stadion bütün beynəlxalq standartlara cavab verir. «8-ci kilometr» stadionu. Hələ ki, o stadionun şərti adı «8-ci kilometr»dir. Yəqin ki, bu ada baxmaq lazımdır. Bu gözəl idman obyektinə hər hansı bir gözəl ad verilə bilər. O da təhvil verildi. Ölkəmizdə indi böyük Gimnastika Kompleksi tikilir. Bu yaxınlarda Su-İdman Növləri sarayı tikilməyə başlanmışdır. Keçən il böyük Olimpiya stadionunun təməli qoyuldu. Artıq bu sahədə bu il praktiki addımlar atılmağa başlanmışdır. Bu Olimpiya stadionu bölgənin ən böyük idman obyekti olacaqdır.

Yəni idman infrastrukturunun yaradılması istiqamətində çox böyük işlər görülmüşdür. Bütün bu işlər böyük vəsait tələb edir. Əlbəttə, bütün bu vəsaitin yükü, bu maliyyə yükü dövlət büdcəsinin üzərinə düşür. Biz hər il investisiya proqramına baxarkən idman obyektlərinin tikintisi üçün kifayət qədər böyük məbləğlər nəzərdə tuturuq. Əlbəttə, bu proseslər gələn illərdə də davam etdiriləcəkdir.

Bu il eyni zamanda, Milli Olimpiya Komitəsinin 20 illik yubileyini qeyd etdik. Bu da çox əlamətdar hadisədir. Müxtəlif ölkələrdən gəlmiş qonaqlar bizimlə bərabər bu gözəl şənliklərdə

iştirak etdilər. Biz 20 ildir beynəlxalq olimpiya ailəsinin üzvüyük və bu ailədə öz yerimizə malikik. Bu gün həm ümumdünya, həm Avropa federasiyaları ilə əlaqələrimiz artır. Beynəlxalq və Avropa olimpiya komitələrinin bizə münasibəti çox müsbətdir. Azərbaycanda idman sahəsindəki uğurları onlar daim qeyd edirlər. 20 illik yubiley bizə imkan verdi ki, görülmüş işləri bir daha təhlil edək, uğurlarımızla öyünək, çatışmayan cəhətləri, qüsurları aradan götürək ki, daha da böyük nəticələrə imza ata bilək.

2012-ci ilin idman tədbirlərindən danışarkən London Yay Olimpiadası haqqında danışmamaq mümkün deyil. Bu Olimpiada da tarixdə qalacaqdır. Bu Olimpiya oyunlarında idmançılarımız ən böyük uğurları qazanmışlar, xalqımızı sevindirmişlər, Azərbaycanı idman dövləti kimi, aparıcı dövlətlərin sırasına daxil edə bilmişlər. 10 medal – 2 qızıl, 2 gümüş, 6 bürünc medal bizim tarixi nailiyyətimizdir. Olimpiya oyunlarından artıq bir neçə ay keçir və hələ ki, xarici həmkarlarla görüşlərdə bu məsələ vurğulanır, Azərbaycanın uğurları haqqında fikir mübadiləsi aparılır. Məni bu günə qədər həmkarlarım – dövlət və hökumət başçıları bu uğurlar münasibətilə təbrik edirlər. Əlbəttə ki, bu çox gözəl hadisədir. Hər bir Azərbaycan vətəndaşının qəlbini qürur hissləri ilə dolduran bir məsələdir. Bu qələbəyə görə, hamımız idmançılara, onların məşqçilərinə, idman mütəxəsislərinə minnətdarıq.

Bu qələbənin əldə edilməsində Azərbaycanda idman sahəsində görülən işlər də az rol oynamır. Bizdə idman siyasəti dövlət tərəfindən aparılır. Bütün müvafiq qurumlar – dövlət qurumları və ictimai qurumlar, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, federasiyalar, klublar, cəmiyyətlər və idman ictimaiyyəti bir ailə kimi fəaliyyət göstərir.

İdmanın kütləviliyinin təmin edilməsi üçün Olimpiya oyunlarında uğurlar çox böyük rol oynayır. Çünki bu, gəncləri, uşaqları idman bölmələrinə gətirmək üçün həvəsləndirici bir amildir. Biz görürük ki, hər uğurdan, Olimpiya oyunlarında əldə edilmiş hər qələbədən sonra idman bölmələrinə uşaqların axını

güclənir. Elə etməliyik ki, hər bir gənc idmanla məşğul olsun. Şərt deyil ki, o mütləq idmançı olsun. Amma sağlamlığı möhkəmləndirmək, fiziki mədəniyyəti qaldırmaq üçün mütləq idmanla məşğul olmaq lazımdır.

Mən bütün gəncləri bir daha bu kürsüdən idmanla məşğul olmağa səsləyirəm. İndi hər bir yerdə idmanla məşğul olmaq üçün imkanlar var. Fiziki cəhətdən sağlam olan insanlar, adətən, mənəvi cəhətdən də yüksək keyfiyyətlərə malikdirlər. Mən çox şadam ki, idmançılarımız məişətdə də, adi həyatda da öz davranışları ilə gənclər üçün nümunədirlər.

Olimpiya oyunlarındakı qələbə doğrudan da tarixi qələbədir. Biz dünya miqyasında 30-cu, Avropada 15-ci, islam aləmində isə 3-cü yerə layiq görülmüşük. Artıq bir neçə dəfə mən idmançıları bu böyük qələbə münasibətilə təbrik etmişəm, bir daha təbriklərimi bildirmək istəyirəm.

Nəhayət, ilin sonunda Azərbaycana bir şad xəbər də gəldi. Dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında I Avropa Olimpiya oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi haqqında qərar qəbul edildi. Bu da tarixi qərardır. Ona görə ki, bu birinci Avropa Olimpiya oyunları olacaqdır. Bu günə qədər baxmayaraq ki, olimpiya hərəkatı tarixən Avropa məkanından başlamışdır və Olimpiya oyunlarının bərpası da müasir dövrdə yenə də Avropa qitəsində baş vermişdir – Avropa Olimpiya oyunları heç vaxt keçirilməmişdir. Birinci oyunların keçirilməsi özlüyündə ciddi bir addımdır, olimpiya hərəkatında bir dönüşdür. Bu oyunların bizə həvalə edilməsi, bu məsuliyyətin bizə tapşırılması, əlbəttə ki, böyük tarixi əhəmiyyətə malik olan bir hadisədir.

Mən bu münasibətlə Azərbaycan xalqını dərhal təbrik etdim. Bir daha demək istəyirəm ki, bu qərarın qəbul edilməsində bir neçə mühüm amil öz rolunu oynamışdır, ilk növbədə, ölkəmizin inkişafı. 21 ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Tarix baxımından bu qısa müddət ərzində özümüzü dünya xəritəsində inkişafda olan, dinamik, müasir ölkə kimi təsdiq edə bilmişik. Bizim beynəlxalq nüfuzumuz həddindən artıq yüksək

səviyyədədir. Bu nüfuzun təzahürüdür ki, biz BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik, dünyada bundan yuxarı beynəlxalq qurum yoxdur. Bizim bütün ölkələrlə ikitərəfli əlaqələrimiz də çox müsbətdir. Əgər təkcə beynəlxalq nüfuzumuz olsaydı, iqtisadi imkanımız olmasaydı, çətin ki, bu məsuliyyətli iş bizə tapşırılardı. Əlbəttə, ölkəmizin iqtisadi inkişafı böhranlı illərdə də davam etmişdir. İndi Avropanın bir neçə ölkəsində ciddi böhran davam edir. Yəni bu böhranın sonu görünmür və vaxt keçdikcə daha da çox ölkələr bu böhrandan əziyyət çəkir. Artıq bir neçə ildir ki, bu proseslər gedir və bu böhranlı illərdə Azərbaycan ildən-ilə iqtisadi nailiyyətlərlə bütün Avropanı təəccübləndirir. Nəinki bizim statistik rəqəmlərə görə bu belədir. Dünyanın aparıcı reytinq agentlikləri aparıcı Avropa ölkələrinin bir neçəsinin reytinqini aşağı salarkən Azərbaycanın kredit reytinqlərini qaldırırlar.

Bu inkişafı görməmək, bunu hiss etməmək mümkün deyildir. Əlbəttə, bu qərarın qəbul edilməsində bizim iqtisadi imkanlarımız və gələcək iqtisadi inkişafımız da az rol oynamayıb. Bizim artıq beynəlxalq tədbirlərin keçirilməsində təcrübəmiz, dünya, Avropa çempionatlarının keçirilməsi, bu il «Eurovision» mahnı yarışını ən yüksək səviyyədə keçirməyimiz də, idman qurğularımızın mövcudluğu da bu qərarın qəbul edilməsində öz rolunu oynamışdır. Olimpiya oyunlarının keçirilməsi üçün lazım olan idman obyektləri artıq ya tikilib, ya tikilməkdədir. Biz bütün bu işləri bəri başdan görmüşük.

Biz istəyirdik ki, Azərbaycanda belə böyük mötəbər tədbir keçirilsin və fikirləşirdik ki, bu tədbirin keçirilməsi üçün bizdə güclü idman infrastrukturu olmalıdır. Ancaq bu tədbirin keçirilib-keçirilməməsindən asılı olmayaraq, biz bu idman qurğularını onsuz da yaratmalı idik və yaradırıq. İdman infrastrukturumuz belədir ki, biz istənilən oyunları burada keçirə bilərik, xaricdən gələn istənilən sayda idmançıları burada yerləşdirə bilərik. Bakıda son 2 il ərzində istifadəyə verilmiş yeni mehmanxanalar, istirahət zonaları, idman qurğuları bu qərarın qəbul edilməsində öz rolunu oynamışdır. Çünki bu qərarın qəbul

edilməsindən əvvəl qiymətləndirici missiya da göndərilmişdir. Avropa Olimpiya Komitəsinin üzvləri Bakıya gəlmiş, vəziyyətlə tanış olmuşlar. Bu qərarın qəbul edilməsi bu amillərin əsasında mümkün olmuşdur. Əminəm ki, bizim uğurlu çıxışlarımız, idmançılarımızın qələbələri, xüsusilə London Yay Olimpiya oyunlarındakı qələbələr bu qərarın qəbul edilməsində öz rolunu oynamışdır.

Mən əminəm ki, biz bu oyunları yüksək səviyyədə keçirəcəyik. Ancaq onu da bilməliyik və ictimaiyyət də bilməlidir ki, Olimpiya oyunlarının, Yay və qış böyük Olimpiya oyunlarının keçirilməsinə hazırlıq dövrü təxminən 6-7 il olur. Misal üçün, gələn ilin sentyabr ayında 2020-ci ilin Olimpiya oyunlarının paytaxtı müəyyən ediləcək. Yəni kim olursa-olsun, o ölkənin hazırlanması, bütün bu məsələlərin həll olunması üçün 6-7 il vaxt lazım olacaq. Bizim vaxtımız cəmi 2 ildir. Ancaq templərimiz də çox yüksəkdir. Dünyada ikinci belə ölkə yoxdur ki, bu templərlə inkişaf etsin. 2 il çox az bir vaxtdır. Amma əminəm ki, bütün lazımi tədbirlər, texniki, təşkilati məsələlər öz həllini tapacaq və I Avropa Olimpiya oyunları tarixə düşəcəkdir. Təkcə ona görə yox ki, birinci oyunlardır, ona görə ki, bu, ən yaxşı oyunlar olacaqdır. Əminəm ki, ictimaiyyətimiz və ilk növbədə, Azərbaycanın idman ictimaiyyəti bu oyunların hazırlanmasında çox fəal rol oynayacaq. Biz artıq təşkilati məsələlərin həlli ilə məşğuluq. Bu, böyük iş olacaqdır, böyük fədakarlıq, zəhmət tələb edəcəkdir. Ancaq bizim böyük, mötəbər tədbirlərin keçirilməsində təcrübəmiz yaxşıdır və biz bu təcrübədən istifadə edib ən yaxşı oyunları keçirəcəyik.

Əziz dostlar, mən bir daha sizi əldə edilmiş uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Ənənəvi olaraq bu gün biz idmançılarımızı mükafatlandıracağıq. Qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi təbrik edirəm, sizə cansağlığı, idmançılara yeni ildə yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

Sonra prezident İlham Əliyev ölkəmizdə idmanın inkişafındakı xidmətlərinə görə Namiq Abdullayevə, Məmməd Eyvazova, Rəhman Hətəmova, Ceyhun Məmmədova «Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi» Fəxri adlarının vəsiqələrini və döş nişanlarını təqdim etdi.

Respublikamızda idmanın inkişafında xidmətləri olan Yaşar Allahverdiyevə, Fikrət Sideifzadəyə və Ramiz Yusifova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında sənədlər təqdim olundu.

Sonra Olimpiya oyunları çempionları Valeri Belenkiyə, Toğrul Əsgərova və Şərif Şərifova Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin verilməsi barədə dövlətimizin başçısının sərəncamı oxundu.

Dövlətimizin başçısı olimpiya çempionları Toğrul Əsgərova və Şərif Şərifova MOK-un «Olimpiya» ordenini təqdim etdi.

Azərbaycanda qeyri-olimpiya idman növlərinin inkişafındakı xidmətlərinə görə Eldar Qazıbəyov, Zaur Paşayev və Sadiq Heydərov MOK-un prezidentinin Fəxri fərmanı ilə təltif olundular.

Daha sonra prezident İlham Əliyev müxtəlif beynəlxalq yarışlarda fərqlənən, ölkəmizdə idmanın inkişafına töhfə verən bir qrup idmançı və idman xadiminə yeni mənzillərin orderlərini təqdim etdi.

Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Azərbaycan «Kitab» Cəmiyyətinin sədri Zərifə Salahova medalların hazırlanması üzrə tanınmış mütəxəssis İvan Kopıtkinin müəllifi olduğu ulu öndər Heydər Əliyevin barelyefini prezident İlham Əliyevə təqdim etdi.

## BALAXANIDA BƏRK MƏİŞƏT TULLANTILARININ ÇEŞİDLƏNMƏSİ ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*19 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Balaxanıda Bərk məişət tullantılarının çeşidlənməsi zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə zavodun idarəetmə otağında müəssisənin iş mexanizmi ilə tanış oldu.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev məlumat verdi ki, məişət tullantılarının çeşidlənməsi və təkrar istehsalı biznesinin inkişaf etdirilməsi məqsədilə tikilən zavod ölkəmizdə bu sahədə ilk pilot layihədir. Müasir avadanlıqlar əsasında qurulan zavodun illik istehsal gücü 200 min tondur. Yeni müəssisənin səmərəli fəaliyyəti təbii sərvətlərə və enerjiyə qənaət etməyə, ətraf mühitə mənfi təsirlərin azaldılmasına imkan verir.*

*Bildirildi ki, müəssisədə çeşidləmənin aparılması nəticəsində təkrar emala yararlı materiallar ayrılacaq, tullantıların ümumi həcmi azalacaq, bu da ucuz xammal bazarının formalaşmasına, ölkədə təkrar emal sahəsinin genişlənməsinə imkan yaradacaqdır.*

*Dövlətimizin başçısına tullantıların idarə edilməsi sahəsində görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, 2009-cu ilin sonlarında Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonu «Təmiz şəhər» Açıq Səhmdar Cəmiyyətinə təhvil verildikdən sonra ərazidə yanma və tüstülənmənin qarşısı qısa vaxtda alınmış, tullantıların torpaqla örtülməsi və hamarlama işləri aparılmış, zəruri infrastruktur yaradılmışdır. Görülən işlər nəticəsində tullantıların ətraf mühitə təsiri əhəmiyyətli dərəcədə azalmışdır. Aparılan monitorinqlərin nəticələri suda və torpağın səthində ağır metalların, havada kimyəvi birləşmələrin miqdarının azaldığını göstərir. 4 il ərzində görülən və görülməsi nəzərdə tutulan işlərin məqsədi Balaxanı*

*poliqonunu beynəlxalq standartlara uyğun, sanitariya və gigiyena normalarına tam cavab verən poliqona çevirməkdir.*

*Diqqətə çatdırıldı ki, 2012-ci ilin əvvəlində Balaxanı poliqonu ərazisinə daxil olan tullantı daşıyan maşınların təmizlənməsi və dezinfeksiyası məqsədilə gün ərzində 400-dən çox maşına xidmət göstərən 4 kabinədən ibarət yuma və dezinfeksiya məntəqəsi istifadəyə verilib.*

*Qeyd edildi ki, Bakı və ətraf qəsəbələrdə yaranan bərk məişət tullantılarının qeyri-rəsmi tullantı sahələrinə atılmasının qarşısının alınması məqsədilə Xəzər, Qaradağ və Suraxanı rayonlarında yükləmə-boşaltma məntəqələrinin qurulması nəzərdə tutulur. Bu məntəqələrdən nəql ediləcək tullantı kütləsi çeşidlənəcək və təkrar emala yararlı materiallar ümumi kütlədən ayrılaraq emal müəssisələrinə, digər tullantılar isə sıxılaraq irihəcmli konteyner maşınları ilə bu zavoda daşınacaqdır. Bu da nəqliyyat xərclərinə, yanacağa qənaət edilməsinə, ətraf mühitə atılan zərərli qazların miqdarının azaldılmasına imkan yaradacaqdır.*

*Bildirildi ki, Dünya Bankı və Azərbaycan hökumətinin birgə həyata keçirdiyi «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsi üzrə işlər davam etdirilir. Layihəyə uyğun olaraq, Bakıda bərk məişət tullantılarının idarə olunmasına dair 20 illik strategiya hazırlanmışdır. Layihə çərçivəsində 41 qeyri-qanuni tullantı sahəsindən 360 min tondan çox tullantı təmizlənərək Balaxanı poliqonunda zərərsizləşdirilib.*

*Prezident İlham Əliyev Balaxanı Məişət tullantılarının çeşidlənməsi zavodunun inzibati binasında yaradılan şəraitlə də tanış oldu. Diqqətə çatdırıldı ki, zavod 3 növbədə fəaliyyət göstərəcək və burada 172 nəfər işlə təmin olunacaqdır.*

*Dövlətimizin başçısı müəssisədə yaradılmış şəraitdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## BALAXANIDA BAKI BƏRK MƏİŞƏT TULLANTILARININ YANDIRILMASI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*19 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Balaxanıda Bakı Bərk məişət tullantılarının yandırılması zavodunun açılışında iştirak etmişdir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, müəssisənin tikintisi ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair kompleks tədbirlər planı çərçivəsində həyata keçirilib. Zavod 2008-ci ildə İqtisadi İnkişaf Nazirliyi ilə Fransanın «CNİM» şirkəti arasında imzalanan müqaviləyə əsasən inşa edilmişdir. Bu sahədə dünyanın ən aparıcı şirkətlərindən biri olan və 50 illik təcrübəyə malik «CNİM» bir çox ölkələrdə, xüsusilə də Avropada 120-dən çox bu tipli zavod tikib. Müəssisənin təməli 2009-cu il noyabrın 3-də prezident İlham Əliyev tərəfindən qoyulmuşdur.*

*Bildirildi ki, 20 hektar ərazidə inşa olunan və illik emal gücü 500 min ton məişət tullantısı və 10 min ton tibbi tullantı təşkil edən bu zavodun 20 illik istismarı da «CNİM» tərəfindən həyata keçiriləcəkdir.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Məlumat verildi ki, zavod 2 xətdən və elektrik enerjisi istehsal edən turbindən ibarətdir. İstismar zamanı tullantıların həcmi 10 dəfə, kütləsi isə 3 dəfədən çox azalacaqdır. Tullantıların yandırılması prosesi nəticəsində alternativ enerji kimi əldə ediləcək elektrik enerjisinin miqdarı ildə 231,5 milyon kilovat/saat olacaqdır. Zavodun fəaliyyəti nəticəsində illik 60 milyon kubmetrdən artıq təbii qaz həcmində enerjiyə qənaət ediləcəkdir. Əldə edilən elektrik enerjisi 100 min evin enerji ilə təmin olunmasına imkan yaradacaqdır.*

*Məlumat verildi ki, bərk məişət tullantılarının yandırılması zavodu istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri müəssisədir. Dördüncü nəsil «4G» texnologiyasının tətbiqi ilə qurulan zavod Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verəcəkdir. Yanma zamanı əmələ gələn qurum xüsusi süzgəclərlə tutulacaqdır. Daha ağır və zərərsiz olan dib külündən isə yol tikintisində istifadə edilə bilər. Tullantı hədlərinin monitorinqinin gündəlik aparılacağı zavod ətraf mühitin idarə edilməsi üzrə «ISO 14001» standartlarına tam cavab verir. Zavodun fəaliyyəti nəticəsində illik 100 min tona yaxın karbon dioksin-CO2 qazı ekvivalentində istilik effekti yaradan qazların atmosferə atılmasının qarşısı alınacaq. Sonra dövlətimizin başçısı məişət tullantılarının idarə olunması sahəsində görülən işlərdən bəhs edən filmə baxdı.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar!

Hörmətli xanımlar və cənablar! Mən sizi Balaxanıda tikilmiş bərk məişət tullantılarının yandırılması zavodunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu, gözəl hadisədir. Bu kiçik filmdə zavodun tikilməsi ilə bağlı bəzi məqamlar göstərilib. 3 il bundan əvvəl – 2009-cu ilin noyabr ayında bu yerdə zavodun təməl daşı qoyuldu. Çox şadam ki, qısa müddət ərzində belə nəhəng sənaye müəssisəsi yaradıldı. Bu zavodun tikintisində iştirak etmiş bütün qurumlara, bütün şirkətlərə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Zavodun dəyəri, yəni qoyulan investisiyanın həcmi 365 milyon avrodur. Onun bir hissəsi İslam İnkişaf Bankı tərəfindən kredit şəklində verilmişdir. Qalan hissə isə Azərbaycanın dövlət büdcəsi hesabına formalaşdırılıb.

Zavodun tikintisində Fransanın böyük təcrübəyə malik olan «CNİM» şirkətinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Onu da qeyd etmək istəyirəm ki, bu şirkətlə əməkdaşlığımız bundan sonra da davam edəcəkdir. Çünki 20 il ərzində zavodun idarə edilməsi «CNİM» şirkətinə həvalə edilmişdir. Mən çox şadam ki, Fransanın böyük şirkəti olan «CNİM» ilə Azərbaycan

arasında belə işgüzar münasibətlər qurulub. Mən bu ilin sentyabr ayında Fransanın aparıcı şirkətləri ilə MEDEF-də görüşdə bir daha gördüm ki, Azərbaycan ilə əməkdaşlıq etmək, biznes əlaqələrini genişləndirmək üçün hər 2 tərəfdə böyük maraq vardır və böyük imkanlar açılır. Fransa şirkətləri uzun illərdir ki, Azərbaycanda uğurla fəaliyyət göstərirlər. İstər energetika, istərsə də qeyri-neft, tikinti, nəqliyyat sektorlarında, kosmik sənaye müəssisələrinin inkişafında bizə kömək göstərirlər. Bu böyük investisiyatutumlu müəssisənin yaradılması da Fransa şirkəti tərəfindən icra edilmişdir.

Zavodun tikintisinə böyük ehtiyac var idi. Çünki bu kiçik filmdə göstərildiyi kimi, bu ərazi ekoloji fəlakət zonası idi. Bakı sakinləri yaxşı bilirlər ki, uzun onilliklər ərzində bu bölgədə yığılan tullantılar faktiki olaraq şəhərimizin ekoloji vəziyyətinə çox böyük zərbə vurmuşdur. Məişət tullantılarının burada yığılması və bir çox hallarda yandırılması ekoloji vəziyyəti daha da gərginləşdirirdi. Bu ərazinin üzərində daim tüstü buludları var idi. Bu tüstü Bakını bürüyürdü, bunun insanların sağlamlığına, şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsiri olmuşdur. Bir neçə il bundan əvvəl bütövlükdə Bakının və Abşeron yarımadasının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün kompleks tədbirlər görülməyə başlanmış və onların içərisində bu zavodun tikintisi xüsusi yer tutmuşdur. Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini davam etdirir. Çünki bizim üçün insanların sağlamlığı hər şeydən üstündür.

İnsanların sağlamlığının təmin edilməsi üçün kompleks tədbirlər görülür. Son illər ərzində Azərbaycanda, xüsusilə Bakıda ağacəkmə kampaniyası geniş vüsət almışdır. Artıq bu, kampaniya deyildir. Bu, artıq dövlət siyasətidir. 10 milyondan çox ağac əkilmişdir.

Bakının və bütün şəhərlərin təmiz içməli su ilə təmin edilməsi üçün konkret layihələr icra edilir. Bu layihələrin əsas hissəsi, yəni mütləq əksəriyyəti gələn ilin sonuna qədər başa çatacaqdır. Beləliklə, hər bir şəhərdə, hər bir rayon mərkəzində əhali keyfiyyətli, Ümumdünya Səhiyyə Təşkilatının standartla-

rına uyğun olan içməli su ilə təmin ediləcəkdir ki, bu da tarixi nailiyyət olacaqdır. 2 il bundan əvvəl Oğuz–Qəbələ–Bakı su kəmərinin istismara verilməsi Bakı şəhərində içməli su ilə təminatı böyük dərəcədə yaxşılaşdırılmış və bu istiqamətdə əlavə tədbirlər görülür. Tədbirlər nəticəsində vəziyyət daha da yaxşılaşacaqdır. Yəni bu zavodun tikintisi böyük siyasi istiqamətin və eyni zamanda, sosial istiqamətin tərkib hissəsidir.

Zavodda Avropada mövcud olan ən sərt ekoloji normalar, meyarlar tətbiq edilir. Bu zavod ekoloji cəhətdən, demək olar ki, dünya miqyasında ən öncül yerlərdədir. Eyni zamanda, burada ən müasir texnoloji proses də yaradılıb. Texnoloji cəhətdən yüksək avadanlıq gətirilib, quraşdırılıb və bu proses, demək olar ki, tam şəkildə avtomatlaşdırılıb.

Zavodun istismara düşməsi və daha əvvəl tikilməsi nəticəsində müəssisənin ətrafında digər obyektlərin yaradılması üçün konkret tədbirlər görülmüşdür. Buraya gəlməzdən əvvəl mən yaxınlıqda yerləşən çeşidləmə zavodunun fəaliyyəti ilə tanış oldum. Məhz «CNİM» tərəfindən tikilmiş bu müəssisənin nəticəsi olan çeşidləmə zavodu da mühüm funksiya daşıyır. Eyni zamanda, zavodun tikintisi dövründə belə bir fikir yarandı, təşəbbüs irəli sürüldü ki, Balaxanıda Texnologiya parkı yaradılsın və bu gün o Texnologiya parkının təməl daşı qoyulacaqdır. Yəni gözəl bir təşəbbüsün görün nə qədər böyük təsiri vardır və burada yüzlərlə iş yeri açılmışdır. Burada işləyən işçilərin əksəriyyəti yerli vətəndaşlardır və getdikcə yerli kadrların sayı artacaqdır. Onlar yüksək maaş alırlar. Yəni bu zavodun tikintisi kompleks tədbirlərin görülməsində bizə kömək edir. Onu da qeyd etmək istəyirəm ki, zavodun tikintisi ilə bağlı Balaxanıda sosial layihə də həyata keçirilib. Balaxanı qəsəbəsinin içməli su ilə təchizatı üçün yeni layihə icra edilməyə başlanmış və yaxın zamanlarda başa çatacaqdır. Bu layihənin dəyəri təqribən 10 milyon manatdır. Bu layihə onu göstərir ki, biz məsələlərə kompleks şəkildə yanaşırıq, qarşıya qoyulan hədəfə uğurla çatırıq.

Mən əminəm ki, uzun illər bundan sonra zavod səmərəli şəkildə fəaliyyət göstərəcəkdir. Zavodun istehsal gücü 500 min tondur. Bakı şəhərində bəzi məlumatlara görə, daha çox məişət tullantıları yığılır və istisna edilmir ki, gələcəkdə zavodun sahəsi genişlənə bilər. Buna imkan da vardır. Əsas məsələ bundan sonra ondan ibarətdir ki, məişət tullantılarının yığılması, çeşidlənməsi, yandırılması və təkrar emala verilməsi prosesini biz bir-biri ilə uzlaşdıraq. Hazırda biz məsələnin son mərhələsini həll etdik – çeşidləmə, yandırılma, təkrar emal. Amma bu prosesin ilkin mərhələsi hələ ki, bizim tələblərimizə cavab vermir. Ona görə mən həm İqtisadi İnkişaf Nazirliyinə, həm Bakı Şəhər İcra Hakimiyyətinə tapşırıq verirəm ki, yaxın zamanlarda təkliflər hazırlansın. Evdən çıxan tullantının idarə olunması, daşınması, yığılması və buraya gətirilməsi, yandırılması bir proses kimi təşkil edilməlidir ki, biz Bakıda bu məsələni birdəfəlik həll edək və bu təcrübə ondan sonra başqa şəhərlərdə də tətbiq edilməlidir.

Zavodda 37 meqavat gücündə elektrik stansiyası da fəaliyyət göstərir. Bu da çox gözəl hadisədir. Bir neçə meqavat zavodun fəaliyyəti üçün sərf olunacaq, qalan 33 meqavat isə şəhər şəbəkəsinə veriləcəkdir ki, bu da bizim enerji balansımızın bərpa olunan enerji ilə daha çox təmin edilməsi üçün vacibdir. Bilirsiniz ki, bizim zəngin neft-qaz yataqlarımız vardır. Bizim qazımız 100 il bundan sonrakı dövr üçün bizə və xarici istehlakçılara çatacaqdır. Buna baxmayaraq, biz bərpa olunan enerji növlərinin yaradılması ilə məşğuluq. Bu yaxınlarda Füzulidə 25 meqavat gücündə su-elektrik stansiyasının tikintisi başa çatdı. Bu elektrik stansiyasının tikintisi, əlbəttə ki, bərpa olunan enerji növlərinin yaradılması işində çox gözəl bir hadisədir. Bir daha demək istəyirəm ki, burada bütün beynəlxalq ekoloji normalar da nəzərdə tutulur. Beləliklə, bu zavodun istismara verilməsi nəticəsində Azərbaycan qlobal ekoloji məsələlərin həllinə kiçik də olsa öz töhfəsini vermiş olur. Bu gün Balaxanı Texnologiya parkının da təməl daşı qoyulacaqdır.

Bu istiqamətdə kompleks tədbirlər görülür. Texnologiya parklarının bundan sonrakı uğurlu fəaliyyəti üçün əlavə tədbirlər paketi hazırlanır. Bu məsələnin qanunvericilik bazası hazırlanır və yaxın zamanlarda dövlət texnoloji parkların daha səmərəli fəaliyyət göstərməsi üçün əlavə güzəştlər paketi təklif edəcəkdir. Beləliklə, bir neçə yerdə böyük sənaye kompleksləri yaradılacaqdır – Sumqayıtda, Balaxanıda, Qaradağ rayonunda və digər yerlərdə.

Texnologiya parklarının ixtisaslaşması prosesi də artıq müəyyən edilibdir – yüksək Texnologiya parkı, Kimya Texnologiya parkı və Balaxanı Texnologiya parkı. Hər biri öz sahəsini əhatə edir və bu parklarda yeni yaradılacaq müəssisələr ölkəmizin sənaye potensialının güclənməsinə xidmət göstərəcəkdir. Çünki bir neçə dəfə qeyd etdiyim kimi, əsas məqsədimiz sənaye istehsalını artırmaq, neft amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu istiqamətdə böyük nailiyyətlər əldə edilibdir. Bu ilin yekunları onu göstərir. Hələ ki, dəqiq rəqəm yoxdur, ancaq ilkin rəqəm onu göstərir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artmışdır, qeyri-neft sənayemiz təqribən 7-8 faiz arta bilər. Bu, əvvəlki dövrdə sənayeləşmə istiqamətində görülmüş tədbirlər nəticəsində mümkün olmuşdur.

Bu zavodun və digər yeni böyük və kiçik müəssisələrin yaradılması nəticəsində biz uzunmüddətli dayanıqlı iqtisadi inkişafı təmin edəcəyik. Əlbəttə, enerji resursları bizə ilkin kapitalın yaradılmasında kömək etmişdir. Ancaq biz iqtisadi siyasətimizi elə aparmalıyıq ki, sanki bizdə neft, qaz yoxdur. Yalnız iqtisadi inkişaf, islahatlar, texnoloji prosesin təkmilləşməsi, müasir texnologiyaların gətirilməsi, investorlar üçün yaxşı investisiya şəraitinin yaradılması və xarici aparıcı şirkətlərlə uğurlu əməkdaşlığımız qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün bizə yardımçı olacaqdır.

Qeyd etmək istəyirəm ki, son illər ərzində mən bir çox açılışlarda iştirak etmişəm. Yüzlərlə, bəlkə daha da çox, indi onları saymaq üçün çox vaxt lazım olacaqdır. Ancaq onların

içində bu zavodun fəaliyyətə başlaması xüsusi yer tutur. Çünki bu zavoda qoyulan vəsait qeyri-neft sektoruna dövlət tərəfindən qoyulan ən böyük investisiyalardan biridir. Bu zavodun fəaliyyəti nəticəsində Bakının ekoloji vəziyyəti böyük dərəcədə yaxşılaşdırılacaqdır. İnsanların sağlamlığına çox böyük töhfə olacaqdır. Xarici əməkdaşlıq baxımından da bu zavod çox böyük əhəmiyyətə malikdir. Bir daha qeyd etmək istəyirəm ki, bu sahədə aparıcı şirkət olan «CNİM» şirkəti ilə biz uzunmüddətli əməkdaşlığa başlamışıq. Bu zavod Azərbaycan dövlətinin sosial siyasətini açıq-aydın göstərir. Bu sosial siyasəti bundan sonra da uğurla aparmaq üçün bizim iqtisadi gücümüz olmalıdır. Çünki mən qeyd etdim, İslam İnkişaf Bankı öz maliyyə dəstəyini, Dünya Bankı öz tövsiyələrini verdi, ancaq əsas maliyyə yükü Azərbaycan büdcəsinin üzərinə düşmüşdür. Yəni iqtisadi inkişaf elə olmalıdır ki, bundan sonrakı illərdə də biz sosial məsələlərin həllinə, bax, belə böyük dəstəyi verə bilək.

Mən bir daha, əziz dostlar, sizi və bütün Bakı sakinlərini bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu zavodun tikintisində iştirak etmiş bütün insanları təbrik etmək, onlara öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, xarici tərəfdaşlarla əməkdaşlığımız bundan sonra da uğurla davam etdiriləcəkdir.

Sağ olun.

**Nikolas Dmitrieff** *(Fransanın «CNİM» şirkətinin İdarə Heyətinin sədri)*: Cənab Prezident!

Cənab nazir, xanımlar və cənablar!

Bu gün açdığınız tullantıların emalı zavodunun 2009-cu ilin noyabrında keçirilmiş təməlqoyma mərasimində bizimlə olmaq şərəfini bizə verdiniz. Azərbaycanın ətraf mühitinin qorunmasına xidmət edən, müasir texnologiyalarla işləyən zavodun beton və poladdan ibarət möhtəşəm binası strateji baxış və rəhbərliyinizin sayəsində başa çatdırılmışdır. Onun istismarı üçün mühəndis-texniklər və sadə işçilərdən ibarət heyət yorulmadan çalışır. Bu zavodda olan hər bir künclük, hər bir

detal, hər bir maşın və avadanlıq keyfiyyət və əməkdaşlıq gücünün təzahürüdür və beynəlxalq heyət ümumi məqsəd uğrunda çalışmışdır. Məqsəd Azərbaycanın, Sizin başladığınız davamlı inkişaf siyasətinə əlavə mühüm töhfə verməkdir.

Cənab Prezident, mən 2009-cu ilin noyabr ayını çox yaxşı xatırlayıram. Sizin tövsiyələrinizi, ekologiya ilə bağlı siyasətinizi də xatırlayıram. Siz bu işinizi ilbəil davam etdirdiniz. Sizin burada olmağınızın özü bu zavod üçün böyük rəmzi əhəmiyyət daşıyır. Qeyd etmək istəyirəm ki, əslində bizim şirkət 150 ildir ki, fəaliyyət göstərir. Lakin məhz belə yeni müəssisələrin yaradılması əsasən son 50 ildə baş tutmuşdur.

Cənab Prezident, biz bu zavod ilə həqiqətən, fəxr edə bilərik və bizə göstərdiyiniz etimada görə Sizə təşəkkürümü bildirirəm. Çox fərəhlənirəm ki, biz Sizin ölkənin davamlı inkişafına kömək edirik.

Çox sağ olun, cənab Prezident!

## BALAXANI SƏNAYE PARKININ TƏMƏLQOYMA MƏRASİMİ

*19 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Balaxanı Sənaye parkının təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti Sənaye parkının layihəsini əks etdirən stendə və parkın maketinə baxdı. İqtisadi İnkişaf naziri Şahin Mustafayev məlumat verdi ki, parkın yaradılmasında məqsəd ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun davamlı inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, eləcə də Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılmasıdır.*

*Sənaye parkında plastik məmulat, şin, elektrik və elektron cihaz tullantıları, akkumulyator, əlvan metal, kabel və s. məişət tullantılarının təkrar emalı nəzərdə tutulur. Balaxanı Sənaye parkı təkrar emal sahəsində sahibkarlara və sərmayədarlara əlverişli imkanlar yaratmaqla yanaşı, ölkəmizdə təkrar emal sənayesinin inkişafında əhəmiyyətli rol oynayacaq.*

*Dövlətimizin başçısı Sənaye parkının təməlini qoydu.*

*Balaxanı qəsəbəsinin su təchizatı layihəsi barədə də məlumat verildi. Bərk məişət tullantılarının yandırılması zavodunun tikintisi ilə bağlı müqaviləyə əsasən sosial layihələrin icrası çərçivəsində Balaxanı qəsəbəsində su şəbəkəsinin yaradılması layihəsi də həyata keçiriləcəkdir. Çəkiləcək su xəttinin uzunluğu 80 kilometrdən çox olacaq. Bu isə Balaxanı qəsəbəsinin su təchizatının yaxşılaşdırılmasında xüsusi əhəmiyyət kəsb edəcək. Yeni su xəttinin çəkilişinin 1 il müddətində başa çatdırılması nəzərdə tutulur.*

*Dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı və bu əlaqələrin ölkələrimiz arasında mövcud olan ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Həştərxana səfərini və səfər zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılışı mərasimində iştirakını məmnunluqla xatırladan prezident İlham Əliyev son illər ölkəmizlə Həştərxan vilayəti arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndiyini vurğuladı.*

*Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin Azərbaycan ilə Həştərxan vilayəti arasında ticarət dövriyyəsinin artmasından, iqtisadi əməkdaşlığın dinamik şəkildə inkişaf etməsindən məmnunluğunu bildirdi. Azərbaycanın Həştərxan vilayətində həyata keçirdiyi humanitar layihələrə görə minnətdarlığını ifadə edən qubernator Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə vilayətdə mühüm ekoloji layihənin həyata keçirilməsinin əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Kuba arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq inkişaf edəcək və daha da genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2012-ci il*

**FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında münasibətlər xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, qardaş Fələstin xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2012-ci il*

**MYANMA İTTİFAQI RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB THEYN SEYNƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və bütün Myanma xalqına ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan ilə Myanma arasındakı əlaqələr daha da inkişaf edərək əməkdaşlığımızın genişlənməsinə töhfəsini verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2012-ci il*

## İNDONEZİYA RESPUBLİKASININ REGİONAL NÜMAYƏNDƏLƏR ŞURASININ SƏDRİ İRMAN QUSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da İndoneziya Respublikasının Regional Nümayəndələr Şurasının sədri İrman Qusmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İndoneziya Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin uğurla inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkələrimizin bir-birinə bütün beynəlxalq təşkilatlarda dəstək vermələrinin önəmini qeyd etdi. Dövlətimizin başçısı BMT-də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələrdə ölkəmizin ədalətli mövqeyinə və Azərbaycan BMT Təhlükəsizlik Şurasına seçilərkən verdiyi dəstəyə görə İndoneziya hökumətinə təşəkkürünü bildirdi, İrman Qusmanın böyük nümayəndə heyəti ilə Azərbaycana səfərini ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Bu səfərin ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*İrman Qusman ölkəsinin Azərbaycan ilə əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verdiyini dedi. O, İndoneziyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.*

*Qonaq ölkələrimizin ayrı-ayrı şirkətləri arasında birgə layihələrin həyata keçirilməsinin önəmini qeyd etdi.*

## QUSAR RAYONUNA SƏFƏR

*20 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Qusar rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva Şahdağ qış-yay turizm kompleksinə daxil olan infrastruktur obyektlərinin açılışında iştirak etmişlər.*

### *«Qusar-1» kiçik su-elektrik stansiyasının açılışı mərasimi*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 20-də «Qusar-1» kiçik su-elektrik stansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısı İlham Əliyevə məlumat verdi ki, Urva kəndi yaxınlığındakı Cağar derivasiya tipli kanal üzərində inşa olunan xüsusi hovuzdan götürülən su borular vasitəsilə stansiyaya ötürülür. Müasir avadanlıqla təchiz olunan stansiya tam kompüterləşdirilmiş və texnoloji proses avtomatlaşdırılmış şəkildə həyata keçirilir. Bu məqsədlə binada ayrıca idarəetmə mərkəzi yaradılmışdır. Mərkəz həm elektrik enerjisinin alınması prosesini həyata keçirir, həm də baş verə biləcək nasazlıqları əvvəlcədən qeydə alaraq müvafiq tədbirlərin görülməsi üçün xəbərdarlıq edir.*

*Dövlətimizin başçısı idarəetmə mərkəzindən stansiyanı işə saldı.*

*Qeyd olundu ki, təməli prezident İlham Əliyevin 2010-cu ilin avqustunda Qusara səfəri zamanı qoyulan su-elektrik stansiyasında ümumi gücü 1 meqavat olan 3 hidroturbin və hidrogenerator quraşdırılıb. Ərazidə 10 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri qurulub. Stansiya ildə 5 milyon kilovat/saat elektrik enerjisi istehsal etmək imkanına malikdir.*

*Bildirildi ki, Azərbaycan prezidentinin 2009-cu ilin noyabrında imzaladığı sərəncamla kiçik su-elektrik stansiyalarının ölkəmizdə geniş tətbiq olunması məqsədilə «Azərenerji» ASC-yə xüsusi proqramların hazırlanması tapşırılmışdır. Mütəxəssislərin apardığı araşdırmalar təsdiqləmişdir ki, müxtəlif bölgələrdə dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su-elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Bu tipli su-elektrik stansiyaları bir tərəfdən, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə, digər tərəfdən isə ətraf mühitin sağlamlaşdırılmasına imkan verir. Həmin enerji qurğularından biri də Şahdağ qış-yay turizm kompleksini elektrik enerjisi ilə təmin edəcək «Qusar-1» kiçik su-elektrik stansiyasıdır.*

*«Azenko» şirkəti tərəfindən tikilən su-elektrik stansiyasının ərazisində geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmışdır.*

## Qusar–Ləzə avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 20-də Qusar–Ləzə avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Şahdağ qış-yay turizm kompleksinin tikintisi zamanı yol infrastrukturunun yenidən qurulmasına da xüsusi diqqət yetirilib. Azərbaycan prezidentinin tapşırığına əsasən, Şahdağ qış-yay turizm kompleksinə gedən avtomobil yolu genişləndirilmiş, körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmişdir. Görülən tədbirlər ilin bütün fəsillərində turistlərin kompleksə gediş-gəlişini asanlaşdırıb.*

*Dövlətimizin başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Prezident İlham Əliyev Qusar–Ləzə avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Şahdağ qış-yay turizm kompleksinə daxil olan «Zirvə» hotelinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 20-də Qusarda Şahdağ qış-yay turizm kompleksinə daxil olan «Zirvə» hotelinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev bildirdi ki, Şahdağ qış-yay turizm kompleksinin tikintisinə hazırlıq işlərinə 2006-cı ildə başlanılmışdır. 2009-cu ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə kompleksin təməli qoyulmuşdur. Şahdağ Milli parkının ərazisində yerləşən kompleksin tikildiyi sahə ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Bu turizm obyekti dəniz səviyyəsindən 1300–2300 metr yüksəklikdədir. Kompleksin əsas hissəsi isə dəniz səviyyəsindən 1440–1640 metr yüksəklikdə yerləşir. 2058 hektar ərazisi olan kompleks bütün ilboyu fəaliyyət göstərəcəkdir. Bu layihənin reallaşdırılması ölkədə dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.*

*Qeyd edildi ki, Şahdağ qış-yay turizm kompleksi Azərbaycanın tarixində ilk dağ-xizək kurortudur. Kompleksin tikintisi çərçivəsində ərazidə yeni hotellər şəbəkəsinin yaradılmasına xüsusi önəm verilmişdir. İnşası başa çatdırılan hotellərdə yaradılan şərait təsdiqləyir ki, son illərdə ölkəmizdə həyata keçirilən ən böyük infrastruktur layihələrindən olan bu kompleksin dünya standartlarına uyğun hazırlanması diqqət mərkəzində saxlanılmışdır. Şahdağ qış-yay turizm kompleksinin inşası qeyri-neft sektorunun inkişafını prioritet elan edən Azərbaycanın iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edir. Bu ilk növbədə, ölkəmizdə turizm sənayesinin inkişafına mühüm töhfə verməklə yanaşı, həm də Azərbaycanın tanıdılması, qədim tariximizin, mədəniyyətimizin və bənzərsiz təbiətimizin təbliği*

*istiqamətində atılan mühüm addımlardan biridir. Bütün bu amillər Şahdağ qış-yay turizm kompleksinin dünya turizm sənayesində əhəmiyyətini daha da artırır. «Zirvə» hotelinin ərazisində xüsusi dizaynla abadlaşdırma işləri görülmüş, yaşıllıq zolağı salınmışdır.*

*Ərazinin planına baxan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, «Zirvə» hoteli əsas lift bazasında yerləşir. Burada 3-ü VİP olmaqla, bütövlükdə 40 nömrə vardır.*

*Hoteldə yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, bütün nömrələrdə turistlərin istirahətinin yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Burada uşaqlar üçün ayrıca istirahət guşəsi də qurulub. Hoteldə ofis otaqları ilə yanaşı, kafe, restoranlar, konfrans zalı, xizək məktəbi, tibb məntəqəsi, avtomobil dayanacağı və digər əyləncə obyektləri vardır.*

*Hotelin konfrans zalına gələn prezident İlham Əliyevə məlumat verildi ki, hazırda burada kompleksdə çalışacaq heyətin hazırlanması üçün treninqlərə başlanılıb. İndiyədək 160 yerli mütəxəssis kurslara cəlb olunub. Dövlətimizin başçısı treninq iştirakçıları ilə görüşdü.*

*VİP nömrədə yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev hotelin tibb mərkəzinə gəldi. Bildirildi ki, burada əməliyyat, rentgen, stomatologiya bölmələri fəaliyyət göstərir. Ayrıca laboratoriya, terapevt və manipulyasiya otaqları da yaradılıb. Mərkəz müraciət edən turistlərə yüksək səviyyəli tibbi xidmətin göstərilməsi üçün müasir avadanlıqlarla təchiz olunub.*

*Sonra Azərbaycan prezidenti ərazidən lift bazanı seyr etdi. Bildirildi ki, bu baza kompleksə 2-3 günlük istirahətə gələn turistlər üçün nəzərdə tutulub. Bazada prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, uşaqların dağ-xizək idmanı ilə məşğul olmaları və əylənmələri üçün hərtərəfli şərait yaradılıb.*

*Bildirildi ki, turistlərin xizək enişinə çatdırılmaları üçün kanat yolları inşa olunub. Kompleksdə süni qaryağdırma sistemi*

*də yaradılıb. Bunun üçün bütün enişlərdə qar generatorları quraşdırılıb. Bazada xüsusi avadanlıqdan qarın bərkidilməsində və xizək trassının lazımi səviyyəyə çatdırılmasında istifadə olunacaqdır.*

*Diqqətə çatdırıldı ki, kompleksə daxil olan 2 saylı kanat yolu və xizək enişi 2011-ci ilin yanvarında iştifadəyə verilmişdir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva hotelə gələn turistlər üçün xüsusi olaraq yaradılmış idman mağazasında oldular. Bildirildi ki, burada qış idman növləri ilə məşğul olmaq istəyən turistlərin maraqları nəzərə alınıb. Mağazadakı malları həm icarəyə götürmək, həm də satın almaq mümkündür.*

*Dövlətimizin başçısı oteldə yaradılmış şəraitdən razılığını bildirdi.*

## Şahdağ qış-yay turizm kompleksinə daxil olan «Qaya» hotelinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 20-də Şahdağ qış-yay turizm kompleksinə daxil olan «Qaya» hotelinin açılışında iştirak etmişlər.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi ki, üçmərtəbəli hoteldə xüsusi avtomobil dayanacağı yaradılıb. Burada turistlərin istifadəsinə 26 nömrə veriləcək, restoran və fitnes mərkəzi də fəaliyyət göstərəcəkdir. Bu hoteldə yaradılan yüksək şərait Şahdağ qış-yay turizm kompleksinin əhəmiyyətini daha da artırır. Digər tərəfdən də bu, ərazidə həyata keçirilən işlərin miqyasını göstərir.*

*Diqqətə çatdırıldı ki, layihənin növbəti mərhələləri çərçivəsində yeni kanat yolları salınacaq, qolf meydançası, müxtəlif klublar, kiçik mehmanxanalar, pansionat, Şahdağ Gənclər Mərkəzi, digər hotellər inşa olunacaq, ərazidə at ferması fəaliyyət göstərəcəkdir.*

*Bildirildi ki, Şahdağ qış-yay turizm kompleksinin birinci mərhələsi üzrə tikinti işləri dövlət tərəfindən maliyyələşdirilir. Tikintiyə nəzarəti Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan Şahdağ qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir. Kompleksin inşasının növbəti mərhələlərində özəl sektorun da yaxından iştirakı nəzərdə tutulmuşdur.*

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Şahdağ Resort SPA» hotelində aparılan tikinti işlərinin gedişi ilə tanış oldular.*

*Məlumat verildi ki, geniş əraziyə malik bu hoteldə turistlərin istirahəti üçün bütün lazımi şərait yaradılacaqdır. Hoteldə ümumilikdə 173 otaq olacaqdır ki, bunlardan 8-i lüks, 3-ü isə VİP otaqlardır. Hoteldə 8 restoran, 3 iclas zalı olacaqdır.*

*Diqqətə çatdırıldı ki, 1825 kvadratmetrlik SPA mərkəzindən əlavə, hoteldə fitnes, türk hamamı, masaj otaqları da yaradılacaqdır. Burada tikinti işlərinin 70 faizi artıq başa çatdırılıb.*

*Dövlətimizin başçısı növbəti mərhələdə həyata keçiriləcək tədbirlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## KOREYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM PAK KIN HEYƏ

Hörmətli xanım Pak Kın He!

Koreya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı münasibətlər müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, ölkələrimizi birləşdirən dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri birgə səylərimizlə xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm. Fürsətdən istifadə edərək, Yeni il münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 dekabr 2012-ci il*

## «AZƏRYOL» KLUBUNUN İNZİBATİ BİNASI, VOLEYBOL MEYDANÇASI VƏ «AZƏRYOL» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*21 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Voleybol Federasiyasının «Azəryol» voleybol klubunun yeni inzibati binasının, voleybol meydançasının və «Azəryol» hotelinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə inzibati binada yaradılan şəraitlə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, Azərbaycan Voleybol Federasiyasının yerləşdiyi bu kompleks qadınlardan ibarət «Azəryol» və «Azərreyl» voleybol klublarının mərkəzi bazası kimi fəaliyyət göstərəcəkdir.*

*Binada ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri diqqət və qayğını, eləcə də veteran voleybolçuların fotolarını əks etdirən stendlər yaradılmışdır. Diqqətə çatdırıldı ki, müasir memarlıq üslubunda ən son texnologiyalar əsasında inşa olunan binanın tikintisinə ötən il başlanılıb. Binanın layihəsi 2009-cu ildə Kölndə keçirilmiş memarlıq sərgisində ən yaxşı layihələrdən biri hesab edilib. Kompleksin tikintisində azərbaycanlı və xarici mütəxəssislər birgə çalışıblar. Üçmərtəbəli binada işçi qrupları, məşqçilər və menecerlərin fəaliyyəti üçün hər cür şərait yaradılıb. Buradakı konfrans zalı müasir avadanlıqla təchiz edilib.*

*Yüksək səviyyəli qonaqlar üçün nəzərdə tutulan otaqlarda yaradılan şəraitlə tanışlıq zamanı prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, burada oyunları izləmək üçün bütün imkanlar vardır. Binadakı 100 nəfərlik yeməkxananın xidmətindən həm idmançılar, həm də qonaqlar istifadə edəcəklər.*

*Bundan əlavə, burada ən müasir avadanlığın quraşdırıldığı məşq zalı və tibbi yardım otağı vardır.*

*Dövlətimizin başçısı «Azəryol» klubunun yeni voleybol meydançasında yaradılan şəraitlə də tanış oldu.*

*Məlumat verildi ki, meydança Avropa Voleybol Konfederasiyasının və Beynəlxalq Voleybol Federasiyasının standartlarına tam uyğundur. «Azərreyl» və «Azəryol» klublarının təlim-məşq toplanışlarının da keçiriləcəyi bu idman qurğusunun daha bir xüsusiyyəti onun fəza konstruksiyasına malik olmasıdır. 2000 tamaşaçı yerlik meydançada müasir tablo quraşdırılmışdır. Bu tablo Avropa Voleybol Konfederasiyası tərəfindən bütün federasiyalara nümunə kimi tövsiyə olunmuşdur. Oyunların gedişini zalda quraşdırılan led monitorlar vasitəsilə də izləmək mümkündür.*

**İlham Əliyev:** Mən çox şadam ki, bizim yerli – Azərbaycan voleybolçuları da yetişir və milli komandamızda təmsil olunurlar. Milli komandamız da, klublarımız da ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər. Deyə bilərəm ki, bizim daxili çempionatımız Avropada bəlkə ən güclü çempionatlardan biridir. Bir neçə komandamız yüksək zirvələrə çatmışdır və ən önəmlisi, milli yığmamız da çox gözəl oyun nümayiş etdirir. Əminəm ki, Avropa çempionatında da yığma komandamız yaxşı nəticə göstərəcəkdir.

Bildiyiniz kimi, 2015-ci ildə Bakıda I Avropa Olimpiya oyunları keçiriləcəkdir. Voleybol idman növü də o oyunların siyahısına daxil edilib. Biz voleybolçularımızdan yeni qələbələr gözləyirik. Şübhəsiz ki, 2016-cı ilin Yay Olimpiya oyunlarına da ciddi hazırlıq gedir. İndi belə gözəl şərait yaradılıbdır və əminəm ki, nəticələr daha da yaxşı olacaqdır.

Sizi, federasiyanı, bütün voleybol ictimaiyyətini gözəl nəticələr münasibətilə təbrik edirəm. Oyun idman növləri arasında voleybol bizdə ön plandadır, birinci yerdədir. Hesab edirəm ki, digər oyun növlərinin də bu səviyyəyə çatması üçün fəal iş görülməlidir. Sizi bir daha təbrik edirəm.

*Dövlətimizin başçısına Azərbaycan* Voleybol Federasiyasının *rəmzi* topu *və üzərində idmançıların imzaları* olan voleybol topu *hədiyyə* edildi.

*Sonra prezident İlham Əliyev «Azəryol» hotelində yaradılan şəraitlə tanış* oldu.

Bildirildi ki, *altımərtəbəli hoteldə 2-si VİP* olmaqla, *36 nömrə,* restoran *və kafeterilər vardır. Hoteldə təlim-məşq* toplanışlarına *gələn idmançıların, qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Yüksək* standartlara *uyğun inşa* olunmuş hotelin *binası* kompleksin *memarlıq quruluşuna* da *xüsusi yaraşıq* verir.

*Diqqətə çatdırıldı ki, «Azərreyl» Azərbaycan* voleybolunun *flaqmanı* hesab olunur. *2000-ci ildə yaradılan* klub *2002-ci ildə* Avropa «Top Komandalar» kubokunu *əldə* etmişdir. *2004-cü ildə Çempionlar Liqasının «Dördlər finalı»*na *yüksələn «Azərreyl» 2010-cu ildə «Çağırış* Kuboku»nu *qazanmışdır.* Komanda *hazırda Çempionlar Liqasında çıxış edir. 2011-ci ildə yaranan «Azəryol»* klubu *isə beynəlxalq yarışlarda çıxışlarına yeni başlamışdır.*

*Dövlətimizin başçısı yaradılan şəraitdən razılığını* bildirdi.

## «ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*Bakı*

*22 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də «Rossiya-24» telekanalının aparıcısı Evelina Zakamskayaya müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər, regional əməkdaşlıq, ölkəmizin iqtisadi inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və digər məsələlərlə bağlı sualları cavablandırmışdır.*

**M ü x b i r:** Salam, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Salam!

**S u a l: Sağ olun ki, bu gün bizi burada, Bakıda qəbul edirsiniz. Cənab Prezident, biz ilə yekun vururuq. Başa çatmaqda olan ildə Azərbaycanın həyatını hansı hadisələr müəyyən etmişdir? Bu il Azərbaycan üçün necə keçmişdir?**

**C a v a b:** Bütövlükdə il uğurlu olmuşdur. Biz ölkənin qarşısında qoyduğumuz bütün məsələləri həll edə bilmişik və ümumiyyətlə, gələcəyə də nikbin baxırıq. Çünki həm iqtisadi, həm sosial, həm də xarici siyasət sahəsində istədiklərimizə nail olmuşuq. Əlbəttə, iqtisadiyyat hər şeyin əsasıdır. Biz şadıq ki, Azərbaycan iqtisadiyyatı öz inkişafını davam etdirmişdir. Bizə xüsusilə xoşdur ki, iqtisadiyyatı şaxələndirməyə, ümumiyyətlə, desək, neft-qaz sektorundan asılılığı azaltmağa nail olmuşuq və qeyri-neft iqtisadiyyatı təxminən 10 faiz artmışdır. İnflyasiya 1 faiz civarındadır. Əhalinin real gəlirləri 10 faizdən çox artmışdır. Yəni burada əhalinin rifahının artması da göz qabağındadır. İşsizlik daha da azalaraq təxminən 5,2 faizə, yoxsulluq 6 faizə düşmüşdür. Azərbaycan iqtisadiyyatına

təqribən 22 milyard dollar sərmayə qoyulmuşdur və bunun çox hissəsi daxili investisiyalardır. Bu da onu göstərir ki, yerli şirkətlər üçün biznes mühiti onlara artıq Azərbaycanda da fəal sərmayə qoymaq imkanı verir.

**S u a l: Bu gün qeyri-xammal sektorunun hansı istiqamətləri Azərbaycan iqtisadiyyatının artımını təmin edir?**

**C a v a b:** Bizim üçün bu istiqamətdə prioritet sahə iqtisadiyyatımızın rəqabət qabiliyyətinin təmin edilməsi və işsizliyin azaldılmasıdır. Buna görə də biz bu proseslərə 2 mövqedən yanaşırıq. Kənd təsərrüfatı iqtisadiyyatın çox böyük potensiala malik olan nəhəng sektorudur. Kənd təsərrüfatının inkişafı həm də gələcəkdə məşğulluğun təmin edilməsi deməkdir. Bu sahədə ixrac potensialı kifayət qədər böyükdür. Əsas qida məhsulları üzrə biz 1 ildən, maksimum 2 ildən sonra özümüzü tam təmin edəcəyik. Bundan sonra isə artıq xarici bazarlara çıxış prosesi başlanacaqdır.

Texnoloji istiqamətlərin inkişafı baxımından bizim üçün prioritet sahə, əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sektorudur. Əgər bütün işlər plan üzrə getsə, o cümlədən hava şəraiti imkan versə, fevral ayında biz Azərbaycanın ilk telekommunikasiya peykini buraxacağıq, bunun üçün bütün hazırlıq işlərini tamamlamışıq. Biz artıq kosmik sənaye yaratmışıq və bu istiqamətdə çox fəal irəliləyirik. Bundan əlavə, genişmiqyaslı sənayeləşmə proqramını həyata keçiririk. Yaxın vaxtlarda texnoparkların yaradılması üçün olduqca güzəştli vergitutma paketi qəbul ediləcəkdir. Hesab edirik ki, orta və kiçik sahibkarlıqla yanaşı, böyük sənaye komplekslərinin də inkişaf etdirilməsi gələcəkdə neft-qaz sektorundan asılılığı aradan qaldırmağa imkan verəcək.

**S u a l: Siz bu hədəfləri hansı dövr üçün müəyyən edirsiniz? Bu neçə ildən sonra mümkün olacaqdır və bu asılılıq necə azaldılacaqdır?**

**C a v a b:** «Azərbaycanın inkişafı–2020» proqramı qəbul edilmişdir. Biz hazırda həyata keçirdiyimiz bütün planları

iyirminci ilə qədər tamamilə reallaşdırmaq niyyətindəyik. Bütövlükdə son 10 ildən az müddətdə biz iqtisadiyyatın həcmini 3 dəfə artırmağa nail olmuşuq. Ümumi daxili məhsul 300 faiz artmışdır. Qarşıdakı 10 ildə biz ÜDM-in ikiqat artırılmasını planlaşdırırıq. Bu əsasən qeyri-neft sektorunun hesabına həyata keçiriləcəkdir.

**S u a l: Azərbaycan şirkətləri, Azərbaycan iqtisadiyyatı xarici bazarlara çıxmağı planlaşdırırmı?**

**C a v a b:** İnvestisiyalar baxımından hazırda çox böyük bir sərmayə layihəsi – Türkiyədə neft-kimya və neft emalı kompleksi layihəsini həyata keçiririk. Bu kompleks bizə təxminən 17 milyard dollar sırf Azərbaycan investisiyaları hesabına başa gələcəkdir. Gürcüstanda, Ukraynada da fəal sərmayə qoyuruq, İsveçrədə, Rumıniyada sərmayə qoymağa başlamışıq, lap yaxın vaxtlarda isə Rusiyada investisiya proqramlarına başlamışıq. Belə ki, Rusiyada iri investisiya layihələri – daşınmaz əmlaka və Rusiyanın ən iri kommersiya strukturlarının səhmlərinə sərmayə qoyacağıq. Azərbaycan şirkətləri Rusiyada kənd təsərrüfatı məhsullarının emalına da sərmayə qoymağa başlamışdır, artıq ilk layihələr vardır. Belə ki, xarici investisiyalarımızın spektrini genişləndiririk və Siz haqlı olaraq qeyd etdiniz ki, bu zəruridir. Ona görə ki, bu gün Azərbaycan bazarı bizim dövlət investisiyaları üçün bir qədər azlıq edir.

**S u a l: Rusiya–Azərbaycan münasibətlərinin, iqtisadi münasibətlərin bugünkü vəziyyətini Siz qısaca necə ifadə edərdiniz? Xatırlayıram ki, 2 ay bundan əvvəl ölkələrimiz azad ticarət haqqında saziş imzalanmasının 20 illiyini qeyd etmişlər. Bu bizim müstəqil ölkələrimiz arasında diplomatik münasibətlər yaradılandan sonra imzalanmış ilk diplomatik, hüquqi sənəd idi.**

**C a v a b:** Elədir. Bütövlükdə bizim münasibətlər çox dinamik, müsbət inkişaf edir. Biz həllini tələb edən bütün məsələləri həll etmişik. Sonuncu bu cür mühüm məsələ dövlət sərhədi haqqında müqavilə idi. Əlbəttə, bu, qonşu ölkələr arasında, istənilən qonşu ölkələr arasında, xüsusən vaxtilə vahid

dövlətin tərkib hissələri olmuş ölkələr arasında çox mühüm sənəddir. Bundan əlavə, siyasi məsləhətləşmələr sahəsində biz daim bütün səviyyələrdə dialoq aparırıq. Münasibətlərimiz tərəfdaş münasibətləridir. Hər 2 tərəf onları strateji tərəfdaşların münasibətləri kimi səciyyələndirir. Yəni bu ifadə münasibətlərin bütün kompleksini əhatə edir. İqtisadi sahədə əmtəə dövriyyəsinin strukturu da yaxşılaşır. Azərbaycana idxalın həcminə görə Rusiya birinci yerdədir. Biz ən çox Rusiyadan mal idxal edirik. Rusiya ilk növbədə, bizim kənd təsərrüfatı məhsulları üçün çox mühüm bazardır. Humanitar sahədə çox işlər görülür. Məsələn, bu il Moskva Dövlət Universitetinin filialının yeni binasının açılmasını qeyd edərdim.

**S u a l: 3 il əvvəl Sizinlə görüşdə regional inteqrasiya proseslərini, postsovet məkanında inteqrasiya proseslərini şərh edərək demişdiniz ki, bu təcrübəni diqqətlə öyrənmək və müşahidə etmək lazımdır. Bu təcrübə Sizin üçün cəlbedici olmuşdurmu?**

**C a v a b:** Biz mümkün qədər çox sayda ölkə ilə fəal qarşılıqlı əlaqə yaratmaq əzmindəyik. Məsələn, son dövrün mühüm məqamlarından biri kimi, Azərbaycanın «Qoşulmama Hərəkatı» təşkilatına daxil olmasını qeyd etmək istərdim. Hesab edirəm ki, bu çox vacib, lazımlı, vaxtında atılmış və əlamətdar addımdır. Bununla biz ilk növbədə, özümüzün dünya üçün açıq olmağımızı vurğulayırıq, çünki həmin təşkilatda çoxlu sayda ölkələr birləşir. Digər tərəfdən, biz dünyadakı gələcək proseslərdə Azərbaycanın mövqeyini vurğulayırıq. İqtisadi inteqrasiyaya gəlincə, ilk növbədə, məqsədəuyğunluqdan çıxış edirik. Bu inteqrasiyanın bizə əlavə iqtisadi səmərə gətirəcəyini gördüyümüz yerlərdə fəal iştirak edirik. İnteqrasiyanın bizə ya heç nə gətirməyəcəyini, ya da bizi hətta geri çəkə biləcəyini gördüyümüz yerlərdə yetərincə təmkinli mövqe tuturuq. Nümunə kimi deyə bilərəm ki, Azərbaycan indiyə qədər Dünya Ticarət Təşkilatının üzvü olmamışdır, hərçənd bizi oraya çox fəal dəvət edirlər. Lakin biz hər şeyi «lehinə» və «əleyhinə» götür-qoy edirik. Əlbəttə, «lehinə» olan məqamlar da çoxdur, biz hamımız bunu çox gözəl bilirik, amma hesab

etmişik ki, iqtisadiyyatımızın inkişafının indiki mərhələsində bu bizim kənd təsərrüfatına, fermerlərə, xüsusi sahibkarlığa və yerli istehsala ziyan vurar.

**S u a l: Elə düşünməyin ki, mən təbliğat aparıram, lakin məsələn, Gömrük İttifaqı və ya Vahid İqtisadi Məkan sizə nə ilə ziyan vura bilər?**

**C a v a b:** Məsələ ondadır ki, bunun nə ilə ziyan vura biləcəyini düşünmək lazımdır. Lakin biz bunu əsas götürürük ki, bu bizə nə kimi kömək edə bilər. Bax, burada, açığını deyirəm, biz hələlik özümüz üçün elə bir səmərə görməmişik. Digər tərəfdən, bizim ölkənin iqtisadi vəziyyəti yetərincə sabitdir. Kifayət qədər valyuta ehtiyatlarımız var, iqtisadiyyatımız şaxələndirilmişdir, ölkəmiz tamamilə özünü təmin etmək iqtidarındadır, zəngin təbii yataqlar, şaxələnmiş neft-qaz kəmərləri şəbəkəsi, əlverişli coğrafi mövqe, nəqliyyat logistikası var. Bu yerdə rusların yaxşı bir məsəli yada düşür: «Yaxşıdan yaxşısını axtarmağa dəyməz». Buna görə də əgər biz nəyisə daha yaxşı etmək üçün həqiqətən, real perspektivlər olduğunu görsək, istənilən birliyə daxil olacağıq və bu mənada bizdə heç bir tabu yoxdur.

**S u a l: Amma hələlik «qoşulmama» Sizin mövqenizdir, eləmi?**

**C a v a b:** Ümumiyyətlə, elədir.

**S u a l: Siz Rusiya ilə əməkdaşlığın formalarından biri, əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi, onunla siyasi məsləhətləşmələri xatırlatdınız. Rusiya Dağlıq Qarabağ məsələsinin tənzimlənməsində müstəsna dərəcədə maraqlıdır, ən yaxın qonşular arasında sülh və əmin-amanlıq olmasında həddən artıq maraqlıdır. Lakin bu mövzuda diskussiya əvvəlki kimi gərgin olaraq qalır. Siz bu məsələdə ilin yekunlarını necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən bu ilin yekunlarını mənfi yekunlar kimi qiymətləndirirəm. Ona görə ki, uzun illər ərzində gedən danışıqlar prosesi bu il durğunluq mərhələsinə qədəm qoymuşdur. Bizim fikrimizcə, bunun əsas səbəbi ondan ibarətdir ki, erməni

tərəfi status-kvo vəziyyətini bütün vasitələrlə saxlamaq istəyir. Onlar münaqişənin tənzimlənməsini istəmirlər, çünki tənzimləmə işğalın ləğv edilməsini nəzərdə tutur. Bu gün təkcə Dağlıq Qarabağ deyil, həm də heç vaxt Dağlıq Qarabağ vilayətinin tərkibində olmamış 7 rayon da işğal altındadır. Həmin rayonlarda erməni əhalisi yaşamayıb, azərbaycanlı əhali yaşamışdır. Yəni onlar hamısı yurdlarından qovulmuşlar. Bu gün Ermənistanın həmin əraziləri işğal etməsinə haqq qazandırması getdikcə mürəkkəbləşir. Buna görə də status-kvonun dəyişməsi münaqişənin tənzimlənməsi üçün əsas ilkin şərtdir.

Müsbət məqamlara gəldikdə – həmişə, hətta çıxılmaz vəziyyətdə də nə isə yaxşı məqamlar axtarmağa çalışmaq lazımdır. Mən Minsk qrupunun həmsədr ölkələrinin – Rusiya, Fransa və ABŞ-ın rəhbərlərinin status-kvonun qəbuledilməz olması barədə bəyanatlarını qeyd etmək istərdim. Status-kvonu dəyişmək üçün Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə başlamaq zəruridir. Bu proses başlayan kimi, əminəm, danışıqlar prosesinə yeni təkan veriləcəkdir. Ermənistanın hər şeyi olduğu kimi saxlamaq və danışıqlar prosesində indiki vəziyyətə görə məsuliyyəti Azərbaycanın üstünə yıxmaq cəhdlərinə isə haqq qazandırmaq olmaz. Təbliğat baxımından onlar bəlkə də hələlik hər şeyə görə bizi təqsirləndirə bilərlər. Lakin məsələnin mahiyyətinə baxsaq, hesab edirəm ki, Azərbaycanın mövqeyi həmişə ardıcıl, prinsipial olmuş və beynəlxalq hüququn prinsip və normalarına əsaslanmışdır. 2008-ci ildə Ermənistan özü Moskvada bizimlə və Rusiya tərəfi ilə birlikdə Mayndorf Bəyannaməsini imzalamışdır. Məhz həmin sənəddə yazılmışdır ki, qərar beynəlxalq təşkilatların qətnamələrinə və qərarlarına əsaslanmalıdır. Bu cür qətnamələr və qərarlar isə istənilən qədərdir. BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Bütün sənədlərdə Helsinki Yekun Aktına da istinadlar var. Helsinki Aktında xalqların təyini-müqəddərat hüququ ərazi bütövlüyünün pozulması demək deyildir. Helsinki Aktının sənədlərini diqqətlə oxusaq,

xalqların təyini-müqəddəratını məhz ölkələrin ərazi bütövlüyü çərçivəsində həyata keçirmək nəzərdə tutulur.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınmışdır. Dağlıq Qarabağ həm tarixən, həm də hüquqi və siyasi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir. 2009-cu ilin sonunda Minsk qrupunun həmsədrləri tərəfindən təklif edilən formul Azərbaycan tərəfindən qəbul olunmuş və Ermənistan tərəfindən rədd edilmişdir. Sonrakı danışıqlar prosesində bu dəqiq formulun şəklini dəyişən məqamlar baş vermişdir. Nəticədə bu vəziyyət erməni tərəfinə spekulyasiya etməyə imkan vermişdir: guya Azərbaycan nədənsə imtina etmişdir. Bu, həqiqətə əsla uyğun deyildir. Biz nizamlamada ən çox marağı olan tərəfik. Ona görə ki, bizim ərazilərimiz işğal altındadır və bizim qaçqınlar doğma evlərinə qayıda bilmədiklərinə görə əziyyət çəkirlər.

**S u a l: Əgər Sizin dediyiniz kimi, qarşı tərəf sadəcə, hər şeyi olduğu kimi saxlamaq istəyirsə, danışıqlar üçün Siz daha nə qədər vaxt müəyyən edirsiniz?**

**C a v a b:** Hələlik biz ümid edirik ki, vasitəçilik funksiyasını öz üzərinə götürmüş ölkələr bu prosesdə daha fəal iştirak edəcəklər və təhlükəsizlik tədbirlərinin təmin edilməsi prosesində deyil, məhz tənzimləmə prosesində iştirak edəcəklər. Axı təhlükəsizlik tədbirlərinin əlavə təminatı danışıqlar prosesinə ziyan vura bilər. Çox vaxt bizi onda təqsirləndirməyə çalışırlar ki, Azərbaycan etimad tədbirlərinin möhkəmlənməsini, təmas xəttində möhkəm atəşkəs rejiminin yaradılmasını istəmir. Danışıqlar prosesinin mahiyyətini təşkil edən işğala son qoyulması məsələsi həll edilmədən, bu yolda irəliləyiş olmadan hər hansı başqa tədbirləri o qədər vacib təsəvvür etmirik. Əsas məsələ budur ki, vasitəçilər danışıqlar prosesinin mahiyyəti sahəsində fəal iş aparsınlar. Bunun nə qədər davam edəcəyini zaman göstərər. Mən hər hansı proqnozlar verməyə çətinlik çəkirəm. Lakin hesab edirəm ki, bu status-kvo vəziyyəti bizim üçün nə qədər ağır olsa da, Ermənistan üçün eyni dərəcədə təhlükəlidir. Ona görə ki, əgər onlar regionda qüvvələrin

tarazlığı və ümumiyyətlə, regionda vəziyyət baxımından heç olmasa, ortamüddətli perspektivi, məsələn, Azərbaycanın güclənməsi perspektivini götür-qoy etsələr, aydın olar ki, 5-10 ildən sonra onların vəziyyəti indikindən daha ağır olacaqdır. Azərbaycanla düşmənçilik etmək və bizim torpaqlarımızı işğal altında saxlamaq onlar üçün çətin və müəyyən dərəcədə təhlükəli olacaqdır. Əgər onlar hazırda Dağlıq Qarabağda yaşayan adamların bundan sonra da təhlükəsiz şəraitdə yaşamasını istəyirlərsə, işğalçı qüvvələrin bizim ərazidən çıxarılması prosesini başlamalıdırlar.

**S u a l: Cənab Prezident, təklif edirəm ki, bir qədər də yalnız sülh yolu ilə, inciklikisiz həll edilən mübahisələr barədə danışaq. Mən idmanı nəzərdə tuturam. Əvvələn, Azərbaycanı təbrik etmək istərdim: London Olimpiadasında siz, mənim fikrimcə, tarixdə ən yaxşı nəticə göstərdiniz – 10 medal. Güləşçilər Azərbaycan üçün, yeri gəlmişkən, elə Rusiya üçün də medalların əsas təchizatçıları oldular. Bu gün idmançılar üçün hansı şərait yaradılır və Siz Qış Olimpiadasına necə hazırlaşırsınız?**

**C a v a b:** Qış Olimpiadasına ümidlərimiz çox deyil. Biz hələ qış idman növlərini inkişaf etdirməliyik. Axı Azərbaycan cənub ölkəsidir. Lakin London Olimpiadasının nəticələri, əlbəttə, bizi sevindirir, ruhlandırır və bu nəticələr çoxillik gərgin işlə təmin edilmişdir. Biz həqiqətən, tarixi uğur qazanmışıq, ümumi komanda hesabında 30-cu yeri və Avropada 15-ci yeri tutmuşuq. Lakin bu il, lap yaxın vaxtlarda daha bir mühüm, mən deyərdim ki, tarixi qərar qəbul edilmişdir – ilk Avropa Olimpiya oyunlarının Bakıda keçirilməsi haqqında qərar. Bildiyiniz kimi, indiyə qədər heç vaxt Avropa Olimpiya oyunları keçirilməmişdir. Düzdür, Olimpiya oyunlarının təməli Avropada qoyulmuş və baron de Kuberten tərəfindən Avropada bərpa edilmişdir. Lakin nədənsə, başqa qitə oyunlarından fərqli olaraq Avropa oyunları heç vaxt keçirilməmişdir. Bu oyunların keçirilməsi haqqında qərar qəbul ediləndə mən çox şad oldum ki, Avropa idman ailəsi bu oyunların Bakıda keçirilməsinə

böyük üstünlüklə səs vermişdir. Odur ki, biz hazırlaşırıq. Böyük oyunlardan fərqli olaraq, Avropa oyunlarına hazırlaşmaq üçün cəmi 2 il vaxtımız var. Böyük oyunlara 6-7 il hazırlaşırlar, lakin biz 2015-ci ildə I Avropa Olimpiya oyunlarını keçirmək ümidindəyik. Bununla biz həm də, ümumiyyətlə desək, idman nailiyyətləri və olimpiya hərəkatının inkişafı mərkəzinə çevriləcəyik.

**M ü x b i r: Mən onu əlavə etmək istərdim ki, bu, Azərbaycanı Avropanın bir hissəsi kimi tanımaq deməkdir, çox cəhətdən siyasi əhəmiyyətli qərardır.**

**İ l h a m Ə l i y e v:** Siz tamamilə haqlısınız, bu, Azərbaycanı Avropanın bir hissəsi kimi tanımaq deməkdir. Ona görə ki, yəqin siz də bilirsiniz, indiyə qədər Azərbaycanın Avropanın bir hissəsi olub-olmaması barədə diskussiyalar Avropada, o cümlədən Azərbaycanda da davam edir. Bizim coğrafi mövqemiz elədir ki, bu barədə 2 fikir ola bilər və prinsip etibarilə hər 2 fikir məqbuldur. Biz həm Avropa Şurası Təşkilatının, həm də İslam Əməkdaşlıq Təşkilatının iştirakçısıyıq. Ona görə ki, biz bu qitələrin qovuşduğu məkanda yerləşirik və düşünürəm ki, bu qərar olduqca ölçülüb-biçilmiş, müdrik, düzgün qərardır. Yeri gəlmişkən, fürsətdən istifadə edib, bizim namizədliyimizi fəal dəstəklədiyinə görə Rusiya Olimpiya Komitəsinə təşəkkür etmək istərdim. Bu dəstək təkcə bizim namizədliyimizin lehinə səs verməkdə deyil, həm də çox fəal mənəvi dəstəkdə ifadə olunmuşdur. Buna görə biz rusiyalı dostlarımıza çox təşəkkür edirik.

**M ü x b i r: Bu ona görədir ki, Rusiyada Azərbaycana qonaq gəlməyi çox istəyirlər.**

**İ l h a m Ə l i y e v:** Mən düşünürəm ki, bu məhz sizinlə danışdığımız məsələlərə görə belədir. Bizim ölkələrimiz arasında münasibətlər həqiqətən, çox müsbət istiqamətdə inkişaf edir və onların çox möhkəm təməli vardır.

**M ü x b i r: Sizə uğurlar arzulayıram. Çox sağ olun. Bilirəm ki, bizdə, Rusiyada qarşıdan gələn doğum günü münasibətilə təbrik etmək qəbul olunmamışdır. Lakin biz**

**Sizinlə hər gün görüşmədiyimizə görə, hər halda, özümə rəva görürəm ki, Sizi təbrik edim, şəxsən Sizə və ailənizə ən xoş arzularımı bildirim.**

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də fürsətdən istifadə edərək, bütün rusiyalıları qarşıdan gələn Yeni il münasibətilə təbrik etmək istəyirəm. Hamınıza xoşbəxtlik, cansağlığı, firavanlıq arzulayıram.

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*24 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Sumqayıt şəhərinə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov prezident İlham Əliyevə ölkəmizin ən iri sənaye mərkəzlərindən biri olan Sumqayıtın sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər barədə məlumat verdi.*

### Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa olunmuş yeni yaşayış binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Sumqayıt şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa olunmuş yeni yaşayış binasının istifadəyə verilməsi mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı mənzillərdə yaradılmış şəraitlə tanış oldular.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov binanın texniki göstəriciləri barədə dövlətimizin başçısına və xanımına məlumat verdi. Bildirildi ki, 12 mərtəbəli 96 mənzilli yeni yaşayış binasında sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Bu gün yeni mənzillərlə yanaşı, Naxçıvan Avtomobil zavodunun istehsalı olan 224 ədəd «Naz Lifan» markalı avtomobil də müharibə veteranlarına təqdim olunacaqdır.*

**F ü z u l i  Ə l ə k b ə r o v** *(Əmək və Əhalinin Sosial Müdafiəsi naziri):* Cənab Prezident, bizim tədbirə xoş gəl-

misiniz! Ənənəvi olaraq, ən əziz gündə Siz Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri və əlillərlə görüşürsünüz. Siz bu gün də bu ənənəyə sadiq qalmısınız.

Bu gün Azərbaycanın müxtəlif bölgələrində, müxtəlif şəhərlərində tikilmiş evlər təqdim olunacaqdır. Bu gün 411 mənzil Qarabağ müharibəsi şəhidlərinin ailələrinə və əlillərə təqdim olunacaqdır. Bundan əlavə, 224 avtomaşın da veriləcək. Ümumilikdə, bu gün 635 ailə sevinəcək.

Sizin burada iştirakınızdan bütün sakinlər, bütün bu adamlar ikiqat-üçqat bayram sevinci keçirirlər. Ona görə biz çox şadıq, Sizə yenə də təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Bu gün çox əlamətdar bir gündür. Ölkəmizin müxtəlif yerlərində müharibə veteranları və şəhid ailələri üçün yeni gözəl binalar tikilmiş və mənzillər, avtomobillər veriləcəkdir. Bu gün sizə 411 mənzil verilir. Sumqayıtda, Bakının Zabrat, Hövsan qəsəbələrində, Gəncədə, Şəkidə, Şəmkirdə yeni gözəl evlər tikilib istifadəyə verilir. Bu çox böyük hadisədir. İlin sonunda biz soydaşlarımızı yeni gözəl mənzillərlə təmin edirik. Son illər ərzində şəhid ailələrinə, Qarabağ müharibəsi veteranlarına 5 minə yaxın mənzil verilib. Növbədə duranlar hələ vardır. Təqribən 2000-dən çox ailə hələ növbədə dayanır. Onların məişət problemləri yaxın 3-4 il ərzində həllini tapacaqdır. Beləliklə, biz bu proqramı 3-4 ildən sonra başa çatdıracağıq.

Bu mənzillərin verilməsi və binaların tikilməsi, deyə bilərəm ki, nadir hadisədir. Bildiyimə görə, postsovet məkanında Azərbaycan yeganə ölkədir ki, bu istiqamətdə belə güclü sosial siyasət aparılır. Minik maşınlarının verilməsinə gəldikdə isə, bütövlükdə Azərbaycandan başqa, heç bir yerdə belə təşəbbüslər irəli sürülmür. Bu günə qədər bizim 3500-dən çox vətəndaş dövlətdən maşınları hədiyyə olaraq almışdır. Azərbaycan bu istiqamətdəki dövlət siyasətini bundan sonra da davam etdirəcəkdir. Bizim güclü sosial siyasətimiz bütün sahələrdə özünü göstərir. İldən-ilə artan maaşlar, pensiyalar, ünvanlı sosial yardımın həcminin artırılması, eyni zamanda, bu

il sovet dövründən qalmış əmanətlərin kompensasiya şəklində vətəndaşlara qaytarılması bizim nə qədər güclü sosial siyasətə malik olduğumuzu göstərir. Vətən uğrunda, torpaq uğrunda şəhid olmuş insanların ailələrinə, sağlamlığını itirmiş soydaşlarımıza mənzillərin verilməsi də bizim dövlət siyasətimizin nə qədər düzgün olduğunu göstərir.

Biz bundan sonra da ehtiyacı olan və böyük hörmətə, qiymətə layiq olan soydaşlarımızın məişət problemlərinin həlli üçün əlimizdən gələni edəcəyik. Siz buna layiqsiniz, siz yaxınlarınızı, sağlamlığınızı itirmisiniz. Uzun illərdir ki, azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirilir. Xocalı soyqırımı artıq 3 ölkə tərəfindən rəsmi qaydada soyqırımı kimi tanınmışdır. Əminəm ki, bu ölkələrin sayı getdikcə artacaq. Azərbaycanın haqq işi bütün beynəlxalq təşkilatların qətnamələri, qərarları ilə təsdiqlənir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq təşkilatların qərarları, qətnamələri vardır ki, işğalçı erməni qüvvələri bizim torpaqlarımızdan geri çəkilsin. Ancaq Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur və hələ ki, torpaqlarımız işğal altındadır. Məsələnin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyində heç bir dəyişiklik yoxdur, ola da bilməz. Bizim mövqemiz tarixi ədalətə və beynəlxalq hüquq normalarına əsaslanır.

Tarixi ədalət ondan ibarətdir ki, Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı o torpaqlarda yaşamış, yaratmışdır. Bugünkü Ermənistan Respublikası tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Bu, tarixi sənəddir ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana paytaxt şəhəri kimi vermək haqqında qəbul edilmiş qərar idi. Bu qərar haqqında mən fikirlərimi dəfələrlə bildirmişəm. Bu böyük səhv və böyük cinayət idi. Ancaq bu, tarixi həqiqətdir. İrəvan xanlığı bizim tarixi torpağımızdır. Keçən əsrin əvvəllərində Azərbaycanın tarixi torpaqlarında bir dəfə qondarma erməni dövləti yaradıldı. Bu zəmanədə, indiki şəraitdə ikinci qondarma erməni dövlətinin Azərbaycanın tarixi torpaqlarında yaradılmasına biz heç vaxt

imkan verə bilmərik. Bu heç vaxt olmayacaq. Çünki dünya birliyi Dağlıq Qarabağı müstəqil qurum kimi tanımır və tanımayacaq. Heç bir ölkə Dağlıq Qarabağı tanımır və bu qondarma, kriminal rejim tərəfindən idarə edilən qurum qanunsuz şəkildə fəaliyyət göstərir. Bu qurumun nə hüquqi baxımdan, nə də siyasi və iqtisadi baxımdan gələcəyi yoxdur. Çünki bu gün Azərbaycan bölgə məsələlərinin həllində həlledici sözə sahib olan bir ölkədir. Azərbaycanın imkanları, potensialı, ordumuzun gücü və siyasi çəkimiz artır. Bu gün Azərbaycan dünya məsələlərinin həllində öz rolunu oynayır, dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasının üzvüdür və bu ilin may ayında bu quruma rəhbərlik etmiş, dünyada gedən bütün məsələlərlə bağlı öz prinsipial və qətiyyətli mövqeyini bildirmişdir.

Bizim iqtisadi çəkimiz artır və bu ilin yekunlarına görə iqtisadi inkişaf yenə də özünü göstərir. Qarşıda duran bütün vəzifələr icra edilir, böyük investisiyalar qoyulur. Bu il ölkə iqtisadiyyatına 20 milyard dollardan çox investisiya qoyulmuşdur. İqtisadiyyatın dinamik inkişafını gələcəkdə təmin etmək üçün konkret planlarımız var. Gələn ilin sonunda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi başa çatacaq. 2014-cü ilin əvvəlində yeni proqram qəbul ediləcəkdir və bu proqramın icrası nəticəsində Azərbaycan iqtisadi imkanlarını ən azı 2 dəfə artıra bilər. Ölkə qarşısında duran əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bütün başqa sahələrdə biz böyük uğurlara nail ola bilmişik. Bu uğurları sadalamaq üçün çox vaxt lazımdır. Azərbaycan ictimaiyyəti bütün bunları bilir. O ki qaldı Dağlıq Qarabağ məsələsinin həllinə, əfsuslar olsun ki, bu məsələ hələ ki öz həllini tapmır. Bu məsələnin həllində vasitəçilər, hesab edirəm ki, daha da fəal olmalıdırlar. İşğalçı dövlətə çox ciddi siqnal verilməlidir ki, işğal edilmiş torpaqlardan çıxsın. Beynəlxalq hüquq normalarını pozmaq olmaz. Ancaq əfsuslar olsun ki, biz belə siqnalları görmürük. Daha çox balanslaşmış ifadələr eşidirik. Əlbəttə, işğalçı dövlət – Ermənistan indiki vəziyyəti, status-kvonu dondurmaq istəyir. Ancaq bu mümkün olmayacaq. Ona görə yox

ki, beynəlxalq qurumlar onlara təsir göstərəcəkdir. Biz buna o qədər də çox böyük ümid bəsləmirik. Biz öz gücümüzə arxalanırıq. Bütün məsələlərdə, iqtisadi-siyasi məsələlərdə olduğu kimi, bu məsələdə də öz gücümüzə, Azərbaycan xalqının iradəsinə və Azərbaycan Ordusunun gücünə güvənirik. Vaxt gələcək Azərbaycan öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcəkdir. Həm tarixi ədalət, həm beynəlxalq hüquq normaları bu haqqı tanıyır.

Müharibə zamanı şəhid olmuş, sağlamlığını itirmiş vətəndaşlarımız cəmiyyətin dəyərli insanlarıdır, bizim qəhrəmanlarımızdır. Biz sizinlə fəxr edirik. Gənc nəsil də sizinlə fəxr etməlidir. Gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında sizin kimi insanların rolu çox böyükdür. Mən çox istəyirəm ki, siz tez-tez gənclərlə görüşəsiniz, məktəblərdə, ali məktəblərdə görüşlər keçirəsiniz. Müharibə haqqında, erməni vəhşiliyi haqqında həm gənc nəslə, həm də dünyaya daha da geniş məlumat çatdırasınız.

Azərbaycan cəmiyyəti sizi yüksək qiymətləndirir. Azərbaycan dövləti sizin fədakar işinizi yüksək dəyərləndirir. Bugünkü mərasim, ölkəmizin müxtəlif yerlərində bu gün keçirilən mərasimlər bunun bariz nümunəsidir, onun təzahürüdür.

Mən sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Arzu edirəm ki, yeni ildə bu gözəl mənzillərdə siz rahat, xoşbəxt yaşayasınız. Sizə cansağlığı və uğurlar arzulayıram. Sağ olun.

**Azər Quliyev** *(Qarabağ müharibəsi əlili):* Əziz və hörmətli Prezidentimiz! Hörmətli toplantı iştirakçıları!

Cənab Prezident, bu gün bizim üçün çox gözəl bir gündür. Günümüzün gözəlliyinin biri ondan ibarətdir ki, bu gün prezidentimiz İlham Əliyevin doğum günüdür.

Cənab Prezident, doğum günü ilə əlaqədar Allah-Taaladan Sizə cansağlığı, işinizdə müvəffəqiyyətlər, nəvələrinizin toyunu arzu edirik. Allah Sizi bizlərə çox görməsin!

Günümüzün ikinci gözəlliyi ondan ibarətdir ki, cənab Prezident, bu gün respublikanın 5-6 rayonunda Sizin göstərişinizlə

inşa olunmuş binalardakı mənzillər Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə təqdim olunur. Hər bir mənzilə bir ailə köçürüldüyünü, hər ailədə 5 nəfərin olduğunu, hər bir ailəyə minik avtomobili hədiyyə edildiyini, o ailədə 5 nəfər olduğunu hesablasaq görərik ki, bu gün Siz 100 nəfərdən yuxarı insana sevinc bəxş edirsiniz. Adət-ənənələrimizə görə, ad günü olan insanlara hədiyyə verilməlidir. Amma Siz ad gününüzdə bizə hədiyyə verirsiniz.

Cənab Prezident, bizim «Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri» İctimai Birliyinin 50 mindən yuxarı üzvü vardır. Biz – Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşən insanlar Sizin arxanızdayıq. Biz nə qədər yaşayacağıqsa, Sizi prezident görmək istəyirik. Bu, səmimiyyətdən, qəlbimizdən gələn sözlərdir.

Cənab Prezident, Allah Sizi bu məmləkətə, bu Vətənə, bizim kimi insanlara çox görməsin. Allah-Taaladan arzu edirəm ki, hər il Sizin ad gününüzü qeyd edək və Siz hər il ad gününüzdə bu insanlara gözəl sevinclər bəxş edəsiniz.

Mehriban xanım, Allah Sizi də qorusun! Allah Sizə cansağlığı versin. Siz bizim Prezidentimizin ömür-gün yoldaşısınız. Allah Sizi xoşbəxt etsin!

**Sərvər Məmmədov** *(Şəkidən telekörpü vasitəsilə mərasimə qatılan Qarabağ müharibəsi əlili):* Hörmətli Prezident! Biz Sizi qədim Şəki torpağından salamlayırıq. Mən özüm Qarabağ müharibəsi əliliyəm. Biz bu gün burada yığışmışıq, Sizin tapşırığınızla bizim üçün tikilmiş bu gözəl binaların, avtomobillərin təqdimetmə mərasimini keçiririk. Bizim üçün çox xoş gündür. Biz keçmiş döyüşçülər – müharibənin ağrı-acısını görmüş insanlar torpaqlarımızın sülh yolu ilə azad olunması istiqamətində Sizin yürütdüyünüz siyasəti dəstəkləyirik. Bu gün sevincimizin həddi-hüdudu yoxdur. Bu sevinci bizə bəxş etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Bu gün burada hamı üçün əlamətdar gündür. Amma mənim üçün ikiqat əlamətdar gündür ki, bir gün əvvəl mənim özümün ad günüm idi, cənab Prezident. Yəni bu Sizin tərəfinizdən,

dövlətimiz tərəfindən mənə təqdim olunan ən dəyərli hədiyyədir. Bu hədiyyənin Sizin tərəfinizdən təqdim olunması onun dəyərini qat-qat artırır. Sizə «çox sağ olun!» – deyirəm. İnşallah, Sizin sayənizdə o mənzillərdə ailələrimizlə birlikdə xoş günlər keçirəcəyik. Məndən əvvəl çıxış edən Qarabağ müharibəsi əlili də dedi ki, əslində, bu gün biz Sizə hədiyyə təqdim etməliyik. Amma Siz bizə hədiyyə təqdim edirsiniz. Bir daha Sizə minnətdarlığımızı bildiririk. Xahiş edirik ki, Şəki camaatı adından Sizə ad günü hədiyyəsi olaraq, bizim alqışlarımızı qəbul edəsiniz. Çox sağ olun.

**M i n a y ə  P i r i y e v a** *(Gəncə şəhərindən telekörpü vasitəsilə mərasimə qatılan şəhid anası):* Hörmətli Prezidentimiz! Mən Sizi Nizami yurdundan salamlayıram. Bu gün Sizin ad gününüzdür. Bu münasibətlə Sizi ürəkdən təbrik edirəm, əllərinizi sıxıram.

Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Ona görə ki, Siz həmişəki kimi, şəhid ailələrinə, müharibə veteranlarına bu gün də öz diqqət və qayğınızı göstərirsiniz. Gəncəmiz gündən-günə gözəlləşir. Şəhidlər xiyabanı tamamilə yenidən qurulub. Onun yaxınlığında böyük bir məqbərə tikilir. O da yaxın günlərdə hazır olacaqdır. Bütün bunlara görə Sizə minnətdarıq!

Bu gün – Sizin ad gününüzdə bizə yeni mənzillər hədiyyə edilir. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq ki, Azərbaycanımız daha da gözəlləşsin, daha da inkişaf etsin. Bu bizim arzumuzdur.

Mənim Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya da deyiləsi bir sözüm var. Mehriban xanım, Sizə də xüsusi minnətdarlığımı bildirirəm. Yadınızdadırsa, mən Sizə teleqramla müraciət etmişdim. Siz xahişimi nəzərə alaraq mənə 3 aylıq körpə verilməsini təmin etdiniz. İndi o uşaq 5 yaşındadır. İngilis dili təmayüllü bağçaya qoymuşam. Orada istirahət edir, hər şeyi öyrənir. Biz bu xeyirxahlığınıza görə Sizə ailəmiz adından minnətdarlığımızı bildiririk. Bundan sonra o uşaq bu gün bi- zə verdiyiniz

mənzildə yaşayacaq. Bundan böyük xoşbəxtlik, səadət ola bilməz. Çox sağ olun.

Qarşıdan gələn 31 dekabr – Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Sizi və ailənizi ürəkdən təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik diləyirəm. Arzu edirəm ki, həmişə həyat yollarında qoşa olasınız. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun, əziz dostlar! Mən bu gün eyni zamanda, Gəncə, Şəki, Sumqayıt şəhərlərinin, Şəmkir rayonunun, Zabrat və Hövsan qəsəbələrinin sakinlərini ürəkdən salamlayıram. Ölkəmiz doğrudan da sürətlə inkişaf edir. Bütün bölgələr inkişaf edir. Gəncədə, Şəkidə, Şəmkirdə dəfələrlə olmuşam. Çox sevinirəm ki, Azərbaycanın bütün şəhərlərində böyük abadlıq-quruculuq işləri aparılır, yeni müəssisələr yaradılır, yeni iş yerləri açılır. Təkcə bu il 100 mindən artıq yeni iş yeri açılıb. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əvvəlindən indiyə qədər bütövlükdə 1 milyon 100 min iş yeri açılmışdır. İşsizlik xeyli dərəcədə azalmışdır və əminəm ki, yaxın illərdə tamamilə aradan götürüləcək.

Bütün rayonlarda abadlıq-quruculuq işləri aparılır. Hər bir yerdə insanlar, fəallar, rayon və şəhər rəhbərləri çalışırlar ki, daha da yaxşı işləsinlər, daha da gözəl abadlıq işləri görsünlər. Bu binalar da müasirdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə tikilmiş bu binalar ən yüksək standartlara cavab verir. Binaların həm xarici görünüşü, həm daxili şəraiti çox yüksək səviyyədədir. Bu belə də olmalıdır. Çünki bu binalar Vətənimiz üçün, dövlətimiz üçün ən böyük iş görən, fədakarlıq göstərən insanlar üçün tikilir. İlk növbədə, bu insanlar üçün daha da gözəl binalar tikilməlidir, daha da gözəl şərait olmalıdır. Bu bizim mənəvi borcumuzdur, eyni zamanda, bu bizim dövlət siyasətimizdir.

Bu gün Sumqayıt şəhərindəyəm. Sumqayıtın da uğurlu inkişafı məni çox sevindirir. Sumqayıt böyük sənaye mərkəzinə çevrilib. Qəbul edilmiş qərarların icrası nəticəsində yaxın illərdə Sumqayıt dünya miqyasında böyük sənaye mərkəzinə çevriləcəkdir. Burada yeni müəssisələr, texnologiya parkları,

yeni binalar tikilir, abadlıq işləri gedir. Bu gün bizimlə canlı bağlantıda olan bütün rayonlarda da böyük abadlıq-quruculuq işləri gedir. Bu məni, insanları sevindirir, Azərbaycan dövlətinin uğurlu inkişafını göstərir. Biz növbəti illərdə də bütün istiqamətlərdə – həm sosial, həm iqtisadi sahələrdə öz siyasətimizi uğurla aparacağıq.

Bu gün mənim ünvanıma deyilən xoş sözlərə görə sizə minnətdaram. Mənim üçün ən böyük hədiyyə Azərbaycan xalqının xoşbəxtliyidir və bu gün mən xoşbəxtəm. Çünki bu gün 400-dən çox ailə yeni mənzillərə köçəcəkdir. Onların həyatında yeni dövr, yeni mərhələ başlayır. Onlar bu gözəl, rahat həyata layiqdirlər. Əminəm ki, siz bu evlərdə rahat, xoşbəxt yaşayacaqsınız. Arzu edirəm ki, sizin bütün işləriniz uğurlu olsun, bütün ailə üzvləriniz sağ-salamat olsun. Bir daha sizə və bütün Azərbaycan xalqına yeni ildə yeni uğurlar və cansağlığı arzulayıram.

* * *

*Son illər Azərbaycanın iqtisadi həyatında mühüm nailiyyətlərin əldə edilməsi ilə yanaşı, əhalinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində vacib tədbirlər həyata keçirilir. Ölkəmizin davamlı tərəqqisi sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqənin zəruri tələbatlarını ödəmək üçün yeni imkanlar yaradır. Bu baxımdan əlil və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan Prezidentinin fəaliyyətinin əsas prinsiplərindən birini təşkil edir. Həmin kateqoriyadan olan insanlar üçün müasir tələblərə cavab verən fərdi evlərin və çoxmənzilli binaların tikilib istifadəyə verilməsi bunun bariz nümunəsidir. Sumqayıt şəhərində, Sabunçu rayonunun Zabrat, Suraxanı rayonunun Hövsan qəsəbələrində, həmçinin Gəncədə, Şəkidə və Şəmkirdə bu gün yeni binaların istifadəyə verilməsi onu göstərir ki, əlil və şəhid ailələrinə qayğı dövlətimizin başçısının daim diqqət mərkəzindədir.*

*1997–2007-ci illərdə 2 min 200-ə yaxın mənzil əlil və şəhid ailələrinin istifadəsinə verilmişdisə, son 5 ilə yaxın müddətdə bu rəqəm 5 minə çatdırılıb. Başqa sözlə, 1997-ci illə müqayisədə əlil və şəhid ailələri üçün inşa olunmuş mənzillərin illik sayı 10 dəfəyə yaxın artıb. Hazırda hər il orta hesabla 700-dən çox mənzil inşa olunaraq, müharibə əlilləri və şəhid ailələrinin istifadəsinə verilir. Əlil və şəhid ailələri üçün mənzillərin inşasında mövcud həcmin və müsbət dinamikanın qorunub saxlanması, nəticədə növbədə olan əlil və şəhid ailələrinin yeni müasir mənzillərlə təminatının tam başa çatdırılması ilə bağlı dövlət başçımızın tapşırıqları uğurla davam etdirilir. Yeni binaların çoxmərtəbəli olmasına üstünlük verilir.*

*Hazırda Bakının Nərimanov rayonunda gözdən əlillər üçün 12 mərtəbəli 132 mənzilli yaşayış binası tikilir. Rayonlarda müharibə əlilləri üçün yaşadıqları məntəqələrdə həyətyanı sahəsi olan fərdi evlərin tikintisi də diqqətdə saxlanılır. İndiyədək 450-dən çox fərdi ev inşa olunaraq Qarabağ müharibəsi əlillərinin istifadəsinə verilmişdir. Paytaxtın Sabunçu rayonunun Zabrat, Suraxanı rayonunun Hövsan qəsəbələrində, Şəkidə və Şəmkirdə yeni yaşayış binaları tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, Qarabağ və Böyük Vətən müharibələri veteranlarının avtomobillərlə təmin edilməsi də diqqətdə saxlanılmışdır. İndiyədək avtomobil alan əlillərin sayı 3 min 525 nəfərdir.*

# NƏSİMİ ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA GÖRÜLƏN YENİDƏNQURMA VƏ ABADLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*Sumqayıt*

*24 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Sumqayıtda Nəsimi adına Mədəniyyət və istirahət parkında görülən əsaslı yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, 100 hektara yaxın sahəsi olan Nəsimi parkında dövlətimizin başçısının tapşırığına əsasən aparılan işlər «Göyərçin» abidə kompleksinə qədər olan ərazidə artıq yekunlaşmışdır.*

*Prezident İlham Əliyev abadlıq və yenidənqurma işlərinin yüksək keyfiyyətlə davam etdirilməsinə dair tapşırıq və tövsiyələrini verdi.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və artıq ənənəvi bayramlarımızdan birinə çevrilmiş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Sizi səmimi-qəlbdən salamlayır, hər birinizə səadət və firavanlıq arzulayıram.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması və birliyinin möhkəmlənməsi, tarixi Vətənlə əlaqələrinin güclənməsi diaspor quruculuğunun mühüm tərkib hissəsini təşkil edir. Hazırda dünyanın müxtəlif ölkələrindəki həmvətənlərimizin yaratdıqları qurumlar Azərbaycan hökumətinin də ardıcıl dəstəyi sayəsində daha mütəşəkkil və çevik fəaliyyət göstərirlər. Sevindirici haldır ki, yeni ideyaları və vətənpərvərliyi ilə seçilən gənclərimiz bu prosesə yaxından cəlb olunur, diasporun möhkəmlənməsinə öz töhfələrini verirlər. Cari ilin martında təsis edilmiş Dünya Azərbaycanlı Gənclər Birliyi buna bariz nümunədir.

Soydaşlarımızın yaşadıqları dövlətlərin cəmiyyətinə dərindən inteqrasiya olunması, həmin ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında getdikcə daha fəal rol oynaması təqdirəlayiqdir. Bunlar respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsinə, Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasına, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğinə əlverişli şərait yaradır. Eyni zamanda, Moskva, Hyuston, Paris və Türkiyənin Kocaeli şəhərində artıq fəaliyyətə başlamış, gələcəkdə digər ölkələrdə də açılması nəzərdə tutulan Azərbaycan mədəniyyət mərkəzləri diasporumuzun imkanlarını xeyli artıracaq. Ümidvaram ki, diaspor təşkilatlarımız bundan sonra da öz səylərini davam etdirəcək, Diasporla İş üzrə Dövlət Komitəsi, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimiz və

Azərbaycan mədəniyyət mərkəzləri ilə sıx əməkdaşlıq edərək daha mütəşəkkil fəaliyyət göstərəcəklər.

Tarixi şərait dünya azərbaycanlılarının həmrəylik və birlik arzularının məhz müstəqil dövlətimiz yarandıqdan sonra reallığa çevrilməsini mümkün etmişdir. Buna görə də biz milli varlığımızın əsası olan Azərbaycan Respublikasının hərtərəfli inkişafının təmin edilməsi, onun qüdrətinin artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparırıq. Həyata keçirilən tədbirlər nəticəsində, əvvəlki dövrlərdə olduğu kimi, yola salmağa hazırlaşdığımız 2012-ci ildə də ölkəmizdə sosial-iqtisadi inkişaf prosesləri uğurla davam edib. İqtisadi potensialın güclənməsi sosial, mədəni, hüquqi və digər sahələrə daha çox diqqət yetirilməsinə imkan yaratmış, dövlətimizin beynəlxalq nüfuzunun yüksəlməsinə və xaricdəki dostlarımızın sıralarının genişlənməsinə səbəb olmuşdur. 2015-ci ildə ilk Avropa Olimpiya oyunlarının Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi Azərbaycanın istər qitə, istərsə də dünya miqyasındakı rolunun və təsir imkanlarının artmasının parlaq göstəricisidir.

Hazırda BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyət göstərən Azərbaycan Respublikası dünyada sülhün və təhlükəsizliyin qorunması sahəsində öz məsuliyyətini dərindən dərk edir. Bu gün ölkəmiz multikulturalizmin və tolerantlığın məkanı kimi, islam dünyası ilə Qərb sivilizasiyası, eləcə də digər mədəniyyətlərə mənsub olan xalqlar arasında əməkdaşlıq üçün qlobal platformanın yaradılmasında mühüm rol oynayır.

Əziz soydaşlar!

Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların doğma yurdu və güvənc yeridir. Hər bir azərbaycanlı Vətənimizin tərəqqisi, milli mənafelərimizin layiqincə qorunması üçün əlindən gələni əsirgəməməlidir. Ölkəmizin suverenliyinin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafının davam etdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, soydaşlarımızın hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunması kimi

mühüm vəzifələrin öhdəsindən uğurla gəlmək üçün əl-ələ verməli, səylərimizi birləşdirməliyik. Buna görə də bu gün bir daha bütün dünya azərbaycanlılarını sıx birliyə və həmrəyliyə dəvət edir, milli-mənəvi dəyərlərimizin qorunması, Vətənimizin çiçəklənməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi yolunda əzmkar fəaliyyətə səsləyirəm.

Sizi əlamətdar bayram münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2012-ci il*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BİDZİNA İVANİŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Gürcüstan Respublikasının Baş naziri Bidzina İvanişvili ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi. Söhbət zamanı ikitərəfli münasibətlərimizin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Şımkənd şəhəri yaxınlığında An-72 təyyarəsinin qəzaya uğraması nəticəsində hərbi qulluqçuların həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2012-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİNZO ABEYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Yaponiya arasında ikitərəfli münasibətlər bu gün yüksələn xətt üzrə inkişaf etməkdədir. Əminəm ki, ənənəvi dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək Yeni il bayramınızı təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2012-ci il*

## MÜŞFİQABAD QƏSƏBƏSİNDƏ 1440 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN YENİ SALINMIŞ MƏHƏLLƏNİN AÇILIŞI MƏRASİMİ

*27 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 27-də Bakının Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində 1440 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllənin istifadəyə verilməsi mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı əvvəlcə Ağdam rayonundan məcburi köçkün, şəhid ailəsi Nazilə Tağıyevanın mənzilində yaradılan şəraitlə maraqlandı. Üzvlərinin sayı 5 nəfərdən ibarət olan ailənin mənzili dördotaqlıdır. Mənzildə hər cür şərait yaradılmışdır.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məhəllədə tikilən 1300 şagird yerlik Ağdam rayon 33 saylı tam orta məktəbə gəldilər. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur.*

*Dövlətimizin başçısı məhəllənin maketinə baxdı. Məlumat verildi ki, məhəllə Müşfiqabad qəsəbəsi ərazisində prezident İlham Əliyevin 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na Azərbaycan Prezidentinin 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən inşa olunub. Yeni məhəlləyə 1440 ailə və ya 5 min 756 məcburi köçkün köçürüləcəkdir. Məcburi köçkün ailələrindən 320-si Ağdam, 570-i Cəbrayıl, 290-ı Füzuli, 100-ü Zəngilan, 160-ı isə işğal olunmuş digər rayonlardandır. Məhəllənin ərazisi 22 hektardır. Buradakı 1440 mənzildən 211-i birotaqlı, 659-u ikiotaqlı, 429-u üçotaqlı, 141-i isə dördotaqlıdır.*

*Bildirildi ki, məhəllədə 140 yerlik uşaq bağçası da inşa olunub. Zəruri avadanlıqla təchiz olunan bağçada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınıb. Ərazidə klub-icma mərkəzi, inzibati bina, təcili yardım stansiyası, poçt şöbəsi və 2 çıxışlı yanğınsöndürmə deposu da tikilib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən tikilən məhəllə Dövlət Neft Fondundan ayrılmış 127,5 milyon manat hesabına inşa olunub. Məhəllənin tikintisi 2012-ci ilin fevralında başlanılmış, bu ilin sonunda tam başa çatdırılmışdır.*

*Dövlətimizin başçısı bu günə qədər istifadəyə verilən yeni qəsəbələrin fotostendlərinə də baxdı.*

*Məlumat verildi ki, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir. Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsidir ki, bu gün ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmamış, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülmüşlər.*

*Bildirildi ki, 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev bu istiqamətdə 81 fərman və sərəncam imzalamış, Nazirlər Kabineti 307 qərar vermiş, Milli Məclis 24 qanun qəbul etmişdir. 2003–2012-ci illərdə isə bu sahədə prezident İlham Əliyev tərəfindən 49 fərman və sərəncam imzalanıb. Ötən dövrdə 2 Dövlət Proqramı və həmin dövlət proqramlarına edilən əlavələr təsdiq edilmiş və onlar uğurla icra olunmuşdur. 2001–2012-ci illərdə 26 min ailə və ya 130 min nəfərdən çox daimi məskunlaşmamış qaçqın və məcburi köçkün üçün 76 qəsəbə, hündürmərtəbəli binalardan ibarət məhəllə və fərdi evlər tikilib. Bu dövrdə 134 məktəb, 5 musiqi məktəbi, 48 uşaq bağçası, 51 tibb müəssisəsi, 37 rabitə evi tikilmiş, minlərlə kilometr uzunluğunda su, elektrik və qaz xətləri çəkilmişdir. Ümumilikdə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə 1993–2012-ci illərdə 5,4 milyard dollar vəsait xərclənib. Bu ilin ötən dövründə Şəkidə 423, Bər-*

dədə 195, İmişlidə 325, Qaradağ rayonunda 1440, Mingəçevirdə 502 məcburi köçkün ailəsi üçün bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə 3 qəsəbə və 2 yaşayış məhəlləsi salınmışdır. Abşeron rayonunun Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi və ya 3 min 420 nəfər üçün yeni qəsəbənin salınması başa çatmaq üzrədir. Ümumiyyətlə, 2012-ci ildə Dövlət Neft Fondundan 300 milyon manat vəsait ayrılmışdır ki, bu da ötən illə müqayisədə 2,2 dəfə, 2003-cü ilə nisbətən isə 15 dəfə çoxdur. Bu illər ərzində qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəbin idman zalında təşkil olunan Qarabağ xalçalarından və əraziləri işğal edilmiş rayonların tarix-diyarşünaslıq muzeylərinin eksponatlarından ibarət sərgi ilə tanış oldular.

Məktəblə tanışlıq zamanı bildirildi ki, yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlığı ilə diqqəti cəlb edən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Bu bir daha təsdiqləyir ki, zəngin təbii sərvətləri ilə öyünən Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçmişdir. Azərbaycan prezidentinin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bu vacib amilin son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edildiyini təsdiqləyir. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bütün orta təhsil ocaqlarında kompüter sinifləri yaradılıb, internetlə təmin edilibdir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə əhəmiyyəti ilə diqqəti cəlb edir.

Məktəblə tanışlıqdan sonra Azərbaycan prezidenti burada məhəllənin sakinləri ilə görüşdü.

Prezident İlham Əliyev mərasim iştirakçılarını təbrik etdi:

– Əziz dostlar, mən sizi ürəkdən salamlayıram. Sizi Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində ürəkdən təbrik edirəm. Bu gün bu gözəl qəsəbənin açılışı münasibətilə sizi təbrik edirəm.

Bu qəsəbənin tikilməsi Azərbaycan dövlətinin gücünü və siyasətini əks etdirir. Bu siyasəti ulu öndər Heydər Əliyev qoyub. Biz onun yolu ilə gedirik və bildiyiniz kimi, Dövlət Neft Fondunun birinci ödəmələri məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir. O vaxtdan bu günə qədər Dövlət Neft Fondu məcburi köçkünlərin rahat evlərlə, mənzillərlə təmin edilməsi sahəsində çox böyük iş görmüşdür. Təkcə bu il 20 min köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib, belə gözəl qəsəbələr tikilib. Bu qəsəbədə gözəl binalarda, gözəl mənzillərdə 7 min köçkün rahat yaşayacaqdır. Bu məktəb isə Azərbaycanda müstəqillik dövründə tikilmiş ən böyük məktəbdir. 1300 şagird yerlik məktəb son 20 il ərzində tikilmiş ən böyük, geniş, çox gözəl məktəbdir.

Burada yaşamaq üçün bütün şərait vardır – gözəl binalar, uşaq bağçası, məktəb. Ölkəmizin müxtəlif yerlərində məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün belə gözəl qəsəbələr, fərdi evlər tikilir. Bildiyiniz kimi, indi biz bu işi ardıcıllıqla aparırıq. Birinci mərhələdə biz, əlbəttə, ən ağır vəziyyətdə yaşayanların vəziyyətini yaxşılaşdırmalı idik. Bu məqsədlə 2007-ci ilə qədər çadır şəhərciklərinin ləğvi ilə bağlı böyük işlər görüldü. Ondan sonrakı mərhələdə artıq yataqxanalarda, fin qəsəbələrində, hərbi hissələrin ərazilərində yaşayanların sosial vəziyyəti yaxşılaşdırılmalıdır və biz bunu edirik. Burada, bu qəsəbədə yaşayacaq insanların böyük əksəriyyəti uzun illər yataqxanalarda ağır vəziyyətdə yaşayıblar. Bu gün Azərbaycan dövləti bu istiqamətdəki siyasətini uğurla aparır. Bütövlükdə son illər ərzində bu məqsədlər üçün milyardlarla manat vəsait ayrılıb. Bu il 20 min köçkün yeni evlərə köçürülür. Gələn il 20 mindən artıq köçkün yenə də yeni mənzillərlə, evlərlə təmin ediləcəkdir. Bu il Dövlət Neft Fondundan bu məqsədlər üçün tarixdə ən böyük vəsait

ayrılmışdır – 300 milyon manat. Gələn il də 300 milyon manatdan az olmayan məbləğ nəzərdə tutulur. Yəni biz bu məsələni ardıcıllıqla həll edirik və əminəm ki, bir neçə ildən sonra məcburi köçkünlərin əsas məişət problemləri öz həllini tapacaqdır.

Bildiyiniz kimi, Dövlət Proqramı həyata keçirilir. Məcburi köçkünlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı uğurla icra edilir. Biz təkcə qəsəbələrin, evlərin tikilməsi ilə öz işimizi məhdudlaşdırmırıq, eyni zamanda, məşğulluq məsələlərini də həll edirik. Rəsmi statistikaya görə, son illər ərzində köçkünlərin arasında yoxsulluq səviyyəsi kəskin şəkildə aşağı düşübdür. Bütövlükdə ölkə üzrə yoxsulluq artıq çox aşağı səviyyədədir. Keçən ilin yekunlarına görə 7,6 faiz, bu ilin yekunlarına görə daha da aşağı olacaqdır. Köçkünlər arasında da yoxsulluq aşağı düşür, məşğulluq artır.

Ölkəmizdə bütövlükdə yeni iş yerlərinin açılması prosesi uğurla gedir. Son 10 il ərzində 1 milyon 100 min iş yeri açılıb və məcburi köçkünlər də bu imkanlardan bəhrələnirlər. Bütövlükdə iqtisadi islahatlarımız və iqtisadi sahədə apardığımız siyasət bizə belə gözəl binaların, qəsəbələrin tikilməsinə imkan yaradır. Əgər ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın yeni neft strategiyası aparılmasaydı, yəni əgər biz o strategiyanın həyata keçirilməsində uğur əldə etməsəydik, bu gün biz belə qəsəbələri tikə bilməzdik. Hələ də ağır vəziyyətdə yaşayan köçkünlər var, biz bunu bilirik. Yenə də deyirəm, biz bu məsələni ardıcıllıqla həll edirik. Çadır şəhərcikləri, fin qəsəbələri ləğv edildi. Yataqxanalarda, uşaq bağçalarında yaşayanlar var, biz onların da məişət problemlərini həll edəcəyik.

Bu onu göstərir ki, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması dövlət siyasətimizdə ön plandadır. Həmişə belə olubdur. Sadəcə olaraq, indiki mərhələdə dövlətimizin gücü daha da çoxdur. Maliyyə imkanlarımız daha da böyükdür. Amma xatırlayıram, Dövlət Neft Fondu yarananda

oraya ilk vəsait daxil olunanda birinci ödəmələr ulu öndər Heydər Əliyev tərəfindən məhz köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdi. Yəni o vaxt bu məsələ prioritet kimi müəyyən edilmişdi. Bu gün də prioritet olaraq qalır. Çünki köçkünlər ən ağır vəziyyətdə yaşayan insanlardır. Ermənilər Azərbaycan xalqına qarşı soyqırımı siyasəti aparıblar. Xocalı faciəsi artıq dünya miqyasında soyqırımı kimi tanınır. 3 ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıbdır və bu proses davam edəcəkdir.

Azərbaycanlıların elementar insan hüquqları tapdalanır. 1 milyondan artıq vətəndaşın elementar əsas insan hüquqları kobudcasına tapdalanır. Beynəlxalq təşkilatlar qərarlar, qətnamələr qəbul ediblər və Azərbaycan diplomatiyasının səyləri nəticəsində bu gün bütün beynəlxalq çərçivələrdə bizim haqq işimiz artıq üstünlük təşkil edir. Erməni təbliğatı bizim qabağımızda acizdir. Ancaq bu beynəlxalq təşkilatların qətnamələri, əfsuslar olsun ki, reallığa çevrilmir. Beynəlxalq aləm, xüsusilə bu münaqişə ilə bağlı vasitəçilik funksiyalarını öz üzərinə götürən ölkələr, Minsk qrupu daha da fəal olmalıdır. İşğalçıya öz yerini göstərməlidir, onlardan kəskin şəkildə tələb etməlidir ki, artıq münaqişəyə son qoyulsun, işğalla barışmaq olmaz və işğala son qoyulmalıdır. Biz də Azərbaycan dövləti olaraq öz tərəfimizdən ölkəmizi gücləndirməklə, iqtisadi, siyasi islahatları aparmaqla, ordumuzu gücləndirməklə qələbə gününü yaxınlaşdırırıq.

Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Əminəm ki, Azərbaycan xalqında da bu barədə şübhə yoxdur. Sadəcə olaraq, biz çalışırıq ki, bunu tezliklə edək. Bu gün işğal altında olan torpaqlara vətəndaşlarımız tezliklə qayıtsın. Tezliklə o şəhərləri biz yenidən tikək, yenidən quraq, bərpa edək. Çünki bildiyiniz kimi, işğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Erməni quldurları, erməni vəhşiləri tərəfindən bizim bütün tarixi abidələrimiz dağıdılıbdır. Məktəbin idman zalında indi nümayiş etdirilən eksponatlar bizim tarixi sərvətimizdir. Ancaq bizim o muzeylərdə saxlanılan

əsas maddi irsimizin nümunələri artıq ermənilər tərəfindən talan edilib, dağıdılıb, yandırılıb. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb. Bunu erməni faşistləri ediblər. Bu vəziyyətlə barışan beynəlxalq birlik hesab edirəm ki, çox ciddi nəticələr çıxarmalıdır. Çünki Azərbaycanın imkanları, ordumuzun gücü artır. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq. Biz bütün imkanlardan istifadə edib ərazi bütövlüyümüzü bərpa edəcəyik. Münaqişəyə nə qədər tez son qoyulsa, hər kəs üçün də o qədər yaxşı olar.

Biz öz siyasətimizi davam etdirəcəyik. Öz prinsipial mövqemizdən bir addım belə, geri çəkilməyəcəyik. Çünki həm beynəlxalq hüquq, həm tarixi ədalət bizim mövqemizi dəstəkləyir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, bundan sonra da Azərbaycan torpağı kimi qalacaqdır. Dünya birliyi qondarma Dağlıq Qarabağı müstəqil qurum kimi tanımır və tanımayacaqdır. Dağlıq Qarabağda keçirilən bütün saxta seçkilər beynəlxalq birlik tərəfindən tənqid edilir. O saxta seçkilərin nəticələri tanınmayıb.

Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Azərbaycan dövləti bu istiqamətdə bütün imkanlardan istifadə edir. Yenə də demək istəyirəm ki, biz siyasi, diplomatik istiqamətdə, iqtisadi sahədə və ordu quruculuğu işində daha da güclü olmalıyıq. Gün gələcək biz ərazi bütövlüyümüzü bərpa edəcəyik və ondan sonra bu gün dağıdılmış şəhərləri yenidən quracağıq, bərpa edəcəyik. Azərbaycanlılar öz doğma torpaqlarında yaşayacaqlar, yaşamalıdırlar. Mən buna inanıram, buna əminəm və əminəm ki, bütün Azərbaycan xalqı buna inanır və biz qələbə gününü görəcəyik.

Bununla bərabər, biz soydaşlarımız üçün müvəqqəti olaraq belə gözəl binalar tikirik. Siz də bilirsiniz, biz də bilirik ki, bu, müvəqqəti yaşayış yeridir. Bu yerlərdə hələ ki, siz yaşamalısınız və müvəqqəti də olsa, şərait yaxşı olmalıdır. Burada yaradılan şərait ən yüksək standartlara cavab verir. Çox geniş, işıqlı otaqlar, çox gözəl planlaşdırılmış qəsəbə, məktəb, uşaq bağçası,

bütün kommunikasiyalar, işıq, qaz, su xətləri – hər şey nəzərə alınıb ki, siz müvəqqəti də olsa, burada rahat yaşayasınız.

Sizi bir daha qarşıdan gələn bütün bayramlar münasibətilə ürəkdən təbrik edirəm. İşğaldan əziyyət çəkən bütün soydaşlara bu gün öz salamlarımı, hörmətimi, məhəbbətimi bildirmək istəyirəm. Sağ olun.

**N ə s i b ə  H ü s e y n o v a** *(Ağdam rayon 33 saylı tam orta məktəbin direktoru):* Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Məcburi köçkünlər üçün salınmış bu gözəl şəhərciyə xoş gəlmisiniz! Bu, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində bizə verilən ən böyük, ən gözəl hədiyyədir. Bu əvəzsiz hədiyyəyə görə Sizə şəhərciyin sakinləri adından minnətdarlığımı bildirirəm.

Möhtərəm Prezident, bizim üçün tikdirdiyiniz bu məktəb binasına baxanda həyəcanımızı gizlədə bilmirik. Deyərdim ki, bizim təhsil aldığımız dövrdə ali məktəb binası da bu qədər möhtəşəm, yaraşıqlı deyildi. Bu diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk.

Möhtərəm Prezident, münaqişə zonalarının heç birində dövlət qaçqın-köçkünə bizdəki qədər diqqət və qayğı göstərmir. İndiyə qədər qaçqın və məcburi köçkün soydaşlarımız üçün 76 müasir yaşayış məntəqəsi tikilib, minlərlə soydaşımız mənzillərə köçürülüb, çadırlar ləğv edilib. Biz qaçqın və məcburi köçkünlərə diqqət və qayğının təməlini ulu öndər Heydər Əliyev qoyub. Çox sağ olun ki, bu siyasəti 9 ildə qətiyyətlə davam etdirirsiniz, bizə arxa, dayaq olursunuz, ürək-dirək, ruh verirsiniz.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə 9 ildə əldə edilən uğurlar hamımızı sevindirir. Azərbaycanın çiçəklənməsi, qüvvətlənməsi naminə çox işlər görürsünüz. 2003-cü ildə ulu öndər Heydər Əliyevin uzaqgörənliklə dediyi «Mən inanıram ki, mənim başa çatdırmadığım işləri İlham Əliyev davam etdirəcəkdir» sözləri hər gün reallığa çevrilir. Ölkəmizin

beynəlxalq aləmdə nüfuzu günbəgün artır, hörmətlə yanaşılır, dəstəklənir.

Möhtərəm Prezident, Ermənistan rəhbərliyi gündə bir avantürist bəyanat verir. İnanırıq ki, Sizin uğurlu siyasətinizin qarşısında nə Ermənistan rəhbərliyi, nə də onun beynəlxalq aləmdəki havadarları tab gətirə bilməyəcəklər.

Azərbaycanın 2011-ci ildə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və bu quruma sədrliyi, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin üzvlüyünə qəbulu, «Eurovision» mahnı müsabiqəsinin 2012-ci ildə Bakıda keçirilməsi Sizin xarici siyasətdəki fəaliyyətinizin məntiqi nəticəsidir.

Bakıda elə gün olmur ki, beynəlxalq səviyyəli tədbirlər keçirilməsin. Hətta 2015-ci ildə ilk Avropa Olimpiya oyunları da Bakıda keçiriləcəkdir. Bunları yalnız ulu öndər Heydər Əliyev məktəbini keçən onun yetirməsi edə bilərdi.

Əziz Prezidentimiz, respublikamızda təhsilə, mədəniyyətə, səhiyyəyə qayğı göz qabağındadır. Sizinlə çiyin-çiyinə addımlayan, hamımızın əzizi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanımın bu sahədə fəaliyyətini xüsusi qeyd edib ona dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, Azərbaycanın qarşıdakı illərdə imza atacağı qələbələr Sizin adınızla bağlı olacaqdır.

Möhtərəm Prezident! Əziz Mehriban xanım!

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirik. Ulu Tanrıdan övladlarınız və nəvələrinizlə birlikdə Sizə cansağlığı, uzun ömür diləyir, işlərinizdə uğurlar arzu edirik.

## MÜŞFİQABAD QƏSƏBƏSİNDƏ ƏSASLI TƏMİR EDİLMİŞ 67 SAYLI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*27 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Bakının Müşfiqabad qəsəbəsində əsaslı təmir edilmiş 67 saylı körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi ki, Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin balansında olan ikimərtəbəli bina 1987-ci ildə inşa olunub. Ötən 25 il ərzində burada əsaslı təmir və yenidənqurma işləri görülməyib. Azərbaycan prezidentinin tapşırığına əsasən, binanın əsaslı təmirinə ötən ilin iyununda başlanılıb.*

*Binanın təmirdən əvvəlki görüntülərini əks etdirən fotostenddə baxan prezident İlham Əliyevə məlumat verildi ki, bina tam yararsız vəziyyətə düşmüşdü. Uşaq bağçasının yeni binası indi yüksək standartlara cavab verir.*

*Məktəbəqədər təhsil müəssisəsində yaradılan şəraitlə tanış olan Azərbaycan prezidentinin və xanımının diqqətinə çatdırıldı ki, binanın foyesində dövlət rəmzləri əks olunub. Burada ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılıb.*

*Bildirildi ki, 112 yerlik bu müəssisədə 40 müəllim və tərbiyəçi 7 qrupda 2–6 yaş arası uşaqların təlim-tərbiyəsi ilə məşğul olacaqdır. Balacaların zövqünə uyğun qurulan bağçada ayrıca musiqi və oyun zalları fəaliyyət göstərir. Musiqi zalında müasir*

texniki qurğular, oyuncaqlarla yanaşı, Heydər Əliyev Fondunun hədiyyəsi olan 3D formatlı kinozal da qurulmuşdur. İşıqlı və geniş sahəsi olan yeməkxanada uşaqlar gün ərzində 4 dəfə yeməklə təmin olunacaqlar. Mətbəx avadanlığı da Heydər Əliyev Fondu tərəfindən bağçaya hədiyyə olunub.

Diqqətə çatdırıldı ki, burada körpələrin və uşaqların sağlamlıqları da daim nəzarətdə saxlanılacaqdır. Bu məqsədlə binada ayrıca həkim otağı fəaliyyət göstərir. Körpələr üçün 15, uşaqlar üçün isə 20 nəfərlik qrup otaqları da yüksək səviyyədə təşkil olunub. Otaqlarda rahat çarpayılar, əlvan rəngli masa və oturacaqlar, balacaların inkişafına və əylənməsinə kömək edən müxtəlif oyuncaqlar, kitablar vardır. Divarlarda balacaların sevimlisi olan nağıl qəhrəmanlarının şəkilləri asılmışdır.

Məlumat verildi ki, mərkəzləşdirilmiş istilik sisteminin quraşdırıldığı bina daimi isti və soyuq su ilə təmin olunacaqdır. Bütün otaqlarda videokameralar vasitəsilə müşahidələr aparılacaqdır. İkinci mərtəbədəki dərs otağı rus, ingilis və digər xarici dillərin tədrisi üçün nəzərdə tutulub. Burada uşaqlar həm də məktəbə hazırlıq prosesini keçəcəklər. Tədris otağı da bütün lazımi avadanlıqla təchiz olunub.

Müəssisənin ərazisinə baxan dövlətimizin başçısına məlumat verildi ki, bura tam abadlaşdırılıb, yeni yaşıllıq zolağı salınıb. Uşaqlara yol hərəkəti qaydalarını öyrətmək məqsədilə xüsusi meydança salınıb. Ərazidə ayrıca oyun və istirahət guşələri yaradılıb.

Uşaq bağçasında yaradılan şəraitdən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

## HƏSƏN ƏLİYEV VƏ ATATÜRK PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ YERALTI AVTOMOBİL TUNELİNİN AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Bakının Həsən Əliyev və Atatürk prospektlərinin kəsişməsində yeraltı avtomobil tunelinin açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına tunel tipli yol qovşaqlarının layihəsi barədə məlumat verdi. Bildirildi ki, bu layihə metronun «Gənclik» stansiyasının ətrafındakı «Qələbə meydanı» adlanan ərazidə və onunla kəsişən yollarda nəqliyyatın hərəkətinin nizamlanmasını, tıxacların aradan qaldırılmasını və işıqforsuz hərəkət rejiminin təmin olunmasını nəzərdə tutur. Layihə üzrə bu ərazidə 6 girişi, 10 çıxışı, ümumi uzunluğu 2470 metr olan 6 tunel tipli yol qovşağının, 10 piyada keçidinin inşası nəzərdə tutulub. Tunel tipli yol qovşaqları Atatürk və Vaqif prospektlərini, həmçinin Atatürk prospektini Əhməd bəy Ağaoğlu küçəsi vasitəsilə Təbriz prospektinə birləşdirəcəkdir. Beləliklə, Təbriz prospektindən hərəkət edən avtomobillər «Gənclik» dairəsinə girmədən birbaşa tunel vasitəsilə Dərnəgül şosesinə çıxa biləcəkdir. Həmçinin avtomobilləri Xoyski prospektinə qısa döngələrlə istiqamətləndirmək mümkün olacaqdır. Vaqif prospektindən gələn avtomobillər Xoyski prospektinin altından keçərək, gələcəkdə tikintisi nəzərdə tutulan, ümumi sahəsi 280 min kvadratmetr, 400 avtomaşınlıq üçmərtəbəli yeraltı avtomobil dayanacağından keçərək Atatürk prospektinə çıxacaq və bu istiqamətdən Həsən Əliyev prospektinin üstündən keçəcəkdir.*

*Qeyd edildi ki, layihə üzrə tikintisi nəzərdə tutulan yolların ümumi sahəsi 110 min kvadratmetrdir. Layihə tamamlandıqdan sonra «Qələbə meydanı» adlanan ərazidə hərəkətin intensivliyi*

*xeyli artacaqdır. Vaqif prospektində inşa edilən yol qovşağı metronun «Gənclik» stansiyasının mövcud tuneli üzərindən keçir. Diqqətə çatdırıldı ki, beynəlxalq standartlara uyğun layihələndirilmiş tunellərin 9 ballıq zəlzələyə davamlılığı nəzərə alınıb. Layihəyə uyğun olaraq ərazidə infrastruktur tamamilə yenilənib. Mövcud çoxsaylı kommunikasiya xətləri dəyişdirilib və daha müasirləri ilə əvəz edilib. Layihə üzrə qazma işləri 80 faiz, 5 tuneldə yeraltı qazma-betonlama işləri isə 100 faiz tamamlanıb. Layihəyə əsasən metronun «Gənclik» stansiyasında əlavə 2 yeni piyada çıxışının inşası planlaşdırılıb.*

*Dövlətimizin başçısı Həsən Əliyev və Atatürk prospektlərinin kəsişməsində istifadəyə verilən yeraltı avtomobil tunelinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, tunelin ümumi uzunluğu 546, eni 16,5 metr, hərəkət zolaqlarının sayı 4-dür. İnşaat işləri «Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilir. Tunelin daxili işıqlandırma sistemini isə İtaliyanın tanınmış dizayn şirkəti layihələndirmişdir. Buradakı işıqlandırma sistemi dünyada keyfiyyət, səmərəlilik, təhlükəsizlik və uzunömürlülük baxımından özünü təsdiqləmişdir və yarımkeçirici diodlar əsasında işləyir. Sistem kompüter vasitəsilə idarə olunur. Tunelin yan divarlarında kompüterlə idarə olunan yarımkeçirici diodlar əsasında işləyən işıqlar, hərəkət zolağında isə çoxlu sayda istiqamətverici işıqlar quraşdırılıb. Tuneldə fasiləsiz enerji təminatı məqsədi ilə generatordan istifadə olunur. Burada istifadə edilən elektrik kabelləri alışmayan və yüksək temperatura davamlı olan materiallardan hazırlanıb. Ərazidə tikinti işləri tam başa çatdıqdan sonra buradakı park əsaslı şəkildə yenidən qurulacaqdır.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

# RESPUBLİKA NEYROCƏRRAHİYYƏ XƏSTƏXANASININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 28-də Bakıda Respublika Neyrocərrahiyyə Xəstəxanasının əsaslı yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, 1985-ci ildə istifadəyə verilən bu tibb müəssisəsində uzun illər təmir işlərinin aparılmaması nəticəsində xəstəxananın binası yararsız vəziyyətə düşmüşdü. Bu da xəstələrə yüksək səviyyədə tibbi xidmətin göstərilməsinə mane olurdu. Azərbaycan prezidentinin paytaxtdakı tibb müəssisələrində yenidənqurma işlərinin aparılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq, 2010-cu ilin iyununda Respublika Neyrocərrahiyyə Xəstəxanasında yenidənqurma işlərinə başlanılmışdır. Ötən dövrdə respublikanın yeganə neyrocərrahiyyə xəstəxanasının binası əsaslı surətdə yenidən qurularaq, dünyanın ən müasir tibbi avadanlıqları ilə təchiz olunub. Görülən işlər nəticəsində xəstələrin yüksək səviyyədə müalicəsi, 430 həkim və tibb işçisinin fəaliyyəti üçün hər cür şərait yaradılıb.*

*Tibb ocağı ilə tanışlıqdan sonra dövlətimizin başçısı xəstəxananın kollektivi ilə görüşdü:*

– Sizi qarşıdan gələn bayram münasibətilə təbrik edirəm. Biz Yeni il bayramı ərəfəsində neyrocərrahiyyə xəstəxanasının əsaslı təmirdən sonra açılışını qeyd edirik. Çox gözəl təəssürat bağışlayır. Xəstəxana o qədər də yaxşı vəziyyətdə deyildi, köhnəlmişdi, təmirə ehtiyacı var idi. İndi ən yüksək standartlara cavab verir, həm avadanlıq, həm təmir işləri baxımından. Yəni burada çox yüksək səviyyəli tibbi xidmət göstərmək mümkün

olacaqdır. Bu məni çox sevindirir. Çünki hesab edirəm ki, ölkəmizin hər bir xəstəxanasında ən yüksək səviyyə, gözəl şərait olmalıdır. Biz buna çalışırıq və nəinki Bakıda, bütün bölgələrdə, bütün rayon və şəhərlərimizdə də yeni tikilmiş xəstəxanalar, bax, bu səviyyədədir.

Bu, artıq səhiyyə sistemində Azərbaycan standartlarıdır. Şəhərdən, bölgədən asılı olmayaraq, hər bir yerdə Azərbaycan vətəndaşı üçün yüksək tibbi xidmət göstərilməlidir. Əvvəlki dövrdə bizim buna o qədər də imkanımız çatmırdı. Əvvəlki illərdə alınmış avadanlıqlar köhnəlib, sıradan çıxmışdır. Ancaq bu gün Azərbaycan dövləti güclü dövlətdir, güclü iqtisadiyyatımız var və sosial məsələlərin həlli bizim üçün ön plandadır. Sosial məsələlərin arasında isə səhiyyə məsələləri, əlbəttə ki, xüsusi yer tutur. Mən çox şadam ki, son illər ərzində Bakının bir sıra xəstəxanaları çox gözəl təmir edilmiş və istifadəyə verilmişdir. Demək olar ki, ixtisaslaşdırılmış bütün tibb mərkəzlərimiz artıq belə səviyyədədir. Növbəti illərdə bu işlər davam etdiriləcəkdir. Hələ ki, təmirə ehtiyacı olan xəstəxanalar vardır. Biz bunu bilirik və bu işlər ardıcıllıqla görüləcəkdir.

Sizə uğurlar arzulayıram. Arzu edirəm ki, xəstələrə yaxşı xidmət göstərəsiniz. Xəstəxana, əlbəttə ki, ilk növbədə, xəstələr üçün olan bir tibb müəssisəsidir, amma eyni zamanda, həkimlərin iş yeridir. Həkimlərin iş yeri də belə olmalıdır. Həkimlər çox böyük xidmət göstərirlər. Mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Arzu edirəm ki, həkimlərimiz öz biliklərini artırsınlar, təkmilləşmə daim getməlidir. Çünki dünyada səhiyyə sahəsində çox böyük inkişaf gedir. İndi yeni texnologiyalar, yeni müalicə üsulları, yeni cərrahiyyə metodları tətbiq olunur. Biz də ən qabaqcıl təcrübəni Azərbaycanda tətbiq etməliyik. Bunu etmək üçün, əlbəttə ki, müasir avadanlıq olmalı, eyni zamanda, təlim prosesi də daim getməlidir.

Sizi gözəl hadisə münasibətilə təbrik edirəm və sizə cansağlığı, uğurlar arzulayıram.

## VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ VƏ 1 SAYLI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyində olan 1 saylı «ASAN xidmət» mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son illərdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Azərbaycan Prezidenti 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atmışdır. Dövlətimizin başçısının imzaladığı fərmanda qarşıya Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyində «ASAN xidmət» mərkəzlərinin yaradılması vəzifəsi qoyuldu. Sentyabrın 5-də isə digər bir fərmanla Agentliyin Əsasnaməsi və strukturu təsdiq olundu.*

*Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsidir. Buraya xidmət mərkəzlərinə qoşulan dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə*

*idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. Agentlik əsasən 3 istiqamətdə – «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası və elektron xidmətlərin təşkili prosesinin təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət göstərəcəkdir. Bu ilin sentyabrında isə dövlətimizin başçısı Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN xidmət» mərkəzlərinin yaradılması məqsədi ilə pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, pilot layihənin həyata keçirilməsi məqsədi ilə ilkin olaraq 2 milyon manat vəsait ayrılmışdır. Artıq 1 saylı «ASAN xidmət» mərkəzi fəaliyyətə hazırdır.*

*Məlumat verildi ki, «ASAN xidmət» mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların rahatlığının, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının istisna edilməsi, müasir texnologiyaların, «bir pəncərə» prinsipinin tətbiq edilməsi, dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır.*

*Bildirildi ki, «ASAN xidmət» mərkəzinin əsas prinsipləri – operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Mərkəzdə vətəndaşların qəbulu elektron növbə əsasında həyata keçiriləcəkdir. Bunun üçün isə ən müasir avadanlıq quraşdırılmışdır. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etməsini asanlaşdıracaqdır. Mərkəz daim internetə açıq olan kompüterlərlə təchiz edilmiş və vətəndaşların burada bütün növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılmışdır. «ASAN xidmət» mərkəzində 9 dövlət orqanı – Ədliyyə, Daxili İşlər, Vergilər nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Milli Arxiv İdarəsi tərəfindən 23 hüquqi xidmət həyata keçiriləcəkdir.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, «ASAN xidmət» mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər yaradılıb. Belə ki, burada uşaq əyləncə guşəsi, tibb xidməti, internet-kafe, bank, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xidmət üçün nəzərdə tutulmuş rüsumların ödənilməsi məqsədi ilə «PayPoint», bankomat aparatları qoyulub.*

*Dövlətimizin başçısına xidmətin «asan.gov.az» internet saytı barədə də məlumat verildi. Bildirildi ki, sayt vasitəsilə vətəndaşlar üçün «online» növbəyə yazılma, elektron ərizələr doldurma, sənədləri digər orqanlara elektron qaydada göndərmə və digər imkanlar yaradılıb.*

*Qeyd olundu ki, mərkəzdə 62 videomüşahidə kamerası və rüsumların məbləğlərini əks etdirən tablo quraşdırılıb. Binada əlil vətəndaşlar üçün bütün zəruri şərait yaradılıb. Görmə qabiliyyəti məhdud olan insanlar üçün döşəmələrə xüsusi örtüklər vurulmuş və onların oxuya bildiyi müvafiq hərflərlə lövhələr yerləşdirilmişdir.*

*Prezident İlham Əliyevin müddəti bitmiş sürücülük vəsiqəsi yeni nümunəvi milli sürücülük vəsiqəsi ilə dəyişdirildi.*

*Məlumat verildi ki, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın təmin edilməsi məqsədi ilə mərkəzdə xidmət proseduru videokamera vasitəsilə fasiləsiz qeydiyyata alınacaqdır. Xidmət sistemi müasir «İP» telefon və «İP» şəbəkə sistemləri ilə təmin edilib. Xidmətlərin tənzimlənməsi məqsədi ilə 22 elektron monitor, 52 elektron elan tablosu quraşdırılıb.*

*Diqqətə çatdırıldı ki, binanın üçüncü mərtəbəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi fəaliyyət göstərəcəkdir. Agentlikdə 120 nəfər çalışacaqdır. «ASAN xidmət» mərkəzində isə 20 nəfər işlə təmin olunub. Mərkəzdə digər dövlət orqanlarının 74 əməkdaşı fəaliyyət göstərəcəkdir.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, könüllülük prinsipi əsasında vətəndaşlara xidmət göstərmək üçün müraciət edən 150 gəncdən 15-i seçilmiş və treninqlərə cəlb olunmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Gənclərdə bu işlərlə məşğul olmaq üçün maraq və həvəs vardır. Ümumiyyətlə, könüllülük çox nəcib işdir və hər bir gəncin öz dövlətinə bağlılığını göstərir. Burada təcrübə əldə etmək üçün də yaxşı imkanlar var və gələcək fəaliyyətlərində bu təcrübədən istifadə edəcəklər.

*Dövlətimizin başçısı İnnovasiyalar Mərkəzinin fəaliyyəti ilə də tanış oldu. Bildirildi ki, bu mərkəz dövlət xidmətlərinin sadələşdirilməsi ilə bağlı araşdırmaların aparılmasını, innovativ ideyaların sınaqdan keçirilməsini və müasir informasiya texnologiyalarının tətbiqi ilə bağlı dövlət orqanlarının əməkdaşlarının treninqlərə cəlb olunmasını təmin edəcəkdir.*

*Yeni texnologiyalarla tanış olan Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, üçölçülü skaner vasitəsilə istənilən böyük regionu, məsələn Bakı şəhərinin görüntüsünü skan etmək mümkündür. Bu sistem vasitəsilə Bakı şəhərinin üçölçülü modeli yaradılmışdır. Monitorinq sistemindən «ASAN xidmət»də mobil qruplara nəzarət məqsədi ilə istifadə olunur. Bu sistem vətəndaşların «qaynar xətt»ə istənilən müraciətlərini qəbul edir, qeydiyyata alır. Sistem, həmçinin vətəndaşların bütün müraciətlərinə «ASAN xidmət»in cavab verib-verməməsinə nəzarət edir. Biometrik sistem vasitəsilə insanın şəkli, barmaq izi, sifətin üçölçülü modeli ilə biometrik eyniləşdirmə aparılır və pasportu yoxlanılır. Bundan sonra sistem tanıdığı şəxsləri lazımi yerə buraxır. Bu sistemin sərhəd keçid məntəqələrində və mühafizə olunan obyektlərdə istifadəsi mümkündür.*

*İnnovasiyalar Mərkəzində 160 düym böyüklükdə sensorlu interaktiv videodivar quraşdırılıb. Bu avadanlıq 20 nəfərin eyni zamanda istifadə etməsinə imkan verən «İPad» funksiyasını yerinə yetirən texnologiyaya malik sensorlu monitordur. Bu texnoloji avadanlıq vasitəsilə xidmətlərin elektronlaşdırılması proqramları yaradıla, sınaq və eksperimentlər aparıla bilər.*

*Prezident İlham Əliyev «ASAN xidmət» mərkəzinin «Gələcəyə baxış», «Data və resurs mərkəzi», həmçinin «Asan mobil xidmət» konsepsiyalarına dair videoçarxlara baxdı.*

*Qeyd olundu ki, gələn ildən «ASAN xidmət»in təşkili üçün xüsusi avadanlıqla təchiz edilmiş avtomobillərlə regionlarda vətəndaşlara səyyar xidmətlərin göstərilməsi nəzərdə tutulur. Bundan əlavə, səyyar xidmətlər vasitəsilə əlillər üçün xidmətlərin yaradılması planlaşdırılır.*

*Dövlətimizin başçısına «Mobil hökumət – mobil imza» layihəsi haqqında da geniş məlumat verildi. Bildirildi ki, vətəndaşlar öz mobil telefonlarından yararlanaraq bu xidmətdən istifadə edə bilərlər. Bu zaman elektron imzanı mobil imza əvəz edəcəkdir. Sistem elektron hökumətdən mobil hökumətə keçiddir. Mobil hökumətin devizi «Mənim hökumətim həmişə mənimlə»dir.*

*Azərbaycan prezidentinə Biometrik Nəzarət Sistemi haqqında da məlumat verildi. Sistem vətəndaşların biometrik məlumatlarını toplamaqla ondan istifadə formalarını özündə əks etdirir. Sistemin əsas funksiyası biometrik məlumatları emal və tətbiq etməkdir.*

*Dövlətimizin başçısı identifikasiya sənədlərinin hazırlanması sistemi ilə də tanış oldu. Bildirildi ki, bu sistem cəmi 2 dəqiqə 40 saniyə ərzində biometrik məlumatları əks etdirən identifikasiya sənədlərini hazırlayır.*

*Qeyd olundu ki, İnnovasiyalar Mərkəzinin nəzdində treninq mərkəzi də yaradılıb. Məqsəd «elektron hökumət», elektron xidmətlər haqqında ən müasir bilikləri əməkdaşlara çatdırmaqdır. Bunun üçün müasir avadanlıq və proqram təminatından istifadə olunur. Sistem sensorlu elektron lövhədən və noutbuklardan ibarətdir. Lövhə və noutbuklar «Wi-Fi» vasitəsilə bir şəbəkədə birləşmişdir. Lövhədə yazılan hər bir informasiya noutbukların ekranında əks olunur.*

*Prezident İlham Əliyev lövhədə «ASAN xidmət»in əməkdaşlarına uğurlar arzulayıram. Yeni iliniz mübarək!» sözlərini yazdı.*

*Dövlətimizin başçısı «Çağrı» mərkəzində də oldu. Məlumat verildi ki, vətəndaş mərkəzə gəlmədən internet və ya telefonla bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala,*

*növbə* tuta *bilər. «Çağrı» mərkəzi videoqəbul vasitəsilə vətəndaşlara* informasiya xidm*ətini də həyata keçirəcək.*

*Prezident* İlham Əliyev*ə «ASAN xidmət» mərkəzlərinin* pers-pektiv *inkişaf planlarını əks etdirən layihələr barədə* məlumat verildi ki, *1 saylı «ASAN xidmət» mərkəzi* pilot *layihə* olduğu *üçün* ilkin *mərhələdə* bu *mərkəz paytaxtın* N*əsimi və* N*ə*rimanov *rayonlarının sakinlərinə xidmət göstərəcəkdir.* Bir *müddət* sonra *isə* qeydiyyat *yerindən asılı* olmayaraq, *bütün vətəndaşlar* bu *xidmətdən* yararlana *biləcəklər. Mərkəzdə əlil vətəndaşların* binaya daxil *olmaları və onların istənilən mərtəbəyə qalxmaları üçün ən müasir* standartlara cavab *verən xüsusi* araba da *alınmışdır.*

*Yaradılmış şəraiti yüksək qiymətləndirən* prezident İlham *Əli-yev müvafiq tapşırıq və tövsiyələrini* verdi.

# BAKININ FÜZULİ VƏ MİRZAĞA ƏLİYEV KÜÇƏLƏRİNİN ARASINDA YARADILAN YERALTI AVTOMOBİL DAYANACAĞINDA, PARK, BAĞ VƏ FƏVVARƏLƏR KOMPLEKSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakının Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında yeraltı avtomobil dayanacağında, park, bağ və fəvvarələr kompleksində inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov tikintinin layihəsi əsasında dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycan prezidentinin tapşırıqlarına uyğun olaraq Bakı şəhərinin infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Paytaxtın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur, tıxacların aradan qaldırılması ilə bağlı əsaslı işlər görülür. Paytaxtın Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında yeraltı avtomobil dayanacağının və park kompleksinin inşası tıxacların aradan qaldırılması və əhalinin rahat gediş-gəlişinin və istirahətinin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.*

*Diqqətə çatdırıldı ki, kompleksin birinci və ikinci mərtəbələrində yeraltı avtomobil dayanacağı, üçüncü mərtəbədə isə bu infrastrukturu fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün ayrıca yarımstansiya quraşdırılacaqdır. Yanğınsöndürmə hovuzu və avadanlığı, avtomobil qazlarının təmizlənməsini idarə edən qurğular və işçilərin xidməti otağı da üçüncü mərtəbədə yerləşəcəkdir. Bu mərtəbədə dayanacağın üstündə salınacaq parkdakı fəvvarələrin texniki stansiyaları, parkın suvarılması üçün nəzərdə tutulan su anbarı yerləşəcəkdir. Yeraltı dayanacaq*

*4 minə yaxın* avtomobil *üçün nəzərdə* tutulub. *Burada indiyədək ümumilikdə* 205 min kvadratmetr *sahədə inşaat işləri görülüb.*

*Avtomobil dayanacağında yanğın təhlükəsizliyi ilə bağlı 31 əlavə giriş*-*çıxış olacaqdır.* Dayanacaqda *bütün* texniki *xidmətlər ən müasir* standartlara *cavab verəcəkdir.* Daya*nacağın üstündə isə sahəsi 70 min* kvadratmetr olan park, *bağ və fəvvarələr* kompleksi *yaradılacaqdır.* Kompleks*ə əhalinin* rahat *və təhlükəsiz gediş*-*gəlişi üçün 7 yeraltı* piyada *keçidinin inşa olunacağı* qeyd edildi.

Bildirildi ki, *yeraltı* dayanacaqdan park, *bağ və fəvvarələr* kompleks*inə* qalxmaq *üçün 14* lift, 30 eskalator, *əlillər üçün də əlavə* 10 eskalator *quraşdırılacaqdır.* Kompleksin *yaxınlığında – Füzuli küçəsindəki 39 nömrəli yaşayış binası* tarixi *memarlıq nümunəsi olduğu üçün sökülmədən 11* metr *arxaya sürüşdürüləcəkdir. Ağırlığı* 18 min ton olan bu tarixi *memarlıq nümunəsinin sürüşdürülməsini* Hollandiya*nın* «Bressel» *şirkəti həyata keçirəcəkdir.* Kompleksin *ətrafındakı* binalarda *və ərazilərdə əsaslı* abad*lıq*-quruculuq *işləri də görüləcəkdir.*

## AZADLIQ MEYDANINDA TİKİLƏN YERALTI AVTOMOBİL DAYANACAĞINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 dekabr 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 29-da paytaxtın Azadlıq meydanında tikilən yeraltı avtomobil dayanacağında inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dənizkənarı Milli Parkın yenidən qurulması və müasirləşdirilməsi paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının bu istirahət guşəsinə marağını artırıb. Burada keçirilən maraqlı tədbirləri izləmək və istirahət etmək üçün avtomobillərlə gələnlərin sayının artması bulvaryanı ərazilərdə tıxaclar və piyadalar üçün təhlükə yaradırdı. Bunları aradan qaldırmaq üçün paytaxtın Azadlıq meydanında yeraltı avtomobil dayanacağı inşa edilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi ki, 2 minə yaxın avtomobil üçün nəzərdə tutulan bu dayanacaq ikimərtəbəli olacaqdır. Avtomobil dayanacağını fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün ayrıca yarımstansiya quraşdırılmışdır. Burada yanğınsöndürmə hovuzu və avadanlığı, avtomobil qazlarının təmizlənməsini və havalandırmanı idarə edən qurğular ən yüksək standartlar səviyyəsində olacaqdır. Layihəyə əsasən, yeraltı dayanacağın 8 giriş-çıxışı olacaqdır ki, bunlardan 2-si avtomobillər, 6-sı isə piyadalar üçün nəzərdə tutulmuşdur. Dayanacaqda indiyədək 60 min kvadratmetr sahədə inşaat işləri həyata keçirilib.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

## BAKININ XƏTAİ RAYONUNDA YENİ SALINAN PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*30 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakının Xətai rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov parkda yaradılan şəraitlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 2 hektar ərazisi olan parkda hovuz inşa edilib. Hovuzun mərkəzində Avstriya mütəxəssisləri tərəfindən qlobus formasında xüsusi sistem quraşdırılıb. Bu sistemə istənilən proqramı yükləmək mümkündür. Bu qurğu paytaxt haqqında məlumatları və müxtəlif reklam çarxlarını nümayiş etdirmək imkanına malikdir. Parkın işıqlandırma sistemi ən müasir standartlar səviyyəsindədir və gecə saatlarında bu istirahət guşəsinə xüsusi gözəllik verir. Parkın ərazisində çoxlu sayda ağac və gül kolları əkilmiş, yaşıllıq zolağı salınmış, paytaxt sakinlərinin istirahəti üçün lazımi şərait yaradılmışdır. Ətrafında da abadlıq işləri aparılmış parkın ərazisinə 10 min kvadratmetr qranit və xüsusi piltələr döşənmişdir.*

*Dövlətimizin başçısı parkda yaradılan şəraitlə yaxından tanış oldu və müvafiq tapşırıqlarını verdi.*

## BİNƏQƏDİ RAYONUNUN ƏRAZİSİNDƏ İNŞA OLUNAN MƏSCİD KOMPLEKSİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*30 dekabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakının Binəqədi rayonunun ərazisində inşa olunan məscid kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Respublikamızda maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Son bir neçə ildə Azərbaycan prezidenti İlham Əliyevin qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı imzaladığı sərəncamlar dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Dövlətimizin başçısının tapşırıqları əsasında Bakıda Təzəpir, Əjdərbəy məscidləri və digər dini-tarixi abidələr əsaslı şəkildə bərpa olunaraq dindarların istifadəsinə verilmişdir. Məscidlərin və digər dini-tarixi abidələrin bərpası işləri Azərbaycanın bütün bölgələrində uğurla həyata keçirilir.*

*Dövlətimizin başçısının tapşırığı ilə Bakının Binəqədi rayonu ərazisində yeni məscid kompleksinin inşasına başlanılıb. Azərbaycan prezidenti İlham Əliyev inşaat işlərinin gedişi ilə tanış olmaq üçün kompleksin tikildiyi əraziyə gəldi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məscid kompleksinin layihəsinin baş planı əsasında Prezidentə məlumat verdi. Bildirildi ki, layihə üzrə yeni məscidin ümumi sahəsi 4 min kvadratmetr təşkil edəcəkdir. Ucaldılacaq 4 minarənin hər birinin hündürlüyü 72, baş günbəzin hündürlüyü 55, ikinci günbəzin hündürlüyü isə 35 metr olacaqdır. Məscidin fasadı Şirvan–Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənəcəkdir. Kompleksin daxilində isə tamamlama-bəzək işlərində mərmərdən və taxtadan istifadə olunacaqdır. Məscid*

*kompleksinin həyətində 80 avtomobil üçün dayanacağın yaradılacağı da nəzərdə tutulur.*

*Dövlətimizin başçısı inşaat sahəsini gəzdi, tikintinin gedişi ilə maraqlandı, müvafiq tapşırıqlarını verdi.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Bir neçə dəqiqədən sonra 2013-cü il başlayır. 2012-ci il isə ölkəmiz üçün çox uğurlu il olmuşdur. 2012-ci ildə Azərbaycanın uğurlu, dinamik inkişafı təmin edilmiş, ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

2012-ci ildə Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etdi. İqtisadiyyatda yenə də inkişaf özünü göstərir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artmışdır. Bu onu göstərir ki, bizim iqtisadi islahatlarla bağlı siyasətimiz çox uğurludur, çox təsirlidir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır. Əminəm ki, gələcək illərdə ölkəmizin dayanıqlı iqtisadi inkişafı üçün əlavə imkanlar yaranacaqdır. Bütün iqtisadi göstəricilər çox yüksək səviyyədədir. Yoxsulluq 6 faizə düşmüşdür. İşsizlik 5,2 faizdir. Bu il 100 mindən artıq yeni iş yeri açılmışdır. Son 9 ildə 1 milyon 100 mindən çox iş yeri açılıb. İş yerlərinin açılması işsizliyin aradan qaldırılmasına xidmət göstərir.

Beynəlxalq reytinq agentlikləri 2012-ci ildə ölkəmizin kredit reytinqlərini artırmışdır. Bu da böhranlı il üçün çox gözəl, əlamətdar bir hadisədir. Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdədir. Əminəm ki, gələcək illərdə yerimiz daha yüksək olacaqdır. İqtisadi sahədə aparılan islahatlar, düşünülmüş siyasət bizə imkan verir ki, sosial məsələlərin həllində də böyük nailiyyətlərə imza ataq. 2012-ci ildə maaşlar, pensiyalar qaldırılmış, ünvanlı sosial yardım 10 minlərlə ailəni əhatə edir. 2012-ci ildə sovet əmanətlərinin qaytarılması prosesi başlamışdır. Əminəm ki, gələn il bu proses başa çatacaq.

Azərbaycanda bu sahədə aparılan siyasət MDB məkanında ən yüksək qiymətə malikdir. Çünki bu əmanətlərin ən yüksək əmsalla və ən qısa müddət ərzində qaytarılmasına nail olacağıq. Bu məsələlər onu göstərir ki, həm iqtisadi, həm sosial sahədə düşünülmüş siyasətimiz konkret nəticələrini verməkdədir.

2012-ci ildə məcburi köçkünlərin problemlərinin həlli üçün çox böyük işlər görüldü və 20 min köçkün yeni mənzillərlə təmin edildi. Gələn il 20 mindən artıq köçkünün yaşayış şəraiti yaxşılaşdırılacaq və beləliklə, Dövlət Proqramının icrası nəticəsində soydaşlarımızı gözəl şəraitlə təmin edəcəyik. Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra biz bu torpaqlarda yeni binalar, qəsəbələr, şəhərlər salacağıq ki, vətəndaşlarımızı gözəl şəraitlə təmin edək. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bizim gücümüz artır, həm iqtisadi sahədə, həm hərbi sahədə. Beynəlxalq mövqelərimiz möhkəmlənir.

2012-ci ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox ciddi siyasi hadisələr baş vermişdir. Mən ilk növbədə, bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının bəyanatını qeyd etmək istəyirəm. O bəyanatda deyilmişdir ki, status-kvo qəbuledilməzdir. Bu onu göstərir ki, artıq heç kim, hətta bu məsələ ilə məşğul olan, vasitəçi funksiyalarını öz üzərinə götürən ölkələr də bu işğalla, bu vəziyyətlə barışmaq istəmir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir.

2012-ci ildə Azərbaycanın qoşulduğu «Qoşulmama Hərəkatı»nın zirvə toplantısında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox tutarlı və ədalətli qətnamə qəbul edildi. Həmin qətnamədə deyilir ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

2012-ci ildə NATO-nun zirvə görüşündə də qəbul edilmiş qətnamədə Ermənistan–Azərbaycan münaqişəsinin ərazi bütövlüyü əsasında həll edilməsi haqqında məsələ qoyuldu. Yəni «Qoşulmama Hərəkatı»nda və NATO-da birləşən ölkələr

dünya birliyinin mütləq əksəriyyətini təşkil edir və bu ölkələrin mövqeyi birmənalıdır: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin başqa həlli yoxdur.

Onu da qeyd etmək və bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt öz əzəli torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Bu tarixi biz yaxşı bilirik. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı – bütün bunlar bizim tarixi torpaqlarımızdır. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması heç vaxt mümkün olmayacaqdır. Azərbaycan heç vaxt buna imkan verməyəcəkdir. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir və bu gün işğal altında olan bütün şəhərlərdə, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanacaqdır.

Mən hesab edirəm ki, 2013-cü ildə vasitəçilər tərəfindən məsələnin həlli ilə bağlı daha konkret təkliflər verilməli və işğalçı məcbur edilməlidir ki, işğal edilmiş torpaqlardan tezliklə çıxsın. Bununla bərabər, heç kəs üçün sirr deyildir ki, biz ordu quruculuğu prosesi ilə çox ciddi məşğuluq. Azərbaycan Ordusu Cənubi Qafqazın ən böyük qüvvəsidir. Ordunun inkişafı üçün bütün lazımi tədbirlər görülür. 2012-ci ildə böyük miqdarda hərbi texnika, silah-sursat, təyyarələr, helikopterlər, artilleriya qurğuları, hava hücumuna qarşı qurğular gətirilmiş, daxildə 40-dan yuxarı sənaye müəssisəsində hərbi təyinatlı məhsulların istehsalı təşkil edilmişdir. Biz ordumuzu 2013-cü ildə daha da gücləndirəcəyik. Ordumuza xərclənən vəsait Ermənistan büdcəsindən 50 faiz çoxdur və bundan sonra da bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparılacaqdır ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapsın, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, 2012-ci ildə çox əlamətdar hadisə baş vermişdir, TANAP layihəsi imzalanmışdır. TANAP layihəsi bizə imkan verəcəkdir ki, Azərbaycan zəngin qaz resurslarını dünya bazarlarına böyük həcmdə nəql

etsin. Hesab edirəm ki, TANAP layihəsi son illər ərzində nəinki ölkəmizdə, regionda, Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük addımdır. TANAP layihəsinin təşəbbüskarı da Azərbaycan olmuşdur. Əminəm ki, TANAP layihəsini Azərbaycan öz tərəfdaşları ilə vaxtında icra edəcək və beləliklə, Avropanın enerji xəritəsi böyük dərəcədə dəyişdiriləcəkdir.

2012-ci ildə digər vacib layihə – Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi uğurla icra edilmişdir. Əminəm ki, yaxın illərdə biz bu dəmir yolunun açılışını qeyd edəcəyik. 2012-ci ildə humanitar sahədə böyük işlər görülmüşdür. Bakı sivilizasiyalararası dialoqun təşkili, genişləndirilməsi üçün artıq dünya mərkəzinə çevrilmişdir. Uğurla keçirilmiş II Beynəlxalq Humanitar Forum, onun nəticələri, bu sahədə əldə edilmiş nailiyyətlər ölkəmizi həm də dünyaya təqdim edir. Bizim təcrübəmiz mən əminəm ki, başqa ölkələrdə öyrənilir. Çünki Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi, mehribanlıq şəraitində yaşayırlar və yaşayacaqlar. Milli və dini dözümlülük, tolerantlıq Azərbaycanın böyük sərvətidir. 2012-ci ildə idman sahəsində böyük qələbələr əldə edilmişdir. London Yay Olimpiya oyunlarında Azərbaycan tarixi qələbə qazanmışdır. 10 medal qazanmışıq – 2 qızıl, 2 gümüş, 6 bürünc. Tarixdə ilk dəfə olaraq biz 10 medala imza atdıq. Beləliklə, Olimpiya oyunlarının yekunlarına görə Azərbaycan dünya miqyasında 30-cu, Avropada 15-ci, müsəlman aləmində isə 3-cü yerə layiq görüldü.

İlin sonunda bizə bir şad xəbər də çatdı. Dekabr ayında Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə I Avropa Olimpiya oyunlarının Bakıda keçirilməsi haqqında tarixi qərar qəbul edilmişdir. Bu da bizim böyük qələbəmizdir. Bu oyunlar tarixdə birinci oyunlar kimi qalacaq. Avropanın I Olimpiya oyunlarını Azərbaycanda keçirmək bizim üçün böyük şərəfdir, böyük məsuliyyətdir. Ölkəmizdə görülən işlərə Avropa olimpiya ailəsi tərəfindən verilmiş yüksək qiymətdir. Nəzərə alsaq ki, bu il biz Avropanın və dünyanın birinci mahnı müsabiqəsini – «Eurovision» müsabiqəsini böyük

məharətlə, ustalıqla keçirmişik, əminəm ki, Avropa Olimpiya oyunlarını da yüksək səviyyədə keçirəcəyik. Bax, bütün bu dediyim sahələrdə 2012-ci il uğurlu il kimi tarixdə qalır və əldə edilmiş bu nailiyyətlər bizə imkan verir ki, 2013-cü ilə də böyük nikbinliklə baxaq. Əminəm ki, gələn ildə də ölkə qarşısında duran bütün vəzifələr uğurla icra ediləcəkdir.

Bu gün biz eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirik. Bu fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlıları səmimi-qəlbdən salamlayıram və təbrik edirəm. Onlar fəxr edə bilərlər ki, bu gün dünyada müstəqil Azərbaycan dövləti vardır. O Azərbaycan dövləti ki, bu gün dünyanın bir nömrəli beynəlxalq qurumunun – BMT Təhlükəsizlik Şurasının üzvüdür. O dövlətdir ki, hətta böhranlı illərdə öz iqtisadi inkişafını davam etdirmiş, öz daxili resursları üzərində güclü iqtisadi zəmin yaratmış və gələcəyə böyük ümidlərlə, böyük nikbinliklə baxır.

Mən dünyada yaşayan bütün azərbaycanlıları bu gözəl bayramlar – həm Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, həm Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2012-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu – müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Dünya dinləri ölkəmizdə yüz illər boyu dinc yanaşı və əmin-amanlıq şəraitində fəaliyyət göstərmişdir. Tarixən burada sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mühitinin mövcudluğu, etnik-mədəni müxtəlifliyin günümüzəcən qorunub saxlanması, zəngin multikulturalizm ənənələri müasir Azərbaycan cəmiyyətində ümummilli mənəvi-ictimai dəyərlərin və dözümlülük prinsiplərinin formalaşmasında, vətəndaş həmrəyliyinin bərqərar edilməsində müstəsna rol oynamışdır. Biz bu tarixi nailiyyəti milli dövlətçiliyimizin mühüm uğuru kimi qiymətləndirir, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının hüquq və azadlıqlarının, eyni zamanda, vicdan və dini etiqad azadlığının təminatını dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab edirik. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizin ayrılmaz hissəsi olan xristian icması, o cümlədən pravoslav həmvətənlərimiz ictimai-siyasi həyatın bütün sahələrində və ölkəmizdə gedən möhtəşəm quruculuq işlərində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Əziz dostlar!

Yeniliyin, əmin-amanlığın, insanlar arasında mərhəmət və şəfqət duyğularının rəmzi olan Milad bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Bu nurlu gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 yanvar 2013-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş amansız terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı. Biz bu qanlı əməllərdən hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Bu hadisələr terrorizmə qarşı mübarizədə davamlı və birgə səylər göstərilməsi zərurətini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 yanvar 2013-cü il*

## NORVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ ESPEN BART EİDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Norveç Krallığının Xarici İşlər naziri Espen Bart Eidenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Espen Bart Eide Norveç Krallığının vəliəhdi Hookonun salamlarını dövlətimizin başçısına çatdırdı. Nazir Norveçin «Statoyl» şirkətinin uzun müddət Bakıda fəaliyyət göstərməsini əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirdi. İkitərəfli münasibətlərimizin möhkəm bünövrəsi olduğunu deyən qonaq ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük imkanların mövcudluğunu vurğuladı.*

*Dövlətimizin başçısı Norveç Krallığının vəliəhdi Hookon ilə görüşünü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev ölkəmizin beynəlxalq neft şirkətləri ilə əməkdaşlığının ilkin mərhələsində Norveçin «Statoyl» şirkətinin ilk regional nümayəndəliyinin Bakıda fəaliyyətə başlamasının önəmini qeyd etdi. Prezident İlham Əliyev hazırda ölkələrimiz arasında əlaqələrin daha da inkişafı ilə bağlı məsələlər ətrafında işlərin uğurla davam etdirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın gələcəkdə daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi. Dövlətimizin başçısı Norveç Krallığının vəliəhdi Hookonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını vəliəhd Hookona çatdırmağı xahiş etdi.*

# NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2013-cü İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK*

*15 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 15-də Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı:*

– Biz Nazirlər Kabinetinin bugünkü toplantısında 2012-ci ilin yekunlarını müzakirə və 2013-cü ildə qarşıda duran vəzifələri təhlil edəcəyik. Buna böyük ehtiyac vardır. Azərbaycan iqtisadiyyatı keçən il öz dinamik inkişafını qoruya bilmişdir və bu il görüləcək işlər əminəm ki, ölkəmizi daha da böyük nailiyyətlərə gətirib çıxaracaqdır. Çünki 2003-cü ildə müəyyən edilmiş 10 illik inkişaf planımız bu il başa çatır. 2004-cü ilin əvvəlində regional inkişaf proqramı qəbul edilmişdir və bu il bu proqramın ikinci mərhələsi başa çatacaqdır. Əminəm ki, proqramda müəyyən edilmiş bütün vəzifələr bu ilin sonuna qədər təmin ediləcəkdir.

---

* Назирляр Кабинетинин 2012-ъи илин сосиал-игтисади инкишафынын йекунларына вя 2013-ъц илдя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында Игтисади Инкишаф назири Шащин Мустафайев, Баш назирин мцавини, Гачгынларын вя Мяъбури Кючкцнлярин Ишляри цзря Дювлят Комитясинин сядри Яли Щясянов, Рабитя вя Информасийа Технолоэийалары назири Яли Аббасов чыхыш етдиляр.

Bütövlükdə ötən il ölkə iqtisadiyyatı üçün çox uğurlu olmuşdur. Bu da təsadüfi deyil. Çünki keçən ilin uğurları bundan əvvəlki dövrdə müəyyən edilmişdir.

Düşünülmüş iqtisadi siyasətimiz artıq gözəl nəticələrini verməkdədir və dinamika müsbətdir, inkişaf çox sevindiricidir. 2012-ci ilin yekunları ilə bağlı, əslində, ilin əvvəlində də bizim heç bir şübhəmiz yox idi. Mən keçən ilin əvvəlində əmin idim və bunu qeyd etmişdim ki, 2012-ci il də uğurlu olacaqdır. Belə də oldu. Bütün iqtisadi göstəricilər yüksək səviyyədədir. Ümumi daxili məhsul 2,2 faiz artmışdır. Bu əslində, inkişaf etmiş ölkələr, xüsusilə böhranlı illər üçün çox yüksək göstəricidir. Əlbəttə, templərimiz əvvəlki illərdə daha da yüksək olduğuna görə bizim üçün bu o qədər də qəbuledilən deyil. Ancaq nəzərə alsaq ki, keçən il neft hasilatında azalma olmuşdur və sənaye istehsalı, ümumiyyətlə, 2,3 faiz azalmışdır, ümumi daxili məhsulun 2,2 faiz səviyyəsində artımı çox müsbət göstəricidir.

Ən sevindirici hal ondan ibarətdir ki, biz bu artımı qeyri-neft sektorunun hesabına qazanmışıq. Qeyri-neft sektorumuz keçən il 9,7 faiz artmışdır. Beləliklə, biz ölkə iqtisadiyyatını şaxələndirməklə bağlı bir neçə il bundan əvvəl qarşıya qoyulmuş vəzifəyə artıq nail ola bilmişik.

Qeyri-neft sənayemiz də artır. Bu da son illər sənayeləşmə siyasətinin düzgün istiqamətdə aparılmasının təzahürüdür. Qeyri-neft sənayemiz təxminən 8 faiz artıb. Kənd təsərrüfatı təxminən 6 faiz artıb. Makroiqtisadi vəziyyət çox müsbətdir. İnflyasiya cəmi 1,1 faiz səviyyəsindədir ki, bu, son illərdə ən aşağı səviyyədir. Əhalinin pul gəlirləri isə 13,8 faiz artıb. Yəni inflyasiya ilə pul gəlirləri arasında fərq 10 faizdən çoxdur. Bu da, əlbəttə, hesab edirəm ki, dünya miqyasında ən yüksək göstəricilərdən biridir.

İnflyasiyanı aşağı səviyyədə saxlamaq o qədər də asan məsələ deyil. Nəzərə almalıyıq ki, keçən il çox böyük sosial proqramlar icra edilmişdir. Onların içində sovet dövründən qalmış əmanətlərə görə vətəndaşlara kompensasiyanın verilməsi

təşəbbüsü var idi. Artıq dövlət tərəfindən vətəndaşlara 100 milyonlarla manat kompensasiya şəklində verilib. Bu, istər-istəməz makroiqtisadi vəziyyətə əlavə yük olmuşdur. Bununla bərabər, keçən il investisiya xərcləri rekord səviyyədə idi. Rəsmi statistik məlumatlara görə, keçən il investisiyalar 22 milyard dollardan çox olmuşdur. Bunun 13 milyardı, bir qədər ondan çoxu daxili, 9 milyard dollara yaxını isə xarici investisiyalardır. Bu da çox müsbət göstəricidir. İlk növbədə onu göstərir ki, daxili investisiyalar artıq bir neçə ildir ki, ümumi investisiya portfelində üstünlük təşkil edir. Digər tərəfdən, 9 milyard dollara yaxın xarici sərmayənin qoyulması da onu göstərir ki, Azərbaycan xarici investorlar üçün çox etibarlı tərəfdaşdır, çox cəlbedici ölkədir. Ölkəmizdə aparılan iqtisadi islahatlar, iqtisadi liberallaşma, dünya iqtisadiyyatına inteqrasiya siyasətimiz 9 milyard dollara yaxın xarici sərmayənin qoyulmasına gətirib çıxarmışdır. Əlbəttə, bu məsələdə beynəlxalq kredit agentliklərinin reytinqləri də az rol oynamır. Çünki dünyanın aparıcı kredit reytinq agentlikləri keçən il Azərbaycanın kredit reytinqlərini artırmışdır. Bu da deyə bilərəm ki, müasir dünya üçün çox nadir məsələdir. Çünki inkişaf etmiş ölkələrin bəzilərinin reytinqləri aşağı salınır, Azərbaycanın kredit reytinqləri isə yuxarı qaldırılır və bu da aparılmış iqtisadi islahatların nəticəsidir.

İqtisadiyyatımız mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankının hesabatlarında biznesin aparılması üçün Azərbaycan yüksək yerlərdədir. Ümumdünya Davos İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdədir, MDB məkanında 1-ci yerdədir. Bax, budur görülmüş işlərin nəticəsi və əlbəttə, biz bu müsbət dinamikanı gündəlik həyatda da görürük. Bizim maliyyə imkanlarımız artır. Bu ilin büdcəsi də rekord səviyyədədir, 20 milyard manata yaxın olan vəsait xərclənəcəkdir. Keçən il biz valyuta ehtiyatlarımızı artıra bilmişik. Baxmayaraq ki, xərclər də kifayət qədər çox idi. Hazırda bizim ümumi valyuta ehtiyatlarımız 46 milyard dollar səviyyəsindədir. Bu çox böyük rəqəmdir. Hesab edirəm ki, bu,

dünya miqyasında çox böyük rəqəmdir. Bəzi hallarda valyuta ehtiyatları ölkələrin ümumi daxili məhsulu ilə müqayisə edilir və hesab edirəm ki, biz bu göstəriciyə görə ən qabaqcıl yerlərdəyik. Bizdə valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini təşkil edir. Yəni iqtisadi sabitlik – təbii ki, möhkəm siyasi sabitlik üzərində qurulmuş iqtisadi sabitlik – infrastruktur layihələri, sosial proqramlar və digər sahələrdəki fəaliyyətimiz 2012-ci ildə də çox gözəl nəticələrə gətirib çıxarmışdır.

Sosial məsələlərin həllinə gəldikdə, bir daha qeyd etmək istəyirəm ki, keçən il uzun illər sovet dövründən dondurulmuş vəziyyətdə qalmış əmanətlərə kompensasiya verilməsi proqramı başlamışdır və ilin sonunda mənə verilən məlumata görə, artıq proqramın böyük hissəsi icra edilmişdir. Vətəndaşlara 100 milyonlarla manat vəsait verilmişdir və əminəm ki, bu proqram yaxın aylarda başa çatacaqdır. Biz elə planlaşdırırdıq ki, bu proqramı bu ilin sonuna qədər artıq başa çatdıracağıq. Bu çox böyük siyasi addım idi. Azərbaycan dövlətinin sosial siyasətinin nə qədər düzgün olduğunu göstərir. Bir də onu göstərir ki, bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı dayanır.

Keçən il digər sosial proqramlar da icra edilmişdir. Bu il isə bu məqsədlər üçün əlavə vəsait nəzərdə tutulacaq və əminəm ki, sosial siyasətimiz bu il də çox təsirli olacaqdır. Eyni zamanda, keçən il sosial infrastrukturun yaradılması ilə bağlı böyük işlər görülmüşdür – yüzlərlə məktəb, xəstəxanalar, olimpiya kompleksləri, digər sosial obyektlər tikilmiş və təmir edilmişdir.

Bu il də investisiya proqramında bu layihələr nəzərdə tutulur. Keçən il məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün ən böyük məbləğ Dövlət Neft Fondu tərəfindən nəzərdə tutulmuşdur, 300 milyon manat vəsait ayrılmışdır. Bu da tarixdə ən böyük vəsaitdir. Bu vəsaitin hesabına 20 mindən çox məcburi köçkün yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Bütün bu evlər çox yüksək səviyyədə tikilmişdir, ən yüksək standartlara cavab verir. Mən açılışların böyük əksəriyyətində şəxsən iştirak etmişəm və görmüşəm ki, doğrudan da köçkünlər

üçün yaradılan şərait ən yüksək səviyyədədir. Bu belə də olmalıdır. Köçkünlər buna layiqdirlər. Bu il də Dövlət Neft Fondunda eyni səviyyədə vəsait nəzərdə tutulub. Bu il də ən azı 20 min köçkün yeni evlərlə, mənzillərlə təmin ediləcəkdir. İstisna olunmur ki, il ərzində bu sahəyə biz əlavə vəsait də ayıra bilək. Çünki bizim maliyyə vəziyyətimiz, bir daha demək istəyirəm ki, yaxşıdır. Hər il ayrılan 300 milyon manat vəsait də çox böyük rəqəmdir və biz il ərzində, demək olar ki, bir şəhər yaradırıq.

Regional İnkişaf Proqramı da uğurla icra edilib. Qeyd etdiyim kimi, 2004-cü ildə birinci proqram, 2009-cu ildə ikinci proqram qəbul edilmişdir. Artıq ikinci proqram başa çatmaq üzrədir. Qarşıya qoyulmuş bütün vəzifələr icra edilib. Keçən il 117 min yeni iş yeri açılmışdır ki, onlardan 93 mini daimi iş yeridir. Proqramın əvvəlindən 1 milyon 200 min yeni iş yeri açılmışdır ki, bu da öz növbəsində işsizliyin böyük dərəcədə azaldılmasına xidmət göstərmişdir. İşsizliyin səviyyəsi 2012-ci ildə bir qədər aşağı düşmüş və indi 5,2 faiz səviyyəsindədir. İşsizliklə bilavasitə bağlı olan yoxsulluğun səviyyəsi də aşağı düşmüşdür – 7,6 faizdən 6 faizə. Bu, hesab edirəm ki, hətta inkişaf etmiş ölkələr üçün çox yaxşı göstəricidir.

2013-cü ildə görüləcək işlər, yeni infrastruktur layihələrinin, sosial proqramların icrası nəticəsində əminəm ki, yoxsulluq səviyyəsi daha da düşəcək və beləliklə, 10 il bundan əvvəl qarşımıza qoyduğumuz vəzifə – Azərbaycanda yoxsulluğu tamamilə aradan götürmək vəzifəsi də artıq təmin ediləcəkdir.

2012-ci ildə Bakı və onun qəsəbələrinin inkişafı proqramı da uğurla icra edilmişdir, böyük işlər görülmüşdür. Bu il bu proqram başa çatmalıdır. Bütün qəsəbələrdə infrastruktur layihələri icra edilir, yollar salınır, müasir şərait yaradılır. Bu proqramın icrası daim nəzarət altındadır və əminəm ki, bu ilin sonuna qədər qəsəbələrin əsas infrastruktur və sosial problemləri öz həllini tapacaqdır. Biz bu məsələyə kompleks şəkildə yanaşmışıq. Proqram çox müfəssəldir, genişdir, dəqiqdir. Hər bir məsələ orada nəzərdə tutulur – su, qaz, işıq,

yollar, məktəblər, tibb məntəqələri və digər məsələlər. Bu proqramın icra edilməsi nəticəsində biz qəsəbələrdə mövcud problemlərin böyük əksəriyyətini, demək olar ki, aradan götürəcəyik.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə artıq qəsəbə sakinlərinə, iş adamlarına kreditlərin verilməsi prosesi başlamışdır. Qəsəbələrdə yeni iş yerlərinin açılması istiqamətində də böyük işlər görülmüşdür. Keçən il çoxlu sayda yeni müəssisələr yaradılmışdır. Əlbəttə ki, bu, işsizliyin aradan qaldırılması üçün öz müsbət təsirini göstərir.

Keçən il sənayeləşmə istiqamətində çox əlamətdar bir il olmuşdur. Həm iri sənaye müəssisələrinin yaradılması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində çox böyük işlər görülmüşdür. Sahibkarlara verilən kreditlərin həcmi artır və bu il də artacaqdır. Bu, real iqtisadiyyata verilən böyük töhfədir və eyni zamanda, Azərbaycan dövlətinin sahibkarlıqla, özəl sektorun inkişafı ilə bağlı siyasətinin təzahürüdür.

Ərzaq təhlükəsizliyi məsələlərini uğurla həll etmişik. Kənd təsərrüfatı məhsullarının təxminən 6 faiz səviyyəsində artırılması, əlbəttə ki, görülən işlərin nəticəsidir. Biz bu barədə də danışacağıq, 2013-cü il üçün də konkret təkliflərimiz vardır. 2012-ci il xarici siyasətlə bağlı da çox uğurlu olmuşdur. Biz xarici fəaliyyətimizi genişləndirmişik. Beynəlxalq təşkilatlarda qarşıya qoyduğumuz vəzifələrə çatmışıq. Keçən il Azərbaycan tarixdə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Bu, tarixi nailiyyətdir. Ümumiyyətlə, 2011-ci ilin sonunda Təhlükəsizlik Şurasına seçilməyimiz çox böyük tarixi hadisə və Azərbaycan dövlətinin dünya miqyasında nüfuzunun göstəricisi idi. Biz keçən il dünyanın bir nömrəli qurumuna uğurla sədrlik etmişik və əlbəttə, bizim beynəlxalq nüfuzumuz da, təsir imkanlarımız da artıbdır. Biz, deyə bilərəm ki, keçən il dünyada özümüzü daha da böyük dərəcədə təsdiq edə bilmişik. Çox şadam ki, 2011-ci ildə beynəlxalq birlik tərəfindən bizə göstərilən inam Azərbaycan tərəfindən qorundu və hesab edirəm ki, il ərzində bu inam daha da artdı. Çünki bu mötəbər

quruma, əlbəttə ki, beynəlxalq birlik tərəfindən bizə olan inamın nəticəsində seçilmişik. Biz il ərzində bu inamı doğrulda bilmişik.

Azərbaycan etibarlı tərəfdaşdır, bütün məsələlərlə bağlı öz mövqeyinə malikdir. Bizim mövqemiz ədalətli və beynəlxalq hüquq normalarına əsaslanan mövqedir. Hesab edirəm ki, bir il ərzində BMT-də bizi dəstəkləyən ölkələrin sayını artıra bilmişik.

Keçən il beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox vacib qərarlar qəbul edilmişdir. Onların arasında «Qoşulmama Hərəkatı»nın zirvə görüşündəki yekun bəyannaməni mən xüsusilə qeyd etmək istəyirəm. «Qoşulmama Hərəkatı»nda dünyanın əksər ölkələri toplaşmışdır və Azərbaycan bu təşkilata bu yaxınlarda üzv olmuşdur. Buna baxmayaraq, iştirak etdiyimiz I zirvə toplantısında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə, beynəlxalq hüquq normalarına söykənən çox ciddi qətnamə qəbul edilmişdir. Orada da göstərilir ki, bu münaqişə yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu, hesab edirəm ki, bizim böyük siyasi və diplomatik uğurumuzdur. Bu, artıq başqa beynəlxalq təşkilatların bundan əvvəlki dövrdə qəbul edilmiş qətnamələrini daha da gücləndirir.

Eyni zamanda, keçən il NATO-nun zirvə görüşündə də buna oxşar qətnamə qəbul edilmişdir. Orada da göstərilir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkələrin ərazi bütövlüyü əsasında öz həllini tapmalıdır. «Qoşulmama Hərəkatı» və NATO dünyanın əksər ölkələrini birləşdirir və beləliklə, dünya birliyinin mövqeyi birmənalıdır. Bu mövqe ədalətli və beynəlxalq hüquq normalarına əsaslanan mövqedir. Biz bu mövqedən bir addım da geri çəkilməyəcəyik. Dağlıq Qarabağla bağlı gedən danışıqlar Ermənistanın qeyri-konstruktiv yanaşması səbəbindən indi dondurulmuş vəziyyətdədir. Ancaq prinsiplər var ki, biz bu prinsiplərdən bir addım da geri çəkilməyəcəyik. Bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. İşğal edilmiş

bütün torpaqlardan işğalçı qüvvələr çıxarılmalıdır. Diplomatik və siyasi əsaslar, əlbəttə ki, bizim mövqemizi gücləndirir. Bizim mövqemiz həm hüquqi, həm siyasi cəhətdən sarsılmazdır.

İqtisadi gücümüz, hərbi gücümüz də yerindədir. Biz bu gücü artırırıq. Əminəm ki, Ermənistanda məsələyə real prizmadan yanaşan qüvvələr açıq-aydın dərk edirlər ki, Azərbaycan ilə bu münaqişə və bu rəqabət onlara heç də yaxşı nəticələr vəd etmir, əksinə, onlar getdikcə bu mübarizədə uduzurlar. Həm beynəlxalq müstəvidə, həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də bölgədə gedən proseslər mövqemizi gücləndirir.

Bu gün Azərbaycan iqtisadiyyatı güclü iqtisadiyyatdır və bizim gözəl gələcəyimiz var. Ermənistanın iqtisadiyyatı tənəzzülə uğrayır. Mən bu barədə bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, bu ölkənin gələcəyi böyük sual altındadır. Çünki onların işğalçı siyasəti özlərini bu vəziyyətə qoyubdur. Nə qədər ki, bu münaqişə davam edəcək, onların vəziyyəti daha da ağırlaşacaqdır. Biz isə öz növbəmizdə bütün imkanlardan istifadə edib gələcəkdə də Ermənistanı sıxışdırmalıyıq. Onları onsuz da bütün layihələrdən təcrid etmişik. Bu siyasət davam etdiriləcəkdir. Buna nail olmaq üçün bütün imkanlardan istifadə edəcəyik. Biz siyasi, diplomatik, iqtisadi və hərbi imkanlardan istifadə edə bilərik və lazım gələrsə istifadə edəcəyik.

Ordu quruculuğuna gəldikdə isə, deyə bilərəm ki, keçən il bu istiqamətdə də böyük işlər görülmüşdür. Ordumuzun gücləndirilməsi üçün böyük tədbirlər görülmüşdür, böyük sayda texnika, silah-sursat alınmışdır, infrastruktur yaradılmışdır. Keçən il ümumi hərbi xərclərimiz 3 milyard dollardan çox idi. Bu il büdcəmizdə hərbi sahəyə ayrılan ümumi xərclər 3,7 milyard dollar səviyyəsindədir. Müqayisə üçün deyim ki, Ermənistanın ümumi büdcəsi 2 milyard dollardan azdır. Əlbəttə, bu bizə yeni imkanlar yaradır. Biz bu imkanlardan da istifadə edəcəyik.

Ordu quruculuğu işində təkcə maddi-texniki təchizat rol oynamır, eyni zamanda, peşəkarlıq və nizam-intizam da öz rolunu oynayır. Həm peşəkarlıq, həm nizam-intizam artmalıdır.

Ordu cəmiyyətin bir parçasıdır. Orduda xidmət edən vətəndaşlar cəmiyyətin üzvləridir. Hər bir sahədə olduğu kimi, orduda da qüsurlar, nöqsanlar ola bilər. Ən önəmli məsələ ondan ibarətdir ki, bu nöqsanlar və qüsurlar vaxtında aşkarlanır və dövlət tərəfindən ciddi ölçülər götürülür. Biz gələcəkdə də ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, peşəkarlığın, nizam-intizamın artırılması istiqamətində siyasətimizi aparacağıq. Bu gün bizim ordumuz Cənubi Qafqazda aparıcı hərbi qüvvədir. Bizim ordumuz böyük nailiyyətlərə çatıbdır. Biz heç vaxt imkan verə bilmərik ki, antimilli ünsürlər ordumuzu qaralasın, ləkələsin, ordumuza kölgə salsın. Biz buna heç vaxt imkan vermərik. Mən də Ali Baş Komandan kimi, buna heç vaxt imkan verməyəcəyəm. Azərbaycan xalqı da buna imkan verməyəcək və ordumuza kölgə salmaq istəyən ünsürlərə öz layiqli cavabını verəcəkdir və verir.

Keçən il biz enerji sahəsində böyük nailiyyətlərə çatmışıq. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş yeni neft strategiyamızın icrası nəticəsində biz enerji sahəsində dünya miqyasında çox ciddi ölkəyə çevrilmişik. Neft-qaz layihələrimiz, neft-qaz kəmərlərimiz bu gün Azərbaycanı doğrudan da dünya miqyasında çox önəmli neft, qaz hasil və ixrac edən ölkəyə çeviribdir.

Keçən il bu siyasətin davamı olaraq çox önəmli və deyə bilərəm ki, tarixi hadisə baş vermişdir – biz TANAP layihəsinin təməlini qoymuşuq. Bu layihənin təşəbbüskarı Azərbaycan olmuşdur. Ən böyük maliyyə yükünü də biz öz üzərimizə götürmüşük. Bununla bərabər, bütün riskləri, bütün texniki riskləri Azərbaycan öz üzərinə götürmüşdür. Biz, demək olar ki, bölgədə icra edilən bütün layihələrin təşəbbüskarı olmuşuq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa, ondan sonra Bakı–Novorossiysk boru kəmərlərinin tikintisi və bərpası layihələrinin təşəbbüskarı olmuşuq. Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsinin təşəbbüskarı olmuşuq. TANAP layihəsinin də təşəbbüskarı məhz Azərbaycandır. Bizim bu sahədəki liderliyimiz gözəl nəticələrə gətirib çıxarıb. Biz nəinki ölkəmizi

inkişaf etdiririk, eyni zamanda, inkişafımız bölgəyə də müsbət təsir göstərir, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün bizə imkan yaradır. Təsadüfi deyil ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış sənədlərdə Azərbaycan bu sahədə çox önəmli və həlledici tərəfdaş kimi göstərilir.

TANAP layihəsi təşəbbüsünün irəli sürülməsi bizim çox ciddi addımımız idi. Mən çox şadam ki, qısa müddət ərzində TANAP layihəsi dünyada çox böyük dəstəyə malik oldu. Dünyanın aparıcı ölkələri birmənalı şəkildə bizim təşəbbüsümüzü dəstəkləmişdir. Beynəlxalq qurumlar da eyni dərəcədə mövqemizi dəstəkləmişdir.

TANAP layihəsi regional çərçivədə artıq qəbul edilir. Çox şadam ki, biz indi tərəfdaş ölkələrlə bu layihənin icra edilməsi üçün konkret tədbirlər görürük və 2013-cü ildə əlavə tədbirlər görüləcəkdir. Bu layihənin icrası bizim uzunmüddətli inkişafımızı təmin edəcəkdir. Vaxtilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin layihəsi də ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanı irəliyə aparan layihə kimi təqdim edilmişdir. Bu gün biz bunun gözəl bəhrələrini görürük. TANAP layihəsi də bundan sonra onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını eyni dərəcədə təmin etmək üçün çox ciddi bir vasitə olacaqdır. Bu layihənin icrası üçün güclü iradəmiz vardır. Bu birinci növbədə lazım olan məsələdir. Texniki imkanlarımız da var. Əvvəlki layihələrin icrası nəticəsində əldə edilmiş maliyyə imkanlarımız vardır. Beynəlxalq maliyyə qurumları ilə səmərəli əməkdaşlığımız da artır və bu, gözəl tarixə malikdir. Bu gün maliyyə qurumları Azərbaycana kredit vermək üçün bəlkə də bir-biri ilə rəqabət aparırlar. Biz bu gün istənilən həcmdə və ən məqbul şərtlərlə kreditləri götürürük. Əslində, indi hökumətə göstəriş vermişəm ki, kreditlərin sayını bir az azaldaq, çünki çox da dövlət borcu yaranmasın. Baxmayaraq ki, bizim dövlət borcumuz ümumi daxili məhsulun cəmi 7-8 faizini təşkil edir, bu da dünya miqyasında nadir göstəricidir. Yəni bizim enerji sahəsindəki fəaliyyətimiz dinamik xarakter daşıyır. Bir daha demək istəyirəm, iqtisadi siyasətimizin əsas mahiyyəti ondan

ibarətdir ki, iqtisadiyyatımız şaxələndirilsin və biz qeyri-neft sektorunun inkişafına daha da böyük həcmdə nail olaq. Ancaq eyni zamanda, enerji məsələlərinin həlli, həm neft, həm də qaz hasilatı ilə bağlı regional layihələrimiz gündəlik həyatda daim diqqət mərkəzindədir.

Çox şadam ki, beynəlxalq enerji ailəsi də Azərbaycanı müsbət tərəfdən tanıyır, bizə etibarlı tərəfdaş kimi inanır. Eyni zamanda, lazım gələndə biz öz ciddi sözümüzü də deyirik. Çünki mən hesab edirəm ki, bütün sahələrdə – siyasətdə də, iqtisadi əməkdaşlıqda da insanlar və dövlətlər səmimi olmalıdırlar, öz mövqelərini bildirməlidirlər. Əgər hər hansı bir narahatedici məqam varsa, biz onu ğizlətməməliyik, əksinə, üzə çıxarmalı və ölçülər götürməliyik.

Mən çox şadam ki, bir qədər əvvəl Nazirlər Kabinetinin toplantısında neftin hasilatı ilə bağlı dediyim narahatedici sözlər bizim tərəfdaşlar tərəfindən düzgün anlaşıldı və görülən tədbirlər nəticəsində deyə bilərəm ki, 2013-cü ildə neftin hasilatı sabitləşəcək. *bp* şirkəti ilə aparılan danışıqlar nəticəsində biz buna nail olduq. Mən çox şadam ki, *bp* ilə SOCAR arasındakı qarşılıqlı anlaşma bərpa edildi və uzun tarixə malik olan əlaqələr bu gün yeni mərhələyə çıxır. Çünki gələcəkdə görüləsi işlər çoxdur. «Şahdəniz-2» layihəsinin icrası, neft hasilatının uzun illər bundan sonra sabit səviyyədə saxlanması, regional layihələr, TANAP layihəsi və digər layihələr bizim əməkdaşlığımızı möhkəmləndirir. Bir daha demək istəyirəm ki, biz həm yaxşı tərəfləri, həm də narahat edən tərəfləri açıq şəkildə müzakirə etməliyik və edirik. Əsas məsələlər gündəlik, yəni gərgin işin nəticəsində öz həllini tapır. Hesab edirəm ki, bu, düzgün yanaşmadır. Çünki biz tərəfdaşlarımızı qiymətləndirməliyik. Əgər biz onlardan da müsbət cavab görürüksə, bu bizi sevindirir və əməkdaşlığın davam etdirilməsi üçün çox gözəl şərait yaradır.

Əlbəttə, mən bir çıxışda 2012-ci ildə görülmüş bütün işləri əhatə edə bilmərəm. Ancaq çalışdım ki, əsas məqamları

bildirim. Bu gün biz həm ötən ilin yekunlarını müzakirə edəcək, həm də ən önəmlisi, cari ilin planları haqqında danışacağıq.

## YEKUN NİTQİ

Hesab edirəm ki, əvvəlki illərdə əldə edilmiş uğurlar 2013-cü ildə çox vacib rol oynayacaqdır. Çünki əvvəlki illərdə qəbul edilmiş proqramlar və icra edilmiş layihələr bu ilin uğurlu inkişafını da təmin etməlidir. Nəzərə alsaq ki, son illər ərzində, ümumiyyətlə, müstəqil Azərbaycan dövlətinin tarixində 2013-cü ilin büdcəsi ən böyük büdcədir, hesab edirəm ki, biz bütün vəzifələri uğurla icra edəcəyik. Dövlət büdcəmizin xərcləri təxminən 20 milyard manat səviyyəsindədir. Əlbəttə, bu, böyük rəqəmdir. Bu vəsait bizə imkan verəcək ki, ölkə qarşısında duran əsas infrastruktur layihələrini başa çatdıraq. Bizim düşünülmüş siyasətimiz və planlı addımlarımız ona hesablanıb ki, bütün infrastruktur layihələri bu ilin sonuna qədər başa çatsın.

Bu layihələrin bəziləri əvvəlki illərdə, bəziləri keçən il başlanmışdır. Ancaq bu layihələrin icra edilməsi nəticəsində biz bütün infrastrukturumuzu yeniləşdirəcəyik. Çünki bizim infrastruktur layihələrimizin yaradılması sovet dövründən başlamışdır. Onların bir hissəsi köhnəlmiş, bir hissəsi sıradan çıxmışdır. Həyat yerində durmur, indi yeni texnologiyalar vardır, yeni ixtiralar üzə çıxıbdır. Biz elə etməliyik ki, gələn ildən başlayaraq bizim infrastruktur sahəsində heç bir çatışmazlığımız olmasın. Hesab edirəm ki, Dövlət İnvestisiya Proqramının həcmi və istiqamətləri bu məqsədə çatmaq üçün bizə imkan yaradacaqdır. Nəzərə alsaq ki, Dövlət İnvestisiya Proqramı ilin əvvəlində deyil, ilk dəfə olaraq ötən ilin sonunda qəbul edilib, biz vaxt itirmədən işlərə başlamalıyıq və artıq başlamışıq. İnfrastruktur layihələri arasında, əlbəttə ki, prioritetlər vardır. Bu prioritetlər artıq neçə ildir ki, Dövlət İnvestisiya Proqramında öz əksini tapır. Dövlət investisiyaları, əlbəttə, infrastruktur layihələrinin təkmilləşməsinə xidmət göstərir. Ancaq eyni zamanda, biz görürük ki, dövlət investisiyaları özəl sektordakı

vəziyyətə canlanma gətirir. Özəl investisiyalar da böyük həcmdə gözlənilir. Mən giriş sözümdə qeyd etdim ki, keçən il tarixdə ən böyük investisiyalar Azərbaycana qoyulmuşdur, 22 milyard dollardan çox. Hesab etmək olar ki, bu səviyyə bu il də qorunub saxlanılacaqdır. Beləliklə, həm dövlət, həm yerli və xarici özəl şirkətlər tərəfindən qoyulacaq sərmayə ölkəmizi daha da möhkəmləndirəcəkdir.

Prioritetlərə gəldikdə isə, yenə də deyirəm, biz infrastruktur layihələrimizi ardıcıllıqla icra etməyə başlamışdıq. İlk növbədə, ölkəmizin enerji potensialının yaradılmasına çalışırdıq. Son illər ərzində 1500 meqavat gücündə yeni elektrik stansiyaları fəaliyyətə başlamışdır. Bu gün biz nəinki özümüzü təmin edirik, başqa ölkələrə də enerjimizi ixrac edirik. Azərbaycan öz enerjisini qonşu ölkələrə də ixrac edir. Yəni bu, prioritet idi. Çünki bunsuz heç bir inkişaf mümkün deyildir. Biz artıq bu sahədə böyük dərəcədə uğurlara nail olmuşuq. Generasiya güclərimizi böyük dərəcədə artıra bilmişik. Bu il «Cənub» elektrik stansiyasının işə düşməsi – bu da təqribən 800 meqavat gücünə yaxın olan bir stansiyadır – bizim bu sahədəki vəziyyətimizi daha da yaxşılaşdıracaqdır. Çünki həm istehsal gücü artır, həm də itkilər azalır. Əvvəlki dövrlə müqayisədə itkilər böyük dərəcədə aşağı düşmüşdür. Bu gün itkilər, demək olar ki, qəbul edilmiş normalar səviyyəsindədir. Bununla bərabər, biz bu sahədəki fəaliyyətimizi davam etdirəcəyik. «Şimal-2» elektrik stansiyasının tikintisi davam edir. O da təqribən 400 meqavata yaxın əlavə gücün yaradılmasına xidmət göstərəcəkdir.

Onu da nəzərə almalıyıq ki, istehlak ildən-ilə artır. Əgər əvvəlki dövrdə qışla yay arasında fərq var idisə, qışda daha çox enerji istehlak olurdu, yayda daha az. Artıq bu fərq də aradan götürülüb. Bunun da başlıca səbəbi ondan ibarətdir ki, insanların yaşayış səviyyəsi artır. İndi yayda kondisionerlərdən daha çox istifadə olunur. Əvvəlki illərdə belə deyildi. Tələbat, əhali, iqtisadiyyat artır. Elə etməliyik ki, generasiya güclərimiz tələbatdan daim çox olsun.

Biz artıq bərpa olunan enerji növlərinin yaradılması ilə ciddi məşğuluq. Keçən il bu sahədə ciddi addımlar atılmışdı. Günəş panelləri istehsal edən zavod işə başlamışdır. Su mənbələrimiz səmərəli şəkildə bu işlərə cəlb edilib. Keçən il Füzuli Su-Elektrik Stansiyasının işə düşməsi bu sahədə böyük addım idi. Bu, 25 meqavat gücündə bir stansiyadır. Kiçik çaylarda 1, 2, 3, 5 meqavat gücündə stansiyaların tikintisi davam edir. Biz su mənbələrimizi maksimum dərəcədə bu işlərə cəlb etməliyik ki, bərpa olunan enerji növləri ümumi enerji balansımızda artsın. İnfrastruktur layihələri arasında, təbii ki, enerji təchizatından sonra qazlaşdırma layihələri də çox mühüm əhəmiyyət daşıyırdı. Son illər bu sahədə də aparılan işlər təqdirəlayiqdir. Bu ilin investisiya proqramında da bu məqsədlər üçün vəsait nəzərdə tutulur. Hesab edirəm ki, bu ilin sonuna qədər ölkəmizin ümumi qazlaşdırma səviyyəsi 90 faizə çata bilər. Hər halda, biz buna çalışırıq. Bölgələrdə gedən işlər deməyə əsas verir ki, biz bu hədəfə çatacağıq. Bu da çox yüksək göstəricidir. Nəzərə alsaq ki, ölkəmizin bir hissəsini dağlıq ərazilər təşkil edir, oraya qaz xətlərinin çəkilişi həm iqtisadi cəhətdən səmərəsizdir, həm texniki cəhətdən çox çətindir. Biz əhalimizin böyük hissəsini qazla təmin edəcəyik. Yeni borular çəkilir, yeni ölçü mexanizmləri, sayğaclaşma tamamilə yeni səviyyədə aparılır. Biz bu sahədə infrastrukturumuzu, demək olar ki, tamamilə yeniləşdirəcəyik.

Elektrik enerjisinin təchizatına gəldikdə isə, generasiya ilə bağlı işlər artıq yüksək səviyyədədir. Amma xətlərdə hələ ki, problemlər vardır. Xətlərin yenilənməsi istiqamətində bu ilin investisiya proqramında vəsait nəzərdə tutulubdur. Bu işlər vaxtında icra edilməlidir. Biz ardıcıl olaraq bir neçə il bundan əvvəl içməli su və kanalizasiya layihələrinin icrasına çox ciddi şəkildə başlamışıq. Bu çox böyük layihədir. Ölkəmiz üçün bunun əhəmiyyəti çox böyükdür. Çünki bütün dövrlərdə Azərbaycanda – Bakıda və digər bölgələrdə içməli su problemi çox kəskin dayanmışdır. Bölgələrdə, ümumiyyətlə, kanalizasiya xətləri yox idi. Bakının da kanalizasiya sistemi köhnəlmişdir.

Bu sahədə böyük quruculuq işləri aparılır və biz yenə də maksimum səviyyədə hədəf seçmişik ki, bu sahədə infrastruktur tamamilə yenilənsin. İndi həm Bakıda, həm bütün bölgələrdə içməli su və kanalizasiya layihələri icra edilir. Ümid edirəm ki, içməli su ilə bağlı layihələr, hər halda, onların böyük əksəriyyəti bu ilin sonuna qədər başa çatacaqdır. Bununla paralel olaraq, kanalizasiya xətlərinin çəkilişi də davam etdirilir. Bu da tarixi nailiyyət olacaqdır. Çünki təmiz içməli su ilə əhalimizi təmin etmək çox böyük işdir. İnsanların rahatlığı, sağlamlığı üçün bunun əvəzsiz rolu olacaqdır. Bunlar investisiya proqramında nəzərdə tutulan əsas infrastruktur layihələridir. Bütün müvafiq qurumlar öz vəzifə borcunu yerinə yetirir. Bu layihələr keyfiyyətlə və vaxtında icra edilməlidir.

Dövlət İnvestisiya Proqramında magistral yolların çəkilişinin davamı və yeni yolların çəkilişinin başlanması vardır. Biz son illər ərzində bu sahədə də çox işlər görmüşük, magistral yollarımızı böyük dərəcədə bərpa edə bilmişik və yeni yollar salınıbdır. İndi bütün magistral yollarda işlər gedir və bu işlər artıq tamamlanır. Bununla bərabər, şəhərlərarası yolların çəkilişi də gedir. Bu sahəyə də bu il vəsait qoyulacaqdır. Biz artıq bir neçə ildir ki, kənd yollarının çəkilişi ilə çox ciddi məşğul olmağa başlamışıq. Bütün rayonlarda bu layihələr icra edilir. Bu layihələrin icrası rayonlardan gəlmiş sifarişlər, əhalidən gələn müraciətlər əsasında təşkil edilibdir. Biz çalışmışıq ki, əhalinin ən çox məskunlaşdığı kəndlərimizi yeni yollarla təmin edək. Kəndlərarası yolların çəkilişi geniş vüsət almışdır. Keçən il bu məqsədlər üçün həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan 100 milyon manatdan artıq vəsait ayrılmışdır. Bu il də bu məbləğ ondan az olmamalıdır. Çalışmalıyıq ki, yaxın illərdə bütün kənd yollarını tikək. Çünki onların əksəriyyəti torpaq yollar idi və qar, yağış yağan kimi o yollar keçilməz olurdu. İndi bütün yollara asfalt salınır. Əlbəttə, biz bu işləri digər infrastruktur layihələri ilə uzlaşdırmalıyıq, xüsusilə yeraltı kommunikasiyaların – su, qaz xətlərinin çəkilişi ön planda olmalıdır. Ondan sonra yollar salınmalıdır, yəni ardıcıllıq məhz

belə olmalıdır. Mən infrastruktur layihələri arasında meliorasiya layihələrini qeyd etmək istəyirəm. Bu sahəyə də biz böyük vəsait ayırmışıq. Həm Dövlət Neft Fondunun xətti ilə, həm də dövlət büdcəsinin xətti ilə.

Hazırda Azərbaycanda 2 nəhəng layihə – Taxtakörpü su anbarı–Samur–Abşeron kanalı və Şəmkirçay su dəryaçası layihələri icra edilir. Bu layihələrin icrası nəticəsində on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq və minlərlə fermer bundan bəhrələnəcəkdir. Bu layihələr çox böyük maliyyə vəsaiti tələb edir və biz bu vəsaiti ayırırıq. Çünki bu, ölkə iqtisadiyyatı, biznesin aparılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün lazımdır. Taxtakörpü su anbarı bu il istifadəyə verilməlidir. Şəmkirçay su anbarı isə yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Hər halda, Dövlət İnvestisiya Proqramında və Neft Fondunun investisiya layihələrində bu sahəyə kifayət qədər böyük məbləğ ayrılır. Sadəcə olaraq, bütün işlər yüksək keyfiyyətlə və vaxtında aparılmalıdır. Deyə bilərəm ki, əsas infrastruktur layihələrimiz bunlardır və yenə də qeyd etmək istəyirəm ki, bu layihələrin əsas hissəsi bu ilin sonuna qədər başa çatmalıdır. Biz 2004-cü ilin əvvəlində birinci regional proqramı qəbul edərkən məhz belə də planlaşdırırdıq ki, 2 beşillik proqram bizə ölkə qarşısında duran bütün sosial infrastruktur layihələrinin icrasına imkan verəcəkdir.

Bu ilin büdcəsində sosial sferaya ayrılan vəsait də kifayət qədər böyükdür. Qeyd etdiyim kimi, əmanətlərin kompensasiyası prosesi başa çatmalıdır. Artıq burada heç bir şübhə yoxdur ki, bu, uğurla başa çatacaqdır. Sosial infrastrukturun tikilməsi nəzərdə tutulur. Məktəb, xəstəxana, mədəniyyət ocaqlarının, idman komplekslərinin tikintisi nəzərdə tutulur. 70-dən çox tibb müəssisəsi yenidən tikiləcək, təmir ediləcəkdir. Son 10 il ərzində 2500-ə yaxın məktəb tikilmişdir və proses hələ də davam edir.

Ümumiyyətlə, ölkədə 4500-dən bir qədər çox məktəb var ki, onların böyük hissəsi qəzalı vəziyyətdə idi. İndi qəzalı vəziyyətdə olan məktəblərin sayı böyük dərəcədə azalıbdır.

Çalışacağıq ki, bu il, ümumiyyətlə, bütün qəzalı vəziyyətdə olan məktəbləri yenidən quraq və təmirə ehtiyacı olan məktəbləri də tədricən təmir edək. Bakı şəhərindəki məktəblərə gəldikdə, bu il bütün məktəblərin təmir-tikinti işləri başa çatmalıdır. Bu məsələ daim diqqət, nəzarət altındadır. Bu il Bakıda və gələn illərdə bütün bölgələrdə bir dənə də olsun nəinki qəzalı, təmirsiz, yaxşı təmir olunmayan məktəb qallmamalıdır.

Bu il eyni zamanda, maaşların və pensiyaların artırılması nəzərdə tutulur. Bu da mütəmadi qaydada həyata keçirilən məsələdir. Burada qeyd olundu ki, Azərbaycanda orta maaş və orta pensiya artır. Əgər biz MDB məkanında müqayisə aparsaq, bu, yüksək səviyyədədir. Orta əməkhaqqı 500 dollardan çoxdur. Orta pensiya 200 dollara yaxındır. Əvəzləşmə əmsalı da inkişaf etmiş ölkələrin səviyyəsindədir. Pensiya maaşın 40 faizini təşkil edir. Ancaq bu bizi qane etmir. Baxmayaraq ki, son illərdə əmək haqları və pensiyalar bir neçə dəfə artmışdır, biz çalışmalıyıq ki, daha da böyük artıma nail olaq.

Biznes mühitinin yaxşılaşdırılması, yeni müəssisələrin işə salınması və sənayeləşmə ilə bağlı planlarımız həyata keçirildikdə insanların, yəni özəl sektorda fəaliyyət göstərənlərin yaşayış səviyyəsi yaxşılaşdırılacaqdır. Dövlət sektorunda işləyənlərin isə maaşları qaldırılmalıdır və qaldırılacaq. Cari ilin büdcəsində bu, nəzərdə tutulubdur.

Qarşıda duran vəzifələrdən biri də bu il makroiqtisadi sabitliyi qoruyub saxlamaqdır. Mən hesab edirəm ki, burada biz heç bir problemlə üzləşməyəcəyik. Çünki giriş sözümdə dediyim kimi, baxmayaraq ki, ötən il investisiyalar da böyük həcmdə qoyulmuş, əmanətlərin qaytarılması da başlamış, inflyasiya cəmi 1,1 faiz təşkil etmişdir. Əlbəttə, biz çalışmalıyıq və əminəm, buna nail olacağıq ki, inflyasiya bu il də birrəqəmli olsun. Birrəqəmli inflyasiya ölkənin uğurlu inkişafını təmin edir və əhalinin real pul gəlirlərini artırır. Makroiqtisadi sabitlik daim nəzarət altındadır. Hesab edirəm ki, bu sahədə də heç bir problem olmayacaqdır.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Son illər ərzində bu sahədə böyük uğurlar əldə edilmişdir. Bu siyasət məqsədyönlü şəkildə davam etdiriləcəkdir. Burada biz müxtəlif alətlərdən istifadə edirik. Əlbəttə ki, cəza tədbirləri, inzibati tədbirlər mühüm yer tutur və bu sahədə bizim amansız mübarizəmiz davam etdiriləcəkdir. Bu məsələ ilə məşğul olan bütün dövlət qurumlarına bir daha tapşırıq verirəm ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır, biz bu bəlanı aradan götürməliyik. Bununla bərabər, institusional tədbirlər də, sistem xarakterli tədbirlər də görülməlidir və görülür. Onların arasında elektron xidmətlərə keçid məsələləri də mühüm yer tutur. Burada qeyd olunduğu kimi, İKT sahəsində Azərbaycan doğrudan da son illər ərzində böyük uğurlar əldə edibdir. Bu həm biznes, həm zəka, intellekt sahəsidir. Eyni zamanda, innovasiya və şəffaflığa təkan verən, xidmət göstərən bir sahədir. Biz bu imkanlardan daha da geniş şəkildə istifadə etməliyik. Elektron xidmətlərin sayı artmalıdır və bu sahədə görülən işlər davam etdiriləcəkdir. İctimai nəzarət daha da güclü şəkildə təşkil edilməlidir. Şəffaflıq maksimum dərəcədə təmin edilməlidir. Yenə də deyirəm, cəza tədbirləri, inzibati tədbirlər, institusional sistem xarakterli tədbirlər əminəm ki, gələcəkdə də korrupsiyaya qarşı mübarizədə bizə kömək edəcəkdir. Keçən ilin sonunda biz bu sahədə, yəni bütün bu vacib sahələri ehtiva edən yeni qurumun yaradılmasına nail ola bilmişik. «ASAN xidmət» artıq öz fəaliyyətinə başlayır və bu xidmətdə məhz dediyim amillər cəmləşir – innovasiya, insanlara xidmət, korrupsiyaya qarşı mübarizə, şəffaflıq, yenilik, müasirlik. Ölkəmiz məhz bu istiqamətdə inkişaf etməlidir. Buna nail olmaq üçün, əlbəttə, biz kadr potensialının hazırlanmasına bundan sonra da çox ciddi fikir verməliyik.

Mən çox şadam ki, indi Azərbaycanda müxtəlif yerlərdə gənc, müasir kadrlar yetişir, fəaliyyətə başlayır. Onlar vətənpərvərlik ruhunda tərbiyə olunub, bilikli, savadlı gənclərdir. Onlar bizim gələcəyimizdir. Ölkəmizi gələcəkdə də uğurla idarə

etmək üçün bu gün güclü gənc kadr potensialı yetişməlidir. Bu məqsədə çatmaq üçün biz müxtəlif imkanlardan istifadə edirik. Bildiyiniz kimi, gənclərimizi xaricdə oxuduruq, onları dövlət hesabına inkişaf etmiş ölkələrin aparıcı ali məktəblərinə göndəririk. Bu, əlbəttə, müsbət təşəbbüs idi və davam edir. Ancaq mən hesab edirəm ki, indi daha çox ölkə daxilində biz elə sistem yaratmalıyıq ki, müasir biliklərə çatmaq, onları əldə etmək üçün bütün imkanlar olsun. Bu sahədə də tədbirlər görülür və görüləcəkdir. Biz yeni texnologiyaları, müasir yanaşmanı tələb edən sahələrə gəncləri daha da çox cəlb etməliyik.

Maliyyə məsələləri ilə bağlı olan bir məqamı da qeyd etmək istəyirəm. Baxmayaraq ki, mən bu məsələ barədə dəfələrlə fikirlərimi, iradlarımı bildirmişəm və müəyyən işlər görülübdür, ancaq hələ ki, lazımi səviyyədə deyildir. Azərbaycanda nağdsız ödəmələr çox aşağı səviyyədədir. Bu, böyük problemdir. Bir tərəfdən, bizə bu sistemdə şəffaflığın tam təmin edilməsinə imkan vermir, eyni zamanda, xoşagəlməz halların mövcudluğunu da şərtləndirir. Hesab edirəm ki, bu il daha da ciddi tədbirlər görülməlidir. Mən təkliflər gözləyirəm ki, nağdsız hesablaşmaların, ödəmələrin sayı artsın. 2012-ci ildə bu sahədə çox böyük işlər görülmüşdür və mən bu işləri qiymətləndirirəm. Hesab edirəm ki, biz bu il və bundan sonrakı illərdə də bu sahəyə çox ciddi fikir verməliyik. Heç bir yeni üsul icad etməməliyik, inkişaf etmiş ölkələrin təcrübələrinə baxmaq kifayətdir. Əlbəttə, Azərbaycan inkişafda olan dövlətdir və bizdə bu sahədə hələ ki, vəziyyət inkişaf etmiş ölkələrdəki kimi deyil. Amma biz buna çatmalıyıq. Çünki biz qarşıya hədəf qoymuşuq ki, bütün sahələrdə inkişaf etmiş ölkələrin səviyyəsində olmalıyıq və onların müsbət təcrübələrini Azərbaycanda tətbiq etməliyik. Bu sahə də çox vacib sahədir. Bu bizə imkan verəcək ki, öz maliyyə və iqtisadi sahəmizdə şəffaflığı artıraq və insanlara daha da yaxşı xidmət göstərək.

Regionların inkişafı ilə bağlı, hesab edirəm ki, bu il də bütün işlər yüksək səviyyədə aparılacaqdır. Regionların inkişafı

bilavasitə Dövlət İnvestisiya Proqramının tərkib hissəsidir. İnvestisiyaların böyük əksəriyyəti regionlara yönəldilibdir və ikinci regional İnkişaf Proqramı əminəm ki, uğurla başa çatacaqdır. Regionların, xüsusilə sahibkarlığın inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətini də mən yüksək qiymətləndirirəm. Bu fondun xətti ilə bu günə qədər təxminən 1 milyard manata yaxın vəsait aşağı faizlərlə kredit şəklində sahibkarlara verilmişdir və çox şadam ki, bu vəsait qaytarılır. Sahibkarlar bu kreditlərə böyük məsuliyyətlə yanaşırlar və eyni zamanda, İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu sahibkarlığın inkişafı üçün öz metodik tövsiyələrini verir və biznesin düzgün aparılması üçün istiqamət də göstərir. Biz özəl sektorun, sahibkarlığın inkişafına təkcə maliyyə prizmasından yanaşmırıq, tövsiyələr, məsləhətlər də veririk.

Bu il sahibkarlara 250 milyon manat güzəştli kredit veriləcək və bu vəsaitin 83 faizi regionların payına düşür. Hesab edirəm ki, biz görülən işlər nəticəsində regionların inkişafına böyük xidmət göstərmişik, regionlarla paytaxt arasındakı fərqi azalda bilmişik. Bunu etmək çox çətindir. Çünki paytaxt da çox sürətlə inkişaf edir və bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Şadam ki, bölgələrdə də yerli vətəndaşlar, icra orqanlarının nümayəndələri, fəallar çalışırlar ki, onların da şəhərləri, qəsəbələri, kəndləri gözəlləşsin. Kreditlərin verilməsi özünü doğruldub, ildən-ilə məbləğ artır və biz bu 250 milyonu daha çox əvvəlki illərdə verilmiş və qaytarılan vəsaitlər hesabına təmin edirik.

Bununla bilavasitə bağlı olan ərzaq təhlükəsizliyi məsələləri də daim diqqət mərkəzindədir. Mən çox şadam ki, biz qarşıya qoyulmuş hədəfə yaxınlaşırıq. Keçən dəfə sahibkarlarla görüşdə qeyd etmişdim ki, indi biz özümüzü əsas ərzaq malları ilə təmin edirik. Amma, əlbəttə, istərdim ki, biz özümüzü 100 faiz təmin etmək səviyyəsinə çataq. Artıq görülən işlər, xüsusilə iri fermer təsərrüfatlarının yaradılması, meliorativ tədbirlərin görülməsi, kreditlərin verilməsi, infrastruktur, yolların və s. məsələlərin

həlli hesabına biz buna nail olacağıq ki, Azərbaycan özünü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etsin. Bu, tarixi nailiyyət olacaqdır. Bu, gələcəyə hesablanmış bir addım olacaqdır. Çünki, əlbəttə ki, biz dünya iqtisadiyyatının bir parçasıyıq və Azərbaycanda çatışmayan, yəni istehsalı lazımi səviyyədə olmayan məhsulları idxal edirik. Hesab edirəm ki, hər bir ölkə əsas ərzaq məhsulları ilə özünü təmin etməlidir. Bu həm təhlükəsizlik nöqteyi-nəzərdən vacibdir, həm də yerli istehsalın gücləndirilməsi deməkdir və dövlətimiz bu məqsədə çatmaq üçün, demək olar ki, hər şeyi edir. İnfrastruktur layihələri dövlət hesabına icra edilir, kənd infrastrukturuna milyardlarla vəsait qoyulur. Kreditlər sahibkarlara dövlət qurumları tərəfindən güzəştli şərtlərlə verilir ki, onlar öz bizneslərini qursunlar. «Aqrolizinq» tərəfindən gətirilən texnika icarəyə verilir. Hətta biz iribuynuzlu mal-qaranı da alıb gətirdir, fermerlərə paylayırıq ki, onlar biznes qursunlar. Kəndlilər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad-dırlar. Gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. İkinci belə ölkə tapılmaz ki, fermerlərə bu qədər şərait yaradır, güzəşt edir və bu qədər vəsait ayırır. Bunu biz insanların yaxşı yaşaması, biznes şəraitinin yaxşılaşdırılması və kənd təsərrüfatının inkişafı üçün edirik. Biz, yenə də deyirəm, bu sahədə böyük ixracatçı ölkəyə çevrilə bilərik və artıq çevrilirik. Yəni bu il bu məsələ də xüsusi diqqət tələb edir və bütün lazımi tədbirlər görülməlidir, o cümlədən investisiya proqramında da bu öz əksini tapıbdır.

Qeyd etdiyim kimi, Bakı və onun qəsəbələrinin inkişafı Dövlət Proqramı bu il başa çatmalıdır. Bu da çox ciddi, böyük, qısamüddətli, eyni zamanda, çox təsirli proqramdır və bu il biz bu proqramı başa çatdıracağıq.

Hesab edirəm ki, 2013-cü ildə sənaye istehsalı ilə bağlı, çox ciddi addımlar atılacaqdır. Bütün hazırlıq işləri görülüb. Nəinki hazırlıq işləri görülüb, eyni zamanda, artıq burada qeyd olundu, böyük sənaye müəssisələri işə düşüb. Onların bir hissəsi dövlət, böyük hissəsi isə özəl sektor tərəfindən icra edilib. Əvvəlki illərdə qeyd etdiyim kimi, Azərbaycanda bir neçə sənaye mərkəzi yaradılır. Gəncədə, Sumqayıtda, Bakının Qaradağ

rayonunda, digər yerlərdə böyük sənaye obyektləri tikilir və 2013-cü ildə bu istiqamətdə daha da böyük işlər görüləcəkdir. Xüsusilə sənaye istehsalının təşviqi üçün yeni qaydaların tətbiq edilməsi, texnoparkların fəaliyyətinin gücləndirilməsi və bu fəaliyyəti gücləndirmək üçün əlavə tədbirlərin görülməsi, güzəştlərin verilməsi məsələləri nəzərdə tutulub.

Qaldı ki sahibkarlar, yerli və xarici şirkətlər, kiçik və böyük şirkətlər bu imkanlardan istifadə etsinlər. Azərbaycanda bütövlükdə investisiya iqlimi çox yaxşıdır. Birbaşa xarici sərmayələrin qoyuluşuna görə biz MDB məkanında liderlik mövqelərimizi uzun illərdir ki, saxlaya bilmişik. Bizneslə məşğul olmaq üçün bütün imkanlar vardır, heç bir məhdudiyyət yoxdur, əksinə, qeyd etdiyim kimi, dövlət də öz dəstəyini əsirgəmir.

Texnoparkların fəaliyyəti üçün yenə də dövlət tərəfindən builki investisiya proqramında kifayət qədər böyük vəsait nəzərdə tutulur ki, o ərazilər təmizlənsin, orada bütün infrastruktur, kommunikasiyalar, dəmir yolu xətləri yaradılsın. Yerlər artıq müəyyən edilib, təmizlik işləri gedir. Yenə də deyirəm, qaldı ki, sahibkarlar, investorlar gəlsinlər, şirkətlər qursunlar və biz ölkəmizə lazım olan sənaye məhsulunun istehsalına böyük həcmdə nail olaq. Sənayeləşmə siyasətimiz imkan verəcək ki, biz bundan sonrakı illərdə də iqtisadi inkişafa nail olaq.

Çünki giriş sözümdə qeyd etdiyim kimi, ötən il qeyri-neft iqtisadiyyatımız 9,7 faiz artmışdır. Əslində, iqtisadi artım bu deməkdir. Çünki neft sektorunda qeyd etdiyim kimi, azalma olmuşdur. Yəni bunu biz sənayeləşmə və biznes mühitinin yaxşılaşdırılması hesabına təmin edə bilmişik. Biz elə etməliyik ki, bu inkişaf templərini saxlayaq və hesab edirəm ki, qeyri-neft sektorunda inkişaf 10 faiz səviyyəsində olmalıdır. Biz buna nail ola bilsək, o zaman uzunmüddətli perspektivdə ölkəmizin çox güclü sənaye potensialı yaranacaqdır. Bu potensial bu gün artıq yaranmaqdadır. Biz artıq xarici bazarlara çıxırıq, yeni bazarlar aşkarlayırıq. Bu sahədə, əlbəttə ki, müxtəlif ölkələrlə bizim

qarşılıqlı ikitərəfli əlaqələr də çox vacibdir. Biz öz biznes imkanlarımızı xarici bazarların aşkarlanması hesabına artırmalıyıq. İstər ərzaq, istərsə də sənaye məhsulları ilə bağlı. Çünki hesab edirəm, biz elə güclü sənaye potensialı yaratmalıyıq ki, məhsullarımız rəqabətqabiliyyətli olsun və əlbəttə, xarici bazarlara istiqamətləndirilsin. Çünki daxili bazar o qədər də geniş deyil, amma planlarımız çox böyük və genişdir. Mən hesab edirəm ki, 2013-cü ildə bu sahədə çox ciddi addımlar atılacaqdır.

Giriş sözümdə enerji təhlükəsizliyi ilə bağlı fikirlərimi bildirdim, bir daha təkrar etməyə ehtiyac yoxdur. Qeyd etmək istəyirəm ki, bu daim diqqət mərkəzində olan məsələdir və Azərbaycan dünya miqyasında qlobal enerji bazarında ciddi rola malik olan bir ölkə kimi artıq özünü təsdiqləyib. Bəzi Avropa ölkələrinin enerji balanslarında Azərbaycanın enerji daşıyıcıları 30–35 faiz təşkil edir. Yəni biz bu baxımdan bir neçə Avropa ölkəsinin enerji təhlükəsizliyində bilavasitə iştirak edirik. Əgər bizim zəngin qaz resurslarımızı da buna əlavə etsək və bayaq qeyd etdiyim kimi, irəli sürülmüş layihələri uğurla, vaxtında icra etsək, Azərbaycan onilliklər bundan sonra da bölgənin, Avropanın, dünyanın enerji təhlükəsizliyi məsələlərinin həllində əvəzolunmaz rol oynayacaqdır. Əlbəttə, bu bizim həm iqtisadi, həm siyasi çəkimizi artıracaqdır. Mən buna çalışıram. Hesab edirəm, biz buna nail ola bilmişik ki, bu gün Azərbaycan istənilən sahədə çox ciddi beynəlxalq oyunçuya çevrilibdir.

Bu ildən biz Avropa Olimpiya oyunlarına hazırlıq işlərinə də başlamalıyıq. Keçən ilin sonunda Avropa Olimpiya Komitəsinin Baş Məclisində I Avropa Olimpiya oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Mən bu məsələ ilə bağlı Azərbaycan xalqını təbrik etmişəm, Azərbaycan xalqına müraciət etmişəm. Çünki hesab edirəm ki, bu çox ciddi hadisədir. Bu eyni zamanda, Azərbaycanda son illər ərzində görülən işlərin təzahürüdür, beynəlxalq imicimizin yüksək səviyyədə olmasının əlamətidir. Azərbaycanın iqtisadi və siyasi cəhətdən sabit ölkə kimi tanınmasının nəticəsidir. Böyük məsuliyyətdir, böyük şərəfdir

və böyük etimaddır. Mən heç də şübhə etmirəm ki, biz bu məsuliyyəti şərəflə hiss edərək lazım olan bütün tədbirləri görəcəyik və Avropa Olimpiya oyunlarını ən yüksək səviyyədə, yəni Beynəlxalq Olimpiya oyunları səviyyəsində keçirəcəyik.

Yaxın günlərdə təşkilat komitəsinin yaradılması ilə bağlı qərar veriləcəkdir və işlər dərhal başlanmalıdır. Əlbəttə, dövlət qurumları bu işlərdə fəal iştirak etməlidir. Buraya infrastruktur, nəqliyyat, təhlükəsizlik, turizm – yəni bütün sahələr cəlb edilməlidir. Bir daha biz dünyaya göstərəcəyik ki, Azərbaycan qonaqları qəbul etmək üçün böyük imkanlara malikdir. Azərbaycan bölgədə qonaqpərvərliyin, demək olar ki, rəmzidir. Bizim bütün imkanlarımız var və biz Azərbaycanı güclü müasir dövlət kimi bir daha dünyaya təqdim edəcəyik.

Nəhayət, bir məsələni də vurğulamaq istəyirəm. Artıq burada deyildi ki, gələn ay birinci telekommunikasiya peykimiz orbitə çıxarılacaqdır. Bu da tarixi hadisədir. Doğrudan da Azərbaycan kosmik ölkəyə çevrilir, biz kosmik sənayenin inkişafı ilə məşğuluq və bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə, çətin idi ki, vaxt gələcək Azərbaycan kosmik ölkələrin sırasına daxil ediləcəkdir. Amma bu vaxt gəlir, yaxın günlərdə biz bu tarixi hadisəni qeyd edəcəyik. Bu özlüyündə bütün cəhətlərdən böyük bir nailiyyətdir – həm ölkənin prestiji, həm də müasirlik, yeni texnologiyaların inkişafı üçün. Bu biznes üçün də sərfəlidir, çünki iqtisadi cəhətdən də səmərəli layihədir. Amma ən önəmlisi odur ki, ölkəmizin inkişafını və niyyətini göstərir. Ümumiyyətlə, bizim dünyagörüşümüzü və siyasətimizi göstərir. Çünki biz müasir, güclü dövlət qururuq. Biz regional müstəvidən çoxdan çıxmışıq. Postsovet ölkəsi adını, necə deyərlər, artıq çoxdan arxada qoymuşuq. Bəzi hallarda xarici tərəfdaşlarla görüşlər əsnasında deyiləndə ki, postsovet ölkələr, deyirəm: saxlayın burada. Azərbaycan postsovet ölkəsi deyildir. Bəlkə kimsə postsovet ölkəsidir, biz deyilik. Biz müstəqil Azərbaycan dövlətiyik.

Bu müstəqillik dövründə biz elə böyük uğurlara imza atmışıq ki, hər bir Azərbaycan vətəndaşı bununla fəxr edə bilər. Onların içində peykin buraxılması xüsusi yer tutur. Bu həm böyük məna

daşıyır, həm də bunun böyük rəmzi mənası vardır. Əminəm ki, bu hadisə gələcəkdə müasirliyə, inkişafa doğru atılan addımlarımızı artıracaqdır. Bu hadisəni və ümumiyyətlə, İKT sahəsinə verilən diqqəti və bu sahədə əldə edilmiş uğurları nəzərə alaraq, mən 2013-cü ili «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edirəm və hesab edirəm ki, 2013-cü ildə bu sahədə biz daha da böyük nailiyyətlərə çatmalıyıq.

İl başlayır, bütün dövlət, hökumət qurumları öz vəzifə borcunu bilir. Əminəm ki, hər bir dövlət məmuru bu il ərzində öz vətəninə, xalqına sədaqətlə xidmət edəcək və 2013-cü ili də biz uğurla başa vuracağıq. Sağ olun.

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB KUMAR MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Hindistan əlaqələri əsrlərdən bəri davam edən xoş ənənələrə malikdir. Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2013-cü il*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU**
**XANIM KVENTİN BRAYSA**

Hörmətli xanım General-qubernator!

Ölkənizin milli bayramı – Avstraliya Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Avstraliya arasındakı dostluq münasibətləri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2013-cü il*

## SLOVENİYA RESPUBLİKASININ BAŞ NAZİRİ YANEZ YANŞA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 16-da Sloveniya Respublikasının Baş naziri Yanez Yanşa ilə təkbətək görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Sloveniyanın Baş naziri Yanez Yanşa ilə NATO-nun Çikaqo Sammiti zamanı görüşünü və ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı apardığı müzakirələri məmnunluqla xatırlatdı. Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayan prezident İlham Əliyev Yanez Yanşanın ölkəmizə səfərinin uğurlu olacağına, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığımızın genişləndirilməsi və güclü tərəfdaşlıq əlaqələrinin qurulması işinə təkan verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Baş nazir Yanez Yanşa böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin iqtisadi əlaqələrimizin genişləndirilməsi baxımından önəmini qeyd etdi. Bakıda təşkil olunacaq Azərbaycan–Sloveniya biznes-forumu zamanı əməkdaşlığımıza dair imzalanacaq sazişlərin əhəmiyyətini vurğulayan Baş nazir ikitərəfli əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu qeyd etdi.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Sloveniya arasında ikitərəfli münasibətlərin siyasi və beynəlxalq əməkdaşlıq sahələrində razılıq doğurduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına göstərdiyi dəstəyə görə Sloveniya hökumətinə minnətdarlığını ifadə etdi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətinin*

*əhəmiyyətini vurğuladı. İkitərəfli münasibətlərimizin genişləndirilməsində iqtisadi əməkdaşlığın vacib rol oynadığını deyən prezident İlham Əliyev birgə iqtisadi fəaliyyət, investisiya qoyuluşu və digər sahələrdə əlaqələri inkişaf etdirmək üçün imkanların araşdırılmasının zəruriliyini qeyd etdi.*

*Sloveniya Respublikasının Baş naziri Yanez Yanşa prezident İlham Əliyev ilə NATO-nun Çikaqo Sammiti zamanı əlaqələrimizin inkişafı ilə bağlı apardıqları müzakirələrdən sonra ölkələrimiz arasında bütün razılaşmaların həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Baş nazir ölkəsinin Azərbaycanın regiondakı mövqeyini çox yüksək qiymətləndirdiyini dedi. Yanez Yanşa Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətinin önəmini də vurğuladı. Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu qeyd edən Baş nazir öz növbəsində iqtisadi sahədə əlaqələrimizi genişləndirməyin vacibliyini vurğuladı. İş adamlarından ibarət böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin əhəmiyyətinə toxunan Baş nazir iqtisadi əlaqələrimizin genişləndirilməsi üçün qarşılıqlı marağın olduğunu qeyd etdi.*

## ABŞ MÜDAFİƏ NAZİRİNİN BAŞ MÜŞAVİRİ KETLİN HİKSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də ABŞ Müdafiə nazirinin baş müşaviri xanım Ketlin Hiksin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edən ABŞ Müdafiə nazirinin baş müşaviri xanım Ketlin Hiks paytaxtımızın onda dərin təəssürat yaratdığını dedi. Amerikalı qonaq Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakının və bu missiyaya verdiyi töhfənin ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini dedi. Xanım Ketlin Hiks bildirdi ki, ABŞ ölkələrimiz arasında müdafiə sahəsində əlaqələri daha da genişləndirməkdə və strateji əməkdaşlıq səviyyəsinə çatdırmaqda maraqlıdır. O bu sahədə əməkdaşlığımızın istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılmasının önəmini qeyd etdi.*

*Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimizin müdafiə sahəsində əməkdaşlığının uzun tarixə malik olduğunu və razılıq doğurduğunu vurğuladı. Müdafiə sahəsində əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafındakı rolunu qeyd edən prezident İlham Əliyev bu əməkdaşlığın regional və enerji təhlükəsizliyi, eləcə də sabitliyin möhkəmləndirilməsi baxımından önəmini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində daha da genişləndiriləcəyinə əminliyini ifadə etdi.*

## URUQVAY RESPUBLİKASI PREZİDENTİNİN XÜSUSİ ELÇİSİ, PREZİDENT ADMİNİSTRASİYASININ DÖVLƏT KATİBİ DİYEQO KANEPAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Uruqvay Respublikası Prezidentinin xüsusi elçisi, Prezident Administrasiyasının Dövlət katibi Diyeqo Kanepanı qəbul etmişdir.*

*Xüsusi elçi, Prezident Administrasiyasının Dövlət katibi Diyeqo Kanepan Uruqvay Respublikasının Prezidenti Xose Alberto Muxika Kordanonun şəxsi məktubunu dövlətimizin başçısına çatdırdı. Diyeqo Kanepan Uruqvay prezidentinin və hökumətinin Azərbaycan ilə ikitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirmək və əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün ona birbaşa tapşırıqlar verdiyini dedi. O, ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduğunu bildirdi. Diyeqo Kanepan ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Uruqvaylı qonaq ölkəmizə səfəri zamanı paytaxtımızda gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı Uruqvay Respublikasının Prezidenti Xose Alberto Muxika Kordanonun şəxsi məktubuna görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişaf etdirilməsi baxımından rolunu qeyd etdi. Azərbaycan prezidenti ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulacağına ümidvar olduğunu bildirdi.*

## QANLI YANVAR FACİƏSİNİN 23-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ÜMUMXALQ ZİYARƏTİNDƏ İŞTİRAK

*20 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlmişdir.*

*Qanlı Yanvar hadisələrindən 23 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilmişdir. Təpədən dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdir. Düz 23 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

*Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda dəhşətli faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi.*

*Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəlib, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.*

*Lakin ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdur.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi. Azərbaycan xalqı hər il Ümumxalq Hüzn Günündə 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.*

*Hər il olduğu kimi, Azərbaycan Prezidenti Administrasiyası tərəfindən Qanlı Yanvar faciəsinin 23-cü ildönümü ilə əlaqədar geniş tədbirlər planı hazırlanmış, respublikanın bütün şəhər və rayonlarında, xarici ölkələrdəki səfirliklərimizdə, diaspor təşkilatlarında anma mərasimləri keçirildi. Ümumdövlət və ümumxalq ehtiramı sübut edir ki, şəhidlər ölməzdir. Bu ölməzlik müstəqilliyimizdə, birliyimizdə və xoşbəxt gələcəyimizdə yaşayır.*

* * *

*Yanvarın 20-də səhər Azərbaycanda Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.*

# BÖYÜK BRİTANİYA MİLLİ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ, LONDON OLİMPİYA OYUNLARININ İCRAÇI DİREKTORU LORD SEBASTYAN KOEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Böyük Britaniya Milli Olimpiya Komitəsinin prezidenti, London Olimpiya oyunlarının icraçı direktoru Lord Sebastyan Koeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı XXX London Yay Olimpiya oyunlarının yüksək səviyyədə təşkil olunması münasibətilə Böyük Britaniya Milli Olimpiya Komitəsinin prezidenti, London Olimpiya oyunlarının icraçı direktoru Lord Sebastyan Koeni təbrik etdi. Prezident İlham Əliyev onun Azərbaycana bu səfərinin ölkəmizlə tanış olmaq üçün yaxşı imkan yaradacağını dedi.*

*Böyük Britaniya Milli Olimpiya Komitəsinin prezidenti, London Olimpiya oyunlarının icraçı direktoru Lord Sebastyan Koen öz növbəsində Azərbaycan idmançılarının XXX London Yay Olimpiya oyunlarında əldə etdikləri uğurlar münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. O, səfəri zamanı I Avropa oyunlarının keçiriləcəyi idman obyektləri və eləcə də paytaxtımızla yaxından tanış olacağını vurğuladı.*

*Görüşdə ölkəmizdə idmanın bütün növlərinin inkişafı ilə bağlı görülən işlərin önəmi vurğulandı, Azərbaycanın dünya olimpiya hərəkatındakı rolu qeyd olundu, ölkəmizin beynəlxalq idman təşkilatları ilə əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə edildi.*

## İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*22 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 22-də İsveçrə Konfederasiyasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı Sürixdən Davos şəhərinə yola düşdü.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2013-cü il*

# İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ UELİ MAURER İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, xüsusilə də enerji sektorunda inkişaf perspektivlərinin önəmi vurğulandı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqların hazırkı vəziyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident Ueli Maurer son illərdə Azərbaycanın qazandığı yüksək iqtisadi nailiyyətlərə görə prezident İlham Əliyevi təbrik etdi.*

## «CNN İNTERNATİONAL» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «CNN İnternational» televiziya kanalının iqtisadi məsələlər üzrə müxbiri Riçard Kestə müsahibə vermişdir.*

*Dövlətimizin başçısının müsahibəsi həmin gün «CNN İnternational»da yayımlanmışdır.*

**S u a l** *(müxbir):* **Burada, Davosda inkişaf edən iqtisadiyyatlar arasındakı yarışma aydın şəkildə görünür. Nəinki inkişaf etmiş dünyanın, o cümlədən Rusiyanın, Malayziyanın və Azərbaycanın reklamlarını burada hər yerdə görmək olar. Ölkə potensialının inkişaf etdirilməsi Azərbaycana çoxsaylı sərmayələrin cəlb edilməsinə yol açdı. 2012-ci ildə ölkə iqtisadiyyatına yatırılan əsas sərmayələrin həcmi 18 faiz artmışdır. Bu həcmdə daxili sərmayələrin payı təxminən 80 faiz olmuşdur. Bu gün bir az əvvəl mənim prezident Əliyev ilə söhbətim oldu. Prezidentə verdiyim ilk sual belə idi: «Nəyə görə onun ölkəsi avtobus və binalarda bu qədər reklam yerləşdirib? Nəyə görə onun ölkəsi burada bu qədər reklam edilir?»**

**C a v a b:** Düzdür, ölkə inkişaf edir. İnkişaf çox sürətlə gedir və şübhəsiz ki, biz ölkəmizi beynəlxalq biznes ictimaiyyəti və xüsusilə də Azərbaycan ilə hələ də əməkdaşlıq etməyən işgüzar dairələrə daha geniş şəkildə təqdim etmək istəyirik. Biz qapılarımızı geniş şəkildə açmışıq və dostlarımızı, tərəfdaşlarımızı Azərbaycanda işləməyə, sərmayə qoymağa dəvət etmək istəyirik.

**S u a l: Beləliklə, bu məqsəd üçün Dünya İqtisadi Forumunu ən münasib yer hesab edirsiniz? Siz deyirsiniz ki, neçə ildir buraya gəlirsiniz. Məqsəd nədən ibarətdir?**

**C a v a b:** Əlbəttə, Dünya İqtisadi Forumu bu baxımdan ən əlverişli məkandır. Yəni burada beynəlxalq biznes və siyasi dairələrin elitası toplaşır. Beləliklə, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri və nümayəndələri buraya gəlirlər. Ona görə də bura ölkənin təqdimatını keçirmək üçün ən yaxşı məkandır.

**S u a l: Bu gün xəbərlərdə daha çox *bp*-nin adı çəkilir. Bu şirkətin «ROSNEFT»lə olan əlaqələri, *bp*-nin Azərbaycan ilə olan münasibətləri səbəbindən Rusiya hökumətinin «ROSNEFT» və *bp* vasitəsilə ölkənizə müdaxilə etmək cəhdləri ilə bağlı narahatlıq qeyd olunur. Bu məsələ Sizi narahat edirmi? Rusiya ölkənizə müdaxilə etmək üçün *bp*-dən istifadə edə bilərmi?**

**C a v a b:** Hər şeydən öncə deyim ki, bu bizi narahat etmir. Birincisi, *bp* 1994-cü ildən bəri, demək olar ki, Azərbaycanın müstəqillik qazandığı ilk illərdən ölkəmizdə fəaliyyət göstərir. Bu təxminən 20 illik tarixə malik olan dostluq, əməkdaşlıq və tərəfdaşlıq münasibətləridir, əlaqələrimiz bundan sonra hələ ən azı 20 il də davam edəcəkdir. Çünki bizim hazırda *bp* şirkəti ilə birgə həyata keçirdiyimiz layihələr gələcəyə yönəlib. Bu baxımdan *bp*-nin digər tərəfdaşları ilə əməkdaşlığı məni narahat etmir.

**S u a l: Cənab Prezident, burada, Davosda Sizin üçün ən əhəmiyyətli məsələ nədir? Əlbəttə, bilirik ki, ləng qlobal artım məsələləri gündəmdədir. Bu məsələlər inkişaf edən bazarlara və ölkələrə necə təsir göstərir? Bu Sizi sözün əsl mənasında, narahat edirmi?**

**C a v a b:** Bu gün bizim iqtisadiyyatımız çox sabitdir. Biz iqtisadi böhran illərində belə, inkişafımızı davam etdirə bilmişik. Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biridir. Biz 10 ildən də az müddətdə ümumi daxili məhsulu 3 dəfə, yəni 300 faizdən çox artıra

bilmişik. Hazırda iqtisadiyyatımız daha da şaxələndirilib. Bu təkcə enerji sahəsinə aid deyil. Bizim əsas məqsədimiz Azərbaycanın qeyri-enerji sektoruna, xüsusilə yüksək texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları və xidmət sahələrinə investisiyaları cəlb etməkdir.

**S u a l: Nəhayət, studiyamda böyük bir sxem vardır. İcazənizlə, mən Sizə bir sxem göstərim. Baxın, bu sxem belədir: 2 ox – biri sağa, digəri isə sola baxır. Bir tərəfdən ABŞ, digər tərəfdən isə Avropa İttifaqıdır.**

**C a v a b:** Deyirsiniz ki, mən oxun daha çox riskli istiqamətini göstərim?

**S u a l: Bəli. O istiqaməti ki, orada risk daha çoxdur.**

**C a v a b:** Daha riskli tərəfdən söhbət gedirsə, onda oxun istiqaməti belə olmalıdır. Fikrimcə, ABŞ-ın iqtisadiyyatı Avropa İttifaqı iqtisadiyyatından daha sabitdir. Avropa İttifaqında problemlər qalmaqdadır. Orada hələ də ölkələr var ki, onların böyük Avropa dövlətlərinin yardımına, müəyyən maliyyə dəstəyinə ehtiyacı vardır. Bu, asan məsələ deyil. Bu hətta yardım alan ölkələrdə belə, müəyyən qıcıqlanma yaradır. Buna görə də bütün bunlardan çıxış edərək demək istərdim ki, ABŞ iqtisadi və siyasi nöqteyi-nəzərdən daha sabit görünür.

## ABŞ-ın «BOOZ&CO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ÇEZARE MAYNARDİ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də ABŞ-ın qlobal layihələr üzrə tanınmış konsaltinq şirkəti «Booz&CO»nun baş icraçı direktoru Çezare Maynardi ilə görüşmüşdür.*

*Görüşdə «Booz&CO» şirkətinin baş icraçı direktoru Çezare Maynardi Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafının dövlət tərəfindən dəstəklənməsini yüksək qiymətləndirdi. Azərbaycanda həyata keçirilən genişzolaqlı internet strategiyası və yüksək texnologiyalar parkının yaradılması ilə bağlı layihələrin əhəmiyyətini vurğuladı, bu sahədə artıq işlərin başlanmasından məmnunluğunu ifadə etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkəmizdə neftdən əldə olunan gəlirlərin bir hissəsinin yüksək texnologiyaların inkişafına yönəldildiyini vurğulayaraq, informasiya-kommunikasiya texnologiyaları sahəsində özəl sektorun iştirakının daha da genişləndirilməsinin önəmini qeyd etdi.*

## «HOLCİM GROUP» ŞİRKƏTİNİN RƏHBƏRİ BERNARD FONTANA İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Holcim Group» şirkətinin rəhbəri Bernard Fontana ilə görüşmüşdür.*

*Ötən il Bakıda «Holcim Group» şirkətinin sement zavodunun açılışında prezident İlham Əliyevin iştirakını məmnunluqla xatırladan Bernard Fontana Azərbaycanda biznes fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğunu yüksək qiymətləndirdi. Bu şəraitin səmərəli fəaliyyət üçün yaxşı zəmin yaratdığını bildirdi.*

*Prezident İlham Əliyev «Holcim Group» şirkəti tərəfindən Azərbaycana sərmayə yatırılmasının önəmini qeyd etdi. Dövlətimizin başçısı bu şirkət ilə ölkəmiz arasında əməkdaşlığın İsveçrə–Azərbaycan iqtisadi əlaqələrinin inkişafına töhfə verdiyini vurğuladı.*

*Görüşdə Azərbaycan–İsveçrə biznes əlaqələrinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın «McKİNSEY&COMPANY» ŞİRKƏTİNİN RƏHBƏRİ DOMİNİK BARTON İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda ABŞ-ın qlobal layihələrinin idarəçiliyi üzrə tanınmış konsaltinq şirkəti «McKinsey&Company»nin rəhbəri Dominik Barton ilə görüşmüşdür.*

*Görüşdə «McKinsey&Company» şirkətinin rəhbəri Dominik Barton Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirdi. Son vaxtlar Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üçün yaradılmış şəraitin ölkəmizdə bu sahədə layihələrin həyata keçirilməsində xarici investorların diqqətini cəlb etdiyini vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev informasiya-kommunikasiya texnologiyalarının genişləndirilməsində elm və təhsil sahələrinin inkişafının da vacib olduğunu və ölkəmizdə bu işə diqqətin artdığını dedi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan dünyanın bu sahədə tanınmış müxtəlif şirkətləri ilə əməkdaşlıq etməkdə maraqlıdır.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Türkiyə Respublikasının Xarici İşlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə edildi. Nazir Əhməd Davudoğlu Türkiyə prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı.*

*Ölkələrimiz arasında həyata keçirilən bir sıra qlobal layihələrin, o cümlədən Trans–Anadolu qaz boru kəməri (TANAP) layihəsinin əhəmiyyəti qeyd edildi. Azərbaycan–Türkiyə əməkdaşlığının bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və digər məsələlər müzakirə edildi.*

*Azərbaycan prezidenti İlham Əliyev onun da salamlarını Türkiyə prezidenti Abdullah Gülə və Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.*

## *bp* ŞİRKƏTİNİN SƏDRİ KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda bp şirkətinin sədri Karl-Henrik Svanberq ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın davam etməsindən məmnunluq ifadə olundu. «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku, «Şahdəniz», Trans–Anadolu qaz boru kəməri (TANAP) layihələri üzrə əməkdaşlığımızın uğurla həyata keçirildiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Davos Dünya İqtisadi Forumu arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi. Bu əlaqələrin son illərdə inkişaf edərək, yeni mərhələyə daxil olduğu bildirildi. Forumun Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa müsbət təsir göstərdiyi xüsusi qeyd olundu. Ümumi razılığa əsasən, Davos Dünya İqtisadi Forumunun bu ilin aprelində Bakıda keçiriləcəyi və bunun mühüm hadisə olacağı vurğulandı.*

*Klaus Şvab Bakıda keçiriləcək Dünya İqtisadi Forumunun Cənubi Qafqaz və Orta Asiya regionlarında əməkdaşlığın və inteqrasiyanın inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

# BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ BAŞ İCRAÇI DİREKTORU CİN YONQ KAY İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Beynəlxalq Maliyyə Korporasiyasının baş icraçı direktoru Cin Yonq Kay ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Maliyyə Korporasiyası arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olundu. Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanda həyata keçirilən layihələrdə investor kimi iştirak etməsi yüksək qiymətləndirildi.*

*Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı görülən işlərdən danışılan görüşdə Beynəlxalq Maliyyə Korporasiyasının ölkəmizdə, xüsusilə kənd təsərrüfatı və informasiya-kommunikasiya texnologiyaları sahələrində əməkdaşlıqda maraqlı olduğu bildirildi.*

*Prezident İlham Əliyev Beynəlxalq Maliyyə Korporasiyası ilə Azərbaycan arasında əməkdaşlığı yüksək qiymətləndirdi və əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

## «TOTAL» ŞİRKƏTİNİN RƏHBƏRİ KRİSTOF DE MARJERİ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Total» şirkətinin rəhbəri Kristof de Marjeri ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Total» arasında uzun illərdir davam edən əməkdaşlıqdan məmnunluq ifadə olundu. «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun və «Şahdəniz» qaz yatağının işlənməsində Azərbaycan ilə «Total» şirkətinin əməkdaşlığının uğurla davam etdiyi bildirildi.*

*İkitərəfli əməkdaşlığın Azərbaycan–Fransa iqtisadi əlaqələrinin inkişafına da töhfə verdiyi vurğulandı.*

*Görüşdə «Total» şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN «NEFT VƏ QAZ İDARƏÇİLƏRİNİN TOPLANTISI» MÖVZUSUNDA KEÇİRİLƏN SESSİYASINDA İŞTİRAK

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Dünya İqtisadi Forumunun «Neft və qaz idarəçilərinin toplantısı» mövzusunda keçirilən sessiyasında iştirak etmişdir.*

*Dünyada neft və qaz sahəsində tanınmış mütəxəssislərin iştirak etdiyi sessiyada prezident İlham Əliyev Azərbaycanın neft-qaz sektorunda kibertəhlükəsizliyin və ümumilikdə təhlükəsizliyin təmin olunması mövzusunda çıxış etdi.*

*Dövlətimizin başçısı uzun illərdir Azərbaycanın qlobal enerji layihələrində iştirakına diqqət çəkərək ölkəmizin bu sahədə qazandığı uğurlardan danışdı. Prezident İlham Əliyev Azərbaycanda bu sahədə təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təşkil olunduğunu bildirdi və uzun illərdir ölkəmizdə bununla bağlı hər hansı bir problemin yaranmadığını diqqətə çatdırdı.*

*Azərbaycanın regional enerji təhlükəsizlik sistemində xüsusi rol oynadığını vurğulayan dövlətimizin başçısı bu sahədə ölkəmizdə görülən işlərdən, bütövlükdə gələcəkdə həyata keçiriləcək tədbirlərdən danışdı.*

# AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Suma Çakrabarti ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə AYİB arasında uzun illərdir səmərəli əməkdaşlığın mövcudluğu vurğulandı, bu əlaqələrin inkişaf perspektivləri müzakirə olundu. AYİB ilə Azərbaycan arasında enerji, qeyri-enerji, informasiya-kommunikasiya texnologiyaları, sənayenin inkişafı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı. Azərbaycanda sosial infrastrukturun inkişafına xüsusi əhəmiyyət verildiyi vurğulandı.*

*Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini qeyd edən AYİB-in prezidenti ölkəmizə səfər etmək niyyətində olduğunu dedi.*

# UKRAYNA RESPUBLİKASININ SABİQ PREZİDENTİ LEONİD KUÇMA İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Ukraynanın sabiq prezidenti Leonid Kuçma ilə görüşmüşdür.*

*Görüşdə Leonid Kuçma Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırlatdı. Qarşılıqlı səfərlərin, xüsusilə də prezident İlham Əliyev ilə keçirilən görüşlərin əhəmiyyətindən danışıldı.*

*Azərbaycan–Ukrayna münasibətlərinin uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə ölkələrimiz arasında dostluq əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## «MİCROSOFT İNTERNATİONAL» ŞİRKƏTİNİN PREZİDENTİ JAN-FİLİPP KURTUA İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda «Microsoft İnternational» şirkətinin prezidenti Jan-Filipp Kurtua ilə görüşmüşdür.*

*Görüşdə «Microsoft İnternational» şirkəti ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi. Bu şirkətin Azərbaycanda elektron hökumət layihəsinin həyata keçirilməsi istiqamətində təklif etdiyi xidmətlərin əhəmiyyəti vurğulandı.*

*İnformasiya təhlükəsizliyinə dair məsələlərin müzakirə olunduğu görüşdə «Microsoft İnternational» ilə Azərbaycan arasında gələcəkdə strateji əməkdaşlıq müqaviləsinin imzalanması, bu şirkətin ölkəmizdə informasiya mərkəzinin yaradılması ilə bağlı fikir mübadiləsi aparıldı.*

## «THALES ALENİA SPACE» ŞİRKƏTİNİN PREZİDENTİ JAN-LÖ QALLE İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda «Thales Alenia Space» şirkətinin prezidenti Jan-Lö Qalle ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi əhəmiyyət verildiyi vurğulandı. Azərbaycanın ikinci telekommunikasiya və Yer səthini müşahidə peyklərinin orbitə buraxılması ilə bağlı mövcud məsələlər müzakirə olundu. Ölkəmizdə kosmik sənayenin yaradılması, bu sahədə uzunmüddətli inkişaf strategiyasının hazırlanması ilə əlaqədar fikir mübadiləsi aparıldı.*

## «GDF SUEZ» ŞİRKƏTİNİN SƏDR MÜAVİNİ VƏ PREZİDENTİ JAN-FRANSUA SİRELLİ İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda «GDF Suez» şirkətinin prezidenti və sədr müavini Jan-Fransua Sirelli ilə görüşmüşdür.*

*Görüşdə «GDF Suez» şirkəti ilə Azərbaycan arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olundu. Gələcəkdə Azərbaycanda əhalinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə tam təmin olunması sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi.*

*Görüşdə «Abşeron» qaz yatağının işlənməsinə, «Şahdəniz» yatağından hasil olunan qazın alınmasına və nəqlinə dair də fikir mübadiləsi aparıldı.*

## İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda İsrail Dövlətinin Prezidenti Şimon Peres ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–İsrail münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## ƏSİR VƏ İTKİN DÜŞMÜŞ, GİROV GÖTÜRÜLMÜŞ VƏTƏNDAŞLARLA ƏLAQƏDAR DÖVLƏT KOMİSSİYASININ ÜZVLƏRİNƏ

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaradılmasının 20 illik yubileyi münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram!

Dövlət Komissiyası fəaliyyət göstərdiyi illər ərzində çətin və mübariz bir yol keçmiş, daim milli maraqlar və dövlətçilik mənafelərindən çıxış etmiş, öz fəaliyyətində dövlətimizin humanizm prinsiplərini rəhbər tutmuşdur. Ümummilli lider Heydər Əliyev Dövlət Komissiyasının fəaliyyətinin genişləndirilməsinə və səmərəliliyinin artırılmasına böyük önəm verirdi. Bu Komissiya Ermənistanın hərbi təcavüzü nəticəsində əsir və girov götürülmüş şəxslərin geri qaytarılması, eləcə də itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi kimi yüksək humanitar missiyanı dövlət qurumları, ictimai və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqədə layiqincə yerinə yetirmişdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, yaranma səbəbləri və ağır fəsadları, baş vermiş humanitar fəlakət haqqında Dövlət Komissiyası və onun İşçi Qrupunun hazırladığı təbliğat materiallarının yayılmasının münaqişə barədə əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında əvəzsiz rolu vardır. İnformasiya mübarizəsi sahəsində Komissiyanın gördüyü işlər yüksək qiymətləndirilir.

Sülh danışıqlarında Ermənistan Respublikasının qeyri-konstruktiv mövqeyi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmaması, müharibə vəziyyətinin davam etməsi, təmas xəttində atəşkəsin mütəmadi pozulması səbəbindən hərbi və mülki şəxslərin həlak olması, əsir və itkin düşməsi halları Komissiyanın bu məsələlərdə daha həssas və daha məsuliyyətli olmasını zəruri edir.

Əminəm ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bundan sonra da bütün vəzifələrinin öhdəsindən şərəflə gələcəkdir.

Bir daha Sizi 20 illik yubileyiniz münasibətilə təbrik edir, fədakar fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2013-cü il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ XANIM DİLMA RUSSEFFƏ**

Hörmətli xanım Prezident!

Santa-Mariya şəhərində baş vermiş faciə nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Braziliya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, hadisə zamanı zərər çəkənlərin və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2013-cü il*

**ÇEX RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA**

Hörmətli cənab Zeman!

Çex Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, birgə səylərimizlə Azərbaycan Respublikası ilə Çex Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra daha da inkişafına və genişlənməsinə nail olacağıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Çex Respublikasının dost xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2013-cü il*

# «BAKIELEKTRİKŞƏBƏKƏ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YENİ YARIMSTANSİYALARI VƏ İNZİBATİ BİNALARININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*31 yanvar 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin paytaxtın Nərimanov rayonundakı 110/35/6 kilovoltluq yarımstansiyanın açılışında iştirak etmişdir. Həmçinin videokonfrans vasitəsilə Nəsimi rayonundakı 117 saylı, Suraxanı rayonundakı «Hövsan», Binəqədi rayonundakı 207 saylı, Səbail rayonunun Bibiheybət qəsəbəsindəki 102 və 118 saylı 35 kilovoltluq yarımstansiyaların, eləcə də Xəzər, Suraxanı, Sabunçu, Qaradağ, Yasamal rayonları idarələrinin inzibati binalarının və Nəzarət Departamentinin ofisinin açılışı mərasimləri olmuşdur.*

*Prezident İlham Əliyevin birbaşa göstərişi ilə 2006-cı ildən başlayaraq paytaxtın ötürücü və paylayıcı şəbəkəsi əsaslı şəkildə müasirləşdirilmiş və bu sahəyə 606 milyon manatdan çox investisiya qoyulmuşdur. Ötən müddətdə 110 kilovoltluq 20 yarımstansiya inşa edilmişdir. Bu, paytaxtın və Abşeron yarımadasının fasiləsiz, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatında mühüm rol oynamışdır. İndiyə qədər 35 kilovoltluq 51 yarımstansiya tikilmişdir. Kompleks tədbirlər hesabına paytaxtın elektrik şəbəkəsinin güc qəbuletmə və paylama qabiliyyəti 80 faizədək artmışdır. Şəbəkənin qoyuluş gücü 2006-cı ildən bəri 3048 meqavoltamperdən 5245 meqavoltamperə yüksəlib. Texniki itkilər isə 8 faizə qədər azalıb. Müasir Dispetçer Mərkəzi və dairəvi təchizat sxemi yaradılıb. «Bakıelektrikşəbəkə» ASC balansındakı bütün inzibati binaları yenidən qurur və informasiya-kommunikasiya texnologiyalarının tətbiqini də xüsusi diqqətdə saxlayır. Əgər şəbəkə fəaliyyətə baş-*

layana qədər həmin iqtisadi qurum ölkə paytaxtının sürətli sosial-iqtisadi inkişafı ilə bağlı tələbatdan əsaslı şəkildə geri qalırdısa, indi bu tarazlıq müsbət istiqamətdə əksinə dəyişmiş, paytaxtın perspektiv inkişafına uyğun əlavə texniki və güc imkanları yaradılmışdır. Ümumilikdə, Bakı şəhəri və ətraf qəsəbələrin elektrik təsərrüfatında həyata keçirilən kompleks tədbirlər Azərbaycanın inkişaf modelinin və dövlət quruculuğu fəlsəfəsinin insan amilindən qaynaqlandığının real göstəricisidir.

Azərbaycan prezidenti əvvəlcə Nərimanov rayonundakı 110/35/6 kilovoltluq yarımstansiyanın açılışında iştirak etdi.

«Bakıelektrikşəbəkə» ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına yarımstansiya barədə məlumat verdi. O, qeyd etdi ki, bu yarımstansiya 1974-cü ildə Nərimanov rayonundakı sənaye müəssisələrini, o cümlədən Bakı Məişət Kondisionerləri zavodunu elektrik enerjisi ilə təchiz etmək üçün tikilib istismara verilmişdi.

Ötən müddətdə tamamilə köhnələn həmin energetika qurğusunun yerində perspektiv inkişaf da nəzərə alınmaqla, ən müasir standartlara cavab verən yeni yarımstansiya inşa olunub. Əvvəlki yarımstansiya açıq paylayıcı qurğu və yardımçı binaları ilə birlikdə 16 min kvadratmetrdən çox sahədə yerləşirdisə, qapalı tipli yeni yarımstansiyanın yerləşdiyi ərazi bundan 7 dəfə azdır. Bu yeni energetika qurğusunun qoyuluş gücü 100 meqavoltamperdir. Son illərdə tikilən digər yarımstansiyalarda olduğu kimi, bu qurğunun binası da konstruktiv həlli və memarlıq görünüşü ilə diqqəti çəkir, şəhərin ümumi görünüşünə əlavə çalarlar qatır. Ətrafda böyük bir ərazidə abadlıq və yaşıllaşdırma işləri də aparılıb.

Yarımstansiyanın girişində ulu öndər Heydər Əliyevin barelyefi qoyulmuş, burada ümummilli liderin və prezident İlham Əliyevin ölkənin elektroenergetika sisteminin, həmçinin paytaxtın ötürücü və paylayıcı şəbəkəsinin inkişafı üçün həyata keçirdikləri kompleks tədbirlərə dair fotoguşə yaradılmışdır.

Prezident İlham Əliyev yarımstansiyanın dispetçer idarəetmə mərkəzi ilə tanış oldu. Qeyd edildi ki, bu müasir mərkəz fiber-optik

*kabel vasitəsilə «Bakıelektrikşəbəkə»nin Mərkəzi Dispetçer Xidmətinə – SCADA sisteminə qoşulub. Bildirildi ki, bu yarımstansiyanın işə düşməsi ilə şəbəkədə 12 faiz güc artımına nail olunub. Yarımstansiya «Xırdalan» və «Müşfiq» yarımstansiyaları arasındakı dairəvi sxemin tərkib hissəsi olmaqla yanaşı, «Nizami» yarımstansiyası ilə əlaqələndirilib. Yeni yarımstansiya 2-ci 110 kilovoltluq dairəvi təchizat sxeminin yaradılmasında baza rolunu oynamaqla, Heydər Əliyev adına neftayırma zavodunun, həmçinin bir sıra digər mühüm sənaye obyektlərinin enerji təchizatının etibarlılığını artırır. Avtomatik açılmalar və güc çatışmazlığı zamanı bu yarımstansiya dövriyyəyə qoşula bilər. Həmin energetika qurğusu Heydər Əliyev Mərkəzi, Heydər Əliyev prospekti, Dövlət Neft Fondu, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni inzibati binası, yeni inşa edilən Gimnastika Federasiyası, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi və digər mühüm obyektləri elektrik enerjisi ilə təchiz edir.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Yarımstansiya işə düşdükdən sonra paytaxtın Nəsimi rayonundakı 117 saylı yarımstansiya və Sabunçu Rayon Elektrik Təchizatı və Satışı İdarəsinin ofisi ilə canlı bağlantı yaradıldı. Videokonfrans vasitəsilə Nəsimi rayonundakı 117 saylı, Suraxanı rayonundakı «Hövsan», Binəqədi rayonundakı 207 saylı, Səbail rayonunun Bibiheybət qəsəbəsindəki 102 və 118 saylı 35 kilovoltluq yarımstansiyaların, eləcə də Xəzər, Suraxanı, Sabunçu, Qaradağ, Yasamal rayonları idarələrinin inzibati binalarının və Nəzarət Departamentinin ofisinin açılışı oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev yeni yarımstansiyaların və inzibati binaların açılışı münasibətilə «Bakıelektrikşəbəkə»nin kollektivini təbrik etdi:*

– Bu gün Bakı şəhərində çox əlamətdar bir gündür. Bakı şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün bir neçə yerdə gözəl obyektlər açılır. Bu işlər mütəmadi qaydada aparılır və son illər ərzində Bakı şəhərinin elektrik təchizatı böyük dərəcədə inkişaf etmişdir. Əgər əvvəlki illəri yada salsaq görərik ki, işıqla problem həmişə insanları incidirdi. Ancaq Bakı elektrik

şəbəkəsini dövlət sərəncamına qaytarmaqla və işləri yüksək səviyyədə qurmaqla biz bütün xoşagəlməz hallara son qoyduq. Bu gün Bakı şəhərində elektrik enerjisi ilə təchizatda heç bir problem yoxdur. Əksinə, ildən-ilə, gündən-günə elektriklə təchizat yaxşılaşır, maddi-texniki baza möhkəmlənir, yeni xətlər çəkilir, gözəl yarımstansiyalar tikilir və beləliklə, şəhərimizin bundan sonrakı dövrdə inkişaf proqramını həll etmək üçün yeni güclər yaradılır.

Ölkəmiz də, Bakı şəhəri də inkişaf edir. Şəhərimizdə çoxaylı tikinti işləri aparılır, yeni sənaye müəssisələri, iş mərkəzləri, ticarət obyektləri yaradılır. Əlbəttə ki, bütün bu obyektlər qidalanmalıdır. Dayanıqlı elektrik enerjisi ilə təchizat hər bir ölkə üçün başlıca vəzifədir və bunsuz heç bir inkişaf mümkün deyildir. Bu il də bu işlər görülür. Əminəm ki, növbəti illərdə də bu sahədə böyük işlər görüləcəkdir. Dövlət bu sahəyə çox böyük diqqət, qayğı göstərir. Təkcə Bakıda deyil, ölkəmizin bütün yerlərində, bütün yaşayış mənəqələrində dayanıqlı enerji ilə təchizat bizim başlıca vəzifəmizdir. Hazırda ölkədə elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Ancaq ötürücü, paylayıcı xətlər hələ də lazımi səviyyədə deyildir və yaxın illərdə bu məsələ də öz həllini tapacaqdır.

Bu gözəl hadisə münasibətilə – bu gün Bakının bir neçə yerində gözəl mərkəzlər açılır – sizi və Bakı sakinlərini ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

*Sonra prezident İlham Əliyev yarımstansiyanın 110 kilovoltluq qapalı paylayıcı qurğusu ilə tanış oldu. Burada elektroenergetika sahəsində ən son elmi-texniki yeniliklərə əsaslanan avadanlıq quraşdırılıb*

*Daha sonra prezident İlham Əliyev şəbəkənin Tədris Mərkəzinin bu yarımstansiyada yaradılan yeni korpusu ilə tanış oldu. Burada Tədris Mərkəzinin zəngin təcrübəsi əsasında ən müasir tələblərə uyğun hərtərəfli şərait yaradılmışdır. Həmin bazada şəbəkənin əməkdaşları bilik səviyyələrini artıracaq, elektroenergetika sahəsində ən son elmi-texniki yeniliklərlə tanış olacaq, müasir avadanlıq və texnologiyalar üzrə peşə*

vərdişlərinə yiyələnəcəklər. Həyata keçirilən və perspektiv tədbirlər haqqında stendlər vasitəsilə dövlətimizin başçısına yeni yarımstansiyanın əvvəlki vəziyyəti, istismara buraxılan digər yarımstansiyalar və ofislər, quraşdırılan kabel xətləri, Səngəçal–Xırdalan dairəvi 2 şüalı elektrik təchizatı sxemi və sair işlər barədə geniş məlumat verildi. Bütün yarımstansiyalarda olduğu kimi, burada da əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Ərazidə inşa olunan yeməkxana da müasir tələblərə cavab verir.

«Bakıelektrikşəbəkə» son illərdə enerji satışı sistemində müştərilərə xidmətin səviyyəsini yüksəltməyi və bu sahədə ən müasir standartların tətbiqini də xüsusi diqqətdə saxlayır. Nərimanov rayonundakı yeni yarımstansiyanın ərazisində inşa olunan Enerji Satışı Departamenti bunun daha bir əyani nümunəsidir. Bu ofis əlavə torpaq sahəsi alınmadan yarımstansiyanın ərazisindən səmərəli istifadə edilməklə tikilib. Həmin inzibati binanın metronun «Bakmil» stansiyası yaxınlığında yerləşməsi abonentlərin, eləcə də işçilərin rahatlığı üçün olduqca əlverişlidir.

Üçmərtəbəli binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin və prezident İlham Əliyevin ölkənin energetika sisteminin inkişafı üçün reallaşdırdıqları tədbirlərdən bəhs edən fotoguşə yaradılıb.

Binanın ümumi sahəsi 2700 kvadratmetrə yaxındır. Burada abonentlərin qəbulu və müvafiq xidmətlərin göstərilməsi üçün zəruri şərait yaradılıb. Ofis sürətli internet və rabitə şəbəkəsi ilə təmin olunub. Enerji Satışı Departamentinin daxili tərtibatı özünəməxsusluğu ilə seçilir. İldən-ilə respublikamızın iqtisadi imkanları artdıqca bu cür yenidənqurma tədbirləri də gücləndirilir, əhaliyə xidmətin səviyyəsi ən müasir standartlara uyğunlaşdırılır, əmək şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər daha da gücləndirilir.

Enerji Satışı Departamentinin yeni inzibati binası ilə tanış olan dövlətimizin başçısı «Bakıelektrikşəbəkə»nin kollektivi ilə

*görüşdü. Kollektiv adından prezident İlham Əliyevə minnətdarlığını bildirən Baxış Babayev ötən illərdə dövlətin hərtərəfli dəstəyi ilə paytaxtın energetika sisteminin tanınmaz dərəcədə dəyişdiyini dedi.*

**B a x ı ş  B a b a y e v:** Hörmətli cənab Prezident, mən Sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Bakı şəhərində hazırda 4 milyona yaxın insan yaşayır. Sizin rəhbərliyiniz altında Bakı şəhərinin hava xətləri yer altına keçirilib. Bu cür gözəl binalar, bu cür yarımstansiyalar çoxdur. Hamısını Siz bu xalq üçün yaratmısınız. Biz Sizin arxanızda dayanmışıq. Mən bu yaşda bu sözü deyirəm. Siz respublikamızı yüksək səviyyədə idarə edirsiniz. Şəxsən mən ailəmin adından, öz adımdan, Bakı Şəhər Elektrik İdarəsi adından Sizə cansağlığı, müvəffəqiyyətlər arzulayıram. Çox sağ olun, zəhmət çəkib bizimlə görüşə gəlmisiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, mən də sizi təbrik edirəm. Doğrudan da bu gün çox əlamətdar bir gündür. Bir gündə Bakı şəhərinin bir neçə yerində gözəl açılışlar etdik. İndi yarımstansiyalar saraylara bənzəyir. Biz əvvəlki illəri yaxşı xatırlayırıq. Bu gün də qeyd etdim, əfsuslar olsun ki, «Bakıelektrikşəbəkə» müəssisəsi şəxsi idarəçiliyə veriləndən sonra vəziyyət yaxşılığa doğru getmədi, daha da tənəzzülə uğradı. Bir neçə il bundan əvvəl mənim göstərişimlə bu müəssisə, bütün bu infrastruktur dövlətə qaytarıldı. O vaxt təftiş aparılanda gördük ki, onu idarəçiliyə götürən xarici şirkət daşı-daş üstünə qoymayıbdır, olan-qalanı da dağıdıb-talayıb. Biz bu obyektləri, bu infrastrukturu faktiki olaraq yenidən qurmağa məcbur olduq. Çox şadam ki, sizin kimi dəyərli, qiymətli insanlar bunları qısa müddətdə yaratmısınız və bu gün Bakı şəhərində elektrik enerjisi ilə heç bir problem yoxdur. Burada stendlərdə göstərilən yeni tikiləcək obyektlərin də potensialı hesablanıb ki, biz inşa olunacaq o obyektlərin fəaliyyətinə hazır olaq.

**B a x ı ş  B a b a y e v:** Ulu öndərimiz də belə edib.

**İ l h a m  Ə l i y e v:** Bəli, əlbəttə, bu işin bünövrəsi ulu öndərin dövründə qoyulmuşdur. O, ötən əsrin 80-ci illərinin əvvəllərində

Azərbaycandan gedəndən sonra əfsuslar olsun ki, bütün sahələrdə olduğu kimi, bu sahə də yavaş-yavaş tənəzzülə uğramışdır. Amma bu gün Bakıda və ümumiyyətlə, Azərbaycanda elektrik enerjisi ilə təchizat yüksək səviyyədədir. Beynəlxalq agentliklər də, beynəlxalq qurumlar da bunu qiymətləndirirlər ki, elektrik enerjisinin keyfiyyəti də, dayanıqlılığı da yüksək səviyyədədir. Çalışmalıyıq ki, daim bu səviyyəni saxlayaq. Görüləsi işlər çoxdur. Ancaq bu günə qədər görülən işlər deməyə əsas verir ki, gələcəkdə də uğurlar qazanacağıq.

**B a x ı ş B a b a y e v:** Cənab Prezident, biz hamımız Sizi çox istəyirik. Mən ulu öndərlə işləmişəm. Nazirlər Sovetində də gedib onu görmüşəm. Naxçıvana İğdırdan xətti tikən bizik. Fəxr edirik ki, bizim sizin kimi prezidentimiz vardır. Biz Sizə minnətdarıq, sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Hamımız yaxşı xatırlayırıq, əvvəlki dövrdə elektrik enerjisi ilə təchizat elə idi ki, bizi təmin edə bilmirdi. Biz məcbur idik enerjini xaricdən alaq. Amma bu gün Azərbaycan qonşu ölkələrə – Rusiyaya, Gürcüstana, İrana, hətta Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixrac edir. Budur bizim gördüyümüz işlərin nəticəsi.

**B a x ı ş B a b a y e v:** Onların hamısı Sizin fəaliyyətinizin nəticəsidir. Sizə uğurlar arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

# 2015-ci İLDƏ BAKIDA KEÇİRİLƏCƏK I AVROPA OYUNLARININ TƏŞKİLAT KOMİTƏSİNİN İLK İCLASINDA İŞTİRAK*

*Prezident sarayı*

*2 fevral 2013-cü il*

*Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2015-ci ildə Bakıda keçiriləcək I Avropa oyunlarının Təşkilat Komitəsinin ilk iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı:*

– Bu gün biz Avropa oyunlarının Təşkilat Komitəsinin birinci iclasını keçiririk. Bildiyiniz kimi, keçən ilin sonunda – dekabr ayında Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə I Avropa oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Avropanın idman-olimpiya ailəsi Bakının namizədliyini böyük səs çoxluğu ilə dəstəkləmişdir.

Bu, böyük tarixi hadisədir. İlk dəfədir ki, Avropa oyunları keçirilir. Baxmayaraq ki, Olimpiya oyunları Avropa qitəsində yaranmışdır və ondan sonra Avropa qitəsində də bərpa edilmişdir. Ancaq bu günə qədər Avropa oyunları keçiril-

---

* 2015-ъи илдя Бакыда кечириляъяк Ы Авропа ойунларынын Тяшкилат Комитясинин илк иъласында Мещрибан ханым Ялийева, Эянъляр вя İдман назири Азад Рящимов, Дахили İшляр назири Рамил Усубов, Nəqliyyat naziri Ziya Məmmədov, Милли Олимпийа Комитясинин витсе-президенти Чинэиз Щцсейнзадя və олимпийа чемпиону, Азярбайъан Эцляш Федерасийасынын витсе-президенти Намиг Абдуллайев çıxış etdilər.

məmişdir. İlk oyunların Bakıda keçirilməsi, əlbəttə ki, böyük nailiyyətdir, bizim böyük uğurumuzdur.

Yanvarın 17-də Avropa oyunlarını yüksək səviyyədə keçirmək üçün Təşkilat Komitəsi yaradılmışdır və bu gün biz Təşkilat Komitəsinin birinci toplantısını keçiririk.

Bu tarixi qərarın qəbul edilməsində, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzu həlledici rol oynamışdır. Son illər ərzində Azərbaycan dünya miqyasında özünü dinamik inkişaf edən müasir güclü ölkə kimi təqdim edə bilmişdir. Baxmayaraq ki, biz cəmi 21 ildir müstəqil dövlət kimi yaşayırıq, bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş və etibarlı dost kimi tanınır. Bizim beynəlxalq nüfuzumuzun yüksək səviyyədə olduğunu BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz də təsdiqləyir. Bu da tarixi bir qərar idi. Müstəqilliyimizin 20-ci ildönümünə təsadüf edən bu tarixi qərar əslində 20 il ərzində görülən işlərin təzahürü idi. Bu gün Azərbaycan dünya birliyinin bir nömrəli qurumunun üzvüdür və keçən ilin may ayında BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir.

Əlbəttə ki, beynəlxalq mövqelərimizin möhkəmlənməsi və təsir imkanlarımızın genişləndirilməsi sayəsində ölkəmizin gələcək maraqları daha dolğun şəkildə təmin ediləcəkdir. Şübhəsiz ki, Avropa oyunlarının Azərbaycanda keçirilməsi haqqında verilmiş qərarın əsasında məhz bu amil dayanmışdır. Bununla bərabər, ölkəmizin dinamik iqtisadi inkişafı, əlbəttə ki, öz rolunu oynamışdır. Hətta böhranlı illərdə Azərbaycan iqtisadiyyatı inkişaf etmiş və bütün beynəlxalq mötəbər qurumlar bunu təsdiqləyir. Keçən il dünyanın aparıcı «Fitch», «Moodys» və «Standard & Poors» reytinq agentlikləri ölkəmizin kredit reytinqini artırmışdır. Baxmayaraq ki, bəzi inkişaf etmiş ölkələrin reytinqi aşağı salınmış, bizim reytinqimiz qaldırılmışdır.

Bu yaxınlarda mən Davosda Ümumdünya İqtisadi Forumunda iştirak etmişəm. Deyə bilərəm ki, Azərbaycan və ölkəmizdə gedən proseslər orada diqqət mərkəzində idi. Bu forum bildiyiniz kimi, dünyanın siyasi və iqtisadi elitasını cəmləşdirir. Çox sevindirici hal ondan ibarətdir ki, Azərbaycan

haqqında dünya ictimaiyyətində, dünya siyasi və iqtisadi elita nümayəndələri arasında çox müsbət imic, müsbət rəy vardır. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı MDB məkanında rəqabətqabiliyyətliliyinə görə 1-ci, dünya miqyasında isə 46-cı yerdədir. Yəni bu amillər də, əlbəttə ki, oyunların Bakıda keçirilməsi haqqında qərarın qəbul edilməsində öz rolunu oynamışdır.

İqtisadiyyatımız son 9 il ərzində 3 dəfə artmış və bu gün iqtisadiyyat şaxələndirilmiş, dayanıqlı iqtisadiyyatdır. İqtisadi inkişafın genişləndirilməsi üçün çox gözəl imkanlar vardır. Əlbəttə ki, maliyyə resurslarımız da kifayət qədər böyükdür, çoxdur və bu amil də oyunların Bakıda keçirilməsini şərtləndirdi.

Digər səbəblər də vardır. Ölkəmizdə son illər ərzində yaradılmış idman infrastrukturu dünya səviyyəsinə, dünya standartlarına cavab verir. Hazırda tikilmiş və tikilməkdə olan obyektlər, idman qurğuları bizə imkan verəcəkdir ki, oyunları yüksək səviyyədə keçirək. Çünki hesab edirəm ki, əsas idman qurğuları oyunların keçirilməsinə imkan yaradacaqdır. Əgər əlavə bir idman obyektinin tikilməsinə ehtiyac yaranarsa, biz bunu 2015-ci ilə qədər həll edəcəyik.

Bu oyunların Bakıda keçirilməsi əhali tərəfindən çox yüksək səviyyədə dəstəklənir. Biz bu dəstəyi əvvəlki dövrdə də hiss etmişik. Çünki bildiyiniz kimi, Azərbaycan 2 dəfə öz namizədliyini Yay Olimpiya oyunlarının keçirilməsi üçün vermişdir. O zaman rəy sorğuları keçirilmiş və müəyyən edilmişdir ki, Azərbaycan əhalisi Olimpiya oyunlarının Bakıda keçirilməsini arzulayır, dəstəkləyir və bu amil də çox mühüm rol oynayır.

Şəhər infrastrukturu müasirləşir. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Həm gözəlliyi, həm tarixi siması, həm də müasirliyi ilə fərqlənir. Şəhər infrastrukturunun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək və biz Bakını bundan sonra da inkişaf etdirəcəyik, daha da gözəlləşdirəcəyik.

Bizim artıq mötəbər beynəlxalq tədbirlərin keçirilməsində yaxşı təcrübəmiz vardır. Azərbaycanda mütəmadi qaydada dünya, Avropa çempionatları keçirilmişdir. Keçən il ilk dəfə olaraq futbol üzrə qızlar arasında dünya çempionatı yüksək səviyyədə keçirildi. 2 həftədən çox bir müddətdə bütün idmançılar və şəhərimizin qonaqları Azərbaycan xalqının qonaqpərvərliyini hiss etdi və ölkəmizdə gedən sürətli inkişaf prosesini izlədi. FİFA və UEFA rəhbərliyi tərəfindən bu çempionatın keçirilməsinə və bizim təşkilatçılıq qabiliyyətimizə çox yüksək qiymət verildi.

Yəni biz bu tədbirləri keçirməklə və öz təşkilatçılıq qabiliyyətimizi göstərməklə bir növ yeni standartlar tətbiq edirik. Bu, artıq Azərbaycan standartlarıdır. Çünki istənilən beynəlxalq tədbir Azərbaycanda, Bakıda yüksək səviyyədə keçirilir və hesab edirəm ki, Avropa oyunları da yüksək səviyyədə keçiriləcəkdir.

Hesab edirəm ki, Avropa idman ailəsinin bizə göstərdiyi etimadın təməlində eyni zamanda, idmançılarımızın uğurları da böyük rol oynamışdır. Çünki Azərbaycan bu gün dünyada və Avropada idman dövləti kimi tanınır. İdmançılarımızın uğurları həm Avropa, həm dünya çempionatlarında, həm də Olimpiya oyunlarında özünü göstərir. London Yay Olimpiya oyunlarında Azərbaycan tarixi qələbə – 10 medal qazanmışdır və Avropa ölkələri arasında 15-ci yerə layiq görülmüşdür. Əlbəttə ki, idmançıların uğurlu çıxışları bu oyunların Bakıda keçirilməsinə müsbət təsir göstərmişdir.

Təbii ki, digər amillər də öz rolunu oynamışdır. Ancaq əsas amillər bunlardan ibarətdir. İndi isə hazırlıq dövrü başlayır. Bu çox məsuliyyətli bir dövr olacaqdır. Çünki Yay Olimpiya oyunlarından fərqli olaraq, bizim hazırlıq üçün cəmi 2 il vaxtımız var. Bildiyiniz kimi, Yay Olimpiya oyunlarının hazırlığı üçün 6-7 il vaxt verilir. Yəni bu ilin sentyabr ayında 2020-ci ildə keçiriləcək Olimpiya oyunlarının şəhəri müəyyən ediləcək.

O oyunları keçirəcək ölkə təqribən 6-7 il ərzində hazırlıq işləri görəcəkdir. Bizim isə hazırlıq işlərinin görülməsi üçün cəmi 2 il vaxtımız vardır. Bu çox böyük məsuliyyətdir, böyük inamdır, böyük şərəfdir. Mən əminəm ki, bütün müvafiq qurumlar bu oyunların yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəməyəcək və həmişə olduğu kimi, biz bu dəfə də ölkəmizin qüdrətini, xalqımızın qonaqpərvərliyini, Azərbaycanın dinamik inkişafını Avropaya və beləliklə, bütün dünyaya nümayiş etdirəcəyik.

Bayaq qeyd etdiyim kimi, oyunları yüksək səviyyədə keçirmək üçün Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsində həm dövlət qurumlarının nümayəndələri, Milli Olimpiya Komitəsinin üzvləri, həm də idmançılar, ictimai sahədə fəaliyyət göstərən insanlar cəmləşib. Təşkilat Komitəsinə isə Mehriban Əliyeva sədrlik edir. Deyə bilərəm ki, Mehriban Əliyeva keçən il «Eurovision» mahnı müsabiqəsinin Təşkilat Komitəsinə rəhbərlik etmişdir. Ümumi rəyə görə, «Eurovision» mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə keçirilmişdir və bəlkə də «Eurovision» müsabiqəsinin tarixində belə gözəl müsabiqə keçirilməmişdir. Bütün təşkilati məsələlər öz həllini tapmışdır, qonaqlar həm şəhərimizin gözəlliyi ilə tanış olmuşlar, eyni zamanda, özlərini çox rahat hiss etmişlər. Çünki həm insanların qonaqpərvərliyi, həm də şəhərimizdə hökm sürən asayiş, sabitlik öz rolunu oynamışdır. Əminəm ki, Avropa Olimpiya Komitəsinin bizə göstərdiyi etimadı Mehriban Əliyevanın rəhbərliyi altında Təşkilat Komitəsi yüksək səviyyədə doğruldacaq və bu oyunlar Olimpiya oyunlarının tarixində sadəcə, I Avropa oyunları kimi deyil, ən gözəl oyunlar kimi qalacaqdır.

Bu gün isə biz artıq Təşkilat Komitəsinin görəcəyi işlərlə tanış olacağıq və məruzə etmək üçün söz verilir Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya.

## Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında 2015-ci ildə I Avropa oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir. Avropa Olimpiya Komitəsinin üzvü olan 49 milli olimpiya komitəsindən 48-nin iştirakı ilə keçirilmiş gizli səsvermədə 38 ölkə lehinə, 8 ölkə əleyhinə, 2 ölkə bitərəf olmaqla I Avropa oyunlarının Bakıda keçirilməsi təsdiqlənmişdir. I Avropa oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün, ümumiyyətlə, bütün Avropa olimpiya hərəkatı üçün tarixi hadisədir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, dünya birliyində tutduğu mövqe, mövcud ictimai-siyasi sabitlik beynəlxalq ictimaiyyətdə əminlik yaradıb ki, ölkəmiz bu mötəbər tədbirə uğurla ev sahibliyi edə biləcəkdir. Bu qərarın qəbul edilməsi respublikamızda çoxsaylı idman yarışlarının, Avropa və dünya çempionatlarının yüksək səviyyədə keçirilməsinə, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlərə, ümumilikdə Azərbaycanda idman sahəsində görülmüş işlərə beynəlxalq və Avropa Olimpiya Komitəsi tərəfindən verilən yüksək qiymətdir.

Şübhəsiz ki, bu hadisə ölkəmizin, Azərbaycanın növbəti qələbəsidir və cənab Prezident, icazə verin, ilk növbədə, bu qələbə münasibətilə Sizi təbrik edim və Təşkilat Komitəsinin bütün üzvləri adından bizə göstərdiyiniz etimada görə Sizə dərin minnətdarlığımı bildirim.

Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, o cümlədən Avropa və dünya çempionatlarında, «Eurovision–2012» mahnı müsabiqəsində əldə etdiyimiz təcrübəyə əsaslanaraq, I Avropa oyunlarının da ən yüksək səviyyədə keçirilməsi üçün əlimizdən

gələni əsirgəməyəcəyik və bütün gücümüzlə çalışacağıq ki, göstərdiyiniz etimadı doğruldaq.

İndi isə icazənizlə, Bakıda keçiriləcək I Avropa oyunlarının hazırlıq işləri ilə bağlı bəzi vacib məqamları Sizin diqqətinizə çatdırım.

I Avropa oyunlarının 2015-ci ilin iyun–iyul aylarında keçirilməsi nəzərdə tutulub. Bu oyunlarda Avropa Olimpiya Komitəsinin üzv ölkələrinin iştirakı gözlənilir. Avropa Olimpiya Komitəsi ilə əldə olunmuş razılığa əsasən, Bakıda keçiriləcək yarışlarda 5 min nəfərədək idmançının iştirakı nəzərdə tutulub. Rəsmi nümayəndə heyətinin sayının təxminən 1000 olması gözlənilir. Tədbirin işıqlandırılması üçün Bakıya 2000 nəfərədək beynəlxalq kütləvi informasiya vasitələri nümayəndələrinin gəlişi gözlənilir. Avropa Olimpiya Komitəsi və Avropa idman federasiyaları ilə ilkin razılaşmaya əsasən I Avropa oyunlarının proqramına 28 olimpiya idman növündən minimum 12-si və 2 qeyri-olimpiya idman növü daxil olmalıdır. Bu, ümumi qaydalardır. Yarışların 17 olimpiya idman növü üzrə keçirilməsi ilə bağlı Avropa idman federasiyalarından niyyət məktubu artıq daxil olmuşdur. Bu idman növləri güləş, həndbol, voleybol, gimnastika, çimərlik voleybolu, boks, cüdo, taekvondo, badminton, qılıncoynatma, atıcılıq, kamandan oxatma, stolüstü tennis, üzgüçülük, suyatullanma, su polosu və reqbi-7 daxildir. Avropa oyunlarının tarixində ilk dəfə keçiriləcəyini nəzərə alaraq, bir çox məsələlər üzrə Avropa Olimpiya Komitəsi ilə danışıqlar davam edir və bu gün səsləndirilən göstəricilər dəyişə bilər. Proqrama daxil olacaq 2 qeyri-olimpiya idman növünün müəyyən edilməsi istiqamətində Avropa Olimpiya Komitəsi və Avropa idman federasiyaları ilə danışıqlar aparılır.

Hörmətli cənab Prezident, I Avropa oyunlarına hazırlığın ilkin mərhələsində yarışların keçirilmə yerləri müəyyən edilmişdir. Yarışların Heydər Əliyev adına İdman-Konsert Kompleksi, Tofiq Bəhramov adına Respublika stadionu, «Baku Crystal Hall», «Sərhədçi» İdman Kompleksi, Əl Oyunları sarayı,

«8-ci kilometr» stadionu, Güllə atıcılığı stendi və Bakı Ekspo Mərkəzində keçirilməsi mümkündür. 2015-ciilədək Olimpiya stadionunun, Su İdman Növləri Mərkəzinin və Gimnastika Kompleksinin inşasının bitməsi planlaşdırılır və bu yeni qurulan idman sarayları da oyunlar zamanı istifadə olunacaqdır. I Avropa oyunlarının rəsmi açılış və bağlanış mərasimlərinin Bakıda, Böyükşor gölünün yaxınlığında inşa olunan 65 min yerlik Olimpiya stadionunda keçirilməsi nəzərdə tutulub.

Müxtəlif idman növləri üzrə yarışların keçiriləcəyi idman obyektləri haqqında ilkin təklifləri diqqətinizə çatdırmaq istərdim. Güləş və cüdo idman növləri üzrə yarışların 7 min 100 yerlik Heydər Əliyev adına İdman-Konsert Kompleksində, 25 min tamaşaçı tutumu olan «Baku Crystal Hall»da həndbol və voleybol idman növləri üzrə yarışların keçirilməsi nəzərdə tutulub. Reqbi-7 idman növü üzrə yarışların 11 min tamaşaçı tutumu olan «8-ci kilometr» stadionunda, stolüstü tennis, qılıncoynatma və taekvondo idman növləri üzrə yarışların Bakı Ekspo Mərkəzində, boks üzrə yarışların 3 min 250 yerlik «Sərhədçi» İdman Kompleksində, badminton üzrə yarışların 1628 yerlik Əl Oyunları sarayında, kamandan oxatma üzrə yarışların isə 7 min yerlik «Şəfa» stadionunda keçirilməsi nəzərdə tutulub.

I Avropa oyunları zamanı idman və bədii gimnastika üzrə yarışlar Gimnastika Kompleksində keçiriləcəkdir. Üzgüçülük və suyatullanma üzrə yarışların Bakıda inşa olunan Su İdman Növləri Mərkəzində keçirilməsi nəzərdə tutulub. Su polosu üzrə yarışların keçirilməsi üçün Mərkəzin yanında müvəqqəti arena inşa olunmalıdır. Atletika üzrə yarışlar keçirilsə, 32 min 200 yerlik Tofiq Bəhramov adına Respublika stadionundan istifadə oluna bilər. Çimərlik voleybolu üzrə yarışların keçirilməsi üçün dənizkənarı bulvarda müvəqqəti arenanın inşası tələb olunur.

Hörmətli cənab Prezident!

I Avropa oyunlarının rəsmi açılış və bağlanış mərasimlərinin təşkili ilə bağlı dünyanın bu sahədə böyük təcrübəyə malik aparıcı şirkətləri ilə danışıqlar başlanmışdır. Avropa oyunları

tarixinə ilk atributlar kimi daxil olacaq I Avropa oyunlarının loqotip və şüarının müəyyən edilməsi, simvolun seçilməsi və himnin bəstələnməsi istiqamətində işlər görülür. I Avropa oyunları mövzusunda açıq loqotip müsabiqəsi artıq elan edilmişdir.

Qaydalara uyğun olaraq Avropa oyunlarında qalib idmançılara təqdim olunan medallar ev sahibi olan ölkənin Milli Olimpiya Komitəsi tərəfindən hazırlanır və Avropa Olimpiya Komitəsi ilə razılaşdırılır. Hazırda medalların dizaynı ilə bağlı təkliflər hazırlanmaqdadır.

Oyunlarda iştirak edəcək idmançıların yerləşdirilməsi məqsədi ilə Atletlər Kəndi yaradılmalıdır. Kütləvi informasiya vasitələrinin nümayəndələri Media Kəndində yerləşdiriləcəklər. Bu ərazidə yaradılacaq mərkəzdə və «Baku Crystal Hall»dakı Media Mərkəzində onlara tələb olunan şərait yaradılacaqdır.

Oyunların keçiriləcəyi müddətdə, yəni 2015-ci ilin iyun–iyul aylarında Bakıya çoxsaylı qonaqlar gələcək. İdmançıların, rəsmi nümayəndə heyətlərinin, turistlərin və qonaqların yerləşdirilməsi üçün Bakı və Abşeronda mövcud olan hotellərin sayı və tutumu dəqiqləşdirilmişdir. Seçim imkanını artırmaq üçün şəhərə yaxın istirahət düşərgələri və yeni inşa olunan hotel komplekslərindən də istifadə olunacaqdır.

Tədbirin dünyada təbliği və informasiya dəstəyi qarşımızda duran ən vacib məsələlərdən biridir. Birinci addım olaraq oyunlar haqqında hərtərəfli məlumatı əks etdirən internet portalı hazırlanmalıdır. Dünya mediasında I Avropa oyunlarının keçirilməsi barədə informasiyanın yayılmasına, ümumiyyətlə, Azərbaycan haqqında, xüsusilə idman sahəsində əldə olunmuş nailiyyətlərimiz barədə nəşrlərin, reklam çarxlarının hazırlanması, baner və posterlərin quraşdırılmasına geniş kampaniya şəklində bu ildən başlamaq lazımdır. Avropanın və dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinin təbliğat kampaniyasına cəlb olunması, onlarla əməkdaşlıq perspektivləri müzakirə olunmalıdır.

Bu gün bütün dünyada mötəbər tədbirlərin keçirilməsinə gənclərin cəlb olunması geniş vüsət alıb. Bizim bu sahədə böyük təcrübəmiz vardır. «Eurovision–2012» mahnı müsabiqəsini hazırlayanda biz gənclərin, könüllülərin yardımından çox gözəl istifadə etmişdik və gənclərimiz özlərini çox gözəl göstərmişdi. Ona görə də I Avropa oyunlarının təşkilati işlərində də könüllülərin aktiv fəaliyyəti nəzərdə tutulub.

I Avropa oyunlarının yayımı xüsusi əhəmiyyət kəsb edir. Tədbirin yayım hüququnun verilməsi ilə bağlı hazırda müvafiq təşkilatlarla danışıqlar aparılır. Oyunların keçirilməsinə beynəlxalq və yerli sponsorların cəlb edilməsi istiqamətində işlər görülür.

I Avropa oyunlarına ev sahibliyi edən Bakı şəhərinin tədbirə hazırlanması xüsusi önəm daşıyır. Şəhər infrastrukturunun yaxşılaşdırılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi, təhlükəsizliyin təmin edilməsi, tibbi xidmətin optimallaşdırılması, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunması, turizm marşrutlarının və mədəni proqramların tərtib edilməsi üzrə təkliflər bütün cavabdeh təşkilatlar tərəfindən hazırlanır.

Bugünkü müşavirədə biz oyunların qaydaları və keçirilməsi haqqında əldə olunmuş informasiyanı və fəaliyyətimizin əsas istiqamətlərini müzakirə edirik. İcrası vacib olan əsas məsələlərin həlli ilə bağlı aparılmış monitorinqlərin nəticələrini təqdim edirik. Monitorda gördüyünüz məlumatlar ümumi xarakter daşıyır.

Oyunların yüksək səviyyədə keçirilməsi məqsədi ilə müvafiq qurumların nümayəndələrindən ibarət işçi qrupu yaradılacaqdır. Hazırda yarışların keçirilməsi ilə bağlı bütün istiqamətləri əhatə edən və hər bir qurumun vəzifəsini müəyyən edən geniş tədbirlər planı hazırlanır. Həmin tədbirlər planı qısa müddət ərzində Sizin diqqətinizə təqdim olunacaqdır.

Sonda bir daha, cənab Prezident, bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, I Avropa oyunları ölkəmizin tarixində Sizin və hər bir

azərbaycanlının növbəti qələbəsi kimi qalacaqdır. Diqqətinizə görə çox sağ olun.

## YEKUN NİTQİ

Hesab edirəm ki, bugünkü iclas görüləcək işlərə hazırlıq üçün çox önəmli bir addımdır. Ancaq bugünkü təqdimat onu göstərir ki, artıq işlər başlanmışdır. Mən çox şadam ki, Təşkilat Komitəsi çox qısa müddət ərzində öz təkliflərini hazırlayıb. Beləliklə, hazırlıq işlərinin yüksək səviyyədə aparılması üçün gözəl zəmin vardır. Demək olar ki, bütün istiqamətlər üzrə vəzifələr ümumi qaydada bəllidir, aydındır. Sadəcə olaraq, indi hər bir istiqamət üzrə konkret fəal iş aparılmalıdır ki, biz bu oyunları yüksək səviyyədə keçirək.

Əlbəttə ki, idman obyektləri hazır olmalıdır. Təqdimatda göstərildi, keçiriləcək oyunların yerləri də artıq bəllidir. Ancaq tikilməkdə olan obyektlər də vaxtında istifadəyə verilməlidir. Onların arasında, ilk növbədə, Olimpiya stadionu – artıq orada işlər başlanılıb – Gimnastika Mərkəzi – işlər görülür və artıq daş işləri başa çatıb – və Su İdmanı Növləri sarayının tikintisinin də əminəm ki, inşası vaxtında bitəcəkdir. Çünki bu da çox vacib bir qurğudur. Təkcə oyunların keçirilməsi üçün yox, eyni zamanda, Bakı şəhərində müasir Su İdmanı Növləri sarayının tikilməsi çox lazımdır. Bu qərar bir neçə il bundan əvvəl verilmişdir. Hələ Avropa oyunlarının Bakıda keçirilməsi haqqında qərar yox idi, biz artıq bu işlərə başlamışdıq, layihə hazırlanmışdı, seçiləcək yerlər haqqında fikir mübadiləsi aparılırdı. Nəhayət, Bakının inkişafı üçün hazırlanan Bayraq Meydanından sonrakı ərazidə Su İdman Növləri sarayı tikiləcəkdir. Hesab edirəm ki, bu, ən məqbul yerdir. Çünki su idmanı növləri üçün nəzərdə tutulan saray dəniz kənarında tikilməli idi. Əminəm ki, bu, memarlıq baxımından və funksional cəhətləri ilə seçiləcək bir saray olacaqdır. İdman obyektlərinin istifadəyə verilməsi başlıca şərtdir. Bilirəm ki,

idmançıların yerləşdirilməsi ilə bağlı indi Təşkilat Komitəsi müzakirələr aparır. Bir neçə fikir vardır. Əlbəttə ki, Azərbaycan dövləti atletlər üçün yaşayış yerlərini tikə bilər. Ancaq baxmaq lazımdır ki, bəlkə mövcud olan, artıq tikilən binalardan da biz istifadə edə bilərik.

Qonaqların yerləşdirilməsi ilə bağlı biz öz təkliflərimizi Avropa Olimpiya Komitəsinə təqdim edərkən bu məsələ də öz əksini tapmışdır. Ancaq əvvəlki dövrlərə nəzər salsaq görərik ki, Yay Olimpiya oyunları üçün təqdim etdiyimiz sənədlərdə məhz Bakıda hotel yerlərinin çatışmazlığı məsələsi bizim iddiamızın nəticə ilə yekunlaşmasına əngəl törətdi. O vaxt mən xatırlayıram, Beynəlxalq Olimpiya Komitəsinin ekspertlər qrupu bizə olan iradların arasında hotel nömrələrinin az olmasını qeyd etmişdi. Ona görə, əlbəttə, biz çalışmalıyıq və xüsusilə də özəl sektorda fəaliyyət göstərən turizm, tikinti şirkətləri çalışmalıdırlar ki, əlavə hotellərin, yeni hotellərin tikintisi üçün tədbirlər görülsün. Bakı Şəhər İcra Hakimiyyəti və digər müvafiq qurumlar, yerlərin seçilməsi ilə bağlı təkliflərinizi verin. Yerlər seçilməlidir, ondan sonra biznes qurumlarına təqdim edilməlidir ki, 2015-ci ilə qədər onlar yeni hotellərin tikintisi ilə məşğul olsunlar. Son 2 il ərzində Bakıda beşulduzlu 5 hotel istifadəyə verilmişdir. Hesab edirəm ki, nə bölgədə, nə qitədə il yarıma beşulduzlu 5 hotel açılmayıb. Buna baxmayaraq, yenə də hotel nömrələrinə ehtiyac vardır.

Ola bilsin ki, bundan sonra Bakıda daha çox dörd və üçulduzlu hotellərin tikintisinə ehtiyac olacaqdır. Yerlər seçilməlidir və layihələr də təqdim edilməlidir. Lazım olarsa, Təşkilat Komitəsi də bu layihələrə baxa bilər.

Turizm marşrutlarının müəyyən edilməsi haqqında təqdimatda deyildi. Bu da çox vacib məsələdir. Bu oyunlar, əlbəttə ki, böyük idman bayramıdır. Bu bizə imkan verəcəkdir ki, ölkəmizi qonaqlara, turistlərə və dünya ictimaiyyətinə hərtərəfli şəkildə təqdim edə bilək.

Mən çox şadam ki, artıq bölgələrdə də turizm infrastrukturunun yaradılması ilə bağlı çox böyük işlər görülür. Ölkəmizin

müxtəlif yerlərində yeni turizm mərkəzləri yaradılır. Azərbaycanda mənzərəli, gözəl təbiətlə zəngin olan yerlər çoxdur. Hazırda o yerlərdə böyük quruculuq, tikinti işləri aparılır. Mən Şahdağ xizək kompleksini qeyd edə bilərəm. Digər bölgələrdə gözəl hotellərin mövcudluğu artıq o bölgələri turistlər üçün cəlbedici edir. Bakıya gələcək qonaqlar, turistlər, əlbəttə ki, bu imkanlardan istifadə etməlidirlər. Turizm marşrutları müəyyən edilməlidir.

Son illərdə nəqliyyat sektoruna qoyulan investisiyalar artıq bölgələrdə də nəqliyyat infrastrukturunun təkmilləşməsinə gətirib çıxarmışdır. Bölgələrdə yeni aeroportlar, özü də beynəlxalq aeroportlar tikilmişdir. Magistral avtomobil yolları tikilir, dəmir yolları müasirləşdirilir. Yəni turizm marşrutları nəqliyyat infrastrukturu ilə uzlaşdırılmalıdır. Biz bu məsələyə kompleks şəkildə baxmalıyıq. Hesab edirəm ki, bu sahədə əldə ediləcək yeni təcrübə gələcəkdə Azərbaycanda turizmin inkişafına da töhfəsini verəcəkdir. Çünki oyunlar başa çatandan sonra artıq bütün bu təcrübə və infrastruktur gələcək illər üçün qalacaqdır.

Təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə bağlı, əlbəttə ki, biz əlavə tədbirlər görəcəyik. Bu gün bu barədə məruzədə fikirlər səsləndi. Biz ölkəmizdə və şəhərimizdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə mütəmadi qaydada məşğuluq. Bakıda oyunların keçirilməsi haqqında qərarın qəbul edilməsində Azərbaycanda kriminogen durumun çox müsbət səviyyədə olması da az rol oynamamışdır. Deyə bilərəm ki, Azərbaycan, o cümlədən Bakı şəhəri dünyanın ən təhlükəsiz yerlərindən biridir. Orta hesabla ölkəmizdə gün ərzində təqribən 30–40 cinayət baş verir. Onların mütləq əksəriyyəti ağır cinayətlər deyildir. 9 milyon 300 min əhalisi olan ölkə üçün bu çox kiçik bir rəqəmdir. Əlbəttə, kriminogen durumun bu səviyyədə qalması üçün profilaktik tədbirlər görülməlidir. Bir neçə il bundan əvvəl şəhərimizdə videomüşahidə aparmaq üçün kameraların quraşdırılması da hesab edirəm ki, profilaktik tədbirlər sırasında mühüm yer tutur. İndi bu kameraların yeni

növləri çıxır. Nazir öz çıxışında qeyd etdi. Üztanıma funksiyaları da vardır ki, bu, ümumiyyətlə, kriminogen durumun həmişə aşağı səviyyədə saxlanması üçün çox vacib olacaqdır.

Digər tədbirlər də görülməlidir. Əlbəttə ki, xüsusi mühafizə tədbirləri də görülməlidir. İdman obyektlərində, hotellərdə, digər yerlərdə təhlükəsizlik tədbirləri görülməlidir. Bu tədbirləri bütün müvafiq qurumlar – Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər müvafiq hüquq-mühafizə orqanları icra etməlidir. Əminəm ki, biz bu sahədə həmişə olduğu kimi, istədiyimizə nail olacağıq. Bütün bu hüquq-mühafizə qurumları arasında, xüsusilə oyunların keçirilmə ərəfəsində və oyunlar zamanı əlaqələndirmə işləri daha da yüksək səviyyədə təşkil edilməlidir.

Nəqliyyatla bağlı məsələlər çox vacib məsələlərdir. Burada artıq bu barədə məlumat verildi. Mən, demək olar ki, 2000-ci ildən bu yana bütün Yay Olimpiya oyunlarında iştirak edirəm. Özüm bilirəm ki, qonaqlar üçün ən böyük problem məhz nəqliyyat məsələləridir. 2000-ci ildə mən Milli Olimpiya Komitəsinin prezidenti kimi, 2004-cü ildə artıq ölkə prezidenti kimi, açılış mərasimlərində iştirak etmişəm. Deyə bilərəm ki, nəqliyyat məsələlərinin həlli işində adi vətəndaşla dövlət başçısı arasında heç bir böyük fərq yoxdur. Necə ki, Milli Olimpiya Komitəsinin prezidenti kimi, ölkə başçısı kimi, müxtəlif şəhərlərdə tıxaclarda qalmaq məcburiyyətində olmuşam. Bu onu göstərir ki, oyunların keçirildiyi müddətdə nəqliyyat problemləri, hətta ən inkişaf etmiş ölkələrdə, ən inkişaf etmiş şəhərlərdə lazımi səviyyədə öz həllini tapmır. Adi vətəndaşları, dövlət başçılarını ən çox narahat edən məhz nəqliyyat məsələlərinin düzgün səviyyədə həll olunmamasıdır. Mən indi şəhərlərin adlarını çəkmək istəmirəm, amma təcrübəm onu göstərir, əfsuslar ki, nəqliyyat məsələləri, demək olar, hər bir vətəndaşı incidir. Adi vətəndaşlar, tamaşaçılar, qonaqlar, turistlər, rəsmi heyətlər saatlarla tıxaclarda qalmağa məcbur olmuşlar. Ona görə deyə bilərəm ki, oyunları seyr etməyə gələn

qonaq üçün bu, ən ağır sınaq olur. Çünki indi başqa şəhərə oyunları seyr etmək üçün gələn qonaq hotel nömrələrini əvvəlcədən sifariş edir, ondan sonra istirahət üçün digər yerləri seçir. Ancaq nəqliyyat elədir ki, onu əvvəlcədən proqnozlaşdıra bilmir. Bu vəziyyətlə üzləşərkən, əlbəttə ki, bu, insanları çox incidir. Ona görə baxmayaraq ki, son illər ərzində Bakı şəhərində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün çox böyük işlər görülmüşdür, yenə də əlavə tədbirlər görülməlidir. İdmançıların və qonaqların rahatlığı üçün xüsusi bir proqram tərtib edilməlidir.

Digər şəhərlərdə xüsusi zolaqlar ayrılır. Ancaq bu zolaqlar o qədər də səmərə vermir. Digər tədbirlər görülür. Amma bu günə qədər bir neçə Olimpiya oyunlarının tədbirlərində iştirak etmiş adam kimi, səmimi şəkildə deyə bilərəm ki, heç bir yerdə nəqliyyat məsələləri hələ lazımi səviyyədə həll olunmamışdır. Hesab edirəm ki, Bakıda keçirilən oyunlar bu sahəyə də öz standartlarını tətbiq etməlidir və ondan sonra Azərbaycan, Bakı standartları digər şəhərlər üçün də nümunə ola bilər. Biz bu məsələyə də kompleks şəklində baxmalıyıq. Əlbəttə, nəqliyyat parkı yeniləşdirilməlidir. Yeni avtobuslar, taksi maşınları gətirilməlidir. Bu məsələyə biz ayrıca baxacağıq. Oyunların keçirilməsinə qədər yeni yol qovşaqları istifadəyə veriləcəkdir. Deyə bilərəm ki, bu layihələr bəri başdan planlaşdırılmışdır. Biz bu layihələri xüsusilə oyunların keçirilməsi üçün nəzərdə tutmuruq. Ancaq, əlbəttə ki, tədbirlərin keçiriləcəyi yerlərə rahat gəlib-getmək üçün xüsusi tədbirlər görülməlidir.

Görüləcək işlər arasında digər infrastruktur məsələləri də mühüm əhəmiyyət daşıyır. Xüsusilə elektrik enerjisi ilə təchizat. Bu sahədə də son illərdə ölkəmizdə çox böyük işlər görülmüşdür. Son illər ərzində 1500 meqavat gücündə yeni elektrik stansiyaları istifadəyə verilmişdir. Bakının elektrik şəbəkəsi, demək olar ki, yenidən qurulur. Biz indi müxtəlif ölkələrə elektrik enerjisi ixrac edirik. Bölgələrdə və Bakı şəhərində ötürücü xətlərlə bağlı hələ ki, problemlər vardır. Ötürücü xətlərin bərpası, yeni dirəklərin quraşdırılması, əlbəttə ki, çox

böyük diqqət tələb edir. Əminəm ki, 2015-ci ilə qədər bu təsərrüfat da tamamilə yeniləşəcəkdir. Beləliklə, elektrik təsərrüfatımız həm Bakıda, həm bölgələrdə tamamilə yeniləşəcəkdir.

İnformasiya-kommunikasiya sahəsi ilə əlaqədar əminəm ki, işlər lazımi səviyyədə görüləcəkdir. «Eurovision» mahnı müsabiqəsinin keçirilməsi ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür. Xüsusilə nəzərə alsaq ki, bu il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilib və bu sahəyə böyük diqqət göstərilir. Mən dünən İnformasiya Texnologiyaları Universitetinin yaradılması haqqında sərəncam imzalamışam. Bu sahəyə xüsusi diqqət göstərilməlidir. Buraya gələn idmançılar, qonaqlar, mütəxəssislər bütün imkanlardan rahat istifadə etməlidirlər. Biz indi ölkəmizin hər bir məntəqəsinə genişzolaqlı internet xətləri çəkirik. Bu çox önəmli layihədir. Bu layihənin önəmini göstərən amillərdən biri də odur ki, layihənin maliyyələşdirilməsi üçün Dövlət Neft Fondundan vəsait ayrılmışdır. Çalışmalıyıq ki, oyunların keçirilməsinə qədər Bakı şəhərində bu sahə ilə bağlı bütün işlər ən yüksək səviyyədə görülsün.

Səhiyyə məsələlərinə gəldikdə, bu gün Bakı şəhərində artıq bu sahədə görülən işlər müsbət istiqamətdə gedir. Yeni xəstəxanalar tikilməkdədir və onların bir neçəsi bu il və 2014-cü ildə istifadəyə veriləcəkdir. Avadanlıq artıq dünya standartları səviyyəsindədir. Həkimlərin peşəkarlığı da artır, amma nəzərə alsaq ki, minlərlə qonaq gələcəkdir, daha da sürətlə artmalıdır. Tibb xidməti də öz imkanlarını daha da genişləndirməlidir. Ola bilsin ki, əlavə təcili tibb yardımı maşınları alınsın. Bilirsiniz ki, biz keçən illərdə onların, demək olar ki, hamısını yeniləşdirmişik. Bakıda indi sovet dövrünə aid bir dənə də olsun, təcili tibb maşını qalmayıb. Yeni xidmət yaradılıb, operativlik də lazımi səviyyədədir. Maşınlar xəstənin yardımına vaxtında çatır. Ancaq bununla bərabər, əlavə tədbirlər də görülməlidir. Çünki 2 həftə ərzində Bakıda minlərlə qonaq olacaqdır. Həkimlərin də ingilis dili kurslarına cəlb

edilməsi məsələsinə baxmaq lazımdır. «Eurovision» ərəfəsində polis işçilərini biz bu kurslara cəlb etmişdik. Bu proses bundan sonra da davam etməlidir. Oyunlarla bunun heç bir əlaqəsi olmamalıdır. Çünki Bakıya gələn xarici turistlərin sayı artır. Polis işçiləri ingilis dilini bilməlidirlər, yəni bilsələr yaxşı olar. O cümlədən səhiyyə işçiləri. Ümumiyyətlə, xarici dil bilmək yaxşı şeydir və hər bir gənc çalışmalıdır ki, xarici dilləri bilsin.

Olimpiya simvolu da çox vacib məsələdir. Çünki olimpiya simvolu bir növ ölkəni təqdim edir. Bakıda keçiriləcək oyunlar, əlbəttə ki, Avropa ictimaiyyətinin diqqət mərkəzində olacaqdır. Ancaq Olimpiya oyunlarının rəmzi, yaxud da ki, rəmzləri, simvolu çox mühüm məsələdir. Mən bilirəm ki, müsabiqə artıq elan edilibdir və müsabiqəyə çox ciddi yanaşmaq lazımdır, ictimaiyyət də öz sözünü deməlidir. Ola bilsin, biz bu məsələni ictimai müzakirəyə də çıxaraq ki, Azərbaycan vətəndaşları da öz sözlərini desinlər. Bu simvol, əlbəttə ki, ölkəmizin həm tarixini, həm xüsusi əlamətlərini əks etdirməlidir.

Biz idmançılarımızın bu oyunların hazırlanmasında iştirakını da təmin etməliyik. Bütün işlərdə görkəmli, tanınmış idmançılarımız da fəal iştirak etməlidirlər. Ola bilsin ki, könüllülər arasında idmançılar da olmalıdır. Yəni Azərbaycanın idman ictimaiyyəti bu işlərdə çox fəal işləməlidir.

Könüllülərə gəldikdə, artıq «Eurovision» ilə bağlı bizim ilk təcrübəmiz olub, təcrübə müsbət idi. Ancaq bu oyunlarda qonaqların sayı daha da çox olacaqdır. Ona görə, əlbəttə, könüllülər xüsusi təlimatlandırılmalıdırlar və onların uğurlu fəaliyyəti o cümlədən, oyunların uğurlu keçirilməsinə xidmət göstərəcəkdir. Çünki bir daha öz təcrübəmə qayıtmaq istəyirəm, helekopterlər çox mühüm funksiya daşıyır və onların operativliyi, xeyirxahlığı, qonaqpərvərliyi qonaqlarda ölkə haqqında da müsbət təəssürat yarada bilər. Ona görə, xüsusi seçilmiş gənclərimiz bu işlərə cəlb olunmalıdırlar. Bütövlükdə mən görürəm ki, bu işlərə meyil artır, bizim gənclər ictimai işlərə, ölkəyə xeyir gətirən işlərə çox fəal qoşulurlar. Bu çox müsbət haldır.

Burada qeyd olundu ki, Avropa Olimpiya Komitəsi belə fikirdədir ki, bu oyunlar Yay Olimpiya oyunlarını təqlid etməməlidir. Mən də bununla razıyam. Ancaq bununla bərabər, Yay Olimpiya oyunlarından aşağı səviyyədə də keçirilməməlidir. Təbii ki, bu oyunların öz siması olmalıdır. Ancaq təşkilatçılıq baxımından, yəni bütün işlərin qurulması baxımından bu oyunlar Yay Olimpiya oyunlarından aşağı səviyyədə olmamalıdır. Hesab edirəm ki, ondan daha da yüksək səviyyədə olmalıdır və olacaqdır.

Mən indi əvvəlki dövrdə keçirilən Yay Olimpiya oyunlarına qayıtmaq istəmirəm. Ancaq biz bütün nöqsanları – insanları, idmançıları narahat edən məsələləri bilirik. O nöqsanları, o səhvləri təkrar etməmək üçün biz fəal çalışmalıyıq. Bu oyunların öz siması, öz standartları olacaqdır və deyə bilərəm ki, bu standartları biz tətbiq edəcəyik. Bizim qoyduğumuz təməl üzərində bundan sonra da Avropa oyunları keçiriləcəkdir. Nə Avropa Olimpiya Komitəsinin, nə də bizim bu oyunların keçirilməsində təcrübəmiz yoxdur. Bu da bizim üçün böyük bir çətinlikdir, böyük çağırışdır.

Mən giriş sözümdə qeyd etdim ki, hazırlıq üçün bizim cəmi 2 il vaxtımız var, baxmayaraq ki, Yay Olimpiya oyunları üçün 6-7 il vaxt verilir. Yay Olimpiya oyunlarının keçirilməsində artıq böyük təcrübə var və Beynəlxalq Olimpiya Komitəsi, demək olar ki, hər bir sahə üzrə öz göstərişlərini verir. Cild-cild kitablar var. Orada hər bir sahə üzrə, hər bir nöqtəyə qədər artıq müəyyən edilmiş qaydalar vardır. Hazır təlimatlar, metodiki qaydalar vardır. Burada isə heç nə yoxdur. Belə olan halda bütün məsuliyyət, bütün təşkilati məsələlərin həlli bizim üzərimizə düşür. Bir növ həm bu oyunların, həm də gələcək oyunların başqa şəhərlərdə keçirilməsi üçün yeni standartları biz tətbiq edəcəyik. Doğrudan da böyük məsuliyyətdir. Mən bir daha demək istəyirəm ki, bu oyunlar Yay Olimpiya oyunlarının səviyyəsindən aşağı olmamaq şərti ilə keçirilməlidir. Əminəm ki, biz buna nail olacağıq.

Baxmayaraq ki, bu böyük mötəbər oyunları biz birinci dəfə keçirəcəyik, ancaq bu vaxta qədər Bakıda dünya, Avropa çempionatları, «Eurovision» müsabiqəsi, digər beynəlxalq tədbirlər böyük uğurla keçirilmişdir.

Əminəm ki, Təşkilat Komitəsi bütün bu işləri yüksək səviyyədə həll edəcəkdir. Mən buna şübhə etmirəm. Beləliklə, Azərbaycan bir daha özünü dünyaya və Avropaya müasir, güclü dövlət kimi təqdim edəcəkdir. Təşkilat Komitəsinə uğurlar arzulayıram və artıq bu gündən siz fəal işə başlayırsınız. Sağ olun.

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Almatı şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2013-cü il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda qardaş İran xalqına ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımız arasındakı münasibətlərin xoş ənənələri bu gün də davam etməkdədir. Qarşılıqlı etimad, inam və dəstəyə əsaslanan münasibətlərimiz, həmçinin ortaq mənəvi dəyərlərimizdən güc alır.

Əminəm ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında belə möhkəm təməllər üzərində qurulmuş münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün gözəl zəmin olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2013-cü il*

## AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ IV QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi ürəkdən salamlayır və IV qurultayınızın işə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bir əsrdən çox tarixə malik olan Azərbaycan həmkarlar ittifaqları müstəqillik illərində daha da inkişaf etmiş, ölkənin ictimai həyatında öz layiqli yerini tutmuşdur. Vətəndaşların sosial problemlərinin həlli və əmək hüquqlarının müdafiəsi sahəsində həmkarlar ittifaqlarının rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinə həmişə böyük diqqət yetirmişdir. Ulu öndərin qayğısı sayəsində həmkarlar təşkilatları öz işini müasir ictimai və sosial-iqtisadi şəraitə uyğun yenidən qurmuş, uzun illər ərzində formalaşmış potensialını qoruyub saxlamağa və inkişaf etdirməyə müvəffəq olmuşdur. Bu gün də ölkəmizdə həmkarlar ittifaqlarının qanunvericilik bazası təkmilləşdirilir, fəaliyyəti üçün daha əlverişli şərait yaradılır.

Modernləşmə kursunu həyata keçirən Azərbaycan Respublikasında iqtisadi və sosial tərəqqiyə yönəlmiş dövlət siyasəti öz bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı halda, respublikamız qlobal böhranın təsirindən qorunmuş, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etdirilmişdir. Aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması ölkədə yoxsulluq və işsizlik kimi ictimai problemlərin səviyyəsini minimuma endirmiş, Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Cəmiyyətin tərəqqisi və dinamik proseslər qarşıya daim yeni vəzifələr qoyur. Hazırda respublikamızda ümumi daxili məhsulun əksər hissəsi özəl bölmədə formalaşır. Ölkədə daxili və xarici investisiyalar hesabına yaradılmış minlərlə sahibkarlıq subyekti, yerli və transmilli şirkətlər fəaliyyət göstərir, yeni-yeni iş yerləri açılır. Hesab edirik ki, mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisələrdə çalışan Azərbaycan vətəndaşlarının sosial mənafelərinin və əmək hüquqlarının qorunması üçün həmkarlar ittifaqları daha əzmkar olmalı və qətiyyətli tədbirlər görməlidir. Hökumət bu sahədə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə sosial tərəfdaşlığı gücləndirməli və onunla imzaladığı Baş Kollektiv Sazişin müddəalarının yerinə yetirilməsinə diqqəti artırmalıdır.

Bu gün vətəndaş cəmiyyətinin fəal təsisatlarından biri kimi çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ölkənin ən kütləvi ictimai təşkilatıdır. Qurum üzvlərinin əhəmiyyətli hissəsini gələcəyimizin təminatçıları olan gənclər təşkil edir. Bu amili nəzərə alaraq, həmkarlar ittifaqları işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin daha dolğun müdafiəsinə çalışmalı, onların təşəbbüslərinin dəstəklənməsi, peşə hazırlığının artırılması, məşğulluğunun təmin edilməsi və digər bu kimi mühüm məsələlərin həllinə kömək göstərməlidir.

Hörmətli qurultay nümayəndələri!

Müasir dövrün inkişaf meyilləri həmkarlar ittifaqlarının məsuliyyətini daha da artırır, zamanın çağırışlarına hazır olmağı tələb edir. Əminəm ki, qurultayın qərarları Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinin daha səmərəli təşkilinə, nüfuzunun artmasına, cəmiyyətdə sosial harmoniya və tərəfdaşlıq mühitinin güclənməsinə ciddi təkan verəcəkdir.

Sizi bir daha təbrik edir, qurultayın işinə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2013-cü il*

## BEYNƏLXALQ İDMAN ATICILIĞI FEDERASİYASININ BAŞ KATİBİ FRANTS ŞRAYBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq İdman Atıcılığı Federasiyasının baş katibi Frants Şrayberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Beynəlxalq İdman Atıcılığı Federasiyasının baş katibi Frants Şrayber Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. Ölkəmizlə yaxından tanış olduqlarını deyən Frants Şrayber Qəbələdəki idman kompleksinə getdiklərini və Bakıda bir sıra idman obyektlərinə baş çəkəcəklərini vurğulayaraq prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən diqqətin önəmini qeyd etdi. 2014-cü ildə Atıcılıq Federasiyasının stend atıcılığı üzrə dünya kubokunun finalının Azərbaycanda təşkil olunacağını, 2015-ci ildə isə dünya kubokunun stend atıcılığı üzrə mərhələ yarışlarının ölkəmizdə keçiriləcəyini qeyd edərək, Federasiya üçün böyük əhəmiyyət daşıyan bu tədbirlərə Azərbaycanın ev sahibliyi etməsini ölkəmizin beynəlxalq idman əməkdaşlığı sahəsində yeni uğuru kimi dəyərləndirdi.*

*Ölkəmizdə idmanın müxtəlif növlərinin sürətlə inkişaf etdiyini bildirən dövlətimizin başçısı Beynəlxalq İdman Atıcılığı Federasiyasının müvafiq qurumları ilə əməkdaşlığın önəmini qeyd etdi, Azərbaycanın müxtəlif beynəlxalq idman yarışlarının keçirilməsinə hazır olduğunu və bir sıra dünya kuboklarının, Avropa çempionatlarının ölkəmizdə təşkil olunduğunu, 2015-ci ildə isə ilk Avropa oyunlarına respublikamızın ev sahibliyi edəcəyini bildirdi. Dövlətimizin başçısı bu cür beynəlxalq yarışların gələcəkdə də uğurla keçiriləcəyinə ümidvar olduğunu vurğuladı.*

# BOSNİYA VƏ HERSEQOVİNANIN PARLAMENT MƏCLİSİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ BOJO LYUBİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Bosniya və Herseqovinanın Parlament Məclisinin Nümayəndələr Palatasının sədri Bojo Lyubiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Bosniya və Herseqovina arasında əlaqələrin siyasi, iqtisadi, parlamentlərarası əməkdaşlıq və digər sahələrdə genişləndirilməsinin əhəmiyyətini qeyd etdi. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin Azərbaycana səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının və bir-birinə qarşılıqlı dəstək vermələrinin əhəmiyyətini qeyd etdi, Bojo Lyubiçin Azərbaycana səfərinin ikitərəfli əlaqələrimizin, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bosniya və Herseqovinanın Parlament Məclisinin Nümayəndələr Palatasının sədri Bojo Lyubiç ölkələrimiz arasında dostluq əlaqələrinin böyük tarixə malik olduğunu vurğuladı. Azərbaycanın regionun ən böyük investorlarından biri olduğunu qeyd edən Bojo Lyubiç ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayaraq, bu əlaqələrin iqtisadi və humanitar sahələrin inkişaf etdirilməsi işinə təkan verəcəyinə əminliyini bildirdi.*

## BMT BAŞ KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ YAN KUBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də BMT Baş katibinin xüsusi nümayəndəsi Yan Kubişin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanın BMT strukturlarında son illərdəki fəaliyyəti məmnunluqla qeyd olundu, ölkəmizin BMT çərçivəsində Əfqanıstanla əməkdaşlığının səviyyəsinin razılıq doğurduğu və bu əməkdaşlığın gələcək illərdə daha da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı beynəlxalq sülhməramlı qüvvələrin Əfqanıstandan çıxarılmasından sonra Azərbaycanın bu ölkədə sabitliyin və dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişafa nail olunması istiqamətində əhəmiyyətli rol oynayacağı vurğulandı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın gələcək inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar danışıqların hazırkı vəziyyəti ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ IV QURULTAYINDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının IV qurultayında iştirak edən xarici ölkələrin nümayəndə heyətlərinin başçılarını qəbul etmişdir.*

*Nümayəndə heyətlərinin başçılarını salamlayan dövlətimizin başçısı xarici ölkələrin həmkarlar ittifaqları nümayəndələrinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının IV qurultayında iştirakını ölkələrimizin müvafiq strukturları arasında mövcud olan yaxşı əməkdaşlığın göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə qonaqların təmsil etdikləri ölkələr arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar sahələrdə dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Dövlətçiliyin möhkəmləndirilməsində, zəhmətkeşlərin hüquqlarının müdafiə olunmasında həmkarlar hərəkatının rolunu yüksək qiymətləndirən dövlətimizin başçısı milyonlarla insanı özündə birləşdirən həmkarlar ittifaqları arasında sıx əlaqələrin yaradılmasının önəmini qeyd etdi. Azərbaycandakı iqtisadi inkişafa toxunan prezident İlham Əliyev son illər yeni iş yerlərinin açılması, işsizliyin aradan qaldırılması istiqamətində mühüm addımların atıldığını dedi və həmkarlar təşkilatlarının fəaliyyətinin daha da genişləndiyini vurğuladı.*

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayının yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Ru-*

*siya Federasiyası Ümumhəmkarlar İttifaqları Konfederasiyasının baş katibinin müavini Valeri Yuriyev ölkəmizdə həmkarlar hərəkatına göstərdiyi diqqətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Belarus Həmkarlar İttifaqları Federasiyasının sədri Leonid Kozik Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarını və Belarus xalqının ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Aleksandr Lukaşenkonun ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərini çox yüksək qiymətləndirdiyini dedi. Leonid Kozik Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini ehtiramla xatırlatdı. Son illər ölkəmizdə gedən sürətli iqtisadi inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını deyən qonaq həmkarlar hərəkatına verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı prezident Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Aleksandr Lukaşenkonun Azərbaycana və özünün Belarusa rəsmi səfərlərini məmnunluqla xatırladan prezident İlham Əliyev ölkələrimiz arasında dostluq əlaqələrinin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi.*

*Moldova Milli Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Oleq Budza Moldova Respublikasının Prezidenti Nikolaye Timoftinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının növbəti qurultayının yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Azərbaycanda həyata keçirilən quruculuq işlərinin onlarda böyük təəssürat yaratdığını deyən Oleq Budza ölkəsində Heydər Əliyev adına İdman Kompleksinin inşası ilə bağlı həyata keçirilən layihəyə görə minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı prezident Nikolaye Timoftinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Moldova dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədri Tənzilə Narbayeva prezident İslam Kərimovun salamlarını dövlətimizin başçısına çatdırdı, Azərbaycan və Özbəkistan prezidentlərinin xidmətləri nəticəsində ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı. Dövlət başçılarının rəhbərliyi ilə ölkələrimiz arasında indiyə qədər əlaqələrimizin genişləndirilməsinə dair 100-dən çox sənədin qəbul olunmasının önəmini qeyd edən qonaq Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə rəhbərlik etdiyi qurum arasında əməkdaşlığa dair imzalanan memorandumun əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı prezident İslam Kərimovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Özbəkistan prezidenti İslam Kərimovun Azərbaycana, özünün isə Özbəkistana rəsmi səfərlərini məmnunluqla xatırladan prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində bu səfərlərin əhəmiyyətini qeyd etdi.

## XORVATİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ANTE KOTROMANOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 fevral 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Xorvatiya Respublikasının Müdafiə naziri Ante Kotromanoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli münasibətlərin səviyyəsinin razılıq doğurduğunu vurğuladı. Xorvatiya prezidentinin Azərbaycana və özünün Xorvatiyaya rəsmi səfərlərini məmnunluqla xatırladan prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi və müdafiə sahələrində daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu dedi. Dövlətimizin başçısı Xorvatiyanın Müdafiə naziri Ante Kotromanoviçin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.*

*Müdafiə naziri Ante Kotromanoviç Xorvatiya prezidenti İvo Yosipoviçin salamlarını dövlətimizin başçısına çatdırdı. Xalqlarımızın oxşar tarixə malik olduğunu və ölkələrimizi sıx dostluq tellərinin bağladığını qeyd edən nazir ikitərəfli münasibətlərimizin müsbət istiqamətdə inkişaf etdiyini dedi.*

*Dövlətimizin başçısı prezident İvo Yosipoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## QEYDLƏR

**1. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 5, 8, 11, 12, 13, 14, 267, 353.

**2. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 5, 12, 13, 31, 58, 66, 71, 85, 148, 169, 187, 203, 210, 211, 220, 256, 266

**3. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ

Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 6, 8, 10, 117, 131, 203, 290, 302, 304.

**4. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 6, 131.

**5. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 7, 14, 55, 100, 107, 145, 183, 198–207, 299, 300, 356.

**6. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 300 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 9, 286.

**7. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 9, 286.

**8. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 14, 98–99, 145, 305.

**9. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın

ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ic-

timai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunun-

dan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 34, 35, 40, 43, 50, 55, 62, 66, 69, 70, 126–127, 130, 132, 133, 136, 138, 141, 147, 157, 171, 193, 226, 228, 229, 232, 269, 270, 293, 312, 320.

**10. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 43, 140.

**11. Guido Vestervelle** (1961–2016) – alman siyasətçisi. 2009–2013-cü illərdə Almaniya Federativ Respublikasının Xarici İşlər naziri və vitse-kansleri olmuşdur. – 49.

**12. Fikrət Məmmədov,** Fikrət Fərrux oğlu (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, I dərəcəli Dövlət ədliyyə müşaviri, Məhkəmə-Hüquq Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 50.

**13. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 54, 94, 95.

**14. Çeçenistan** (İçkeriya) – Rusiya Federasiyasında respublika. Sahəsi 15,6 min km$^2$, əhalisi 1,4 milyon nəfərdir. Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirildi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. Paytaxtı Qroznı şəhəridir. – 55.

**15. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə Heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 56.

**16. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 58, 67, 85, 100, 128, 148, 187, 198, 202, 203, 204, 205, 209, 210, 211, 231, 253, 254, 267, 298, 305, 317, 354.

**17. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 58, 254, 267.

**18. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 61.

**19. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 62–75, 134.

**20. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respub-

likasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 14, 15, 16, 25, 62, 76, 104, 105, 107, 150, 163, 188, 190, 192, 193, 214, 225, 226, 232, 233, 234, 238, 331, 332–337.

**21. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 km$^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 78–88.

**22. Toni Tan** (d.1940) – Sinqapur siyasətçisi, bankir və riyaziyyatçı. 2011–2017-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 79–87.

**23. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 93, 200.

**24. Trayan Besesku** (d.1951) – Rumıniyanın siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 93.

**25. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 94.

**26. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 95.

**27. Laos,** L a o s X a l q D e m o k r a t i k R e s p u b l i- k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir. Paytaxtı Vyentyan şəhəridir. – 96.

**28. Çummali (Tyummali) Sayasone** (d.1936) – general-leytenant. 2006–2016-cı illərdə Laos Xalq Demokratik Respublikasının Prezidenti olmuşdur. – 96.

**29. Cəmil Çiçək** (d.1946) – hüquqşünas. 2011–2015-ci illərdə Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 98–99.

**30. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 100, 203, 204, 230.

**31. Tailand,** Tailand Krallığı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min $km^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 110.

**32. Bhumibol Adulyadej** (1927–2016) – 1950–2016-cı illərdə (faktiki 1946-cı ildən) Tailand Krallığının Kralı olmuşdur. – 110.

**33. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-dən çox ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 118.

**34. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 119, 224.

**35. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 119.

**36. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 120, 223, 347.

**37. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 120, 223, 347.

**38. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,2 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 121, 200, 296, 298–316.

**39. Ueli Morer** (d.1950) – İsveçrənin dövlət və siyasi xadimi, 2013-cü ildə İsveçrə Konfederasiyasının Prezidenti olmuşdur. – 121.

**40. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin

anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 127, 135.

**41. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 127.

**42. Tamerlan Əliyev,** T a m e r l a n  Ə z i z  o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 127.

**43. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 127, 294.

**44. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 127, 294, 296.

**45. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən

Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 127, 294.

**46. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 132–151.

**47. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 152–153, 295.

**48. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 152, 153.

**49. Roald Saqdeyev** (d.1932) – rus fiziki. SSRİ Elmlər Akademiyasının akademiki. Əsas tədqiqatları plazma fizikasına aiddir. Plazmanın qeyri-tarazlığını tədqiq etmiş, onda «toqquşmasız» zərbə dalğalarının mövcud olduğunu kəşf etmiş, «tokamak» qurğularındakı köçürmə hadisələrinin nəzəriyyəsini işləyib hazırlamışdır. – 162.

**50. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil

Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 185.

**51. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min $km^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 194.

**52. Şinzo Abe** (d.1954) – Yaponiyanın dövlət və siyasi xadimi. 2006–2007 və 2012-ci ildən Yaponiyanın Baş naziridir. – 224.

**53. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 226, 227, 228, 229, 264, 265, 276.

**54. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 141, 225, 232.

**55. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 254.

**56. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti. İrəvan xanlığı Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati

cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 254.

**57. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan turklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdır. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14.354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeritdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet–bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 254.

**58. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı

cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 292–294.

**59. Ümümdünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 263, 296, 298–316, 330.

**60. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və R.T.Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 305.

**61. Çex,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 320.

**62. Miloş Zeman** (d.1944) – Çexiyanın dövlət və siyasi xadimi. 2013-cü ildən Çexiya Respublikasının Prezidentidir. – 320.

**63. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 348.

**64. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 348.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Namiq** – 171
**Abutalıbov Hacıbala** – 46, 248, 249, 250, 296
**Adulyadej Bhumibol** – 110
**Akihito** – 119
**Allahverdiyev Yaşar** – 171
**Ayan Tomaş** – 125
**Babayev Baxış** – 326, 327
**Barton Dominik** – 304
**Bay Liçen** – 154–155
**Belenki Valeri** – 171
**Besesku Trayan** – 93
**Bəşirov Aydın** – 47
**Bildt Karl** – 128
**Brays Kventin** – 287
**Bradtke Robert** – 100
**Broek Antonius** – 5
**Budza Oleq** – 356
**Camalov Yavər** – 157
**Cin Yonq Kay** – 308
**Corc Yeo** – 82
**Çiçək Cəmil** – 98–99
**Dadli Robert** – 161
**Davudoğlu Əhməd** – 305
**De Bua Nik** – 152–153
**De Marjeri Kristof** – 309
**Dombrovskis Valdis** – 108
**Eide Espen** – 260
**Eyvazov Məmməd** – 171
**Eşton Ketrin** – 109
**Əhməd Masud** – 56

**Əhmədinejad Mahmud** – 348
**Əl-Xəlifə Həməd** – 124
**Əl-Məktum Məhəmməd** – 95
**Əl-Nəhəyyan Xəlifə** – 94
**Əl-Şihhin Mohammed** – 54
**Əl-Tani Xəlifə** – 123
**Əl-Tani Təmim** – 122
**Ələkbərov Füzuli** – 208
**Əliyev Heydər** – 34, 35, 40, 43, 50, 55, 62, 66, 69, 70, 126–127, 130, 132, 133, 136, 138, 141, 147, 157, 171, 193, 226, 228, 229, 232, 269, 270, 293, 312, 320
**Əliyev Əziz** – 127
**Əliyev Tamerlan** – 127
**Əliyeva Mehriban** – 14, 15, 16, 25, 62, 76, 104, 105, 107, 150, 163, 188, 190, 192, 193, 214, 225, 226, 232, 233, 234, 238, 331, 332–337
**Əliyeva Zərifə xanım** – 127, 135
**Əsədov Oqtay** – 127, 294
**Ərdoğan Rəcəb Tayyib** – 305
**Əsgərov Toğrul** – 171
**Əzizov Eldar** – 208
**Əlizadə Qurbanəli** – 36
**Fontana Bernard** – 303
**For Jak** – 100
**Gerhauser Klaus** – 118
**Gül Abdullah** – 305
**Heydərov Sadiq** – 171
**Heydərov Kəmaləddin** – 82
**Hətəmov Rəhman** – 171
**Honqbo Vu** – 12
**Hu Szintao** – 154, 155
**Hüseynova Nəsibə** – 232–233

**Hiks Ketlin** – 290
**Hookon** – 260
**Jilkin Aleksandr** – 183
**İvanişvili Bidzina** – 222
**İlümjinov Kirsan** – 105
**Kadırov Ramzan** – 55
**Kanepan Diyeqo** – 291
**Kastro Raul** – 184
**Kest Riçard** – 299–301
**Kemeron Devid** – 152, 153
**Kərimov İslam** – 357
**Koçijançiç Janez** – 32–33
**Koen Sebastyan** – 295
**Kotromanoviç Ante** – 358
**Kozik Leonid** – 356
**Krasnicki Andrzej** – 24
**Kroes Neelie** – 22
**Kubiş Yan** – 353
**Kuçma Leonid** – 312
**Kurtua Jan-Filipp** – 313
**Qalle Jan-Lö** – 314
**Qarayev Əbülfəs** – 190, 192
**Qazıbəyov Eldar** – 171
**Qorbaçov Mixail** – 292
**Qrex Cozef** – 101
**Qruyev Lazar** – 39
**Quliyev Azər** – 212–213
**Qusman İrman** – 187
**Leonq Çi Çieu** – 88
**Lefort Filip** – 109, 354
**Li Hsien Loonq** – 81
**Lukaşenko Aleksandr** – 356
**Lyubiç Bojo** – 352
**Lyayiç Rasim** – 102
**Mahmud Abbas** – 185

**Maurer Ueli** – 298
**Maynardi Çezare** – 302
**Mehdiyev Ramiz** – 127, 294, 296
**Məmmədov Fikrət** – 50
**Məmmədov Ceyhun** – 171
**Məmmədov Sərvər** – 213–214
**Məmmədov Ziya** – 189, 195
**Məmmədov Razim** – 35
**Moran Pedro** – 101
**Morer Ueli** – 121
**Mixalovski Yatsek** – 128
**Mladenov Nikolay** – 128
**Mukherci Pranab** – 9, 286
**Mustafayev Şahin** – 129, 172, 174
**Narbayeva Tənzilə** – 357
**Nazarbayev Nursultan** – 120, 223, 347
**Nəbiyev Tural** – 149–151
**Nəzərov Rasim** – 47
**Niinistö Sauli** – 111
**Nikoliç Tomislav** – 102
**Nişani Buyar** – 61
**Obama Barak** – 6, 131
**Orlova Svetlana** – 7
**Pak Kın He** – 194
**Pan Gi Mun** – 12
**Pahor Borut** – 112
**Paşayev Zaur** – 171
**Piriyeva Minayə** – 214–215
**Pirverdiyev Etibar** – 188
**Pırvanov Georgi** – 156
**Popov İqor** – 100
**Piper Karolina** – 49
**Racapaksa Mahinda** – 297
**Radmanoviç Neboyşa** – 60
**Rasizadə Artur** – 127, 294, 296

**Rəhimov Azad** – 104
**Russeff Dilma** – 319
**Saqdeyev Roald** – 162
**Salahova Zərifə** – 171
**Sayasone Çoummali** – 96
**Salamatin Dmitri** – 38
**Si Cinpi** – 154, 155
**Seyn Theyn** – 186
**Sirelli Jan-Fransua** – 315
**Sinqh Manmohan** – 9
**Sideifzadə Fikrət** – 171
**Svanberq Karl-Henrik** – 306
**Şehade Fadi** – 10
**Şərifov Şərif** – 171
**Şimon Peres** – 316
**Şinzo Abe** – 224
**Şirəliyev Oqtay** – 238
**Şrayber Frants** – 351
**Şvab Klaus** – 307
**Timoftin Nikolaye** – 356, 357
**Toni Tan** – 79–87
**Ture Hamadun** – 21
**Tvirkun Viktor** – 97
**Verveyer Filip** – 8
**Vestervelle Guido** – 49
**Yanşa Yanez** – 288–289
**Yanukoviç Viktor** – 38, 129–130
**Yauhar Norberto** – 103
**Yuriyev Valeri** – 356
**Yusifov Ramiz** – 171
**Zeman Miloş** – 320
**Zərdari Asif** – 259

## Coğrafi adlar göstəricisi



| | |
|---|---|
| **Afrika** | – 16 |
| **Ağdam** | – 141, 225, 232 |
| **Albaniya** | – 61 |
| **Almaniya** | – 49, 140 |
| **Almatı** | – 347 |
| **Amerika Birləşmiş Ştatları** | – 6, 8, 100, 117, 131, 203, 290, 302, 304 |
| **Asiya** | – 57 |
| **Avropa** | – 16, 17, 24, 26, 28, 168, 169, 196, 205, 206, 255, 301, 328–332 |
| **Argentina** | – 103 |
| **Avstriya** | – 14, 15 |
| **Avstraliya** | – 287 |
| **Balaxanı** | – 172–173, 174–181, 182 |
| **Belarus** | – 14, 356 |
| **Bəhreyn** | – 124 |
| **Binəqədi** | – 250 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | – 54, 94, 95 |
| **Bolqarıstan** | – 39, 128, 156 |
| **Böyük Britaniya** | – 14, 152–153, 295 |
| **Bosniya və Herseqovina** | – 60, 352 |
| **Braziliya** | – 319 |
| **Cənub-Şərqi Asiya** | – 80 |
| **Cənub-Şərqi Avropa** | – 15 |
| **Cənubi Qafqaz** | – 80, 109, 254, 307, 354 |
| **Çeçenistan** | – 55 |
| **Çex Respublikası** | – 320 |
| **Çin** | – 14, 154–155. |

**Dağlıq Qarabağ** – 58, 67, 85, 100, 128, 148, 187, 198, 202, 203, 204, 205, 209, 210, 211, 231, 252, 254, 267, 298, 305, 317, 354
**Davos** – 298–316
**Dubay** – 54
**Estoniya** – 14
**Əfqanıstan** – 353
**Əhmədli** – 35–36
**Əhmədbəyli** – 140
**Fələstin** – 185
**Finlandiya** – 111, 140
**Fransa** – 14, 100, 203
**Füzuli** – 132–151
**Gədəbəy** – 50, 53
**Gəncə** – 50, 53, 209, 215, 216, 283
**Göyçə** – 254
**Gürcüstan** – 145, 200, 222
**Həştərxan** – 183
**Hindistan** – 9, 286
**Horadiz** – 132–140
**Xankəndi** – 254
**Hövsan** – 209, 215, 216
**Xəzər dənizi** – 47, 48, 77
**Xocalı** – 230, 254
**Xorvatiya** – 14, 47, 358
**İndoneziya** – 187, 297
**İran** – 14, 145, 348
**İsrail** – 14
**İsveç** – 128
**İsveçrə** – 121, 200, 296, 298–316
**İrəvan** – 210
**Kanada** – 14
**Koreya Respublikası** – 194

**Kuba** – 184
**Köln** – 195
**Qafqaz** – 14
**Qazaxıstan** – 120, 223, 347
**Qərbi Asiya** – 118
**Qətər** – 122, 123
**Quba** – 50
**Qusar** – 188–193
**Laçın** – 63
**Laos** – 96
**Latviya** – 108
**Litva** – 14
**London** – 164, 167
**Malayziya** – 14, 299
**Mərkəzi Asiya** – 118
**Moldova** – 356
**Müşfiqabad** – 225–235
**Myanma** – 186
**Naxçıvan** – 62, 63
**Norveç** – 260
**Oğuz** – 50, 53
**Orta Asiya** – 16, 56, 307
**Okeaniya** – 57
**Özbəkistan** – 357
**Pakistan** – 259
**Polşa** – 24, 128
**Roma** – 168
**Rumıniya** – 93, 200
**Rusiya** – 7, 14, 55, 100, 107, 145, 183, 198–207, 299, 300, 356
**Sabunçu** – 50
**Serbiya** – 102
**Sinqapur** – 78–88
**Sloveniya** – 14, 24, 112, 288–289
**Sumqayıt** – 208–217, 282

**Şəki** – 209, 215, 216, 217
**Şəmkir** – 209, 215, 216, 217
**Şuşa** – 63, 254
**Tailand** – 110
**Türkiyə** – 14, 98,145,305
**Tərtər** – 141
**Ukrayna** – 14, 38, 129–130, 200, 312
**Uruqvay** – 291
**Urva** – 188
**Uyana** – 51
**Yaxın Şərq** – 56
**Yaponiya** – 119, 224
**Yuxarı Qarabağ** – 141
**Zabrat** – 209, 215, 216, 217
**Zəngəzur** – 254

# MÜNDƏRİCAT

BMT-nin ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ ANTONİUS BROEK İLƏ GÖRÜŞ

*1 noyabr 2012-ci il* ....................................................................................5

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*2 noyabr 2012-ci il* ....................................................................................6

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ, AZƏRBAYCAN– RUSİYA PARLAMENTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2012-ci il* ....................................................................................7

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN BEYNƏLXALQ KOMMUNİKASİYA VƏ İNFORMASİYA SİYASƏTİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ FİLİP VERVEYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2012-ci il* ....................................................................................8

HİNDİSTAN RESPUBLİKASININ KOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ KAPİL SİBALIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 noyabr 2012-ci il* ....................................................................................9

ÜMUMDÜNYA İNTERNET KORPORASİYASININ PREZİDENTİ FADİ ŞEHADE İLƏ GÖRÜŞ

*4 noyabr 2012-ci il* ........................................................................ *10*

VII İNTERNET İDARƏÇİLİK FORUMUNUN
İŞTİRAKÇILARINA

*5 noyabr 2012-ci il* ........................................................................ *11*

BMT BAŞ KATİBİNİN MÜAVİNİ VU HONQBONUN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 noyabr 2012-ci il* ........................................................................ *12*

«BAKUTEL–2012» XVIII AZƏRBAYCAN BEYNƏLXALQ
TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA
TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 noyabr 2012-ci il* ........................................................................ *14*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ
KATİBİ HAMADUN
TURE İLƏ GÖRÜŞ

*6 noyabr 2012-ci il* ........................................................................ *21*

AVROPA KOMİSSİYASININ ELEKTRON GÜNDƏLİK
MƏSƏLƏLƏRİ ÜZRƏ VİTSE-PREZİDENTİ
NEELİE KROES İLƏ GÖRÜŞ

*7 noyabr 2012-ci il* ........................................................................ *22*

MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 20 İLLİK YUBİLEYİNDƏ
İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZƏ GƏLMİŞ XARİCİ
DÖVLƏTLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 noyabr 2012-ci il* ........................................................................ *23*

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN
20 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ
MƏRASİMDƏ İŞTİRAK

*7 noyabr 2012-ci il* ........................................................................ *25*

ƏHMƏDLİ QƏSƏBƏSİNDƏ 14 SAYLI ŞƏHƏR POLİKLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2012-ci il* ........................................................................ 35

NƏSİMİ RAYONUNDAKI 1 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*8 noyabr 2012-ci il* ........................................................................ 37

UKRAYNA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ DMİTRİ SALAMATİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 noyabr 2012-ci il* ........................................................................ 38

BOLQARISTAN RESPUBLİKASININ ALİ KASSASİYA MƏHKƏMƏSİNİN SƏDRİ LAZAR QRUYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 noyabr 2012-ci il* ........................................................................ 39

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN HƏRBİ HOSPİTALININ AÇILIŞI MƏRASİMİ

*12 noyabr 2012-ci il* ........................................................................ 40

YASAMAL RAYONUNDAKI 173 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*12 noyabr 2012-ci il* ........................................................................ 46

DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN «BALAKƏN» VƏ «BƏRDƏ» GƏMİ-BƏRƏLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*13 noyabr 2012-ci il* ........................................................................ 47

ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT NAZİRİ KAROLİNA

PİPERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 noyabr 2012-ci il* ........................................................................49

YASAMAL RAYON MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*13 noyabr 2012-ci il* ........................................................................50

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİNİN MÜAVİNİ MOHAMMED ƏHMƏD BİN ƏDBÜL ƏZİZ ƏL-ŞİHHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 noyabr 2012-ci il* ........................................................................54

RUSİYA FEDERASİYASI ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN KADIROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 noyabr 2012-ci il* ........................................................................55

BEYNƏLXALQ VALYUTA FONDUNUN YAXIN ŞƏRQ VƏ ORTA ASİYA ÖLKƏLƏRİ DEPARTAMENTİNİN DİREKTORU MASUD ƏHMƏDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 noyabr 2012-ci il* ........................................................................56

ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSININ VII BAŞ ASSAMBLEYASININ İŞTİRAKÇILARINA

*16 noyabr 2012-ci il* ........................................................................57

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NEBOYŞA RADMANOVİÇƏ

*16 noyabr 2012-ci il* ........................................................................60

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ

*16 noyabr 2012-ci il ............................................................................61*

YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 20
İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ
MƏRASİMDƏ İŞTİRAK

*16 noyabr 2012-ci il ............................................................................62*

DÖVLƏT BAYRAĞI MEYDANI ƏTRAFINDA GÖRÜLƏN
ABADLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*16 noyabr 2012-ci il ............................................................................76*

«XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR»
BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNİN
İŞTİRAKÇILARINA

*20 noyabr 2012-ci il ............................................................................77*

SİNQAPUR RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*20 noyabr 2012-ci il ............................................................................78*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*21 noyabr 2012-ci il ............................................................................79*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*21 noyabr 2012-ci il ............................................................................80*

BAŞ NAZİR Lİ HSİEN LOONQ İLƏ GÖRÜŞ

*21 noyabr 2012-ci il ............................................................................81*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ
NAHARDA İŞTİRAK

*21 noyabr 2012-ci il* .......................................................................... *82*
MİLLİ SƏHLƏB BAĞI İLƏ TANIŞLIQ

*21 noyabr 2012-ci il* .......................................................................... *88*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİNİN 40-cı PLENAR SESSİYASININ İŞTİRAKÇILARINA

*26 noyabr 2012-ci il* .......................................................................... *89*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÖLKƏLƏRİ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ I FORUMUNUN İŞTİRAKÇILARINA

*26 noyabr 2012-ci il* .......................................................................... *91*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*26 noyabr 2012-ci il* .......................................................................... *93*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*26 noyabr 2012-ci il* .......................................................................... *94*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*26 noyabr 2012-ci il* .......................................................................... *95*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

*26 noyabr 2012-ci il* .......................................................................... *96*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ VİKTOR TVİRKUN İLƏ GÖRÜŞ

*26 noyabr 2012-ci il* ......................................................................................*97*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏMİL ÇİÇƏYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2012-ci il* ......................................................................................*98*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ ANJİ KASPRŞİK İLƏ GÖRÜŞ

*26 noyabr 2012-ci il* ......................................................................................*100*

AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*26 noyabr 2012-ci il* ......................................................................................*101*

SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ RASİM LYAYİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2012-ci il* ......................................................................................*102*

ARGENTİNA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, HEYVANDARLIQ VƏ BALIQÇILIQ NAZİRİ NORBERTO YAUHARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2012-ci il* ......................................................................................*103*

I AZƏRBAYCAN BEYNƏLXALQ İDMAN, İDMAN LƏVAZİMATI VƏ GEYİMİ, HƏMÇİNİN GƏNCLƏR TƏŞKİLATLARININ IV RESPUBLİKA SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*28 noyabr 2012-ci il* ......................................................................................*104*

LATVİYA RESPUBLİKASININ BAŞ NAZİRİ VALDİS DOMBROVSKİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2012-ci il .........................................................................108*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*28 noyabr 2012-ci il .........................................................................109*

TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

*3 dekabr 2012-ci il..........................................................................110*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*3 dekabr 2012-ci il..........................................................................111*

SLOVENİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*7 dekabr 2012-ci il..........................................................................112*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN 2015-ci İLDƏ I AVROPA OLİMPİYA OYUNLARININ BAKIDA KEÇİRİLMƏSİ İLƏ BAĞLI QƏRARI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK!

*10 dekabr 2012-ci il.........................................................................113*

ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ TOMAS O. MELİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 dekabr 2012-ci il .........................................................................117*

ASİYA İNKİŞAF BANKININ MƏRKƏZİ VƏ QƏRBİ ASİYA DEPARTAMENTİNİN DİREKTORU KLAUS GERHAUSER İLƏ GÖRÜŞ

*10 dekabr 2012-ci il.........................................................................118*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*11 dekabr 2012-ci il ..........................................................................119*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*11 dekabr 2012-ci il...........................................................................120*

İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB UELİ MORERƏ

*11 dekabr 2012-ci il...........................................................................121*

QƏTƏR DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT
ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*11 dekabr 2012-ci il...........................................................................122*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD
BİN XƏLİFƏ ƏL-TANİYƏ

*11 dekabr 2012-ci il...........................................................................123*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD
BİN İSA ƏL-XƏLİFƏYƏ

*11 dekabr 2012-ci il...........................................................................124*

ÜMUMDÜNYA AĞIR ATLETİKA FEDERASİYASININ
PREZİDENTİ TOMAŞ AYAN İLƏ GÖRÜŞ

*11 dekabr 2012-ci il ..........................................................................125*

XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ
HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2012-ci il ..........................................................................126*

POLŞA RESPUBLİKASI PREZİDENT ADMİNİSTRASİYA-
SININ RƏHBƏRİ, İSVEÇ KRALLIĞININ VƏ BOLQARISTAN
RESPUBLİKASININ XARİCİ İŞLƏR
NAZİRLƏRİ İLƏ GÖRÜŞ

*12 dekabr 2012-ci il ............................................................................128*
UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR
YANUKOVİÇİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*12 dekabr 2012-ci il ............................................................................129*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*12 dekabr 2012-ci il ............................................................................130*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*15 dekabr 2012-ci il.............................................................................131*

FÜZULİ RAYONUNA SƏFƏR

*15 dekabr 2012-ci il ............................................................................132*

FÜZULİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*15 dekabr 2012-ci il ............................................................................144*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ
NİK DE BUA İLƏ GÖRÜŞ

*17 dekabr 2012-ci il ............................................................................152*

ÇİN XALQ RESPUBLİKASININ SİYASİ KONSULTATİV
ŞURASININ ÜMUMÇİN KOMİTƏSİNİN SƏDR MÜAVİNİ
BAY LİÇENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*17 dekabr 2012-ci il ............................................................................154*

BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ
GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*17 dekabr 2012-ci il*..........................................................................................*156*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN TƏCRÜBƏ - SINAQ ZAVODUNUN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*17 dekabr 2012-ci il* ..........................................................................................*157*

«DÖVLƏT VƏ DİN: DƏYİŞƏN DÜNYADA TOLERANTLIĞIN GÜCLƏNDİRİLMƏSİ» I BEYNƏLXALQ BAKI FORUMUNUN İŞTİRAKÇILARINA

*18 dekabr 2012-ci il*..........................................................................................*159*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*18 dekabr 2012-ci il* ..........................................................................................*161*

AZƏRBAYCANIN KOSMİK PROQRAMININ MƏSLƏHƏTÇİSİ AKADEMİK ROALD SAQDEYEV İLƏ GÖRÜŞ

*18 dekabr 2012-ci il* ..........................................................................................*162*

MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2012-ci İLƏ YEKUN VURULMASI, İDMANÇILARA VƏ MƏŞQÇİLƏRƏ MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİ

*18 dekabr 2012-ci il* ..........................................................................................*163*

BALAXANIDA BƏRK MƏİŞƏT TULLANTILARININ ÇEŞİDLƏNMƏSİ ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*19 dekabr 2012-ci il* ..........................................................................................*172*

BALAXANIDA BAKI BƏRK MƏİŞƏT TULLANTILARININ YANDIRILMASI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*19 dekabr 2012-ci il*..........................................................................................*174*

BALAXANI SƏNAYE PARKININ TƏMƏLQOYMA MƏRASİMİ

*19 dekabr 2012-ci il* ..........................................................................................*182*

RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 dekabr 2012-ci il ........................................................................183*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

*20 dekabr 2012-ci il.........................................................................184*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*20 dekabr 2012-ci il.........................................................................185*

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THEYN SEYNƏ

*20 dekabr 2012-ci il.........................................................................186*

İNDONEZİYA RESPUBLİKASININ REGİONAL NÜMAYƏNDƏLƏR ŞURASININ SƏDRİ İRMAN QUSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 dekabr 2012-ci il ........................................................................187*

QUSAR RAYONUNA SƏFƏR

*20 dekabr 2012-ci il ........................................................................188*

KOREYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM PAK KIN HEYƏ

*21 dekabr 2012-ci il.........................................................................194*

«AZƏRYOL» KLUBUNUN İNZİBATİ BİNASI, VOLEYBOL MEYDANÇASI VƏ «AZƏRYOL» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*21 dekabr 2012-ci il ........................................................................195*

«ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*22 dekabr 2012-ci il* ........................................................................*198*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*24 dekabr 2012-ci il* ........................................................................*208*
NƏSİMİ ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA GÖRÜLƏN YENİDƏNQURMA VƏ ABADLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 dekabr 2012-ci il* ........................................................................*218*

DÜNYA AZƏRBAYCANLILARINA

*25 dekabr 2012-ci il*.........................................................................*219*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BİDZİNA İVANİŞVİLİ İLƏ GÖRÜŞ

*26 dekabr 2012-ci il* ........................................................................*222*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*27 dekabr 2012-ci il*.........................................................................*223*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİNZO ABEYƏ

*27 dekabr 2012-ci il*.........................................................................*224*

MÜŞFİQABAD QƏSƏBƏSİNDƏ 1440 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN YENİ SALINMIŞ MƏHƏLLƏNİN AÇILIŞI MƏRASİMİ

*27 dekabr 2012-ci il* ........................................................................*225*

MÜŞFİQABAD QƏSƏBƏSİNDƏ ƏSASLI TƏMİR EDİLMİŞ 67 SAYLI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*27 dekabr 2012-ci il* ........................................................................*234*

HƏSƏN ƏLİYEV VƏ ATATÜRK PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ YERALTI AVTOMOBİL TUNELİNİN AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2012-ci il ........................................................................236*

RESPUBLİKA NEYROCƏRRAHİYYƏ XƏSTƏXANASININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2012-ci il ........................................................................238*

VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ VƏ 1 SAYLI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2012-ci il ........................................................................240*

BAKININ FÜZULİ VƏ MİRZAĞA ƏLİYEV KÜÇƏLƏRİNİN ARASINDA YARADILAN YERALTI AVTOMOBİL DAYANACAĞINDA, PARK, BAĞ VƏ FƏVVARƏLƏR KOMPLEKSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 dekabr 2012-ci il ........................................................................246*

AZADLIQ MEYDANINDA TİKİLƏN YERALTI AVTOMOBİL DAYANACAĞINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 dekabr 2012-ci il ........................................................................248*

BAKININ XƏTAİ RAYONUNDA YENİ SALINAN PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*30 dekabr 2012-ci il ........................................................................249*

BİNƏQƏDİ RAYONUNUN ƏRAZİSİNDƏ İNŞA OLUNAN MƏSCİD KOMPLEKSİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*30 dekabr 2012-ci il ......................................................................................250*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2012-ci il.......................................................................................252*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*4 yanvar 2013-cü il.......................................................................................257*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*14 yanvar 2013-cü il.....................................................................................259*

NORVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ ESPEN BART EİDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 yanvar 2013-cü il.....................................................................................260*

NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2013-cü İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*15 yanvar 2013-cü il.....................................................................................261*

YEKUN NİTQİ

*15 yanvar 2013-cü il.....................................................................................272*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB KUMAR MUKHERCİYƏ

*16 yanvar 2013-cü il.....................................................................................286*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU
XANIM KVENTİN BRAYSA

*16 yanvar 2013-cü il..........................................................................287*

SLOVENİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
YANEZ YANŞA İLƏ GÖRÜŞ

*16 yanvar 2013-cü il..........................................................................288*

ABŞ MÜDAFİƏ NAZİRİNİN BAŞ MÜŞAVİRİ
KETLİN HİKSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*17 yanvar 2013-cü il..........................................................................290*
URUQVAY RESPUBLİKASI PREZİDENTİNİN XÜSUSİ
ELÇİSİ, PREZİDENT ADMİNİSTRASİYASININ DÖVLƏT
KATİBİ DİYEQO KANEPAN İLƏ GÖRÜŞ

*19 yanvar 2013-cü il..........................................................................291*

QANLI YANVAR FACİƏSİNİN 23-cü İLDÖNÜMÜ İLƏ
ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ÜMUMXALQ
ZİYARƏTİNDƏ İŞTİRAK

*20 yanvar 2013-cü il..........................................................................292*

BÖYÜK BRİTANİYA MİLLİ OLİMPİYA KOMİTƏSİNİN
PREZİDENTİ, LONDON OLİMPİYA OYUNLARININ İCRAÇI
DİREKTORU LORD SEBASTYAN KOEN
İLƏ GÖRÜŞ

*21 yanvar 2013-cü il..........................................................................295*

İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*22 yanvar 2013-cü il..........................................................................296*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA
RACAPAKSAYA

*23 yanvar 2013-cü il..........................................................................297*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
UELİ MAURER İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................298*

«CNN İNTERNATİONAL» TELEVİZİYA KANALINA
MÜSAHİBƏ

*23 yanvar 2013-cü il..........................................................................299*

ABŞ-ın «BOOZ&CO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI
DİREKTORU ÇEZARE MAYNARDİ İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................302*

«HOLCİM GROUP» ŞİRKƏTİNİN RƏHBƏRİ BERNARD
FONTANA İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................303*

ABŞ-ın «McKİNSEY&COMPANY» ŞİRKƏTİNİN RƏHBƏRİ
DOMİNİK BARTON İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................304*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................305*

*bp* ŞİRKƏTİNİN SƏDRİ KARL-HENRİK SVANBERQ İLƏ
GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................306*

DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS
ŞVAB İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................307*

BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ BAŞ
İCRAÇI DİREKTORU CİN YONQ KAY İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................308*

«TOTAL» ŞİRKƏTİNİN RƏHBƏRİ KRİSTOF DE MARJERİ İLƏ GÖRÜŞ

*23 yanvar 2013-cü il..........................................................................309*

DÜNYA İQTİSADİ FORUMUNUN «NEFT VƏ QAZ İDARƏÇİLƏRİNİN TOPLANTISI» MÖVZUSUNDA KEÇİRİLƏN SESSİYASINDA İŞTİRAK

*24 yanvar 2013-cü il..........................................................................310*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*24 yanvar 2013-cü il..........................................................................311*

UKRAYNA RESPUBLİKASININ SABİQ PREZİDENTİ LEONİD KUÇMA İLƏ GÖRÜŞ

*24 yanvar 2013-cü il..........................................................................312*

«MİCROSOFT İNTERNATİONAL» ŞİRKƏTİNİN PREZİDENTİ JAN-FİLİPP KURTUA İLƏ GÖRÜŞ

*24 yanvar 2013-cü il..........................................................................313*

«THALES ALENİA SPACE» ŞİRKƏTİNİN PREZİDENTİ JAN-LÖ QALLE İLƏ GÖRÜŞ

*24 yanvar 2013-cü il..........................................................................314*

«GDF SUEZ» ŞİRKƏTİNİN SƏDR MÜAVİNİ VƏ PREZİDENTİ JAN-FRANSUA SİRELLİ İLƏ GÖRÜŞ

*24 yanvar 2013-cü il..........................................................................315*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*24 yanvar 2013-cü il..........................................................................316*

ƏSİR VƏ İTKİN DÜŞMÜŞ, GİROV GÖTÜRÜLMÜŞ VƏTƏNDAŞLARLA ƏLAQƏDAR DÖVLƏT KOMİSSİYASININ ÜZVLƏRİNƏ

*29 yanvar 2013-cü il*......................................................................................*317*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ XANIM DİLMA RUSSEFFƏ

*29 yanvar 2013-cü il*......................................................................................*319*

ÇEX RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

*29 yanvar 2013-cü il*......................................................................................*320*

«BAKIELEKTRİKŞƏBƏKƏ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YENİ YARIMSTANSİYALARI VƏ

İNZİBATİ BİNALARININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*31 yanvar 2013-cü il*......................................................................................*321*

2015-ci İLDƏ BAKIDA KEÇİRİLƏCƏK I AVROPA OYUNLARININ TƏŞKİLAT KOMİTƏSİNİN İLK İCLASINDA İŞTİRAK

*2 fevral 2013-cü il* .........................................................................................*328*

YEKUN NİTQİ

*2 fevral  2013-cü il* .......................................................................................*238*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*4 fevral 2013-cü il* .........................................................................................*347*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*4 fevral 2013-cü il* .........................................................................................*348*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ IV QURULTAYININ İŞTİRAKÇILARINA

*4 fevral 2013-cü il ........................................................................................349*

BEYNƏLXALQ İDMAN ATICILIĞI FEDERASİYASININ BAŞ KATİBİ FRANTS ŞRAYBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 fevral 2013-cü il ........................................................................................351*

BOSNİYA VƏ HERSEQOVİNANIN PARLAMENT MƏCLİSİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ BOJO LYUBİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 fevral 2013-cü il ........................................................................................352*

BMT BAŞ KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ YAN KUBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 fevral 2013-cü il ........................................................................................353*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 fevral 2013-cü il ........................................................................................354*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ IV QURULTAYINDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞ

*6 fevral 2013-cü il ........................................................................................355*

XORVATİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ANTE KOTROMANOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 fevral 2013-cü il ........................................................................................358*

QEYDLƏR........................................................................................................ *359*

Şəxsi adlar göstəricisi ......................................................................................

Coğrafi adlar göstəricisi ....................................................................................

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.